# Generalın oğlu tutuldu, bəs sabiq deputatın oğlu?


Elton Məmmədov

**General Novruzəli Orucovun oğluna görə işdən qovulması məmur övladlarının törətdikləri cinayətləri bir daha gündəmə gətirib. N.Orucovun oğlu Rüstəm Orucov ölümlə nəticələnən avtoqəza törətsə də, şərti azadlıqdan məhrum olunub. Buna baxmayaraq, məmur oğlu növbəti cinayəti törətməkdən çəkinməyib. Başının dəstəsi ilə avtobus sürücüsünü 8 dayanacaq təqib edib, sürücünü huşu itənə qədər döyüblər. Sürücü hələ də xəstəxanadadır. Buna görə də R.Orucovun barəsində həbs qərarı verilib, atası işdən çıxarılıb.**

N.Orucov övladına görə işdən qovulan ilk məmur deyil. Amma cəmiyyətə qarşı açıq hörmətsizlik edən, cinayət sifarişi verən məmur övladları da var ki, istintaqdan kənar qalmağı bacara biliblər və bu günə qədər də əməllərinə görə adekvat cəza almayıblar.

2014-cü il aprelin 25-də "Yeni Müsavat"ın reportyoru Fərahim İlqaroğlu yaşadığı binanın girəcəyində döyüldü. Sonradan jurnalisti döyən Feyruz Termişi saxlanıldı. Ona bu təlimatı verən Kik-Boksinq Federasiyasında çalışan Tural Bayramov tutulmadı. T.Bayramov o dövrdə nəqliyyat naziri olan Ziya Məmmədovun yaxınlarının "silləvuranı" kimi tanınırdı. İstintaq araşdırmaları gedişində aydın oldu ki, Fərahim İlqaroğlunun döyülməsi sifarişini Tural Bayramova o dövrdə deputat olan Z.Məmmədovun qardaşı Elton Məmmədovun oğlu Aynar Məmmədov verib. Sifarişin verilməsini şərtləndirən isə jurnalistin A.Məmmədovun avtoxuliqanlığını ictimailəşdirməsi, özünün sosial şəbəkədəki profili üzərindən yayması olub. A.Məmmədov avtoxuliqanlığını gizlətmək üçün jurnalistin qanuni peşə fəaliyyətinə görə döyülməsini sifariş etmişdi. Həmin dövrdə bu məlumatlar ictimailəşdirilsə də, E.Məmmədov mandatından olmadı, oğlu avtoxuliqanlığına görə jurnalisti döyməsini sifariş etməsinə görə məsuliyyətə cəlb olunmadı. Həmin dövrdə bu, Məmmədov klanının güclü olması ilə izah olunurdu. İndi isə Məmmədovların mövqeləri zəiflədilib və A.Məmmədovun jurnalistə qarşı cinayətinin araşdırılması məqamıdır.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Türkiyədə fövqəladə vəziyyət rejimi nə vaxt aradan qaldırılacaq?



**Terrorla mübarizəyə ehtiyac qalmadıqda ölkədə fövqəladə vəziyyət rejimi aradan qaldırılacaq.**

"Trend"in məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Dövlət başçısı qeyd edib ki, Fəthullah Gülən hərəkatı və PKK ilə mübarizədə önəmli bir məsafə qət edildi: "Yəni fövqəladə vəziyyət rejimi çox da uzaq olmayan bir gələcəkdə ləğv edilə bilər".

Qeyd edək ki, Türkiyədə fövqəladə vəziyyət ötən il iyulun 15-də dövlət çevrilişinə cəhddən sonra üç ay müddətinə tətbiq edilib və sonradan bir neçə dəfə uzadılıb.

# Rusiyada tonlarla Azərbaycan pomidoru satışdan yığışdırıldı



**Rusiyada 16,193 ton Azərbaycan pomidoru satışından yığışdırılıb.**

Virtualaz.org Rusiya KİV-inə istinadən bildirir ki, bu barədə Baytarlıq və Fitosanitar Nəzarəti Federal Xidmətinin Kurqansk vilayəti üzrə idarəsindən məlumat verilib.

Məlumatda bildirilir ki, Azərbaycan Respublikasından gətirilən tərəvəzlərdə zərərverici - Cənubi Amerika güvəsi aşkar edilib.

Federal Xidmət region ərazisində zərərvericilərə yoluxmuş məhsulun satışını qadağan edib. Sahibkarlara təlimat verilib ki, pomidorları dezinfeksiya etsinlər.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Lapşinin məhkəmə istintaqı başa çatıb



**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycanda həbsdə olan blogger Aleksandr Lapşinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən iclasda şahid qismində ekspert Almaz Bayramova ifadə verib. O, A. Lapşinin yazıları ilə bağlı tərtib etdiyi rəyi təsdiqləyib. A. Lapşinin vəkili Eduard Çerninin suallarını cavablandıran şahid bildirib ki, A. Lapşin yazılarında Azərbaycanın ərazi bütövlüyünə qarşı çağırışlar edib: "Məsələn, yazısında göstərib ki, "Ermənistan hardadırsa, Qarabağ da ordadır". Qarabağın adını "Artsax" kimi qeyd edib".

**A.Lapşin şahidə suallar verib:** "Mən yazımda göstərmişəm ki, Qarabağda Azərbaycana məxsus yüksəkliklərə Ermənistan nəzarət edir. Bəs siz nə üçün bu yazıma da rəy verməmisiniz?"

Ekspert belə bir yazıya rast gəlmədiyini deyib.

A.Lapşinin vəkili vəsatətlə çıxış edərək, məhkəmədə dindirilən şahidlərin yalnız internet üzərindən hadisəyə istinad etməsinin məqbul sayılmadığını və şahidlərin ifadələrinin sübutlar siyahısından çıxarılmasını istəyib.

Hakimlər Kollegiyası bu vəsatətə müşavirə otağında qərar elan edilərkən baxılacağını deyib və vəsatəti bu səbəbdən təmin etməyib.

Prosesdə məhkəmə istintaqının başa çatdığı elan olunub.

Prokuror çıxış üçün məhkəmədən vaxt istəyib.

Proses iyulun 14-də davam etdiriləcək.

Qeyd edək ki, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan A. Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi əsasında təqsirləndirilən şəxs qismində cəlb edilərək beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya edilib.

A.Lapşin Cinayət Məcəlləsinin 281.2 (dövlətə qarşı açıq çağırışlar) və 318.2 (sərhədi qanunsuz keçmək) maddələri üzrə ittiham olunur.



# Rayonlarda şimşək çaxacaq, yağış yağacaq

**İyulun 13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, şimal-şərq küləyi əsəcək.

Havanın temperaturunun yarımadada gecə 21-24° isti, gündüz 29-34° isti, Bakıda gecə 22-24° isti, gündüz 31-33° isti olacağı gözlənilir.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 21-22°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 22-23°, Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən, dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 20-25° isti, gündüz 32-37° isti, dağlarda gecə 12-17° isti, gündüz 20-25° isti olacaq.

# Vergilər Nazirliyində beş sahibkar barəsində həbs-qətimkan tədbiri seçildi




**2017-ci ilin I yarısında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 139 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 7 milyon 806,5 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.**

Nazirlikdən APA-ya verilən məlumata görə, 38 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilib.

Departamentin İstintaq idarəsində 254 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 5 nəfər təqsirləndirilən şəxs barəsində həbs-qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 65 iş üzrə 75 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 13 nəfər şəxs tutularaq departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 129 şəxsin məcburi qaydada gətirilməsi, 172 şəxsin tapılaraq istintaqa gəlmələri, 190 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 82 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlmələri təmin olunub.

# Azərbaycanda 3 nəfər zəhərlənmədən ölüb

**Bu ilin 6 ayında 188 zəhərlənmə hadisəsi qeydə alınıb. Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən virtualaz.org saytına verilən məlumatda deyilir ki, zəhərlənmə nəticəsində 3 nəfər dünyasını dəyişib.**

İlin birinci yarısında 285 nəfər zəhərlənib. 21 botulizm hadisəsi baş verib. İyun ayında 24 zəhərlənmə qeydə alınıb, nəticədə 31 nəfər zərər çəkib.

Qeyd edək ki, zəhərlənmələrin ən ağır forması insan ölümünə səbəb olan botulizmdır. Oksigen olmayan şəraitdə botulotoksin əmələ gəlir və insanda botulizm adlı xəstəlik baş verir. Zəhərlənmələrin əksəriyyəti evdə hazırlanan qidalardan baş verib.



# Pirallahıda şpris istehsal edən zavod tikiləcək

**Pirallahı Sənaye Parkının yeni rezidenti - "Diamed Co" MMC tərəfindən burada qabaqcıl Avropa ölkələri, eləcə də Yaponiya və Koreya texnologiyaları əsasında ildə 55-58 milyon ədəd müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı nəzərdə tutulur.**

İqtisadiyyat Nazirliyi bildirir ki, zavodda şpris istehsalı zamanı yerli və xarici xammaldan istifadə edilməsi planlaşdırılır.

Zavod tam gücü ilə işə düşdükdən sonra Azərbaycanda əczaçılıq sənayesinin inkişafında əhəmiyyətli rol oynamaqla, daxili tələbat yerli istehsal hesabına keyfiyyətli birdəfəlik şprislə təmin edəcək, bu məhsullara idxaldan asılılığı azaldacaq və ixrac potensialını artıracaq.

Müasir avadanlıqlar və texnologiyalarla təchiz ediləcək zavodda 50 yeni iş yeri açılacaq.

# Erməni əsgəri Azərbaycan əsgərinə məktub yazdı

**Ekspress nəşri erməni ordusunun müddətli hərbi qulluqçusunun Gürcüstanda tanış olduğu dostuna - Azərbaycan əsgərinə ünvanlanmış məktubunu dərc edib.**

Virtualaz.org-un Ermənistan bürosu bildirir ki, məktubda deyilir: "Məni orduya çağırdılar və iki il mən də nifrət oyadan yerdə olacağam. Biz ölkələrimizin münaqişəsi haqqında çox danışırdıq və səndə bütün bunlara mənim baxışlarım haqda ümumi fikir var. Beləliklə, sənə yazıram ki, xatırlayasan. Bir çox millətçilərin, nasistlərin, psevdopatriotların və başqalarının içərisində həmçinin mən də xidmət edirəm. Və sən erməni milləti (dolaşıq yazılıb-red.) və erməni ordusu haqqında nə eşitsən də, bil ki, mən də oradayam. Böyük nifrətlə və seçim haqqı əlindən alınmış vəziyyətdə".

Hərbçinin qeyd etdiyi kimi, ona təskinlik verən yeganə məqam odur ki, iki ildən sonra azad olacaq və onda üzərində "boynuna dolanmış heç bir borc" qalmayacaq.

"Uğurlar sənə, qardaş və bil - bizim kimiləri az deyil!" - deyə erməni əsgəri azərbaycanlıya yazdığı müraciətini tamamlayıb.

# Britaniyanın neft servis şirkəti Azərbaycanı tərk edir

**Böyük Britaniyanın "Petrowell" neft servis şirkətinin filialı "Petrowell Caspian LTD" Azərbaycandakı nümayəndəliyinin bağlanması barədə elan edib.**

"Trend"in məlumatına görə, şirkətin kreditorları öz tələblərini növbəti iki ay ərzində Bakı, M.Muxtarov küçəsi 203A, 37 ünvanına irəli sürə bilərlər.

Qeyd edək ki, "Petrowell" şirkəti müxtəlif neft-qaz avadanlığının layihələndirilməsi, hazırlanması, istehsalı və sınaqdan keçirilməsi sahəsində ixtisaslaşır.



# Ölkənin danışdığı hadisə - oğlu generalı necə rüsvay etdi

## Prezident məmurlara yenidən xəbərdarlıq etdi; **işdən qovulan general:** "Mən özümdən başqa heç kimdə günah görmürəm"

**Avtobus sürücüsünə hücum edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini (artıq sabiq müavin - red.) Novruzəli Orucovun oğlu Rüstəm Orucov həbs edilib, Novruzəli Orucov isə prezidentin sərəncamı ilə vəzifəsindən azad edilib.**

Baş Prokurorluq generalın oğlunun həbs edilməsi ilə bağlı açıqlamasında bildirib ki, 2017-ci il iyulun 3-də Bakı şəhər sakini Rüstəm Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu 8 dayanacaq təqib edərək sərnişinlərin narahatçılığına və insanlarda vahiməyə səbəb olub, vətəndaşların gözü qarşısında bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib. Baş Prokurorluğun məlumatında həmçinin qeyd edilir ki, Rüstəm Orucov piyadanın ölümünə səbəb olan yol nəqliyyat hadisəsi törədib hadisə yerindən qaçdığına görə hələ 2014-cü ildə 4 il müddətinə azadlıqdan məhrum olub, 2016-cı ildə isə şərti olaraq vaxtından əvvəl azad edilib. Yuxarıda qeyd olunmuş xuliqanlıq hadisəsi də məhz onun şərti azadlıqda olduğu dövrdə baş verib. Faktla bağlı 2017-ci il 4 iyul tarixdə Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb. Rüstəm Orucov həmin maddə ilə ittiham olunaraq barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

İyulun 11-də isə prezident İlham Əliyev general-mayor Novruzəli Orucovun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.




Ölkə prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iyulun 12-də keçirilən iclasında bir daha məmurlara xəbərdarlıq edib.

Prezident deyib ki, dövlət məmurları və onların ailə üzvləri davranış normalarına ciddi əməl etməlidirlər.

Dövlət başçısı xalqa xidmət, təvazökarlıq, təkəbbürlü davranmamaq prinsiplərinin dövlət məmurlarının əsas həyat və fəaliyyət normasına çevrilməsinin zəruriliyini vurğulayıb. Prezident bu məsələdə heç kimə güzəşt olunmadığını və bundan hamının nəticə çıxarmalı olduğunu bildirib.

Yada salaq ki, bundan əvvəl "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin keçmiş sədr müavini Mübariz Mədətov oğlunun "qurbanına" çevrilib. Belə ki, M.Mədətovun oğlu Xalid Mədət xalq artisti, məşhur tarzən Ağasəlim Abdullayevin həyat yoldaşı və nəvəsinin ölümünə səbəb olan nəqliyyat qəzası törədib. Bahalı "Mercedes-Benz G-55" avtomobilini həddən artıq sürətlə idarə etdiyi üçün sözügedən şəxslərin həyatına son qoymuşdu. Nəticədə X.Mədətovun özü həbs edildi, atası isə vəzifəsindən azad olundu.

Sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov da bir neçə il öncə vəzifəsini oğlunun İsmayıllıda sakinlərlə kobud davranışı və rayonda gərginliyə səbəb olma üzündən vəzifəsini itirməli olmuşdu. Nazirin İsmayıllının o zamankı icra bağçısı olan qardaşı da bu olaydan sonra vəzifədən kənarlaşdırılmışdı.

Zığ şossesində avtoxuliqanlıq etdiyi haqda məlumat yayılan polis əməkdaşı Tural Həsənovun atası, Dövlət Gömrük Komitəsinin Yevlax Gömrük İdarəsinin rəisi Əlimәmməd Həsənov da övladının ictimai yerdə qaydaları kobudcasına pozduğuna, qanunlara hörmət etmədiyinə görə tutduğu vəzifədən azad edilib. T. Həsənovun özü də polis orqanlarından da xaric olunub.

Hələlik isə ən son Novruzəli Orucovun vəzifəsinə övladı baiskar oldu.

Bu hadisənin sonuncu olması üçün nə olmalıdır?

**Deputat Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ölkə prezidenti bundan öncə də övladları qanun-qaydanı nəzərə almayan bir neçə yüksək vəzifəli məmuru işdən azad edib. Bu addım da bir ciddi xəbərdarlıqdır:** "Məmur övladları sadə insanlardan daha çox məsuliyyətli olmalıdırlar, harınlıq etməməlidirlər. Bilməlidirlər ki, harınlıq etmələri sonda həm özlərini, həm atalarını zərbə altında qoyacaq. Çoxlu vəsaitin olması o demək deyil ki, qanunları tapdalamalısan, özündən kasıb insanları əzməlisən. Heç kimin hüququnu pozmağa heç kimin ixtiyarı yoxdur. Məmur övladları başqalarına müsbət nümunə olmalıdır. Mən general Novruzəli Orucovun müsahibəsini oxuyanda ona yazığım gəldi ki, övladı onu gətirdi hansı duruma saldı. Dövlət vəzifəsi daşıyan valideynlər bu məsələdə daha məsuliyyətli olmalıdırlar. Vəzifəli şəxslər bilməlidirlər ki, övladlarına aşırı dərəcədə sərbəstlik verməmləri, aşırı dərəcədə vəsait ayırmaları gec-tez onların özlərinin başağrısına çevriləcək. Əziyyətsiz əldə edilən böyük vəsaitlər onlarda harınlıq yaradır. Valideynləri onların baş ağrısına çevriləcək bu cür övladlarına nəzarəti gücləndirməlidirlər. Övlad da başa düşməlidir ki, atası vəzifədədirsə, özünü daha məsuliyyətli, tərbiyəli aparmalıdır".

**Deputat Zahid Oruc isə prezidentin qərarını dürüst məmur obrazının formalaşdırılması üçün prezidentin uzun illər həyata keçirdiyi xəttin növbəti həlqəsi adlandırıb:** "Ötən on illər ərzində cənab prezident komanda üzvlərinə qarşı təvazökarlıq, xalq qarşısında hesabatlılıq, hər bir hərəkətlərinin ölçülü-biçili səviyyədə aparılması kimi keyfiyyətləri tələb edib. Bəziləri isə nəticə çıxarmayıblar. Düşünürəm ki, belə qanunsuzluqlara, səhvlərə yol verən hər hansı şəxsin özü, yaxud ailə üzvünün davranışına göstərilən reaksiya, həm cəmiyyətin rəyini, həm də komanda üzvlərinin hər birinin yaxın çevrəsinə nümunəvi təsir göstərən, onları hüququn çərçivəsinə alan tədbirlərdir. Biz başa düşməliyik ki, vəzifə məsuliyyət deməkdir. Biz vəzifəni prestij, yaxud özünü başqalarından fərqləndirmək, onun üzərində dominantlıq təşkil etmək, imkanlarının qabarıq nümayişinə çevirməməliyik. Dövlət başçısı bir daha sübut etdi ki, o, hər kəsə bu kriteriyadan yanaşır. Prezidentin son qərarı hər birimizin ürəyindən xəbər verir və hamımız üçün bir siqnaldır".

**Novruzəli Orucov isə oğlunun törətdiyi cinayətə görə özünü günahkar sayır. Bu barədə o, dünən yenicag.az-a açıqlamasında belə deyib. N.Orucov bildirib ki, prezident onu daha əvvəl işdən çıxartmalı idi:** "Hadisədir baş verib, mübahisə yaranıb və sonu da belə olub. Bu məsələdə vəzifəli şəxs kimi mənim də səhvim çox böyük olub, uşağı başlı-başına buraxmışam. Başlı-başına deyəndə ki... Mən özüm atasız böyümüşəm, istəməmişəm ki, uşaqlarım da nəyinsə ehtiyacını çəksinlər. Atam Böyük Vətən müharibəsinin iştirakçısı olub, 1943-cü ildə yaralanıb gəlmişdi, onu altı yaşımda itirmişəm. Altı uşaq olmuşuq, çox ağır ailə həyatı sürmüşəm. Ancaq böyüdük, oxuduq, hamımız ali təhsil aldıq.

Deyim ki, oğlum birinci hadisəni törədəndə cənab prezident, Ali Baş Komandanım mənə çox hörmət elədi, məni o zaman işdən çıxartmalı idi. Açığı, onda özüm də işdən getməyə hazırlaşırdım. Ancaq xidmətlərim nəzərə alındı və işimə davam etməyim məsləhət oldu. Bu dəfə hadisə ilə bağlı cənab prezidentə məruzə edilib və o da qərarını verib. Mən özümdən başqa heç kimdə günah görmürəm. İki oğlum, bir qızım var. Bu, mənim sonbeşiyimdir, bir az ərköyün böyütdük. İdmançı uşaqdır, 1200 metrdən paraşütdən tullanmaq üzrə dünya rekordçusudur.

Bir ata kimi, bir general kimi bütün valideynlərə səslənirəm, yeri gələndə övladlarını sıxsınlar, xüsusilə oğlan uşaqlarına lap bir sillə vursunlar ki, onlar pis hərəkətlər etməsinlər".

❑ Etibar SEYİDAĞA

## "Qarabağ"la oyunda baş verənlərlə bağlı DİN-dən açıqlama

**Bəzi KİV-lərdə iyulun 11-də Bakıda keçirilən "Qarabağ" - "Samtredia" matçı öncəsi bir qrup azarkeşin ermənilərin qətlə yetirdikləri 2 yaşlı Zəhra haqqında hazırladıqları pankartı polis əməkdaşlarının stadiona buraxmadıqları və buna görə də həmin azarkeş qrupunun üzvlərinin matçı tərk etməsi barədə xəbər yayılıb.**

İddiaların doğru olub-olmadığını öyrənmək üçün DİN-in mətbuat xidməti ilə əlaqə saxladıq.

Mətbuat xidmətinin şöbə rəisi **İlham Babayev** musavat.com-a bildirib ki, belə bir fakt qeydə alınıb: "Əvvəla, onu deyim ki, öz xalqına və dövlətinə sədaqətlə xidmət edən Azərbaycan polisi 2 yaşlı Zəhra balamızın faciəsi ilə əlaqədar olan ümumxalq kədəri, düşmənə nifrəti ürəkdən bölüşür. Lakin dünən bu faciədən öz çirkin siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstərən ünsürlərə rast gəldik. Belə ki, futbol matçı öncəsi stadionda və ətrafında ictimai asayişə və ictimai təhlükəsizliyə nəzarəti həyata keçirən polis əməkdaşları qeyd edilən pankartla yanaşı, digər siyasi məzmunlu şüar və plakatları da daşıyan bəzi dırnaqarası azarkeşlərin stadiona daxil olmalarının qarşısını alıblar. Bu zaman məlum olub ki, belə şüarların əksəriyyəti Azərbaycanı istəməyən bəzi xarici kəşfiyyat orqanlarının həbsdə olan nökərlərinin azadlığa buraxılmasını tələb edən siyasi məzmun daşıyır. Deməli, bu ünsürlər 2 yaşlı günahsız Zəhra balamızın faciəsindən sui-istifadə edərək öz çirkin məqsədlərini həyata keçirməyə cəhd edirlərmiş".

**İ.Babayevin sözlərinə görə, bundan əlavə, ölkəmizin də üzv olduğu Avropa Konvensiyası, eləcə də "Bədən tərbiyəsi və idman haqqında" Qanun kütləvi oyunlar, futbol matçları zamanı idmana aid olmayan pankartların, şüarların stadiona keçirilməsini qadağan edir:** "Belə hal qeydə alınarsa, ev sahibi olan kluba, idman təşkilatına beynəlxalq sanksiyalar tətbiq olunur və yarışlardan kənarlaşdırılmaya qədər cəzalandırıla bilər".

**Mətbuat xidmətinin şöbə rəisi deyib:** "Ona görə də bir qrup dırnaqarası azarkeşin polis əməkdaşlarının bu hərəkətini qınaması ədalətsizlikdir. Əksinə, asayiş keşikçilərimiz düşmən tərəfindən qətlə yetirilən məsum körpənin faciəsindən yararlanaraq idmanla heç bir əlaqəsi olmayan öz siyasi məqsədlərinə çatmaq istəyənlərin və bununla da dövlətimiz, idmanımız haqqında beynəlxalq arenada mənfi fikir formalaşdırmağa uğursuz cəhd edənlərin qarşısını alıblar. Azarkeş "fan-klub" adından sui-istifadə edən beləlrəi birdəfəlik bilməlidirlər ki, bundan sonra da siyasi məqsədlər üçün heç kimə bu cür hərəkətləri təkrarlamağa imkan verilməyəcək".

❑ Musavat.com



## General oğlunun döydüyü sürücü...

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini, Həqiqi hərbi xidmətə çağırış baş idarəsinin rəisi Novruzəli Orucov tutduğu vəzifədən azad olunub.**

Yenicag.az xəbər verir ki, general-mayorun işindən azad olunmasına səbəb olan oğlu Rüstəm Orucovun xuliqanlıq əməlinə görə həbs olunmasıdır.

O, "Xaliq Faiqoğlu" MMC-yə məxsus 85 saylı marşrutun sürücüsünü döyməkdə təqsirli bilinir. Hadisə zamanı zərərçəkən sürücü Səmədov Sənan Mehman oğlunun fotosunu təqdim edirik.

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Rüfət Aslanlının “aslan” maaşı gündəmdə

## Natiq Cəfərli: “Təkzibin normal şəkildə verilməməsi şübhələr yaradır”

**Maliyyə Bazarlarına Nəzarət Palatası rəhbərliyinin əməkhaqları ilə bağlı sensasion məlumat dərc edilib. İki gündür mediada və sosial şəbəkələrdə ciddi müzakirə mövzusuna çevrilən bu məlumatda iddia edilir ki, Palatanın Direktorlar Şurasının sədri Rüfət Aslanlı ayda 65 min manat, müavinlərinin hər biri 38000, icraçı direktor 18000, departament direktorları 10000, sıravi işçilər isə 800-1500 manat rəsmi məvacib alırlar.**

Təkcə Rüfət Aslanlı və 2 müavininin əməkhaqlarının ödənilməsinə ildə 2 milyon manat vəsait sərf edildiyi qeyd edilir.

Qeyd edək ki, Rüfət Aslanlının iddia edilən maaşı prezident İlham Əliyevin maaşından 4 dəfə, ölkədəki orta aylıq əməkhaqqından 130, orta aylıq pensiyadan 325 dəfə çoxdur.

**Modern.az bu iddialarla bağlı Maliyyə Bazarlarına Nəzarət Palatasından cavab almağa çalışıb. Palata sorğuya cavab olaraq yayılmış məlumatları təkzib edib:** “Bu cür məlumatlar həqiqətə uyğun olmadığından şərhə ehtiyac görmürük. Bunun həqiqət olmasına inanmaq özü sadəlövhlükdür”.

İki gün boyunca mediada və ictimai müzakirələrdə geniş rezonans doğuran bu xəbər təkzib olunsa da, yenə də onun mənbəyi maraq mövzusu olaraq qalır. Bu rəqəm havadanmı götürülmüşdü? Bunu yayan sayt kimə və hansı mənbəyə istinad edirdi? Yenə yazdıqları xəbərin arxasında dayanırlarmı?

**Xəbəri yayan moderator.az saytının baş redaktoru Zülfüqar Hüseynzadə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, onlara gələn bir informasiya əsasında belə bir xəbər yayıblar. Amma müsahibimiz təkzib verildiyi üçün mövzunun da onlar üçün qapandığını dedi:** “Məsələni ictimailəşdirdik. Kaş ki, doğru olmasın. Bizim əsas missiyamız prezidentin çağırışlarına dəstək verməkdir. Bugünlərdə hətta Özbəkistan prezidenti demişdi ki, korrupsiyadan yazın. Biz bu cür məlumatı ictimailəşdirməklə həmin qurumun nüfuzuna xələl gətirmirik”.

**“Könül istərdi ki, biz yanılaq, belə şeylər olmasın” deyən müsahibimizə görə, oxucular da onlara çoxsaylı müraciətlər edir. Baş redaktorun sözlərinə görə, indi hər kəs banklara borcludur. Bu məsələ ilə bağlı müvafiq qurumlara tapşırıq verilib ki, məsələ həllini tapsın, şəffaflıq olsun:** “Banklar insanların mal-mülkünü alırlar, onları borclarına görə çox pis duruma salırlar. Amma bizim kimisə hədəfə götürmək fikrimiz yoxdur. Sadəcə, bu informasiyanı dəqiqləşdirmək imkanımız olmayıb. Dediyim kimi, təkzib yayılandan sonra isə mövzu bizim üçün qapandı”.



Rüfət Aslanlı

**İqtisadçı ekspert Natiq Cəfərli isə hesab edir ki, prinsipial, texniki və qanunvericilik baxımdan belə məvacib durumunun olması mümkündür. Müsahibimiz xatırlatdı ki, Rusiyanın dövlət orqanlarında məvaciblər milyonlarla ölçülür:** “Sadəcə, təkzibin normal şəkildə verilməməsi, ictimaiyyətə informasiyanın detallı çatdırılmaması şübhələr yaradır. Həmin qurumun rəhbərliyi bu məlumatdan sonra sakinləri qane edəcək səviyyədə açıqlama verməlidir. Dövlətin təsis etdiyi bir qurumdan söhbət gedir. Cəmiyyət orda çalışan insanların məvaciblərini bilməlidir. Bu açıqlama xatirinə açıqlama vermək şübhələri daha da artırır”.

**N.Cəfərli bir daha vurğuladı ki, səslənən rəqəmlərin gerçəyi əks etdirməsi mümkündür. Amma hansı qurumun, hansı gəlirliliyin müqabilində bunun yazılması əsas sualdır:** “Publik hüquqi şəxs olsa da, banklardan müəyyən üzvlük haqqı, faiz qazanır. Bu Palata keçən ili gəlirlə yox, zərərlə başa vurub. Yaradılışının ilk ilində zərərlə qapadıb ili. Əslində isə mən belə düşünürəm ki, dövlət idarələrində, nazirliklərdə çalışan insanlar yüksək maaş almalıdılar ki, korrupsiyanın qarşısını alsınlar. Şəffaf və açıq olmalı insanlar barədə informasiyalar da açıq olmalıdır. Nazir və məmurların həyat tərzinə baxanda məlum olur ki bu maaşla belə dəbdəbəli həyat tərzi keçirmək olmaz. Hansısa bir məmur bir imzası, qanunsuz bir əməli ilə milyonlar qazanırsa və yüksək maaşla onu bundan çəkindirmək mümkündürsə, bu, edilməlidir. Palatanın borcudur ki, ictimaiyyəti açıq şəkildə bu barədə məlumatlandırsın. Palata gəlirlər işləyirsə, top menecerlərin də yüksək məvacib alması tam mümkündür”.

❑ Sevinc TELMANQIZI

# Ali Məhkəmə “üsyankar müstəntiq”i həbsdə saxladı

## Eldar Sabiroğlu: “Oğlumun həbs qərarını qüvvədə saxlayan hakimi vaxtilə bolluca tərifləmişdim...”

**İyulun 11-də Ali Məhkəmə Zərdab Rayon Prokurorluğunun müstəntiqi vəzifəsindən istefa verdikdən sonra həbs olunan Rüfət Səfərovun kasasiya şikayətini təmin etməyib. Prosesə hakim Gülzar Rzayeva sədrlik edib. R.Səfərov məhkəmə heyətinə etiraz etməyib. Vəkillər Bəhruz Bayramov, Yalçın İmanov və Fariz Namazlı keçmiş müstəntiqin günahının olmadığını, ittihamların istintaqda və məhkəmədə sübut olunmadığını, istintaqın və məhkəmələrin qanun pozuntuları ilə keçirildiyini bildirib. Vəkillər məhkəmədən cinayət işinə xitam verilməsi və Rüfət Səfərova bəraət verilməsi barədə qərar qəbul etməsini xahiş edib.**

**Vəkil Yalçın İmanov** deyib ki, məhkəmə vəkilə və Rüfət Səfərova son çıxışa hazırlaşmaq üçün vaxt verməyib. “Hüququn əsas prinsipi belədir: ”Bir şahid şahid deyil". İstənilən adam istənilən şəxsə şər ata bilər və istədiyini deyə bilər. Rüfət Səfərova qarşı deyilən rüşvəti sübut edən hər hansı fakt yoxdur və təsdiq edilməyib".

**Vəkilin və R. Səfərovun son söz deməsi üçün birinci instansiya məhkəməsi cəmi 15 dəqiqə vaxt verib.** “Şəxsin özünü müdafiəsi üçün hazırlaşmağa cəmi 15 dəqiqə vaxt verilirsə, bu məhkəmənin sifarişi notarial qaydada təsdiqi kimi başa düşülməlidir” deyə, Y. İmanov qeyd edib.

**R.Səfərovun atası Eldar Sabiroğlu isə məhkəmə barədə sosial şəbəkədəki statusunda qeyd edib ki, bu dəfə oğlunu dəmir barmaqlıqlar arasına yox, şüşəli qəfəsin içərisinə salmışdılar. “Sanki qatı cinayətkar kimi qaçışından ehtiyat edirdilər” deyən E.Sabiroğluna görə, müttəhimin anası Tahirə xanımla bu mənzərəni seyr etmək onlara son dərəcə ağır gəlib:** “Övladım bir günahın sahibi deyil, amma həbsxanadadır. Güvəncimiz yenə Uca Rəbbimizədir. Yalnız onun ədalətinə inanır və tapınırıq. Gün gələcək ki, qaranlıqların üzərinə bir işıq düşəcək, həqiqəti, doğruları dediyinə görə 9 il müddətinə azadlıqdan məhrum edilən Rüfətin və digər günahsız həbs edilənlərin əzablı taleyi aydınlığa çıxacaq. Arzuları çoxdur Rüfətin. Allah yerdə qoymaz yəqin”.



**Oğlunun şüşəli qəfəsin içində çox məğrur göründüyünü deyən E.Sabiroğlu özünün, anasının və məhkəmədə iştirak edən dostlarının onun cəsarətli, məntiqli çıxışından qürur duyduğunu vurğulayıb:** “Bu məmləkətdə müstəntiq vəzifəsinin nə demək olduğunu hər kəs gözəl bilir. Rüfət karyeranın və komfortun, gün-güzəranın üzərindən xətti çəkib ədalətli bir ölkədə yaşamaq üçün istefa verib haqqın tərəfində durdu. Əgər rüşvəti belə sevən idisə nədən vəzifəsindən ayrılırdı? Qalıb işləyər, bir tərəfdən də o çapıb talayardı. Ancaq istefasından sonra üzünə öyrədilmiş idarə rəislərini qoyaraq onu ”içəriyə" atdılar."

**E.Sabiroğlu oğlunun həbs qərarını qüvvədə saxlayan hakim barədə də maraqlı faktlar yazıb:** “Ali Məhkəmənin hakimi Gülzar Rzayeva ədalətsiz hökmü qüvvədə saxladı. Həmin an qeyri-ixtiyari gözlərim Gülzar xanıma dikildi. Onun hakim kimi Milli Məclisdə təsdiq edildiyi anları xatırladım. O zaman rəhmətlik Murtuz Ələsgərovdan söz alaraq Gülzar xanım Rzayevanı bolluca tərif etmişdim. Bilmirəm yadında qalıb, ya yox. Xatırlasa belə, indi onun üçün yəqin ki heç bir əhəmiyyəti yoxdur.Çünki ona və onun kimilərə rəyasət lazımdır. Rəyasət! Amma vaxtilə etdiyim həmin çıxışa görə peşman deyiləm. Və etdiyim tərifləri də həmin hakim xanıma halal edirəm. Nəhayət, hakim qərarını bitirdi. Rüfətin anası Tahirə xanım isə salonda yox idi. Sən demə, ana övladına su alıb gətirmək üçün yaxınlıqdakı mağazaları gəzirmiş. O, yubandı. Gülzar xanımın oxuduğu son qərarı eşidə bilmədi. Mən isə diqqətlə izləyirdim. Hakimin çöhrəsindəki təkkəbbürlülük və özündənrazılıq hisslərindən duyğulandım və hakim ananın evə qayıtdıqdan sonra övladlarının və nəvələrinin üzünə necə baxacağını düşündüm. Bir də ki, onlar belə şeylərə öyrəşiblər. Belələrindən insaf və ədalət gözləməyin yeri və mənası varmı?! Beləliklə, 9 illik həbsə atılan Rüfətin 9-cu məhkəmə salonundakı işi də beləcə yekunlaşdı. Görək, bundan sonra Rüfəti daha hansı işgəncələr, karserin daha hansı əzab-əziyyətləri gözləyir?! ”

2016-cı il yanvarın 15-də R.Səfərov rüşvət almaq ittihamı ilə həbs olunub. Lakin yanvarın 22-də o, ev dustaqlığına buraxılıb. R.Səfərov ittihamı rədd edib və cinayət işinin sifariş olduğunu bildirib. O, ev dustaqlığı dövründə də əvvəlki fikirlərindən geri çəkilməyib, tənqidi bəyanatlarını davam etdirib.

Keçmiş müstəntiq Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 2016-cı ilin sentyabrında 9 il azadlıqdan məhrum olunub. Elə məhkəmə zalında da həbs edilib.

2016-cı il dekabrın 22-də Şirvan Apelyasiya Məhkəməsi onun şikayətini təmin etməyib.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Mətbuat orqanları çətin durumda: ixtisarlar media sektoruna da sıçradı

**Hökumətdə ciddi struktur və kadr islahatlarının aparılacağı barədə uzun müddətdir mətbuatda məlumatlar gedirdi. Hətta son olaraq, bu barədə "Yeni Müsavat" qəzetində yazı dərc olunmuşdu. Yazıda qeyd olunurdu ki, İslamiada və Formula-1 yarışlarından sonra hökumətdə neçə vaxtdır gözlənilən struktur islahatlarına başlanılacaq.**

Artıq YAP-ın icra katibinin müavini Siyavuş Novruzov da bunu APA-ya müsahibəsində təsdiq edib. S.Novruzov həm bəzi dövlət qurumlarının ləğv ediləcəyi və birləşdiriləcəyi anonsunu verib, həm də nazir müavinləri səviyyəsində kadr islahatlarının aparılacağını istisna etməyib.

Göründüyü kimi, dövlət iqtisadi vəziyyətin çətinliyini anlayaraq, kəmərsıxma əməliyyatına başlayıb. Əminliklə demək olar ki, özəl sektorda vəziyyət heç də dövlət sektorundan yaxşı deyil. Bir-birinin ardınca müəssisələrin bağlanması, işçilərin ixtisar edilməsi, şəhərdə icarəyə verilən müəssisələrin sayının artması, iri holdinqlərin belə müxtəlif xərclərini ixtisar etməsi vəziyyəti göz önünə sərir.

Biznes sektorunda ən çox çətinlik yaşayan qurumlardan biri də media qurumlarıdır. Maliyyə təminatı əsasən reklamdan olan müstəqil mətbuat orqanları artıq o imkandan da məhrumdur. Çünki reklam verən şirkətlərin də vəziyyəti ağırlaşdıqca, ilk ixtisara düşən xərclər reklam xərcləri olur. Digər tərəfdən, nağdlaşdırma ilə bağlı qoyulan məhdudiyyətlər mövcud maliyyə mənbələrinə çıxışı da qapadıb. Nəticədə media qurumları da vəziyyətdən çıxmaq üçün bir neçə pis variantdan birini seçmək məcburiyyətində qalırlar.

Bəs görəsən, hazırda hansı media qurumları bu çətinliyi real olaraq yaşayır və onlar vəziyyətdən çıxış yolu kimi nələr etməyə başlayıblar?

**"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu sualımıza cavab olaraq bildirdi ki, son günlər məhz nağdlaşdırma ilə bağlı yaşanan maddi çətinliklər səbəbindən qəzetin aylıq 4 nömrəsi ixtisar olunub:** "Azərbaycanın biznes sektorunda vəziyyət olduqca gərgindir. Media sektorunda da bu gərginlik özünü göstərməkdədir. Artıq yarım ildən yuxarıdır ki, biz ekstremal vəziyyətdə işləyirik. Hesabdan nağdlaşdırılmanın məhdudlaşdırılması ilə bu vəziyyət daha kritik həddə çatıb. Üstəlik, məhz bu qərardan sonra bizim bir sıra reklam verənlərimiz, təxminən 4-ə yaxın hüquqi şəxs bizi tərk edib. Yerdə qalan 3 çox ciddi firmaya məxsus reklam verənimiz isə bir neçə aydır ki, pulları ödəyə bilmir. Belə bir vəziyyət bizim üçün kritik situasiya yaradıb. Ancaq biz çətin anlarda dostlarımızı, əməkdaşlarımızı kənara atmaq taktikası ilə vəziyyətdən çıxmağa üstünlük vermədik. Bu dəfə də qəzetin dövriliyini azaltmaq və dövrilikdən kəsmək qərarını verdik. Biznes qanunlarına görə, kəsilən pulların əvəzində 3 və ya 4 əməkdaşımızı ixtisar etməli idik. Biz bu yolu yox, qəzetin dövriliyini ayda 4 dəfə aşağı salmaqla kağızın, qəzet kağızı üçün olan dəmir lövhələrin və çap pulunun qənaəti hesabına qarşıdakı iki ayda vəziyyətdən çıxmağı yoxlayacağıq. Ümid edirik ki, bu vəziyyətdən çıxa biləcəyik".

**Media kapitanı bildirdi ki, əgər mövcud durumdan çıxmaq mümkün olmasa, qarşıda Azərbaycan mətbuatını, özəlliklə yazılı mətbuatı heç də yaxşı nəticələr gözləmir:** "Biz bu barədə dövlət yetkililəri ilə də danışırıq. Onlarla da yazışmalar aparırıq. Mətbuat günü yaxınlaşır. Vəziyyət bu qədər çətin olsa, mən həmin gün ərəfəsində ölkə rəhbərliyinə, prezident İlham Əliyevə müraciət edəcəyəm. Bildiyiniz kimi, prezident İlham Əliyev yazılı mətbuatın qorunması üçün əlindən gələni edir. O, bir fond yaradıb, həmin fond ildə 120 min manat vəsaitlə 33 qəzetə kömək edir. Ancaq bu, kifayət deyil. Çünki qəzet kağızının qiyməti həddindən artıq qalxıb. Kağıza əlavə dəyər vergisi də qoyulub ki, bu da ayda "Yeni Müsavat"ın xərclərini 400-500 dollar artırır. Belə olan halda, biz vəziyyətdən çıxış yolu üçün, ölkədə yazılı mətbuatın tamamilə sıradan çıxmaması üçün prezidentə müraciət etmək məcburiyyətində qalacağıq".

**"APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, rəhbərlik etdiyi qurumun idarəetmə siyasəti optimal, daha az, lakin peşəkar kollektivlə işləmək, daha yüksək nəticəyə nail olmaqdır:** "Bizim şirkətin strukturlarında əlavə ştat vahidi saxlanılmır. Ona görə də ixtisar etməkdənsə, əlavə xərcləri azaltmaq, şirkət olaraq daha çox marketinq, piar işi qurmaq, daha çox reklam cəlb etməklə qazanc əldə etmək və xərcləri optimallaşdırmaq barədə qərar qəbul etmişik. Artıq iki ilə yaxındır ki, bu cür də davam edirik".

**"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev də mətbuatın xüsusilə yay aylarında maliyyə çətinliyi yaşamasını gizlətmədi:** "KİVDF-nin mətbuata və mediaya dəstəyinin başladığı 2009-cu ildən bu yana iqtisadi çətinliklərimiz xeyli dərəcədə aradan qaldırılsa da, tam şəkildə həllini tapmadı. Sözsüz ki, əvvəlki dövrlərlə müqayisədə xeyli dərəcədə az olsa da, var. Xüsusilə də yay aylarında bu çətinliklərin yeni təzahürləri meydana çıxır. Çünki yayda həm cəmiyyətdə yaşanan durğunluq mətbuata təsir edir, həm də qəzetlərə, informasiya qurumlarına ictimai maraq zəifləyir. Bunun nəticəsi olaraq qəzetlərin maddi durumunda fərq özünü göstərir. Maddi çətinliklərimiz az da olsa var, lakin mən bunlara müvəqqəti hal kimi baxıram. Çünki hər il yay aylarında vəziyyət belə olur. Ümid edirəm ki, yaxın aylarda, sentyabr-oktyabr aylarında bu çətinlikləri xeyli dərəcədə aradan qaldıra biləcəyik. Ancaq mən heç bir halda bu çətinliklərdən çıxmağın ağırlığını kollektivdə ixtisarlar aparmaq və ya qonorarı, əmək haqlarını aşağı salmağın hesabına həll etməmişəm. Bu il də həmin yolla getməyəcəyik. Çalışacağıq ki, işçilərin sayını da qoruyaq və əmək haqlarını da əvvəlki səviyyədə saxlayaq. Başqa bəzi xərclərimizi azaltmaqla bu yay dövrünün durğunluğundan çıxmağa çalışacağıq".



**Rauf Arifoğlu:** "Yarım ildən çoxdur ki, ekstremal vəziyyətdə işləyirik"



**Vüsalə Mahirqızı:** "Hədəfimiz daha az, lakin peşəkar kollektivlə işləyib yüksək nəticəyə nail olmaqdır"



**Aydın Quliyev:** "Bəzi xərclərimizi azaltmaqla durğunluqdan çıxmağa çalışacağıq"

❑ Nərgiz LİFTİYEVA

# Rusiyanın fiaskosu və ya Hamburq niyə Yalta olmadı?



**Hüseynbala SƏLİMOV**

**Sanki bu görüş büsbütün dünyanı dəyişəcək və Rusiyanın geosiyasi ambisiyalarını tamam sənədləşdirəcək, onlara siyasi mandat verəcəkdi. Amma bunların heç biri olmadı.**

İndi rusiyalı təhlilçilər arasında məyusluq var, çünki ikinci Yalta konfransı alınmadı. Hərçənd, Hamburq görüşü ərəfəsində onların çoxu Rusiya ilə ABŞ arasında ikinci Yalta konfransına bənzər anlaşmanın baş tutacağına ümid edirdi.

Yada salım ki, Yalta konfransı 1945-ci ildə olmuşdu və müharibədən sonrakı dünyanın ABŞ, SSRİ, İngiltərə arasında bölüşdürülməsilə başa çatmışdı. İndilik isə demək olar ki, nəhayət, ABŞ və Rusiya prezidentləri görüşə bildilər. Daha realistlər irəlicədən düşünürdülər ki, ən yaxşı halda yalnız Suriya məsələsində hansısa irəliləyiş ola bilər. Başqa məsələlər isə yalnız "zond" xarakteri daşıyacaq və tərəflər ayrı-ayrı məqamlarla bağlı bir-birinin mövqeyini öyrənməyə cəhd edəcək.

Belə pessimist proqnozlar boş yerdən qaynaqlanmırdı. Donald Tramp ABŞ cəmiyyətinin və müvafiq strukturlarının ciddi nəzarəti altındadır. Onun kiçik güzəşti belə öz ətrafındakı şübhə atmosferini bir az da tündləşdirə bilərdi.

Amma təbii bir sual yaranır. Sonra nə olacaq? Vaxtilə politoloq Z.Bjezinski dünyada beş geosiyasi mərkəz-qütb müəyyənləşdirmişdi. Onlardan dördü dünya xəritəsində oturuşub. Bunlar ABŞ, Avropa, Rusiya və Çindir. Ən maraqlısı odur ki, təkcə ABŞ-la Rusiya arasında deyil, elə ABŞ-la Çin və yaxud ABŞ-la Avropa arasında da müəyyən "sürtünmə" duyulur və bu, özünü Hamburq ərəfəsində də büruzə verdi.

Görüş ərəfəsində ABŞ-la Avropa arasında müəyyən qədər söz "atışması" oldu, Çinlə Rusiya rəhbərləri isə özlərinin 22-ci görüşlərini keçirdilər. Maraqlı tərəfi budur ki, Avropanı da, Çini də müəyyən mənada ABŞ siyasətinin "körpə"ləri adlandırmaq mümkündür.

Düzdür, vahid Avropa ideyasının çox böyük tarixi var - ən azı, gedib Napoleon dövrünə çıxır. Amma bu ideyanın gerçək xarakter alması, onun institusional mahiyyət tapması üçün ABŞ çox böyük töhfə verib. Çini isə ABŞ üçün vaxtilə sabiq dövlət katibi H.Kissincer kəşf etmişdi. Amma indi bu iki ünvan - Avropa və Çin müstəqil geosiyasi vahidlər kimi çıxış edirlər.

Bütün bunlar o deməkdir ki, ən azı bir müddət çoxqütblü dünya modeli üstünlük təşkil edəcək. Bu isə özündə müəyyən qədər qeyri-müəyyənlik və hətta bir az xaos da ehtiva edir. Amma nə etmək olar? Böyük hesabla birinci "soyuq müharibə"nin müəyyənliyi artıq keçmişdə qalıb. Bunun da səbəbləri var.

Əsas budur ki, məsələn, hətta Rusiyaya qarşı belə, "vahid cəbhə" yaratmaq mümkün deyil, çünki böyük geosiyasi ambisiyaları olsa da, daha Rusiya əvvəlki dövrlərdə olduğu kimi, qlobal siyasi və ya iqtisadi çağırışları daşımır özündə. Bəs onda nəyə ümid etmək qalır?

Yalnız bir sıra ədədlər müəyyən təskinlik verir. Məsələn, ABŞ-ın təkcə hərbi büdcəsi Rusiyanın total büdcəsindən iki dəfə və NATO-nun illik büdcəsi Rusiyanın hərbi büdcəsindən 15 dəfə böyükdür. Deməli, növbəti silahlanma yarışı olarsa, kimin irəli, kimin geri gedəcəyi elə bir tapmaca deyil.

İndi Rusiya iqtisadiyyatı planlı dövlət iqtisadiyyatı deyil, di gəl, o, yenə də rəqabət qabiliyyəti olmayan iqtisadiyyatdır və hətta ən patriotik rus iqtisadçıları belə, Rusiyanın sıçrayış edərək texnoloji cəhətdən inkişaf etmiş ölkələr sırasına qalxacağına inanmırlar.

Elə ona görə də söz yenə əlahəzrət iqtisadiyyatındır, əsl dünya liderini yenə də o, müəyyən edəcək - gec və ya tez...

Dünyadakı geosiyasi proseslərə baxanda da geoiqtisadi çalarlar heç də az nəzərə çarpmır. Dünyada nüfuz üstündə, enerji və tranzit imkanları uğrunda savaş gedir. Heç kimin də əslində güzəşt etmək fikri yoxdur.

Trampın hakimiyyətə gəlişi ərəfəsində elə hey bir sual verirdim: görən, ABŞ siyasəti nə qədər personifikasiya olunub, o, bir siyasi liderin siyasi simpatiya və antipatiyalarından nə qədər asılıdır?

İndi görürəm ki, ABŞ-da da siyasət daha çox institusional xarakter daşıyır və "Amerika arzusu" kimi elə "Amerika siyasət maşını" da real məzmuna malik məsələdir. Ona görə bir daha deyirəm ki, Rusiyanı böyük məyusluq gözləyir. Prinsipcə, dünyanın yenidən bölüşdürülməsi baş verə bilər, amma bundan əvvəl daha bir "soyuq müharibə" olmalıdır...

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

## “Bu, ABŞ-ın enerji layihələrinə dəstəyidir...”

**“ABŞ-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyub”.**

Bunu prezident İlham Əliyev iyulun 12-də Nazirlər Kabinetinin iclasında çıxışı zamanı deyib.

Bakıda keçirilmiş 24-cü Beynəlxalq Neft və Qaz Sərgisinə ABŞ prezidenti Donald Trampın ünvanlandığı məktubun əhəmiyyətindən danışan dövlət başçısı ABŞ dövlət katibi ilə bir neçə gün öncə İstanbulda keçirdiyi görüşü də yüksək qiymətləndirib: “Bu il 24-cü Xəzər neft-qaz sərgi və konfransı keçirilib. Bu sərgi və konfrans dünya miqyasında enerji sektorunda seçilmiş tədbirlərdən biridir. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, bu tədbirə Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Tramp məktub göndərib. Mənə ünvanlanan məktub əlbəttə ki, Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətini artırır, eyni zamanda Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycanın icra etdiyi uğurlu enerji layihələrinə göstərilən növbəti dəstəkdir. Əlbəttə ki, belə xoş münasibət Amerika-Azərbaycan əlaqələrinin uğurlu inkişafı üçün yeni zəmin yaradır.

Bir neçə gün bundan əvvəl Amerikanın dövlət katibi ilə İstanbulda görüşüm bir daha bizim strateji əlaqələrimizi təsdiqlədi və bu gün Amerika-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyur".




## DSX sədri məktub göndərdi, Rusiyadan təkzib gəldi

**Rusiya Federal Təhlükəsizlik Xidmətinin Ermənistandakı Sərhəd Qoşunları İdarəsi İran İslam Respublikası ərazisindən Azərbaycan Respublikası dövlət sərhədinin yarılması və şərti qaçaqmalçıların Dağlıq Qarabağ ərazisinə keçmək cəhdinin qarşısının alınması ssenarisi üzrə birgə təlimlərin keçirilməsi ilə bağlı iki gün əvvəl yaydığı xəbərə təkzib verib və onun mətnini dəyişib.**

Virtualaz.org bildirir ki, bu barədə erməni KİV-i məlumat yayıb.

Xatırladaq ki, əvvəlki məlumatda Rusiya Sərhəd Xidməti ilə Ermənistan sərhədçilərinin birgə hərbi təlimlərə başladıqları bildirilirdi. Vurğulanırdı ki, hərbi təlimdə Ermənistan-İran sərhədinin qorunması, həmçinin şərti qaçaqmalçıların “Dağlıq Qarabağ Respublikası”na keçməsinin qarşısının alınması ssenarisi sınaqdan keçirilib.

“İki şərti sərhəd pozucusu İrandan Ermənistana keçərək, Dağlıq Qarabağda gizləniblər. Döyüş tapşırığına uyğun olaraq, sərhədpozucularının axtarışı aparılıb və təlim uğurla başa çatdırılıb”, - deyə Rusiyanın Ermənistandakı sərhəd qoşunlarının mətbuat xidmətinin məlumatında deyilirdi.

Azərbaycan Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev tərəfindən bu məsələyə aydınlıq gətirilməsi məqsədilə iyulun 11-də Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin direktoru ordu generalı Vladimir Kulişova rəsmi məktub göndərilmişdi.

Yuxarıda haqqında bəhs etdiyimiz dəqiqləşdirmədə Rusiya Sərhəd Qoşunları Ermənistan sərhədçiləri ilə birlikdə İrandan Qarabağa keçmək istəyən sərhəd pozucularına qarşı təlimin keçirilməsi ilə bağlı məlumatı təkzib edib.

Məlumatda göstərilib ki, Rusiya və Ermənistan İranla sərhəddə təlimlər keçirib.

Təlimlərdə İran-Ermənistan sərhədini keçən şərti sərhəd pozucusunun Rusiyanın Mehridəki sərhəd dəstəsinin *(Ermənistan-İran sərhəd hissəsi-red.)* köməyi ilə ələ keçirilmə ssenariləri işlənib.

# YAP funksioneri Rusiyanın “seçki planlarını” alt-üst etdi

**Siyavuş Novruzov:** “Bu cür “proqnozları" rusiyapərəstlər, bu ölkənin kəşfiyyatına xidmət edənlər, Rusiyada biznesi olanlar dövriyyəyə buraxır"

**YAP icra katibinin müavini Siyavuş Novruzov APA-ya geniş müsahibəsində növbəti prezident seçkiləri, hakim partiyanın seçki hazırlıqları barədə də danışıb.**

**S.Novruzov** bildirib ki, növbəti prezident seçkiləri ərəfəsində xarici dövlətlərdən təzyiqlərin olacağı ilə bağlı proqnozları Azərbaycandakı bəzi rusiyapərəst şəxslər yayır. Onlar bununla Rusiyanın bu məsələdə mövqeyini şişirtmək istəyirlər: “Azərbaycan xalqı prezidentini özü seçir. Kənardan müdaxilələr qaldı 90-cı illərin əvvəlində. Azərbaycan xalqı öz rəhbərini seçəndə heç kimlə razılaşdırmır, bu faktdır. Bu cür ”proqnozları" isə Azərbaycanda olan, keçmişdən qalan rusiyapərəstlər, bu ölkənin kəşfiyyatına xidmət edən insanlar, eyni zamanda bu gün Rusiyada biznesi olan bəziləri dövriyyəyə buraxır. Vaxtilə Azərbaycanda vəzifədə olub indi gedib Rusiyaya sığınan bəziləri belə şeyi yazdırıb özlərini şişirtmək istəyir, ürək bulandırırlar. Ola bilsin ki, onun Moskvada-Kremldə kiminləsə “salam-əleykümü” var. Amma Rusiyanın mövqeyi Kreml rəhbərinin mövqeyidir, onun da Azərbaycanla bağlı mövqeyi yüksək münasibətlərə əsaslanır".

Deputat bununla belə deyib ki, seçki ilində ənənəvi olaraq, Azərbaycanın təbii sərvətlərindən maksimum güzəştlə yararlanmaq istəyən dövlətlər, güzəştli şəkildə öz işlərini görmək istəyən qlobal şirkətlər, Azərbaycanın güclənməsini istəməyənlər bəzi cəhdlər edəcəklər. “Bunlardan bəziləri Avropa Parlamentinin, Avropa Şurası Parlament Assamleyasının, ATƏT-in ələ aldıqları üzvləri vasitəsilə, başqa bəzi yollarla təzyiq göstərməyə cəhd edəcəklər. Lakin Azərbaycanda güclü dövlət, güclü lider, xalqla iqtidar arasında güclü birlik var. Ona görə də bunlar cəhd olaraq qalacaq” deyə, o bildirib.

**S.Novruzov prezident seçkilərinə YAP-da artıq müəyyən hazırlıq işləri getdiyini də açıqlayıb:** “İlk növbədə partiyadaxili strukturların hazırlıq məsələsinə baxırıq. Rayon-şəhər təşkilatlarında hesabat-seçki yığıncaqları keçirilir. Partiyanın son keçirilən İdarə Heyəti iclasında da bu barədə hesabat verildi və qərar qəbul edildi. Yəni bizdə hər şey qərarladır. Rəhbər strukturun qərarı ilədir. 61 rayonda artıq konfranslar yekunlaşıb, 23 rayonda da keçirəcəyik. 11 rayonda təşkilat sədrləri dəyişib. Tərkibdə dəyişikliklər gedir. Çünki say artdıqca bu labüddür. Bununla biz bütün bu strukturu ilin sonuna qədər gələnilki seçkiyə hazırlayırıq. Tam hazır olduqdan sonra partiyanın rəhbər orqanı prezidentliyə namizədliyin



irəli sürülməsi barədə qərar qəbul edəcək. Seçkinin gələn ilin payızında keçiriləcəyini nəzərə alsaq, yəqin ki, gələn ilin bu vaxtına qədər qurultay barədə qərar veriləcək”.

**S.Novruzov prezident seçkilərində YAP-ın öz namizədinə rəqib görüb-görmədiyi barədə suala belə cavab verib:** “Elə bir rəqib yoxdur, görmürük. Bizim partiyamızın sədri cənab prezidentin apardığı siyasət, gördüyü işlər reytingini ildən-ilə artırır. Cənab prezident seçki ərəfəsində verdiyi sözdən dəfələrlə artıq işlər görür, xalq da bunu qiymətləndirir. Artıq Azərbaycan miqyasında yox, dünya miqyasında sorğu keçirsək, görərik ki, bizim sədrimizin-cənab prezidentin alternativi yoxdur. Bu həqiqətdir. Cənab prezident İlham Əliyev həm xalqın maraqlarının dəstəklənməsi, həm sabitliyin qorunması, iqtisadiyyatın inkişafı, quruculuq işləri - hansı ki, bunun sayəsində ölkədə artıq rayon-şəhər fərqi aradan qalxıb - və s. bu kimi işləri çox uğurla və sürətlə həyata keçirib. İslahatlar dayanmadan davam edir, məmurların daim xalqın qulluğunda olmasına nəzarət edir. Hər bir rayona səfər edir, insanlarla daim ünsiyyətdədir. Bu səbəbdən biz namizədimizə heç bir rəqib görmürük”.

Siyavuş Novruzovun müsahibəsində bir çox maraqlı məqamlar diqqəti cəlb edir. Birinci məqam ondan ibarətdir ki, S.Novruzov 2018-ci ildə keçirilməsi gözlənilən prezident seçkiləri ilə bağlı son günlər hakimiyyət düşərgəsindən narahatlığı bölüşmür. **Yada salaq ki, neçə gün öncə Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, YAP-çı deputat Yevda Abramov müsahibəsində demişdi ki, gələn il Azərbaycanda keçiriləcək prezident seçkiləri ərəfəsində ehtiyatlı olmaq lazımdır:** “Seçki elə kampaniyadır ki, nəticəsi bütün zümrələri, insanları qane etmir. Ona görə də seçkinin nəticələrindən qalib tərəf razı, məğlub tərəf isə narazı qalır. Bu, bütün dünyada belədir. Azərbaycanda da seçkinin nəticələrindən narazı qalanlar olacaq. Biz Azərbaycan müstəqillik qazandıqdan sonra müəyyən ajiotajlara rast gəlmişik. Ona görə də seçki ərəfəsində də, seçkidən sonra da müəyyən qüvvələr aranı qatmaq istəyəcək”.

**Onun ardınca YAP-çı deputat, hakim partiyanın Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə həmkarının fikri ilə razı olduğunu deyib. A.Mirzəzadə bildirib ki, seçki ərəfəsində Azərbaycanda bəzi qüvvələr var ki, aranı qatmaq istəyəcəklər:** “Azərbaycanda hər seçki ərəfəsində xaricdəki anti-Azərbaycan mərkəzləri ölkəmizdə provokasiya törətməyə və gərginlik yaratmağa çalışırlar. Düzdür, bunun üçün Azərbaycanda sosial baza yoxdur. Ancaq pulla ələ alınan, özünü müxalifət adlandıran müəyyən qüvvələr böyük həvəslə buna gedirlər. Eyni zamanda sosial şəbəkələr vasitəsilə səbədsiz adamları yoldan çıxartmağa, seçki prosesini idarəolunmaz bir istiqamətə yönəltməyə çalışırlar. Ancaq hər seçkidən-seçkiyə onların cəhdlərinin əbəs yerə olduğu, cəmiyyətin onları dəstəkləmədiyi qənaətinə gəlirlər. Bu seçki ərəfəsində də aranı qatmaq istəyənlər olacaq. Amma yenə də Azərbaycan cəmiyyəti buna layiqincə cavab verə biləcək”.

**İkinci maraqlı məqam isə S.Novruzovun hakim partiyanın seçki hazırlıqlarına başladığı və YAP-ın namizədinin hazırkı prezident olacağı ilə bağlı dedikləri hesab olunur. ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, hakim partiyanın rəhbərliyinə daxil olan S.Novruzov bu açıqlaması ilə müəyyən dairələrə mesaj göndərir ki, YAP İlham Əliyevə alternativ görmür və ondan başqa kimsənin namizədliyini irəli sürmək istəmir:** “Bu mesaj təsiri bağışlayan açıqlama hakimiyyətə rəqib olan müxalifət düşərgəsindən çox hakimiyyətin özünün daxilindəki qüvvələridir".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017




# Türkiyə səfirliyində 15 iyul hadisələrinin ildönümü anıldı

**Səfir Erkan Özoral:** "Bu, Türkiyə demokratiyası üçün sınaq idi və ölkə ondan uğurla çıxdı, Azərbaycan bizə ilk dəstək verən ölkələrdən oldu..."

**Türkiyənin Bakıdakı səfirliyində ötən il qardaş ölkədə baş verən 15 iyul dövlət çevrilişi cəhdinin ildönümü ilə bağlı mətbuat konfransı keçirilib. Tədbirdə çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral ilk növbədə Ermənistan ordusunun hücumu nəticəsində Füzuli rayonunda dünyasını dəyişənlərin ailələrinə başsağlığı verib, ermənilərin xain hücumunu lənətləyib.**

**Daha sonra səfir 15 iyulda Türkiyədə baş verən hərbi çevrilişdən bəhs edərək, bildirdi ki, ötən il gerçəkləşən xain çevriliş bu günə qədər Türkiyəyə qarşı baş verən ən böyük hadisələrdən, ən böyük xəyanətlərdən biriidir:** "Həmin gecə 240 vətəndaşımız şəhid oldu. 2000-ni yaralandı. O gecə darbeçilərin göstərdiyi vəhşiliyin dünyada tayı-bənzəri yox idi. Onların etdiyi xəyanətin də dünyada bənzəri olmayıb. Türkiyə bu xain dəstə ilə uzun müddəti idi ki, mübarizədə idi. Darbeçilər özlərinə qarşı olan mübarizəni önləmək üçün Türkiyənin bir çox dövlət qurumlarının binalarını həmin gecə bombalamaqdan çəkinmədilər".

**Diplomat həmin xainlərin insanlıqdan və vicdandan kənar davranışlarından danışaraq, onları Fətullah Gülənin əmrlərini düşüncəsizcəsinə icra edən robot adlandırdı:** "Videogörüntülərdən də görünür ki, onlar heç bir şəkildə insanlıq və vicdan barədə düşnməyiblər, sadəcə, Pensilvaniyadakı rəhbərlərindən aldıqları əmrləri yerinə yetirən bir robot olublar".

**Səfirin sözlərinə görə, 15 iyul Türkiyə demokratiyası üçün bir sınaq oldu və ölkəsi bu sınaqdan uğurla çıxdı:** "Türk xalqı dövlət başçısının arxasında tək ürək, tək bədən oldu. Həyatları bahasına demokratiyanı qorudular, müdafiə etdilər. Bundan sonra da həmin müdafiə davam etdi, çox fərqli siyasi görüşdən olan vətəndaşlar bir araya gəldilər və dövlətlərini qorumaq üçün əllərindən gələn fədakarlığı etdilər, tankların qarşısına yataraq dövlətlərini qorumağa çalışdılar. Türk milləti bu sınağı uğurla keçdi. Darbe çevrilişində günahkar bilinən 130 min nəfər göz altına alındı, 45 min nəfər həbs olundu. 15 iyuldan sonra Türkiyədə xain "FETÖ"çuları təmizləmə işi davam etdirildi. Türk milləti də bu məsələdə dövlətinə dəstək oldu. Təkrar vurğulayıram ki,15 iyul Türkiyə cümhuriyyəti üçün də önəmli dönüş nöqtəsi oldu. Bu hadisəni həyata keçirən xainlər özünü Məsih elan edən bir xainin arxasından getməkdədirlər. Özünü peyğəmbər hesab edən, Quranı-Kərimi yarımçıq sayan və onu tamamlayacağını iddia edən bir dindən dönmüşün arxasında gedənlərin təmizlənməsi bizim üçün ən başlıca vəzifədir. Onu da vurğulayım ki, çevrilişdən sonra ötən dövr Türkiyəni zəiflətmədi, dövlətimiz əvvəlkindən də güclü hala gəldi. Bu bir ildə Türkiyə iqtisadiyyatı daha da böyüdü. Bütün sahələrdə xalqa güvən verəcək bir inkişaf müşahidə olundu".

**Səfir daha sonra vurğuladı ki, son 1 ildə Türkiyənin terrorla mücadiləsi daha böyük həcmdə davam etdirilib:** "Dövlət çevrilişdən 45 gün sonra Türkiyə ordusu azad Suriya ordusu ilə birlikdə sərhədimizin o tayında Suriyada üçün təhlükə yaradan qüvvələrə qarşı hərəkat başlatdı, bu hərəkat nəticəsində sərhədlərimizin təhlükəsizliyi təmin olundu. Bu günə Türkiyədə meydana gələn terror hadisələrinin sayında çox ciddi azalma var. Artıq Türkiyə Suriyanın və özünün təhlükəsizliyi üçün çox ciddi tədbirlər görüb. İndiyə qədər terrorçuların məhv edilməsində də çox böyük uğurlar əldə edilib. Ələ keçirilən terroristlərin sayı artıb. Dövlətin içinə yerləşmiş örgüt nümayəndələrinin təmizlənməsi də çox böyük uğurdur".

**Erkan Özoral FETÖ ilə mübarizənin təkcə Türkiyədə deyil, ölkə xaricində də aparıldığını qeyd etdi və Azərbaycanın Türkiyəyə ən böyük dəstək verən ölkələrdən biri olduğunu vurğuladı:** "Azərbaycan bizə ilk dəstək verən ölkə oldu. Bu bir ildə də hər zaman dəstəyini artırdı. Azərbaycan xalqı da Türkiyəyə hər zaman dəstək olub, bundan sonra da olacağına şübhəmiz yoxdur. Ona görə də Azərbaycan prezidenti İlham Əliyevə və Azərbaycan xalqına təşəkkürlərimizi bildiririk. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür. Biz terrorla mübarizədə Azərbaycanı hər zaman yanımızda görməkdən böyük bir güc alırıq. Təəssüf ki, heç də bütün ölkələr bizə Azərbaycan qədər dəstək göstərmədilər. Bəzi ölkələr FETÖ mənsublarına qucaq açdılar. Ancaq bütün dünya bilməlidir ki, terror bir ilandır və bir gün onları da çalacaq. Türkiyə bir neçə terror təşkilatı ilə eyni vaxtda mübarizə aparır. Biz terrordan ən çox əziyyət çəkən ölkəyik. Bizim yaşadıqlarımızı heç bir dövlətin yaşamasını istəmirik. Ona görə də bütün dövlətlərdən bizə terrorla mücadilədə dəstək olmalarını gözləyirik. FETÖ-nün, bu terror təşkilatının başındakı cinayətkar şəxsin hədəfi, sadəcə, Türkiyə deyil, bütün dünyada idarəetməni ələ keçirməkdir. Odur ki, terrorçularla mübarizədə hər kəs bizə dəstəyini göstərməlidir".





**Səfir çıxışının ardından media mənsublarının suallarını cavablandırdı. O, jurnalistlərin sualına cavab olaraq bildirdi ki, FETÖ təhlükəsinin bitdiyini söyləmək mümkün deyil:** "Bu elə bir qurumdur ki, tamamilə ortaya çıxarılıb kökü kəsilənə qədər bu təhlükə və təhdid ortadan qalxmayacaq. FETÖ təhlükəsi ilə sona qədər mücadilə etmək lazımdır. FETÖ təhdidi təbii ki, 15 iyuldan önçəki gücündə deyil. Bu terrorçu təşkilatla mübarizədə çox böyük bir yol qət edildi, böyük uğurlar əldə edildi. Fəqət bu təşkilatla sonuna qədər mübarizə aparılmasına ehtiyac var. Fətullah Gülənin Türkiyəyə ekstradisiyası ilə bağlı Amerika ilə danışıqlar davam edir. Həm siyasi səviyyədə, həm də ədliyyə qurumları səviyyəsində məsələ ilə bağlı danışıqlar aparılır. Ancaq biz bu mövzuda dostlarımızdan və müttəfiqlərimizdən yetərincə dəstək görmürük. Müttəfiqlərimizin lazımi dəstəyi göstərməsini gözləyirik".

❑ *Nərgiz LİFTİYEVA*
**Fotolar Məğrur MƏRDİNDİR**

# İkinci Novruzəli vaqiəsi



**Samir SARI**

**Xəbərin ilk cümləsi adama heç nə demir. Hə, nə olsun, "Bakıda xuliqanlıq edən sürücü saxlanılıb". Bakıda o qədər avtoxuliqan var ki... Hər gün də 3-4-ünü saxlayırlar. Sonra da ya cərimələyib buraxırlar, ya elə-belə buraxırlar, ya da üzr istəyib buraxırlar.**

Yeni Bakıda avtoxuliqanların olması, hər gün xuliqanlıq etmələri, saxlanılmaları sıradan hadisədir.

Ancaq məlum olur ki, bu dəfə xuliqanlıq edən sürücü general oğludur. Onda vəziyyət dəyişir. Ona görə yox ki, general oğlu xuliqanlıq etməz, edə bilməz, əsasən ona görə ki, general oğlu belə şey eləsə, saxlanılmaz, saxlanılsa da, tez buraxılar.

Sözügedən general oğlu isə saxlanılıb və buraxılmayıb. Həm də ona görə ki, Rüstəm adlı bu gənc təkcə avtoxuliqanlıq etməyib, həm də avtosuz xuliqanlıq edib, qəza şəraiti yaratdığına görə ona irad bildirən sürücünü basıb döyüb.

Sonradan məlum olub ki, Rüstəm avtomobillə adam da öldürüb, məhkum da olunub, üstəlik, sürücülük vəsiqəsi də olmayıb.

Sürücülük vəsiqəsi olmadan avtomobil sürmək, həm də avtoxuliqanlıq etmək üçün, əlbəttə, ən azı general oğlu olmaq lazımdır. Prinsipcə, polkovnik oğlu da bu qələti edə bilər, amma üstü açılsa, atası general olmaz.

Budur, Rüstəm o hərəkəti ilə, türkün sözü, atasının karyerasını da becərdi. O boyda generalı işindən-gücündən aldılar.

İndi tanıyanlar, bilənlər orda-burda deyəcəklər, yox, Novruzəli Orucov yaxşı kişiydi, neyləsin, oğlu onu güdaza verdi.

Amma yox, elə deyil, qardaşlar və bacılar, Novruzəli Orucov yaxşı ata olsaydı, oğlunu elə harın böyütməzdi. Budur, özü də deyir ki, uşağı başlı-başına buraxmışam.

N.Orucov yaxşı, prinsipial, gözü-könlü tox məmur olsaydı, oğluna bahalı maşınlar alıb verə bilməzdi.

Bunun əvəzində o oğlunu elə böyüdüb ki, Rüstəm dünənə qədər elə bilirdi ki, Ucardakı Şilyan təpələrini bunun atası yaradıb.

Əmin olun ki, onun o, maşınla adam öldürən, maşında adamdöyən oğlu gündə yeddi dəfə ona-buna "heç bilirsiz, mən kiməm", "bilirsən, sənə neyniyərəm" deyənlərdən olub.

Hiss olunur ki, gənc adam çox hirsli-hikkəliymiş. Bir şey ki, ona irad bildirən avtobus sürücüsünü düz 8 dayanacaq təqib edib. Əslində artıq 3-cü dayanacaqdan sonra onun hirsi soyumalıydı və dönüb getməliydi işinin dalıncaq. Amma o deyib, yox e, avtobus sürücüsü kimdir ki, mənə, general oğluna "asta sür" deyir.

Bəli, general oğluna "asta sür" demək ağır təhqirdir, bu təhqirin qisası ancaq qanla, duellə alına bilər. İndinin dueli də belədir: təkbətək çıxmırlar, 5-6 adam tökülüşüb birini çırpır, sonra qaçıb gedirlər.

10 il əvvəl bir təvazökar nazir oğlu bir hikkəli deputat oğluna "Nərimanov" metro stansiyanın həndəvərində "asta sür" demişdi, deputat oğlu hiddətlənərək, maşınından düşüb nazir oğlunun çənəsini sındırmış, bir-iki saatdan sonra nə qələt elədiyini anlamışdı, amma gec olmuşdu. Onun özünü də aparıb təcridxanada atası sudan gəlincəyə qədər döymüşdülər.

Yəni bir sürücünün maşını yekədirsə, atası vəzifəlidirsə, özünün cibində pul çoxdursa, gərək ona "asta sür", "ehtiyatlı ol", "bu necə maşın sürməkdir" kimi təhqiramiz sözlər deməyəsən, deyəndə də sözün əvvəlində "qurban olum", axırında "qadan alım", "başına dönüm" kimi sözlər olmalıdır ki, növcavan hirslənməsin. Yoxsa maşını döndərib adamın dalınca düşər, çatıb küçənin ortasında biabır edər.

Bu işlər belədir.

İntəhası, bəzən elə olur ki, belə işləri yat-yut eləmək olmur və haqq-hesab ictimailəşir, səs-küyü çıxır, yuxarılarda əks-səda verir və hirsli oğulun sakit papasını çəkirlər ortalığa. O da məcbur olur, deyir ki, özüm də, balalarım da rəhbərə qurban olsun.

Əslində belə bir adamın ən yüksək rütbəsi gizir ola bilərdi, amma işə bax ki, gəlib general olub.

Bir tərəfə baxanda harın oğulların öz hərəkətləri ilə vaxtaşırı öz atalarını ifşa eləməsi yaxşıdır. Camaat kimin qabında nə olduğunu bilir. Yoxsa kim bilərdi ki, general rütbəsi daşıyan Novruzəli poçt qutusunun önündə oturub ağasının məktubuna qarovul çəkəsi adamdır.



# Generallar və xalq artistləri

Zamin HACI
zaminhaci@gmail.com

**Son çağlar regionun liderinə çevrilməkdə olan mediamızda belə başlıqlara tez-tez rast gəlmək mümkündür: "Generalın oğlu adam döydü" (vəziyyətdən asılı olaraq feil dəyişilə, "öldürdü", "maşınla vurdu", "bıçaqladı", "qucaqladı", "basmarladı" və sairə şəklində ola bilər) və "Xalq artistinin oğlunu döydülər" (burada da sonluq eynilə "öldürdülər", "ayaqladılar", "gözünü çıxartdılar", "maşınla vurdular" formasında dəyişilə bilir). Təbii ki, diqqətli media ekspertlərindən biri kimi bu hala biz laqeyd qala bilmərik, mütləq analiz etməliyik.**

Məncə, bunun əsas səbəblərindən biri, bəlkə də birincisi onunla bağlıdır ki, hazırda Azərbaycan cəmiyyəti tam ortadan, diametral şəkildə (qoy desinlər nə savadlı oğlandır) iki yerə bölünmüşdür. Yarısı generallar və onların uşaqlarıdırsa, yarısı da xalq artistləri və onların uşaqlarıdır. Örnək üçün, indi bu yazını oxuyan hörmətli oxucu əgər özünü generallara aid bilmirsə, deməli, o, mütləq xalq artistləri sinfinə aiddir. Yox, özünü artist saymırsa, demək, generaldır. Başqa yolu yox artıq - o mahnıda deyilən kimi. Ya generalsan, ya da artist. Mən özüm hələlik artistlər kateqoriyasına aidəm, inşallah, rəhbərlik söz verib, tezliklə generallar sinfinə keçməliyəm. Özümü lap yaxşı aparsam hovuza su və tok da verəcəklər.

Bax, bu səbəbdən kimsə maşına qaz verib adam vurursa vurulanın xalq artisti, ya da onun uşağı çıxması ehtimalı yüz faizə bərabərdir. Və qaz verən də general, ya da general oğlu olmalıdır. Doğrudur, ehtimal nəzəriyyəsinə görə, general oğlu xalq artistinin oğlunu yox, general oğlunu da maşınla vura bilər. O cümlədən xalq artistinin oğlunu xalq artistinin oğlu döyər. Ancaq adından göründüyü kimi, bu, ehtimal nəzəriyyəsidir. Bizim ölkədə isə hər şey dəqiq yazılıb, ölçülüb-biçilib, dövlət proqramına salınıb. Hətta bu dəqiqə biz 3549-cu ildə Soğanverdilər-Dəliməmmədli-Beyləqan-Ağcabədi avtomobil yolunun 14 kilometrlik hissəsinə neçə dənə müasir işıq dirəyi basdırılacaq, Ağsunun mərkəzi parkına neçə metr yaşıl örtük salınacaq, feysbukda nə qədər trol işə götürüləcək, neçə kilo yaltaq istehsal olunacaq və sairə - bunların hamısını dəqiq bilirik, Nazirlər Kabinetində dövlət planlaması şəklində müvafiq sənədlərdə yazılıbdır. O Amerikada, Fransada, Britaniya-zad kimi geridə qalmış ölkələrdə olur, heç 5 il sonra prezidentləri kim olacaq, onu da bilmirlər! Britaniyanın hətta prezidenti belə yoxdur! Nahaq yerə "dumanlı" demirlər ki...

Bəzən generalın oğlunun hərəkətinə görə generalı işdən çıxarırlar, məncə, bu, kadr islahatlarımıza uyğun deyil. Hələ el atası Stalinin vaxtından belə söz qalıbdır ki, oğul ataya, ata oğula cavabdeh olmamalıdır. Hərçənd, qoca qurd başqa bir yerdə "Xalq düşmənlərinin nəslini kəsməliyik" deyibmiş. Elə dövlət siyasəti də bu ikinci göstərişə daha çox uyğun gəlirdi, çünki 1930-1950-ci illərdə SSRİ-də xalq düşmənlərinin ailə üzvlərini saxlamaq üçün xüsusi türmə olubdur. Qazaxıstanın dəhşətli çöllərində yerləşən bu türməyə ALJİR adı qoyulmuşdu, Əlcəzairə qətiyyən dəxli yox idi, "Akmolinskiy Laqer Jen İzmennikov Rodini" (Vətən xainlərinin arvadları üçün Akmolinsk düşərgəsi) sözlərindən düzəldilmişdi. 30 min nəfərə yaxın "xalq düşməninin" ailə üzvləri o lagerdə əzab çəkmiş, çoxları işgəncələrdən ölmüşdü.

İndi biz bəlkə sistemli yanaşaq, generallar və xalq artistləri üçün ayrı-ayrı cəza düşərgələri quraq? *(Deyəsən, generallar üçün beləsi artıq var)*. O cümlədən, bəzən görürsən oğula görə general işdən qovulur, sonra deyir üzr istəyirəm, qələt eləmişəm, bağışlayın və sairə. Ancaq demir ki, bahalı maşınları, dəbdəbəli həyatı oğlu üçün hansı pullarla təmin edirmiş. Görürsən, oğlunun bir maşınla şəkli çıxdı, həmin maşının puluna yalan olmasın, Qarabağın 20 faizini geri almaq mümkündür.

İndi söz əlaqədar generallar və uşaqlarınındır - müəllifi döyün. "Xalq artisti yazı yazarkən döyüldü" başlığına ethiyac var.



# Vaşinqtondan Kremlə Bakı üzərindən mesaj - ABŞ Rusiyanın yolunu "kəsir"

## Ağ Evin Rusiyaya qarşı ağırlaşan sanksiyaları "Türk axını"nı tormozlaya bilər - ilginc gözlənti; Vaşinqton Moskvanı ən zəif olduğu mübarizə müstəvisinə çəkir; Bakı da gözdə-qulaqda olmalıdır...

**Rusiya və ABŞ arasında geosiyasi rəqabət özünü təkcə Yaxın Şərq proseslərində büruzə vermir. Son vaxtlar iki fövqəldövlət arasında gərginlik digər bölgələrdə və sferalarda, o cümlədən energetika sahəsində özünü getdikcə daha qabarıq göstərməkdədir. Dərinləşən rəqabət isə böyük mineral ehtiyatlara və əlverişli coğrafi mövqeyə malik Azərbaycana da yansımaqdadır.**

Sirr deyil ki, Vaşinqtonun strateji hədəflərindən biri Avropa qaz bazarında Rusiyanın qaz inhisarına son qoymaq və ya bu inhisarçılığı minimuma endirməkdir. Çünki Kreml qaz monopoliyasından illərdir Avropaya, Qərbə qarşı siyasi şantaj aləti kimi istifadə edir. Hətta Krımın Rusiya tərəfindən işğalında da bu amil dolayısıyla rol oynamış, bəzi Avropa Birliyi ölkələrinin yumşaq mövqeyinə səbəb olmuşdu. İndi də bu təsir özünü müəyyən mənada saxlayır.

Bu üzdən ABŞ özünün Rusiya təbii qazına ehtiyacı olmasa belə, həmin qaza alternativ mənbələrin işə düşməsi və Avropaya nəqlinə böyük önəm verməkdədir. Onlardan biri də "Şahdəniz 2" Azərbaycan qazını Avropa bazarına çatdıracaq Cənub Qaz Dəhlizinin inşasıdır - hansı meqa-layihə ki, Birləşmiş Ştatlar ona həm siyasi, həm maliyyə, həm də mənəvi sponsorluq edir və böyük diqqət göstərir.

***

Təzəcə başa çatan 22-ci İstanbul Dünya Neft Sərgisində ABŞ-ın dövlət katibi Reks Tillerson səviyyəsində iştirakı bunu bir daha təsdiqlədi. Cənab Tillersonun Azərbaycan prezidenti İlham Əliyevlə görüşündə toxunulan həssas mövzulardan aydın oldu ki, Ağ Ev Bakıya Kremlin qaz savaşında sonadək dəstək verməkdə israrlıdır və onu Rusiya təzyiqləri qarşısında tək buraxmayacaq.

Bunu Vaşinqtonun Bakı üzərindən Kremlə ismarışı da saymaq olar. Özü də söhbət təkcə neft-qaz məsələsində dəstəkdən getmir. Yeri gəlmişkən, toplantıdakı çıxışı zamanı Azərbaycan prezidenti İlham Əliyev SDQ ilə bağlı tikinti işlərinin maneələrə rəğmən, uğurla davam etdiyini, inşa işlərinin sona çatmaq üzrə olduğunu qeyd elədi. Bu kəmər üzrə artıq gələn il qardaş Türkiyəyə 6 milyard, o biri ildən etibarən Avropaya isə 10 milyard kub metr Azərbaycan qazının nəqli nəzərdə tutulur.

Qeyd edilən bu kimi bütün məqamlar, həmçinin Tillerson-Əliyev təması Rusiyadan yan keçən neft-qaz kəmərlərinə əngəllər yaratmağa çalışan Kremlə əslində növbəti bir çatdırış idi. Siyasi təhlilçilərin bu yöndə şərh və təhlilləri davam edir.

**"Azərbaycan prezidenti İlham Əliyevin ABŞ dövlət katibi Reks Tillerson ilə görüşü Rusiyaya mesajdır". Bu sözləri axar.az-a görüşün yekunlarını şərh edən politoloq Fərhad Mehdiyev deyib. Onun sözlərinə görə, son diplomatik bəyanatlardan sonra Azərbaycanın ABŞ ilə əlaqələrinin gücləndirilməsi böyük məna kəsb edir.**

"Bununla Rusiyaya mesaj göndərilir ki, Azərbaycan xarici siyasətində təklənməyəcək. Düşünürəm ki, Azərbaycan yenə balanslı siyasət yeridəcək. 7 iyul 2017-ci ildə ABŞ səfirliyində ənənəvi olaraq qəbul günü keçirilib. Bu tədbirdə prezidentin köməkçisi Əli Həsənov iştirak edib. Bu, Azərbaycan tərəfinin ABŞ-la münasibətlərini inkişaf etdirdiyinin göstəricisidir. Hazırda Rusiya tərəfindən Bakıya qarşı müəyyən mənada təzyiq var, çünki Kreml Azərbaycanın Rusiya ilə daha çox yaxınlaşmasını, Avrasiya İttifaqına üzvlüyünü istəyir. Azərbaycan tərəfi isə ABŞ-la münasibətləri inkişaf etdirməklə göstərir ki, Bakı balanslı siyasətini davam etdirməkdə qərarlıdır", - deyə o bildirib.

***

Bakı balanslı siyasəti davam etdirir, ancaq o da faktdır ki, bu siyasət ən çox Moskvanın ürəyincə deyil. Az öncə Rusiyanın "Qazprom" şirkəti rəsmisi Medvedyevin Cənub Qaz Dəhlizi ilə bağlı söylədiyi pessimist fikirlər, faktiki, Bakıya ünvanlı şantaj xarakterli açıqlama da Rusiyanın Azərbaycana münasibətdə gerçək münasibətinə işarə idi.

Hər necə olmasa, Moskva Cənub Qaz Dəhlizinin Rusiyanın tezliklə reallaşdırmağa çalışdığı "Türk axını"na rəqib hesab edir. CQD-nin axırıncı seqmenti kimi TAP-ın İtaliya ərazisindən keçən hissəsinin tikintisinə Rusiyaya bağlı siyasi qüvvələrin neçə vaxtdır əngəl yaratmağa çalışması da təsadüfi deyil. Bunu da Vaşinqtonda bilir və izləyirlər. Təkcə izləmirlər, eyni zamanda kontur-tədbirlər hazırlayırlar. Bu da növbəti fakt.

Bəllidir ki, ötən həftə Rusiyanın "Qazprom" şirkəti "Türk axını" layihəsinin Türkiyədən keçəcək hissəsinin maliyyələşməsi ilə bağlı "Botaş" şirkəti ilə müqavilə imzalayıb. Lakin məlumata görə, "Qazprom" "Türk axını" və "Şimal axını 2" layihələrinin inşasının ABŞ-ın sanksiyaları səbəbindən baş tutmayacağından narahat olmağa başlayıb. Belə ki, ABŞ prezidenti bir müddət əvvəl Rusiya ilə əlaqəli nəhəng layihələrin inşasını həyata keçirən şirkətlərə sanksiya və embarqolar tətbiq edilməsi ilə bağlı sərəncam imzalayıb.

Doğrudur, hələlik bu məsələ ilə bağlı rəsmi açıqlama verilməyib. Ancaq ABŞ-ın Rusiyaya qarşı sanksiyaların çoxşaxəli olduğu da diqqət çəkməyə bilməz. Başqa sözlə, bu sanksiyalar həm də Rusiyanın aparıcı olduğu iri iqtisadi layihələri iflic eləməyə yönəlib. Rusiyanın özünün isə belə layihələri başa çatdırmağa yetərli maliyyəsi yoxdur. Sanksiyaların tətbiqindən sonra heç yoxdur.

Bir ölkənin maliyyə gücü və ya gücsüzlüyü isə elə onun siyasi gücü və ya siyasi gücsüzlüyü anlamına gəlir. Beləcə, Vaşinqton Moskvanı ən zəif olduğu mübarizə müstəvisinə çəkir. Deməli, Bakı da gözdə-qulaqda olmalıdır.

❑ **Analitik xidmət**

# Türkiyə prezidenti SOCAR rəhbərliyi ilə görüşəcək

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan 15 iyul hadisələrinin ildönümündə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) rəhbərliyinin də təmsil olunacağı 350 nəhəng şirkətin rəhbəri ilə görüşəcək.**

"R.T.Ərdoğan 15 iyulun ildönümündə dünyanın və Türkiyənin qabaqcıl şirkət rəhbərləri ilə görüşəcək. Türkiyə prezidenti ümumilikdə 4 trln. dolları idarə edən qlobal şirkətlərin rəhbərlərinə 15 iyul dövlət çevrilişinə cəhddən sonra baş verənləri danışaraq "Türkiyə güvənilən ünvandır, gəlin, sərmayələrinizi yatırın" mesajını verəcək", - deyə yerli KİV-də yayılan məlumatda qeyd olunub.

"Beynəlxalq İş dünyası toplantı"sında SOCAR, "Bank of China", "Bauhaus", "Benetton", "Chine Energy", "Coca Cola", "Facebook", "General Electric", "Google", "Hewlett Packard", IBM, "Koç", "Mercedes", "Motorola", "Microsoft", "Nike", "Pepsi", "Cisco", "Siemens", "Toyota", "Vodafone" və digər şirkətlərin rəhbərlərinin yer alacağı gözlənilir (report).

SOCAR

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-10 iyul 2017-ci il Şənbə № 143 (6757) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanlılara qan udduran şəxs ələ keçdi

yazısı səh.10-da

**Gündəm**

### Ordumuzdan düşmənə zərbə - Alxanlıya görə ilk qisas aktı



İşğalçı itkilərini açıqlamağa başladı; **hərbi ekspert:** "Ermənilər çox böyük səhvə yol verdilər"

yazısı səh.4-də

### Deputat Zəhranın dəfn günü konsert verən telekanalları topa tutdu

yazısı səh.5-də

### Avropa insan haqları komissarı Dilqəmlə Şahbazın məsələsini icraata götürdü

yazısı səh.9-da

*Aleksandr Proxanov:*

### Rusiya prezidentinin məxfi tapşırıqlısı və... Bakının dostu - Həmid Herisçi yazır

yazısı səh.11-də

### G20 sammiti etirazlarla başladı - Putinlə Tramp ilk dəfə əl sıxdılar

yazısı səh.3-də

### Çap mediasının "ömrünə balta çalan" nağdlaşdırma problemi

yazısı səh.5-də

### Avropa Birliyi Türkiyə ilə yollarını ayırdı - nəticələr daha çox hansı tərəfin ziyanına olacaq?

yazısı səh.12-də

### Gürcüstandan Azərbaycana dəstək: Alxanlı hadisəsi insanlıq əleyhinə cinayət adlandırıldı

yazısı səh.6-da

### "Yeni Müsavat" bazar ertəsi buraxılışını dayandırır

yazısı səh.3-də

# Qarabağ düyünü: 4 iyuldan öncə və sonra

## BAKI KRİTİK QƏRARLAR ƏRƏFƏSİNDƏ - G 20 SAMMİTİNDƏN SONRA GERİSAYIM BAŞLAYIR

Ermənistanın "qırmızı xətti" keçməsi, sülh danışıqlarının "dəfn edilməsi" Azərbaycana tək bir seçim saxlayıb; Bakı Minsk Qrupundan imtina edə bilər; ekspertlərdən "Müharibə qapıda!" xəbərdarlıqları...




yazısı səh.8-də

## Çexiyada öldürülən azərbaycanlı biznesmenin qətlində yeni detallar

İş adamının ən yaxın adamı "Yeni Müsavat"a danışdı; Azərbaycan dövlətinin də diqqət mərkəzində olan cinayət işi ilə bağlı saxlanılanlar var; lakin qətlin motivi hələ də qaranlıq qalır...

yazısı səh.10-da



*Tofiq Zülfüqarov:*

### "Ermənistana ultimatum vermək lazımdır"

yazısı səh.7-də



*Məmməd Zeynalov:*

### "Qanunla məhkuma heç pişik saxlamağa da icazə yoxdur"

yazısı səh.13-də



*Sabir Rüstəmxanlıdan Rusiyaya sərt sözlər:*

### "Bu, Sergey Lavrovun oyunlarıdır"

yazısı səh.9-da

## Generalın oğlu tutuldu, bəs sabiq deputatın oğlu?


Elton Məmmədov

**General Novruzəli Orucovun oğluna görə işdən qovulması məmur övladlarının törətdikləri cinayətləri bir daha gündəmə gətirib. N.Orucovun oğlu Rüstəm Orucov ölümlə nəticələnən avtoqəza törətsə də, şərti azadlıqdan məhrum olunub. Buna baxmayaraq, məmur oğlu növbəti cinayəti törətməkdən çəkinməyib. Başının dəstəsi ilə avtobus sürücüsünü 8 dayanacaq təqib edib, sürücünü huşu itənə qədər döyüblər. Sürücü hələ də xəstəxanadadır. Buna görə də R.Orucovun barəsində həbs qərarı verilib, atası işdən çıxarılıb.**

N.Orucov övladına görə işdən qovulan ilk məmur deyil. Amma cəmiyyətə qarşı açıq hörmətsizlik edən, cinayət sifarişi verən məmur övladları da var ki, istintaqdan kənar qalmağı bacara biliblər və bu günə qədər də əməllərinə görə adekvat cəza almayıblar.

2014-cü il aprelin 25-də "Yeni Müsavat"ın reportyoru Fərahim İlqaroğlu yaşadığı binanın girəcəyində döyüldü. Sonradan jurnalisti döyən Feyruz Termişi saxlanıldı. Ona bu təlimatı verən Kik-Boksinq Federasiyasında çalışan Tural Bayramov tutulmadı. T.Bayramov o dövrdə nəqliyyat naziri olan Ziya Məmmədovun yaxınlarının "silləvuranı" kimi tanınırdı. İstintaq araşdırmaları gedişində aydın oldu ki, Fərahim İlqaroğlunun döyülməsi sifarişini Tural Bayramova o dövrdə deputat olan Z.Məmmədovun qardaşı Elton Məmmədovun oğlu Aynar Məmmədov verib. Sifarişin verilməsini şərtləndirən isə jurnalistin A.Məmmədovun avtoxuliqanlığını ictimailəşdirməsi, özünün sosial şəbəkədəki profili üzərindən yayması olub. A.Məmmədov avtoxuliqanlığını gizlətmək üçün jurnalistin qanuni peşə fəaliyyətinə görə döyülməsini sifariş etmişdi. Həmin dövrdə bu məlumatlar ictimailəşdirilsə də, E.Məmmədov mandatından olmadı, oğlu avtoxuliqanlığına görə jurnalisti döyməsini sifariş etməsinə görə məsuliyyətə cəlb olunmadı. Həmin dövrdə bu, Məmmədov klanının güclü olması ilə izah olunurdu. İndi isə Məmmədovların mövqeləri zəiflədilib və A.Məmmədovun jurnalistə qarşı cinayətinin araşdırılması məqamıdır.

❑ **E.MƏMMƏDƏLİYEV**

## Türkiyədə fövqəladə vəziyyət rejimi nə vaxt aradan qaldırılacaq?



**Terrorla mübarizəyə ehtiyac qalmadıqda ölkədə fövqəladə vəziyyət rejimi aradan qaldırılacaq.**

"Trend"in məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Dövlət başçısı qeyd edib ki, Fəthullah Gülən hərəkatı və PKK ilə mübarizədə önəmli bir məsafə qət edildi: "Yəni fövqəladə vəziyyət rejimi çox da uzaq olmayan bir gələcəkdə ləğv edilə bilər".

Qeyd edək ki, Türkiyədə fövqəladə vəziyyət ötən il iyulun 15-də dövlət çevrilişinə cəhddən sonra üç ay müddətinə tətbiq edilib və sonradan bir neçə dəfə uzadılıb.

## Rusiyada tonlarla Azərbaycan pomidoru satışdan yığışdırıldı



**Rusiyada 16,193 ton Azərbaycan pomidoru satışından yığışdırılıb.**

Virtualaz.org Rusiya KİV-inə istinadən bildirir ki, bu barədə Baytarlıq və Fitosanitar Nəzarəti Federal Xidmətinin Kurqansk vilayəti üzrə idarəsindən məlumat verilib.

Məlumatda bildirilir ki, Azərbaycan Respublikasından gətirilən tərəvəzlərdə zərərverici - Cənubi Amerika güvəsi aşkar edilib.

Federal Xidmət region ərazisində zərərvericilərə yoluxmuş məhsulun satışını qadağan edib. Sahibkarlara təlimat verilib ki, pomidorları dezinfeksiya etsinlər.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Lapşinin məhkəmə istintaqı başa çatıb

**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycanda həbsdə olan blogger Aleksandr Lapşinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



APA-nın məlumatına görə, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən iclasda şahid qismində ekspert Almaz Bayramova ifadə verib. O, A. Lapşinin yazıları ilə bağlı tərtib etdiyi rəyi təsdiqləyib. A. Lapşinin vəkili Eduard Çerninin suallarını cavablandıran şahid bildirib ki, A. Lapşin yazılarında Azərbaycanın ərazi bütövlüyünə qarşı çağırışlar edib: "Məsələn, yazısında göstərib ki, "Ermənistan hardadırsa, Qarabağ da ordadır". Qarabağın adını "Artsax" kimi qeyd edib".

**A.Lapşin şahidə suallar verib:** "Mən yazımda göstərmişəm ki, Qarabağda Azərbaycana məxsus yüksəkliklərə Ermənistan nəzarət edir. Bəs siz nə üçün bu yazıma da rəy verməmisiniz?"

Ekspert belə bir yazıya rast gəlmədiyini deyib.

A.Lapşinin vəkili vəsatətlə çıxış edərək, məhkəmədə dindirilən şahidlərin yalnız internet üzərindən hadisəyə istinad etməsinin məqbul sayılmadığını və şahidlərin ifadələrinin sübutlar siyahısından çıxarılmasını istəyib.

Hakimlər Kollegiyası bu vəsatətə müşavirə otağında qərar elan edilərkən baxılacağını deyib və vəsatəti bu səbəbdən təmin etməyib.

Prosesdə məhkəmə istintaqının başa çatdığı elan olunub.

Prokuror çıxış üçün məhkəmədən vaxt istəyib.

Proses iyulun 14-də davam etdiriləcək.

Qeyd edək ki, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan A. Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi əsasında təqsirləndirilən şəxs qismində cəlb edilərək beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya edilib.

A.Lapşin Cinayət Məcəlləsinin 281.2 (dövlətə qarşı açıq çağırışlar) və 318.2 (sərhədi qanunsuz keçmək) maddələri üzrə ittiham olunur.



## Rayonlarda şimşək çaxacaq, yağış yağacaq

**İyulun 13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, şimal-şərq küləyi əsəcək.

Havanın temperaturunun yarımadada gecə 21-24° isti, gündüz 29-34° isti, Bakıda gecə 22-24° isti, gündüz 31-33° isti olacağı gözlənilir.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 21-22°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 22-23°, Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən, dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 20-25° isti, gündüz 32-37° isti, dağlarda gecə 12-17° isti, gündüz 20-25° isti olacaq.

## Vergilər Nazirliyində beş sahibkar barəsində həbs-qətimkan tədbiri seçildi




**2017-ci ilin I yarısında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 139 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 7 milyon 806,5 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.**

Nazirlikdən APA-ya verilən məlumata görə, 38 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilib.

Departamentin İstintaq idarəsində 254 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 5 nəfər təqsirləndirilən şəxs barəsində həbs-qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 65 iş üzrə 75 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 13 nəfər şəxs tutularaq departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 129 şəxsin məcburi qaydada gətirilməsi, 172 şəxsin tapılaraq istintaqa gəlmələri, 190 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 82 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlmələri təmin olunub.

## Azərbaycanda 3 nəfər zəhərlənmədən ölüb

**Bu ilin 6 ayında 188 zəhərlənmə hadisəsi qeydə alınıb. Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən virtualaz.org saytına verilən məlumatda deyilir ki, zəhərlənmə nəticəsində 3 nəfər dünyasını dəyişib.**

İlin birinci yarısında 285 nəfər zəhərlənib. 21 botulizm hadisəsi baş verib. İyun ayında 24 zəhərlənmə qeydə alınıb, nəticədə 31 nəfər zərər çəkib.

Qeyd edək ki, zəhərlənmələrin ən ağır forması insan ölümünə səbəb olan botulizmdır. Oksigen olmayan şəraitdə botulotoksin əmələ gəlir və insanda botulizm adlı xəstəlik baş verir. Zəhərlənmələrin əksəriyyəti evdə hazırlanan qidalardan baş verib.



## Pirallahıda şpris istehsal edən zavod tikiləcək

**Pirallahı Sənaye Parkının yeni rezidenti - "Diamed Co" MMC tərəfindən burada qabaqcıl Avropa ölkələri, eləcə də Yaponiya və Koreya texnologiyaları əsasında ildə 55-58 milyon ədəd müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı nəzərdə tutulur.**

İqtisadiyyat Nazirliyi bildirir ki, zavodda şpris istehsalı zamanı yerli və xarici xammaldan istifadə edilməsi planlaşdırılır.

Zavod tam gücü ilə işə düşdükdən sonra Azərbaycanda əczaçılıq sənayesinin inkişafında əhəmiyyətli rol oynamaqla, daxili tələbat yerli istehsal hesabına keyfiyyətli birdəfəlik şprislə təmin edəcək, bu məhsullara idxaldan asılılığı azaldacaq və ixrac potensialını artıracaq.

Müasir avadanlıqlar və texnologiyalarla təchiz ediləcək zavodda 50 yeni iş yeri açılacaq.

## Erməni əsgəri Azərbaycan əsgərinə məktub yazdı

**Ekspress nəşri erməni ordusunun müddətli hərbi qulluqçusunun Gürcüstanda tanış olduğu dostuna - Azərbaycan əsgərinə ünvanlanmış məktubunu dərc edib.**

Virtualaz.org-un Ermənistan bürosu bildirir ki, məktubda deyilir: "Məni orduya çağırdılar və iki il mən də nifrət oyadan yerdə olacağam. Biz ölkələrimizin münaqişəsi haqqında çox danışırdıq və səndə bütün bunlara mənim baxışlarım haqda ümumi fikir var. Beləliklə, sənə yazıram ki, xatırlayasan. Bir çox millətçilərin, nasistlərin, psevdopatriotların və başqalarının içərisində həmçinin mən də xidmət edirəm. Və sən erməni milləti (dolaşıq yazılıb-red.) və erməni ordusu haqqında nə eşitsən də, bil ki, mən də oradayam. Böyük nifrətlə və seçim haqqı əlindən alınmış vəziyyətdə".

Hərbçinin qeyd etdiyi kimi, ona təskinlik verən yeganə məqam odur ki, iki ildən sonra azad olacaq və onda üzərində "boynuna dolanmış heç bir borc" qalmayacaq.

"Uğurlar sənə, qardaş və bil - bizim kimiləri az deyil!" - deyə erməni əsgəri azərbaycanlıya yazdığı müraciətini tamamlayıb.

## Britaniyanın neft servis şirkəti Azərbaycanı tərk edir

**Böyük Britaniyanın "Petrowell" neft servis şirkətinin filialı "Petrowell Caspian LTD" Azərbaycandakı nümayəndəliyinin bağlanması barədə elan edib.**

"Trend"in məlumatına görə, şirkətin kreditorları öz tələblərini növbəti iki ay ərzində Bakı, M.Muxtarov küçəsi 203A, 37 ünvanına irəli sürə bilərlər.

Qeyd edək ki, "Petrowell" şirkəti müxtəlif neft-qaz avadanlığının layihələndirilməsi, hazırlanması, istehsalı və sınaqdan keçirilməsi sahəsində ixtisaslaşır.

# Ölkənin danışdığı hadisə - oğlu generalı necə rüsvay etdi

## Prezident məmurlara yenidən xəbərdarlıq etdi; **işdən qovulan general:** "Mən özümdən başqa heç kimdə günah görmürəm"

**Avtobus sürücüsünə hücum edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini (artıq sabiq müavin - red.) Novruzəli Orucovun oğlu Rüstəm Orucov həbs edilib, Novruzəli Orucov isə prezidentin sərəncamı ilə vəzifəsin-**




Baş Prokurorluq generalın oğlunun həbs edilməsi ilə bağlı açıqlamasında bildirib ki, 2017-ci il iyulun 3-də Bakı şəhər sakini Rüstəm Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu 8 dayanacaq təqib edərək sərnişinlərin narahatçılığına və insanlarda vahiməyə səbəb olub, vətəndaşların gözü qarşısında bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib. Baş Prokurorluğun məlumatında həmçinin qeyd edilir ki, Rüstəm Orucov piyadanın ölümünə səbəb olan yol nəqliyyat hadisəsi törədib hadisə yerindən qaçdığına görə hələ 2014-cü ildə 4 il müddətinə azadlıqdan məhrum olub, 2016-cı ildə isə şərti olaraq vaxtından əvvəl azad edilib. Yuxarıda qeyd olunmuş xuliqanlıq hadisəsi də məhz onun şərti azadlıqda olduğu dövrdə baş verib. Faktla bağlı 2017-ci il 4 iyul tarixdə Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb. Rüstəm Orucov həmin maddə ilə ittiham olunaraq barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

İyulun 11-də isə prezident İlham Əliyev general-mayor Novruzəli Orucovun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.




Ölkə prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iyulun 12-də keçirilən iclasında bir daha məmurlara xəbərdarlıq edib.

Prezident deyib ki, dövlət məmurları və onların ailə üzvləri davranış normalarına ciddi əməl etməlidirlər.

Dövlət başçısı xalqa xidmət, təvazökarlıq, təkəbbürlü davranmamaq prinsiplərinin dövlət məmurlarının əsas həyat və fəaliyyət normasına çevrilməsinin zəruriliyini vurğulayıb. Prezident bu məsələdə heç kimə güzəşt olunmadığını və bundan hamının nəticə çıxarmalı olduğunu bildirib.

Yada salaq ki, bundan əvvəl "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin keçmiş sədr müavini Mübariz Mədətov oğlunun "qurbanına" çevrilib. Belə ki, M.Mədətovun oğlu Xalid Mədət xalq artisti, məşhur tarzən Ağasəlim Abdullayevin həyat yoldaşı və nəvəsinin ölümünə səbəb olan nəqliyyat qəzası törədib. Bahalı "Mercedes-Benz G-55" avtomobilini həddən artıq sürətlə idarə etdiyi üçün sözügedən şəxslərin həyatına son qoymuşdu. Nəticədə X.Mədətovun özü həbs edildi, atası isə vəzifəsindən azad olundu.

Sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov da bir neçə il öncə vəzifəsini oğlunun İsmayıllıda sakinlərlə kobud davranışı və rayonda gərginliyə səbəb olma üzündən vəzifəsini itirməli olmuşdu. Nazirin İsmayıllının o zamankı icra bağçısı olan qardaşı da bu olaydan sonra vəzifədən kənarlaşdırılmışdı.

Zığ şossesində avtoxuliqanlıq etdiyi haqda məlumat yayılan polis əməkdaşı Tural Həsənovun atası, Dövlət Gömrük Komitəsinin Yevlax Gömrük İdarəsinin rəisi Əliməmməd Həsənov da övladının ictimai yerdə qaydaları kobudcasına pozduğuna, qanunlara hörmət etmədiyinə görə tutduğu vəzifədən azad edilib. T. Həsənovun özü də polis orqanlarından da xaric olunub.

Hələlik isə ən son Novruzəli Orucovun vəzifəsinə övladı baiskar oldu.

Bu hadisənin sonuncu olması üçün nə olmalıdır?

**Deputat Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ölkə prezidenti bundan öncə də övladları qanun-qaydanı nəzərə almayan bir neçə yüksək vəzifəli məmuru işdən azad edib. Bu addım da bir ciddi xəbərdarlıqdır:** "Məmur övladları sadə insanlardan daha çox məsuliyyətli olmalıdırlar, harınlıq etməməlidirlər. Bilməlidirlər ki, harınlıq etmələri sonda həm özlərini, həm atalarını zərbə altında qoyacaq. Çoxlu vəsaitin olması o demək deyil ki, qanunları tapdalamalısan, özündən kasıb insanları əzməlisən. Heç kimin hüququnu pozmağa heç kimin ixtiyarı yoxdur. Məmur övladları başqalarına müsbət nümunə olmalıdır. Mən general Novruzəli Orucovun müsahibəsini oxuyanda ona yazığım gəldi ki, övladı onu gətirdi hansı duruma saldı. Dövlət vəzifəsi daşıyan valideynlər bu məsələdə daha məsuliyyətli olmalıdırlar. Vəzifəli şəxslər bilməlidirlər ki, övladlarına aşırı dərəcədə sərbəstlik verməmələri, aşırı dərəcədə vəsait ayırmaları gec-tez onların özlərinin başağrısına çevriləcək. Əziyyətsiz əldə edilən böyük vəsaitlər onlarda harınlıq yaradır. Valideynləri onların baş ağrısına çevriləcək bu cür övladlarına nəzarəti gücləndirməlidirlər. Övlad da başa düşməlidir ki, atası vəzifədədirsə, özünü daha məsuliyyətli, tərbiyəli aparmalıdır".

**Deputat Zahid Oruc isə prezidentin qərarını dürüst məmur obrazının formalaşdırılması üçün prezidentin uzun illər həyata keçirdiyi xəttin növbəti həlqəsi adlandırıb:** "Ötən on illər ərzində cənab prezident komanda üzvlərinə qarşı təvazökarlıq, xalq qarşısında hesabatlılıq, hər bir hərəkətlərinin ölçülü-biçili səviyyədə aparılması kimi keyfiyyətləri tələqin edib. Bəziləri isə nəticə çıxarmayıblar. Düşünürəm ki, belə qanunsuzluqlara, səhvlərə yol verən hər hansı şəxsin özü, yaxud ailə üzvünün davranışına göstərilən reaksiya, həm cəmiyyətin rəyini, həm də komanda üzvlərinin hər birinin yaxın çevrəsinə nümunəvi təsir göstərən, onları hüququn çərçivəsinə alan tədbirlərdir. Biz başa düşməliyik ki, vəzifə məsuliyyət deməkdir. Biz vəzifəni prestij, yaxud özünü başqalarından fərqləndirmək, onun üzərində dominantlıq təşkil etmək, imkanlarının qabarıq nümayişinə çevirməməliyik. Dövlət başçısı bir daha sübut etdi ki, o, hər kəsə bu kriteriyadan yanaşır. Prezidentin son qərarı hər birimizin ürəyindən xəbər verir və hamımız üçün bir siqnaldır".

**Novruzəli Orucov isə oğlunun törətdiyi cinayətə görə özünü günahkar sayır. Bu barədə o, dünən yenicag.az-a açıqlamasında belə deyib. N.Orucov bildirib ki, prezident onu daha əvvəl işdən çıxartmalı idi:** "Hadisədir baş verib, mübahisə yaranıb və sonu da belə olub. Bu məsələdə vəzifəli şəxs kimi mənim də səhvim çox böyük olub, uşağı başlı-başına buraxmışam. Başlı-başına deyəndə ki... Mən özüm atasız böyümüşəm, istəməmişəm ki, uşaqlarım da nəyinsə ehtiyacını çəksinlər. Atam Böyük Vətən müharibəsinin iştirakçısı olub, 1943-cü ildə yaralanıb gəlmişdi, onu altı yaşımda itirmişəm. Altı uşaq olmuşuq, çox ağır ailə həyatı sürmüşəm. Ancaq böyüdük, oxuduq, hamımız ali təhsil aldıq.

Deyim ki, oğlum birinci hadisəni törədəndə cənab prezident, Ali Baş Komandanım mənə çox hörmət elədi, məni o zaman işdən çıxartmalı idi. Açığı, onda özüm də işdən getməyə hazırlaşırdım. Ancaq xidmətlərim nəzərə alındı və işimə davam etməyim məsləhət oldu. Bu dəfə hadisə ilə bağlı cənab prezidentə məruzə edilib və o da qərarını verib. Mən özümdən başqa heç kimdə günah görmürəm. İki oğlum, bir qızım var. Bu, mənim sonbeşiyimdir, bir az ərköyün böyütdük. İdmançı uşaqdır, 1200 metrdən paraşütdən tullanmaq üzrə dünya rekordçusudur.

Bir ata kimi, bir general kimi bütün valideynlərə səslənirəm, yeri gələndə övladlarını sıxsınlar, xüsusilə oğlan uşaqlarına lap bir sillə vursunlar ki, onlar pis hərəkətlər etməsinlər".

❑ **Etibar SEYİDAĞA**



## General oğlunun döydüyü sürücü...

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini, Həqiqi hərbi xidmətə çağırış baş idarəsinin rəisi Novruzəli Orucov tutduğu vəzifədən azad olunub.**

Yenicag.az xəbər verir ki, general-mayorun işindən azad olunmasına səbəb olan oğlu Rüstəm Orucovun xuliqanlıq əməlinə görə həbs olunmasıdır.

O, "Xaliq Faiqoğlu" MMC-yə məxsus 85 saylı marşrutun sürücüsünü döyməkdə təqsirli bilinir. Hadisə zamanı zərərçəkən sürücü Səmədov Sənan Mehman oğlunun fotosunu təqdim edirik.

## "Qarabağ"la oyunda baş verənlərlə bağlı DİN-dən açıqlama

**Bəzi KİV-lərdə iyulun 11-də Bakıda keçirilən "Qarabağ" - "Samtredia" matçı öncəsi bir qrup azarkeşin ermənilərin qətlə yetirdikləri 2 yaşlı Zəhra haqqında hazırladıqları pankartı polis əməkdaşlarının stadiona buraxmadıqları və buna görə də həmin azarkeş qrupun üzvlərinin matçı tərk etməsi barədə xəbər yayılıb.**

İddiaların doğru olub-olmadığını öyrənmək üçün DİN-in mətbuat xidməti ilə əlaqə saxladıq.

Mətbuat xidmətinin şöbə rəisi **İlham Babayev** musavat.com-a bildirib ki, belə bir fakt qeydə alınıb: "Əvvəla, onu deyim ki, öz xalqına və dövlətinə sədaqətlə xidmət edən Azərbaycan polisi 2 yaşlı Zəhra balamızın faciəsi ilə əlaqədar olan ümumxalq kədəri, düşmənə nifrəti ürəkdən bölüşür. Lakin dünən bu faciədən öz çirkin siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstərən ünsürlərə rast gəldik. Belə ki, futbol matçı öncəsi stadionda və ətrafında ictimai asayişə və ictimai təhlükəsizliyə nəzarəti həyata keçirən polis əməkdaşları qeyd edilən pankartla yanaşı, digər siyasi məzmunlu şüar və plakatları da daşıyan bəzi dırnaqarası azarkeşlərin stadiona daxil olmalarının qarşısını alıblar. Bu zaman məlum olub ki, belə şüarların əksəriyyəti Azərbaycanı istəməyən bəzi xarici kəşfiyyat orqanlarının həbsdə olan nökərlərinin azadlığa buraxılmasını tələb edən siyasi məzmun daşıyır. Deməli, bu ünsürlər 2 yaşlı günahsız Zəhra balamızın faciəsindən sui-istifadə edərək öz çirkin məqsədlərini həyata keçirməyə cəhd edirlərmiş".

**İ.Babayevin sözlərinə görə, bundan əlavə, ölkəmizin də üzv olduğu Avropa Konvensiyası, eləcə də "Bədən tərbiyəsi və idman haqqında" Qanun kütləvi oyunlar, futbol matçları zamanı idmana aid olmayan pankartların, şüarların stadiona keçirilməsini qadağan edir:** "Belə hal qeydə alınarsa, ev sahibi olan kluba, idman təşkilatına beynəlxalq sanksiyalar tətbiq olunur və yarışlardan kənarlaşdırılmaya qədər cəzalandırıla bilər".

**Mətbuat xidmətinin şöbə rəisi deyib:** "Ona görə də bir qrup dırnaqarası azarkeşin polis əməkdaşlarının bu hərəkətini qınaması ədalətsizlikdir. Əksinə, asayiş keşikçilərimiz düşmən tərəfindən qətlə yetirilən məsum körpənin faciəsindən yararlanaraq idmanla heç bir əlaqəsi olmayan öz siyasi məqsədlərinə çatmaq istəyənlərin və bununla da dövlətimiz, idmanımız haqqında beynəlxalq arenada mənfi fikir formalaşdırmağa uğursuz cəhd edənlərin qarşısını alıblar. Azarkeş "fan-klub" adından sui-istifadə edən beləlləri birdəfəlik bilməlidirlər ki, bundan sonra da siyasi məqsədlər üçün heç kimə bu cür hərəkətləri təkrarlamağa imkan verilməyəcək".

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Rüfət Aslanlının "aslan" maaşı gündəmdə

## Natiq Cəfərli: "Təkzibin normal şəkildə verilməməsi şübhələr yaradır"

**Maliyyə Bazarlarına Nəzarət Palatası rəhbərliyinin əməkhaqları ilə bağlı sensasion məlumat dərc edilib. İki gündür mediada və sosial şəbəkələrdə ciddi müzakirə mövzusuna çevrilən bu məlumatda iddia edilir ki, Palatanın Direktorlar Şurasının sədri Rüfət Aslanlı ayda 65 min manat, müavinlərinin hər biri 38000, icraçı direktor 18000, departament direktorları 10000, sıravi işçilər isə 800-1500 manat rəsmi məvacib alırlar.**

Təkcə Rüfət Aslanlı və 2 müavininin əməkhaqlarının ödənilməsinə ildə 2 milyon manat vəsait sərf edildiyi qeyd edilir.

Qeyd edək ki, Rüfət Aslanlının iddia edilən maaşı prezident İlham Əliyevin maaşından 4 dəfə, ölkədəki orta aylıq əməkhaqqından 130, orta aylıq pensiyadan 325 dəfə çoxdur.

**Modern.az bu iddialarla bağlı Maliyyə Bazarlarına Nəzarət Palatasından cavab almağa çalışıb. Palata sorğuya cavab olaraq yayılmış məlumatları təkzib edib:** "Bu cür məlumatlar həqiqətə uyğun olmadığından şərhə ehtiyac görmürük. Bunun həqiqət olmasına inanmaq özü sadəlövhlükdür".

İki gün boyunca mediada və ictimai müzakirələrdə geniş rezonans doğuran bu xəbər təkzib olunsa da, yenə də onun mənbəyi maraq mövzusu olaraq qalır. Bu rəqəm havadanmı götürülmüşdü? Bunu yayan sayt kimə və hansı mənbəyə istinad edirdi? Yenə yazdıqları xəbərin arxasında dayanırlarmı?

**Xəbəri yayan moderator.az saytının baş redaktoru Zülfüqar Hüseynzadə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, onlara gələn bir informasiya əsasında belə bir xəbər yayıblar. Amma müsahibimiz təkzib verildiyi üçün mövzunun da onlar üçün qapandığını dedi:** "Məsələni ictimailəşdirdik. Kaş ki, doğru olmasın. Bizim əsas missiyamız prezidentin çağırışlarına dəstək verməkdir. Bugünlərdə hətta Özbəkistan prezidenti demişdi ki, korrupsiyadan yazın. Biz bu cür məlumatı ictimailəşdirməklə həmin qurumun nüfuzuna xələl gətirmirik".

**"Könül istərdi ki, biz yanılaq, belə şeylər olmasın" deyən müsahibimizə görə, oxucular da onlara çoxsaylı müraciətlər edir. Baş redaktorun sözlərinə görə, indi hər kəs banklara borcludur. Bu məsələ ilə bağlı müvafiq qurumlara tapşırıq verilib ki, məsələ həllini tapsın, şəffaflıq olsun:** "Banklar insanların mal-mülkünü alırlar, onları borclarına görə çox pis duruma salırlar. Amma bizim kimisə hədəfə götürmək fikrimiz yoxdur. Sadəcə, bu informasiyanı dəqiqləşdirmək imkanımız olmayıb. Dediyim kimi, təkzib yayılandan sonra isə mövzu bizim üçün qapandı".


Rüfət Aslanlı

**İqtisadçı ekspert Natiq Cəfərli isə hesab edir ki, prinsipial, texniki və qanunvericilik baxımdan belə məvacib durumunun olması mümkündür. Müsahibimiz xatırlatdı ki, Rusiyanın dövlət orqanlarında məvaciblər milyonlarla ölçülür:** "Sadəcə, təkzibin normal şəkildə verilməməsi, ictimaiyyətə informasiyanın detallı çatdırılmaması şübhələr yaradır. Həmin qurumun rəhbərliyi bu məlumatdan sonra sakinləri qane edəcək səviyyədə açıqlama verməlidir. Dövlətin təsis etdiyi bir qurumdan söhbət gedir. Cəmiyyət orda çalışan insanların məvaciblərini bilməlidir. Bu açıqlama xatirinə açıqlama vermək şübhələri daha da artırır".

**N.Cəfərli bir daha vurğuladı ki, səslənən rəqəmlərin gerçəyi əks etdirməsi mümkündür. Amma hansı qurumun, hansı gəlirliliyin müqabilində bunun yazılması əsas sualdır:** "Publik hüquqi şəxs olsa da, banklardan müəyyən üzvlük haqqı, faiz qazanır. Bu Palata keçən ili gəlirlə yox, zərərlə başa vurub. Yaradılışının ilk ilində zərərlə qapadıb ili. Əslində isə mən belə düşünürəm ki, dövlət idarələrində, nazirliklərdə çalışan insanlar yüksək maaş almalıdılar ki, korrupsiyanın qarşısını alsınlar. Şəffaf və açıq olmalı insanlar barədə informasiyalar da açıq olmalıdır. Nazir və məmurların həyat tərzinə baxanda məlum olur ki bu maaşla belə dəbdəbəli həyat tərzi keçirmək olmaz. Hansısa bir məmur bir imzası, qanunsuz bir əməli ilə milyonlar qazanırsa və yüksək maaşla onu bundan çəkindirmək mümkündürsə, bu, edilməlidir. Palatanın borcudur ki, ictimaiyyəti açıq şəkildə bu barədə məlumatlandırsın. Palata gəlirlər işləyirsə, top menecerlərin də yüksək məvacib alması tam mümkündür".

❑ Sevinc TELMANQIZI

# Ali Məhkəmə "üsyankar müstəntiq"i həbsdə saxladı

## Eldar Sabiroğlu: "Oğlumun həbs qərarını qüvvədə saxlayan hakimi vaxtilə bolluca tərifləmişdim..."

**İyulun 11-də Ali Məhkəmə Zərdab Rayon Prokurorluğunun müstəntiqi vəzifəsindən istefa verdikdən sonra həbs olunan Rüfət Səfərovun kasasiya şikayətini təmin etməyib. Prosesə hakim Gülzar Rzayeva sədrlik edib. R.Səfərov məhkəmə heyətinə etiraz etməyib. Vəkillər Bəhruz Bayramov, Yalçın İmanov və Fariz Namazlı keçmiş müstəntiqin günahının olmadığını, ittihamların istintaqda və məhkəmədə sübut olunmadığını, istintaqın və məhkəmələrin qanun pozuntuları ilə keçirildiyini bildirib. Vəkillər məhkəmədən cinayət işinə xitam verilməsi və Rüfət Səfərova bəraət verilməsi barədə qərar qəbul etməsini xahiş edib.**

**Vəkil Yalçın İmanov** deyib ki, məhkəmə vəkilə və Rüfət Səfərova son çıxışa hazırlaşmaq üçün vaxt verməyib. "Hüququn əsas prinsipi belədir: "Bir şahid şahid deyil". İstənilən adam istənilən şəxsə şər ata bilər və istədiyini deyə bilər. Rüfət Səfərova qarşı deyilən rüşvəti sübut edən hər hansı fakt yoxdur və təsdiq edilməyib".

**Vəkilin və R. Səfərovun son söz deməsi üçün birinci instansiya məhkəməsi cəmi 15 dəqiqə vaxt verib.** "Şəxsin özünü müdafiəsi üçün hazırlaşmağa cəmi 15 dəqiqə vaxt verilirsə, bu məhkəmənin sifarişi notarial qaydada təsdiqi kimi başa düşülməlidir" deyə, Y. İmanov qeyd edib.



**R.Səfərovun atası Eldar Sabiroğlu isə məhkəmə barədə sosial şəbəkədəki statusunda qeyd edib ki, bu dəfə oğlunu dəmir barmaqlıqlar arasına yox, şüşəli qəfəsin içərisinə salmışdılar. "Sanki qatı cinayətkar kimi qaçışından ehtiyat edirdilər" deyən E.Sabiroğluna görə, müttəhimin anası Tahirə xanımla bu mənzərəni seyr etmək onlara son dərəcə ağır gəlib:** "Övladım bir günahın sahibi deyil, amma həbsxanadadır. Güvəncimiz yenə Uca Rəbbimizədir. Yalnız onun ədalətinə inanır və tapınırıq. Gün gələcək ki, qaranlıqların üzərinə bir işıq düşəcək, həqiqəti, doğruları dediyinə görə 9 il müddətinə azadlıqdan məhrum edilən Rüfətin və digər günahsız həbs edilənlərin əzablı taleyi aydınlığa çıxacaq. Arzuları çoxdur Rüfətin. Allah yerdə qoymaz yəqin".

**Oğlunun şüşəli qəfəsin içində çox məğrur göründüyünü deyən E.Sabiroğlu özünün, anasının və məhkəmədə iştirak edən dostlarının onun cəsarətli, məntiqli çıxışından qürur duyduğunu vurğulayıb:** "Bu məmləkətdə müstəntiq vəzifəsinin nə demək olduğunu hər kəs gözəl bilir. Rüfət karyeranın və komfortun, gün-güzəranın üzərindən xətti çəkib ədalətli bir ölkədə yaşamaq üçün istefa verib haqqın tərəfində durdu. Əgər rüşvəti belə sevən idisə nədən vəzifəsindən ayrılırdı? Qalıb işləyər, bir tərəfdən də o çapıb-talayardı. Ancaq istefasından sonra üzünə öyrədilmiş idarə rəislərini qoyaraq onu "içəriyə" atdılar."

**E.Sabiroğlu oğlunun həbs qərarını qüvvədə saxlayan hakim barədə də maraqlı faktlar yazıb:** "Ali Məhkəmənin hakimi Gülzar Rzayeva ədalətsiz hökmü qüvvədə saxladı. Həmin an qeyri-ixtiyari gözlərim Gülzar xanıma dikildi. Onun hakim kimi Milli Məclisdə təsdiq edildiyi anları xatırladım. O zaman rəhmətlik Murtuz Ələsgərovdan söz alaraq Gülzar xanım Rzayevanı bolluca tərif etmişdim. Bilmirəm yadında qalıb, ya yox. Xatırlasa belə, indi onun üçün yəqin ki heç bir əhəmiyyəti yoxdur.Çünki ona və onun kimilərə rəyasət lazımdır. Rəyasət! Amma vaxtilə etdiyim həmin çıxışa görə peşman deyiləm. Və etdiyim tərifləri də həmin hakim xanıma halal edirəm. Nəhayət, hakim qərarını bitirdi. Rüfətin anası Tahirə xanım isə salonda yox idi. Sən demə, ana övladına su alıb gətirmək üçün yaxınlıqdakı mağazaları gəzirmiş. O, yubandı. Gülzar xanımın oxuduğu son qərarı eşidə bilmədi. Mən isə diqqətlə izləyirdim. Hakimin çöhrəsindəki təkkəbbürlülük və özündənrazılıq hisslərindən duyğulandım və hakim ananın evə qayıtdıqdan sonra övladlarının və nəvələrinin üzünə necə baxacağını düşündüm. Bir də ki, onlar belə şeylərə öyrəşiblər. Belələrindən insaf və ədalət gözləməyin yeri və mənası varmı?! Beləliklə, 9 illik həbsə atılan Rüfətin 9-cu məhkəmə salonundakı işi də beləcə yekunlaşdı. Görək, bundan sonra Rüfəti daha hansı işgəncələr, karserin daha hansı əzab-əziyyətləri gözləyir?! "

2016-cı il yanvarın 15-də R.Səfərov rüşvət almaq ittihamı ilə həbs olunub. Lakin yanvarın 22-də o, ev dustaqlığına buraxılıb. R.Səfərov ittihamı rədd edib və cinayət işinin sifariş olduğunu bildirib. O, ev dustaqlığı dövründə də əvvəlki fikirlərindən geri çəkilməyib, tənqidi bəyanatlarını davam etdirib.

Keçmiş müstəntiq Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 2016-cı ilin sentyabrında 9 il azadlıqdan məhrum olunub. Elə məhkəmə zalında da həbs edilib.

2016-cı il dekabrın 22-də Şirvan Apelyasiya Məhkəməsi onun şikayətini təmin etməyib.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Mətbuat orqanları çətin durumda: ixtisarlar media sektoruna da sıçradı

**Hökumətdə ciddi struktur və kadr islahatlarının aparılacağı barədə uzun müddətdir mətbuatda məlumatlar gedirdi. Hətta son olaraq, bu barədə "Yeni Müsavat" qəzetində yazı dərc olunmuşdu. Yazıda qeyd olunurdu ki, İslamiada və Formula-1 yarışlarından sonra hökumətdə neçə vaxtdır gözlənilən struktur islahatlarına başlanılacaq.**

Artıq YAP-ın icra katibinin müavini Siyavuş Novruzov da bunu APA-ya müsahibəsində təsdiq edib. S.Novruzov həm bəzi dövlət qurumlarının ləğv ediləcəyi və birləşdiriləcəyi anonsunu verib, həm də nazir müavinləri səviyyəsində kadr islahatlarının aparılacağını istisna etməyib.

Göründüyü kimi, dövlət iqtisadi vəziyyətin çətinliyini anlayaraq, kəmərsıxma əməliyyatına başlayıb. Əminliklə demək olar ki, özəl sektorda vəziyyət heç də dövlət sektorundan yaxşı deyil. Bir-birinin ardınca müəssisələrin bağlanması, işçilərin ixtisar edilməsi, şəhərdə icarəyə verilən müəssisələrin sayının artması, iri holdinqlərin belə müxtəlif xərclərini ixtisar etməsi vəziyyəti göz önünə sərir.

Biznes sektorunda ən çox çətinlik yaşayan qurumlardan biri də media qurumlarıdır. Maliyyə təminatı əsasən reklamdan olan müstəqil mətbuat orqanları artıq o imkandan da məhrumdur. Çünki reklam verən şirkətlərin də vəziyyəti ağırlaşdıqca, ilk ixtisara düşən xərclər reklam xərcləri olur. Digər tərəfdən, nağdlaşdırma ilə bağlı qoyulan məhdudiyyətlər mövcud maliyyə mənbələrinə çıxışı da qapadıb. Nəticədə media qurumları da vəziyyətdən çıxmaq üçün bir neçə pis variantdan birini seçmək məcburiyyətində qalırlar.

Bəs görəsən, hazırda hansı media qurumları bu çətinliyi real olaraq yaşayır və onlar vəziyyətdən çıxış yolu kimi nələr etməyə başlayıblar?

**"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu sualımıza cavab olaraq bildirdi ki, son günlər məhz nağdlaşdırma ilə bağlı yaşanan maddi çətinliklər səbəbindən qəzetin aylıq 4 nömrəsi ixtisar olunub:** "Azərbaycanın biznes sektorunda vəziyyət olduqca gərgindir. Media sektorunda da bu gərginlik özünü göstərməkdədir. Artıq yarım ildən yuxarıdır ki, biz ekstremal vəziyyətdə işləyirik. Hesabdan nağdlaşdırılmanın məhdudlaşdırılması ilə bu vəziyyət daha kritik həddə çatıb. Üstəlik, məhz bu qərardan sonra bizim bir sıra reklam verənlərimiz, təxminən 4-ə yaxın hüquqi şəxs bizi tərk edib. Yerdə qalan 3 çox ciddi firmaya məxsus reklam verənimiz isə bir neçə aydır ki, pulları ödəyə bilmir. Belə bir vəziyyət bizim üçün kritik situasiya yaradıb. Ancaq biz çətin anlarda dostlarımızı, əməkdaşlarımızı kənara atmaq taktikası ilə vəziyyətdən çıxmağa üstünlük vermədik. Bu dəfə də qəzetin dövriliyini azaltmaq və dövrilikdən kəsmək qərarını verdik. Biznes qanunlarına görə, kəsilən pulların əvəzində 3 və ya 4 əməkdaşımızı ixtisar etməli idik. Biz bu yolu yox, qəzetin dövriliyini ayda 4 dəfə aşağı salmaqla kağızın, qəzet kağızı üçün olan dəmir lövhələrin və çap pulunun qənaəti hesabına qarşıdakı iki ayda vəziyyətdən çıxmağı yoxlayacağıq. Ümid edirik ki, bu vəziyyətdən çıxa biləcəyik".

**Media kapitanı bildirdi ki, əgər mövcud durumdan çıxmaq mümkün olmasa, qarşıda Azərbaycan mətbuatını, özəlliklə yazılı mətbuatı heç də yaxşı nəticələr gözləmir:** "Biz bu barədə dövlət yetkililəri ilə də danışırıq. Onlarla da yazışmalar aparırıq. Mətbuat günü yaxınlaşır. Vəziyyət bu qədər çətin olsa, mən həmin gün ərəfəsində ölkə rəhbərliyinə, prezident İlham Əliyevə müraciət edəcəyəm. Bildiyiniz kimi, prezident İlham Əliyev yazılı mətbuatın qorunması üçün əlindən gələni edir. O, bir fond yaradıb, həmin fond ildə 120 min manat vəsaitlə 33 qəzetə kömək edir. Ancaq bu, kifayət deyil. Çünki qəzet kağızının qiyməti həddindən artıq qalxıb. Kağıza əlavə dəyər vergisi də qoyulub ki, bu da ayda "Yeni Müsavat"ın xərclərini 400-500 dollar artırır. Belə olan halda, biz vəziyyətdən çıxış yolu üçün, ölkədə yazılı mətbuatın tamamilə sıradan çıxmaması üçün prezidentə müraciət etmək məcburiyyətində qalacağıq".

**"APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, rəhbərlik etdiyi qurumun idarəetmə siyasəti optimal, daha az, lakin peşəkar kollektivlə işləmək, daha yüksək nəticəyə nail olmaqdır:** "Bizim şirkətin strukturlarında əlavə ştat vahidi saxlanılmır. Ona görə də ixtisar etməkdənsə, əlavə xərcləri azaltmaq, şirkət olaraq daha çox marketinq, piar işi qurmaq, daha çox reklam cəlb etməklə qazanc əldə etmək və xərcləri optimallaşdırmaq barədə qərar qəbul etmişik. Artıq iki ilə yaxındır ki, bu cür də davam edirik".

**"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev də mətbuatın xüsusilə yay aylarında maliyyə çətinliyi yaşamasını gizlətmədi:** "KİVDF-nin mətbuata və mediaya dəstəyinin başladığı 2009-cu ildən bu yana iqtisadi çətinliklərimiz xeyli dərəcədə aradan qaldırılsa da, tam şəkildə həllini tapmadı. Sözsüz ki, əvvəlki dövrlərlə müqayisədə xeyli dərəcədə az olsa da, var. Xüsusilə də yay aylarında bu çətinliklərin yeni təzahürləri meydana çıxır. Çünki yayda həm cəmiyyətdə yaşanan durğunluq mətbuata təsir edir, həm də qəzetlərə, informasiya qurumlarına ictimai maraq zəifləyir. Bunun nəticəsi olaraq qəzetlərin maddi durumunda fərq özünü göstərir. Maddi çətinliklərimiz az da olsa var, lakin mən bunlara müvəqqəti hal kimi baxıram. Çünki hər il yay aylarında vəziyyət belə olur. Ümid edirəm ki, yaxın aylarda, sentyabr-oktyabr aylarında bu çətinlikləri xeyli dərəcədə aradan qaldıra biləcəyik. Ancaq mən heç bir halda bu çətinliklərdən çıxmağın ağırlığını kollektivdə ixtisarlar aparmaq və ya qonorarı, əmək haqlarını aşağı salmağın hesabına həll etməmişəm. Bu il də həmin yolla getməyəcəyik. Çalışacağıq ki, işçilərin sayını da qoruyaq və əmək haqlarını da əvvəlki səviyyədə saxlayaq. Başqa bəzi xərclərimizi azaltmaqla bu yay dövrünün durğunluğundan çıxmağa çalışacağıq".



**Rauf Arifoğlu:** "Yarım ildən çoxdur ki, ekstremal vəziyyətdə işləyirik"



**Vüsalə Mahirqızı:** "Hədəfimiz daha az, lakin peşəkar kollektivlə işləyib yüksək nəticəyə nail olmaqdır"



**Aydın Quliyev:** "Bəzi xərclərimizi azaltmaqla durğunluqdan çıxmağa çalışacağıq"

❑ Nərgiz LİFTİYEVA

# Rusiyanın fiaskosu və ya Hamburq niyə Yalta olmadı?



**Hüseynbala SƏLİMOV**

**Sanki bu görüş büsbütün dünyanı dəyişəcək və Rusiyanın geosiyasi ambisiyalarını tamam sənədləşdirəcək, onlara siyasi mandat verəcəkdi. Amma bunların heç biri olmadı.**

İndi rusiyalı təhlilçilər arasında məyusluq var, çünki ikinci Yalta konfransı alınmadı. Hərçənd, Hamburq görüşü ərəfəsində onların çoxu Rusiya ilə ABŞ arasında ikinci Yalta konfransına bənzər anlaşmanın baş tutacağına ümid edirdi.

Yada salım ki, Yalta konfransı 1945-ci ildə olmuşdu və müharibədən sonrakı dünyanın ABŞ, SSRİ, İngiltərə arasında bölüşdürülməsilə başa çatmışdı. İndilik isə demək olar ki, nəhayət, ABŞ və Rusiya prezidentləri görüşə bildilər. Daha realistlər irəlicədən düşünürdülər ki, ən yaxşı halda yalnız Suriya məsələsində hansısa irəliləyiş ola bilər. Başqa məsələlər isə yalnız "zond" xarakteri daşıyacaq və tərəflər ayrı-ayrı məqamlarla bağlı bir-birinin mövqeyini öyrənməyə cəhd edəcək.

Belə pessimist proqnozlar boş yerdən qaynaqlanmırdı. Donald Tramp ABŞ cəmiyyətinin və müvafiq strukturlarının ciddi nəzarəti altındadır. Onun kiçik güzəşti belə öz ətrafındakı şübhə atmosferini bir az da tündləşdirə bilərdi.

Amma təbii bir sual yaranır. Sonra nə olacaq? Vaxtilə politoloq Z.Bjezinski dünyada beş geosiyasi mərkəz-qütb müəyyənləşdirmişdi. Onlardan dördü dünya xəritəsində oturuşub. Bunlar ABŞ, Avropa, Rusiya və Çindir. Ən maraqlısı odur ki, təkcə ABŞ-la Rusiya arasında deyil, elə ABŞ-la Çin və yaxud ABŞ-la Avropa arasında da müəyyən "sürtünmə" duyulur və bu, özünü Hamburq ərəfəsində də büruzə verdi.

Görüş ərəfəsində ABŞ-la Avropa arasında müəyyən qədər söz "atışması" oldu, Çinlə Rusiya rəhbərləri isə özlərinin 22-ci görüşlərini keçirdilər. Maraqlı tərəfi budur ki, Avropanı da, Çini də müəyyən mənada ABŞ siyasətinin "körpə"ləri adlandırmaq mümkündür.

Düzdür, vahid Avropa ideyasının çox böyük tarixi var - ən azı, gedib Napoleon dövrünə çıxır. Amma bu ideyanın gerçək xarakter alması, onun institusional mahiyyət tapması üçün ABŞ çox böyük töhfə verib. Çini isə ABŞ üçün vaxtilə sabiq dövlət katibi H.Kissincer kəşf etmişdi. Amma indi bu iki ünvan - Avropa və Çin müstəqil geosiyasi vahidlər kimi çıxış edirlər.

Bütün bunlar o deməkdir ki, ən azı bir müddət çoxqütblü dünya modeli üstünlük təşkil edəcək. Bu isə özündə müəyyən qədər qeyri-müəyyənlik və hətta bir az xaos da ehtiva edir. Amma nə etmək olar? Böyük hesabla birinci "soyuq müharibə"nin müəyyənliyi artıq keçmişdə qalıb. Bunun da səbəbləri var.

Əsas budur ki, məsələn, hətta Rusiyaya qarşı belə, "vahid cəbhə" yaratmaq mümkün deyil, çünki böyük geosiyasi ambisiyaları olsa da, daha Rusiya əvvəlki dövrlərdə olduğu kimi, qlobal siyasi və ya iqtisadi çağırışları daşımır özündə. Bəs onda nəyə ümid etmək qalır?

Yalnız bir sıra ədədlər müəyyən təskinlik verir. Məsələn, ABŞ-ın təkcə hərbi büdcəsi Rusiyanın total büdcəsindən iki dəfə və NATO-nun illik büdcəsi Rusiyanın hərbi büdcəsindən 15 dəfə böyükdür. Deməli, növbəti silahlanma yarışı olarsa, kimin irəli, kimin geri gedəcəyi elə bir tapmaca deyil.

İndi Rusiya iqtisadiyyatı planlı dövlət iqtisadiyyatı deyil, di gəl, o, yenə də rəqabət qabiliyyəti olmayan iqtisadiyyatdır və hətta ən patriotik rus iqtisadçıları belə, Rusiyanın sıçrayış edərək texnoloji cəhətdən inkişaf etmiş ölkələr sırasına qalxacağına inanmırlar.

Elə ona görə də söz yenə əlahəzrət iqtisadiyyatındır, əsl dünya liderini yenə də o, müəyyən edəcək - gec və ya tez...

Dünyadakı geosiyasi proseslərə baxanda da geoiqtisadi çalarlar heç də az nəzərə çarpmır. Dünyada nüfuz üstündə, enerji və tranzit imkanları uğrunda savaş gedir. Heç kimin də eslində güzəşt etmək fikri yoxdur.

Trampın hakimiyyətə gəlişi ərəfəsində elə hey bir sual verirdim: görən, ABŞ siyasəti nə qədər personifikasiya olunub, o, bir siyasi liderin siyasi simpatiya və antipatiyalarından nə qədər asılıdır?

İndi görürəm ki, ABŞ-da da siyasət daha çox institusional xarakter daşıyır və "Amerika arzusu" kimi elə "Amerika siyasət maşını" da real məzmuna malik məsələdir. Ona görə bir daha deyirəm ki, Rusiyanı böyük məyusluq gözləyir. Prinsipcə, dünyanın yenidən bölüşdürülməsi baş verə bilər, amma bundan əvvəl daha bir "soyuq müharibə" olmalıdır...

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

## “Bu, ABŞ-ın enerji layihələrinə dəstəyidir...”

**“ABŞ-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyub”.**

Bunu prezident İlham Əliyev iyulun 12-də Nazirlər Kabinetinin iclasında çıxışı zamanı deyib.

Bakıda keçirilmiş 24-cü Beynəlxalq Neft və Qaz Sərgisinə ABŞ prezidenti Donald Trampın ünvanlandığı məktubun əhəmiyyətindən danışan dövlət başçısı ABŞ dövlət katibi ilə bir neçə gün öncə İstanbulda keçirdiyi görüşü də yüksək qiymətləndirib: “Bu il 24-cü Xəzər neft-qaz sərgi və konfransı keçirilib. Bu sərgi və konfrans dünya miqyasında enerji sektorunda seçilmiş tədbirlərdən biridir. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, bu tədbirə Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Tramp məktub göndərib. Mənə ünvanlanan məktub əlbəttə ki, Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətini artırır, eyni zamanda Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycanın icra etdiyi uğurlu enerji layihələrinə göstərilən növbəti dəstəkdir. Əlbəttə ki, belə xoş münasibət Amerika-Azərbaycan əlaqələrinin uğurlu inkişafı üçün yeni zəmin yaradır.

Bir neçə gün bundan əvvəl Amerikanın dövlət katibi ilə İstanbulda görüşüm bir daha bizim strateji əlaqələrimizi təsdiqlədi və bu gün Amerika-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyur".




## DSX sədri məktub göndərdi, Rusiyadan təkzib gəldi

**Rusiya Federal Təhlükəsizlik Xidmətinin Ermənistandakı Sərhəd Qoşunları İdarəsi İran İslam Respublikası ərazisindən Azərbaycan Respublikası dövlət sərhədinin yarılması və şərti qaçaqmalçıların Dağlıq Qarabağ ərazisinə keçmək cəhdinin qarşısının alınması ssenarisi üzrə birgə təlimlərin keçirilməsi ilə bağlı iki gün əvvəl yaydığı xəbərə təkzib verib və onun mətnini dəyişib.**

Virtualaz.org bildirir ki, bu barədə erməni KİV-i məlumat yayıb.

Xatırladaq ki, əvvəlki məlumatda Rusiya Sərhəd Xidməti ilə Ermənistan sərhədçilərinin birgə hərbi təlimlərə başladıqları bildirilirdi. Vurğulanırdı ki, hərbi təlimdə Ermənistan-İran sərhədinin qorunması, həmçinin şərti qaçaqmalçıların “Dağlıq Qarabağ Respublikası”na keçməsinin qarşısının alınması ssenarisi sınaqdan keçirilib.

“İki şərti sərhəd pozucusu İrandan Ermənistana keçərək, Dağlıq Qarabağda gizləniblər. Döyüş tapşırığına uyğun olaraq, sərhədpozucularının axtarışı aparılıb və təlim uğurla başa çatdırılıb”, - deyə Rusiyanın Ermənistandakı sərhəd qoşunlarının mətbuat xidmətinin məlumatında deyilirdi.

Azərbaycan Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev tərəfindən bu məsələyə aydınlıq gətirilməsi məqsədilə iyulun 11-də Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin direktoru ordu generalı Vladimir Kulişova rəsmi məktub göndərilmişdi.

Yuxarıda haqqında bəhs etdiyimiz dəqiqləşdirmədə Rusiya Sərhəd Qoşunları Ermənistan sərhədçiləri ilə birlikdə İrandan Qarabağa keçmək istəyən sərhəd pozucularına qarşı təlimin keçirilməsi ilə bağlı məlumatı təkzib edib.

Məlumatda göstərilib ki, Rusiya və Ermənistan İranla sərhəddə təlimlər keçirib.

Təlimlərdə İran-Ermənistan sərhədini keçən şərti sərhəd pozucusunun Rusiyanın Mehridəki sərhəd dəstəsinin *(Ermənistan-İran sərhəd hissəsi-red.)* köməyi ilə ələ keçirilmə ssenariləri işlənib.

# YAP funksioneri Rusiyanın “seçki planlarını” alt-üst etdi

## **Siyavuş Novruzov:** “Bu cür “proqnozları" rusiyapərəstlər, bu ölkənin kəşfiyyatına xidmət edənlər, Rusiyada biznesi olanlar dövriyyəyə buraxır"

**YAP icra katibinin müavini Siyavuş Novruzov APA-ya geniş müsahibəsində növbəti prezident seçkiləri, hakim partiyanın seçki hazırlıqları barədə də danışıb.**

**S.Novruzov** bildirib ki, növbəti prezident seçkiləri ərəfəsində xarici dövlətlərdən təzyiqlərin olacağı ilə bağlı proqnozları Azərbaycandakı bəzi rusiyapərəst şəxslər yayır. Onlar bununla Rusiyanın bu məsələdə mövqeyini şişirtmək istəyirlər: “Azərbaycan xalqı prezidentini özü seçir. Kənardan müdaxilələr qaldı 90-cı illərin əvvəlində. Azərbaycan xalqı öz rəhbərini seçəndə heç kimlə razılaşdırmır, bu faktdır. Bu cür "proqnozları" isə Azərbaycanda olan, keçmişdən qalan rusiyapərəstlər, bu ölkənin kəşfiyyatına xidmət edən insanlar, eyni zamanda bu gün Rusiyada biznesi olan bəziləri dövriyyəyə buraxır. Vaxtilə Azərbaycanda vəzifədə olub indi gedib Rusiyaya sığınan bəziləri belə şeyi yazdırıb özlərini şişirtmək istəyir, ürək bulandırırlar. Ola bilsin ki, onun Moskvada-Kremldə kiminləsə “salam-əleykümü” var. Amma Rusiyanın mövqeyi Kreml rəhbərinin mövqeyidir, onun da Azərbaycanla bağlı mövqeyi yüksək münasibətlərə əsaslanır".

Deputat bununla belə deyib ki, seçki ilində ənənəvi olaraq, Azərbaycanın təbii sərvətlərindən maksimum güzəştlə yararlanmaq istəyən dövlətlər, güzəştli şəkildə öz işlərini görmək istəyən qlobal şirkətlər, Azərbaycanın güclənməsini istəməyənlər bəzi cəhdlər edəcəklər. “Bunlardan bəziləri Avropa Parlamentinin, Avropa Şurası Parlament Assamnleyasının, ATƏT-in ələ aldıqları üzvləri vasitəsilə, başqa bəzi yollarla təzyiq göstərməyə cəhd edəcəklər. Lakin Azərbaycanda güclü dövlət, güclü lider, xalqla iqtidar arasında güclü birlik var. Ona görə də bunlar cəhd olaraq qalacaq” deyə, o bildirib.

**S.Novruzov prezident seçkilərinə YAP-da artıq müəyyən hazırlıq işləri getdiyini də açıqlayıb:** “İlk növbədə partiyadaxili strukturların hazırlıq məsələsinə baxırıq. Rayon-şəhər təşkilatlarında hesabat-seçki yığıncaqları keçirilir. Partiyanın son keçirilən İdarə Heyəti iclasında da bu barədə hesabat verildi və qərar qəbul edildi. Yəni bizdə hər şey qərarladır. Rəhbər strukturun qərarı ilədir. 61 rayonda artıq konfranslar yekunlaşıb, 23 rayonda da keçirəcəyik. 11 rayonda təşkilat sədrləri dəyişib. Tərkibdə dəyişikliklər gedir. Çünki say artdıqca bu labüddür. Bununla biz bütün bu strukturu ilin sonuna qədər gələnilki seçkiyə hazırlayırıq. Tam hazır olduqdan sonra partiyanın rəhbər orqanı prezidentliyə namizədliyin



irəli sürülməsi barədə qərar qəbul edəcək. Seçkinin gələn ilin payızında keçiriləcəyini nəzərə alsaq, yəqin ki, gələn ilin bu vaxtına qədər qurultay barədə qərar veriləcək”.

**S.Novruzov prezident seçkilərində YAP-ın öz namizədinə rəqib görüb-görmədiyi barədə suala belə cavab verib:** “Elə bir rəqib yoxdur, görmürük. Bizim partiyamızın sədri cənab prezidentin apardığı siyasət, gördüyü işlər reytingini ildən-ilə artırır. Cənab prezident seçki ərəfəsində verdiyi sözdən dəfələrlə artıq işlər görür, xalq da bunu qiymətləndirir. Artıq Azərbaycan miqyasında yox, dünya miqyasında sorğu keçirsək, görərik ki, bizim sədrimizin-cənab prezidentin alternativi yoxdur. Bu həqiqətdir. Cənab prezident İlham Əliyev həm xalqın maraqlarının dəstəklənməsi, həm sabitliyin qorunması, iqtisadiyyatın inkişafı, quruculuq işləri - hansı ki, bunun sayəsində ölkədə artıq rayon-şəhər fərqi aradan qalxıb - və s. bu kimi işləri çox uğurla və sürətlə həyata keçirib. İslahatlar dayanmadan davam edir, məmurların daim xalqın qulluğunda olmasına nəzarət edir. Hər bir rayona səfər edir, insanlarla daim ünsiyyətdədir. Bu səbəbdən biz namizədimizə heç bir rəqib görmürük”.

Siyavuş Novruzovun müsahibəsində bir çox maraqlı məqamlar diqqəti cəlb edir. Birinci məqam ondan ibarətdir ki, S.Novruzov 2018-ci ildə keçirilməsi gözlənilən prezident seçkiləri ilə bağlı son günlər hakimiyyət düşərgəsindən narahatlığı bölüşmür. **Yada salaq ki, neçə gün öncə Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, YAP-çı deputat Yevda Abramov müsahibəsində demişdi ki, gələn il Azərbaycanda keçiriləcək prezident seçkiləri ərəfəsində ehtiyatlı olmaq lazımdır:** “Seçki elə kampaniyadır ki, nəticəsi bütün zümrələri, insanları qane etmir. Ona görə də seçkinin nəticələrindən qalib tərəf razı, məğlub tərəf isə narazı qalır. Bu, bütün dünyada belədir. Azərbaycanda da seçkinin nəticələrindən narazı qalanlar olacaq. Biz Azərbaycan müstəqillik qazandıqdan sonra müəyyən ajiotajlara rast gəlmişik. Ona görə də seçki ərəfəsində də, seçkidən sonra da müəyyən qüvvələr aranı qatmaq istəyəcək”.

**Onun ardınca YAP-çı deputat, hakim partiyanın Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə həmkarının fikri ilə razı olduğunu deyib. A.Mirzəzadə bildirib ki, seçki ərəfəsində Azərbaycanda bəzi qüvvələr var ki, aranı qatmaq istəyəcəklər:** “Azərbaycanda hər seçki ərəfəsində xaricdəki anti-Azərbaycan mərkəzləri ölkəmizdə provokasiya törətməyə və gərginlik yaratmağa çalışırlar. Düzdür, bunun üçün Azərbaycanda sosial baza yoxdur. Ancaq pulla ələ alınan, özünü müxalifət adlandıran müəyyən qüvvələr böyük həvəslə buna gedirlər. Eyni zamanda sosial şəbəkələr vasitəsilə səbədsiz adamları yoldan çıxartmağa, seçki prosesini idarəolunmaz bir istiqamətə yönəltməyə çalışırlar. Ancaq hər seçkidən-seçkiyə onların cəhdlərinin əbəs yerə olduğu, cəmiyyətin onları dəstəkləmədiyi qənaətinə gəlirlər. Bu seçki ərəfəsində də aranı qatmaq istəyənlər olacaq. Amma yenə də Azərbaycan cəmiyyəti buna layiqincə cavab verə biləcək”.

**İkinci maraqlı məqam isə S.Novruzovun hakim partiyanın seçki hazırlıqlarına başladığı və YAP-ın namizədinin hazırkı prezident olacağı ilə bağlı dedikləri hesab olunur. ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, hakim partiyanın rəhbərliyinə daxil olan S.Novruzov bu açıqlaması ilə müəyyən dairələrə mesaj göndərir ki, YAP İlham Əliyevə alternativ görmür və ondan başqa kimsənin namizədliyini irəli sürmək istəmir:** “Bu mesaj təsiri bağışlayan açıqlama hakimiyyətə rəqib olan müxalifət düşərgəsindən çox hakimiyyətin özünün daxilindəki qüvvələridir".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Türkiyə səfirliyində 15 iyul hadisələrinin ildönümü anıldı

**Səfir Erkan Özoral:** "Bu, Türkiyə demokratiyası üçün sınaq idi və ölkə ondan uğurla çıxdı, Azərbaycan bizə ilk dəstək verən ölkələrdən oldu..."

**Türkiyənin Bakıdakı səfirliyində ötən il qardaş ölkədə baş verən 15 iyul dövlət çevrilişi cəhdinin ildönümü ilə bağlı mətbuat konfransı keçirilib. Tədbirdə çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral ilk növbədə Ermənistan ordusunun hücumu nəticəsində Füzuli rayonunda dünyasını dəyişənlərin ailələrinə başsağlığı verib, ermənilərin xain hücumunu lənətləyib.**



**Daha sonra səfir 15 iyulda Türkiyədə baş verən hərbi çevrilişdən bəhs edərək, bildirdi ki, ötən il gerçəkləşən xain çevriliş bu günə qədər Türkiyəyə qarşı baş verən ən böyük hadisələrdən, ən böyük xəyanətlərdən biriidir:** "Həmin gecə 240 vətəndaşımız şəhid oldu. 2000-ni yaralandı. O gecə darbeçilərin göstərdiyi vəhşiliyin dünyada tayı-bənzəri yox idi. Onların etdiyi xəyanətin də dünyada bənzəri olmayıb. Türkiyə bu xain dəstə ilə uzun müddəti idi ki, mübarizədə idi. Darbeçilər özlərinə qarşı olan mübarizəni önləmək üçün Türkiyənin bir çox dövlət qurumlarının binalarını həmin gecə bombalamaqdan çəkinmədilər".

**Diplomat həmin xainlərin insanlıqdan və vicdandan kənar davranışlarından danışaraq, onları Fətullah Gülənin əmrlərini düşüncəsizcəsinə icra edən robot adlandırdı:** "Videogörüntülərdən də görünür ki, onlar heç bir şəkildə insanlıq və vicdan barədə düşnməyiblər, sadəcə, Pensilvaniyadakı rəhbərlərindən aldıqları əmrləri yerinə yetirən bir robot olublar".

**Səfirin sözlərinə görə, 15 iyul Türkiyə demokratiyası üçün bir sınaq oldu və ölkəsi bu sınaqdan uğurla çıxdı:** "Türk xalqı dövlət başçısının arxasında tək ürək, tək bədən oldu. Həyatları bahasına demokratiyanı qorudular, müdafiə etdilər. Bundan sonra da həmin müdafiə davam etdi, çox fərqli siyasi görüşdən olan vətəndaşlar bir araya gəldilər və dövlətlərini qorumaq üçün əllərindən gələn fədakarlığı etdilər, tankların qarşısına yataraq dövlətlərini qorumağa çalışdılar. Türk milləti bu sınağı uğurla keçdi. Darbe çevrilişində günahkar bilinən 130 min nəfər göz altına alındı, 45 min nəfər həbs olundu. 15 iyuldan sonra Türkiyədə xain "FETO"çuları təmizləmə işi davam etdirildi. Türk milləti də bu məsələdə dövlətinə dəstək oldu. Təkrar vurğulayıram ki,15 iyul Türkiyə cümhuriyyəti üçün də önəmli dönüş nöqtəsi oldu. Bu hadisəni həyata keçirən xainlər özünü Məsih elan edən bir xainin arxasından getməkdədirlər. Özünü peyğəmbər hesab edən, Quranı-Kərimi yarımçıq sayan və onu tamamlayacağını iddia edən bir dindən dönmüşün arxasında gedənlərin təmizlənməsi bizim üçün ən başlıca vəzifədir. Onu da vurğulayım ki, çevrilişdən sonra ötən dövr Türkiyəni zəiflətmədi, dövlətimiz əvvəlkindən də güclü hala gəldi. Bu bir ildə Türkiyə iqtisadiyyatı daha da böyüdü. Bütün sahələrdə xalqa güvən verəcək bir inkişaf müşahidə olundu".

**Səfir daha sonra vurğuladı ki, son 1 ildə Türkiyənin terrorla mücadiləsi daha böyük həcmdə davam etdirilib:** "Dövlət çevrilişdən 45 gün sonra Türkiyə ordusu azad Suriya ordusu ilə birlikdə sərhədimizin o tayında Suriyada üçün təhlükə yaradan qüvvələrə qarşı hərəkat başlatdı, bu hərəkat nəticəsində sərhədlərimizin təhlükəsizliyi təmin olundu. Bu günə Türkiyədə meydana gələn terror hadisələrinin sayında çox ciddi azalma var. Artıq Türkiyə Suriyanın və özünün təhlükəsizliyi üçün çox ciddi tədbirlər görüb. İndiyə qədər terrorçuların məhv edilməsində də çox böyük uğurlar əldə edilib. Ələ keçirilən terroristlərin sayı artıb. Dövlətin içinə yerləşmiş örgüt nümayəndələrinin təmizlənməsi də çox böyük uğurdur".

**Erkan Özoral FETÖ ilə mübarizənin təkcə Türkiyədə deyil, ölkə xaricində də aparıldığını qeyd etdi və Azərbaycanın Türkiyəyə ən böyük dəstək verən ölkələrdən biri olduğunu vurğuladı:** "Azərbaycan bizə ilk dəstək verən ölkə oldu. Bu bir ildə də hər zaman dəstəyini artırdı. Azərbaycan xalqı da Türkiyəyə hər zaman dəstək olub, bundan sonra da olacağına şübhəmiz yoxdur. Ona görə də Azərbaycan prezidenti İlham Əliyevə və Azərbaycan xalqına təşəkkürlərimizi bildiririk. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür. Biz terrorla mübarizədə Azərbaycanı hər zaman yanımızda görməkdən böyük bir güc alırıq. Təəssüf ki, heç də bütün ölkələr bizə Azərbaycan qədər dəstək göstərmədilər. Bəzi ölkələr FETÖ mənsublarına qucaq açdılar. Ancaq bütün dünya bilməlidir ki, terror bir ilandır və bir gün onları da çalacaq. Türkiyə bir neçə terror təşkilatı ilə eyni vaxtda mübarizə aparır. Biz terrordan ən çox əziyyət çəkən ölkəyik. Bizim yaşadıqlarımızı heç bir dövlətin yaşamasını istəmirik. Ona görə də bütün dövlətlərdən bizə terrorla mücadilədə dəstək olmalarını gözləyirik. FETÖ-nün, bu terror təşkilatının başındakı cinayətkar şəxsin hədəfi, sadəcə, Türkiyə deyil, bütün dünyada idarəetməni ələ keçirməkdir. Odur ki, terrorçularla mübarizədə hər kəs bizə dəstəyini göstərməlidir".





**Səfir çıxışının ardından media mənsublarının suallarını cavablandırdı. O, jurnalistlərin sualına cavab olaraq bildirdi ki, FETÖ təhlükəsinin bitdiyini söyləmək mümkün deyil:** "Bu elə bir qurumdur ki, tamamilə ortaya çıxarılıb kökü kəsilənə qədər bu təhlükə və təhdid ortadan qalxmayacaq. FETÖ təhlükəsi ilə sona qədər mücadilə etmək lazımdır. FETÖ təhdidi təbii ki, 15 iyuldan öncəki gücündə deyil. Bu terrorçu təşkilatla mübarizədə çox böyük bir yol qət edildi, böyük uğurlar əldə edildi. Fəqət bu təşkilatla sonuna qədər mübarizə aparılmasına ehtiyac var. Fətullah Gülənin Türkiyəyə ekstradisiyası ilə bağlı Amerika ilə danışıqlar davam edir. Həm siyasi səviyyədə, həm də ədliyyə qurumları səviyyəsində məsələ ilə bağlı danışıqlar aparılır. Ancaq biz bu mövzuda dostlarımızdan və müttəfiqlərimizdən yetərincə dəstək görmürük. Müttəfiqlərimizin lazımi dəstəyi göstərməsini gözləyirik".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar Məğrur MƏRDINDIR**

# İkinci Novruzəli vaqiəsi



**Samir SARI**

**Xəbərin ilk cümləsi adama heç nə demir. Hə, nə olsun, "Bakıda xuliqanlıq edən sürücü saxlanılıb". Bakıda o qədər avtoxuliqan var ki... Hər gün də 3-4-ünü saxlayırlar. Sonra da ya cərimələyib buraxırlar, ya elə-belə buraxırlar, ya da üzr istəyib buraxırlar.**

Yəni Bakıda avtoxuliqanların olması, hər gün xuliqanlıq etmələri, saxlanılmaları sıradan hadisədir.

Ancaq məlum olur ki, bu dəfə xuliqanlıq edən sürücü general oğludur. Onda vəziyyət dəyişir. Ona görə yox ki, general oğlu xuliqanlıq etməz, edə bilməz, əsasən ona görə ki, general oğlu belə şey eləsə, saxlanılmaz, saxlanılsa da, tez buraxılar.

Sözügedən general oğlu isə saxlanılıb və buraxılmayıb. Həm də ona görə ki, Rüstəm adlı bu gənc təkcə avtoxuliqanlıq etməyib, həm də avtosuz xuliqanlıq edib, qəza şəraiti yaratdığına görə ona irad bildirən sürücünü basıb döyüb.

Sonradan məlum olub ki, Rüstəm avtomobillə adam da öldürüb, məhkum da olunub, üstəlik, sürücülük vəsiqəsi də olmayıb.

Sürücülük vəsiqəsi olmadan avtomobil sürmək, həm də avtoxuliqanlıq etmək üçün, əlbəttə, ən azı general oğlu olmaq lazımdır. Prinsipcə, polkovnik oğlu da bu qələti edə bilər, amma üstü açılsa, atası general olmaz.

Budur, Rüstəm o hərəkəti ilə, türkün sözü, atasının karyerasını da becərdi. O boyda generalı işindən-gücündən aldılar.

İndi tanıyanlar, bilənlər orda-burda deyəcəklər, yox, Novruzəli Orucov yaxşı kişiydi, neyləsin, oğlu onu güdaza verdi.

Amma yox, elə deyil, qardaşlar və bacılar, Novruzəli Orucov yaxşı ata olsaydı, oğlunu elə harın böyütməzdi. Budur, özü də deyir ki, uşağı başlı-başına buraxmışam.

N.Orucov yaxşı, prinsipial, gözü-könlü tox məmur olsaydı, oğluna bahalı maşınlar alıb verə bilməzdi.

Bunun əvəzində o oğlunu elə böyüdüb ki, Rüstəm dünənə qədər elə bilirdi ki, Ucardakı Şilyan təpələrini bunun atası yaradıb.

Əmin olun ki, onun o, maşınla adam öldürən, maşında adamdöyən oğlu gündə yeddi dəfə ona-buna "heç bilirsiz, mən kiməm", "bilirsən, sənə neyniyərəm" deyənlərdən olub.

Hiss olunur ki, gənc adam çox hirsli-hikkəliymiş. Bir şey ki, ona irad bildirən avtobus sürücüsünü düz 8 dayanacaq təqib edib. Əslində artıq 3-cü dayanacaqdan sonra onun hirsi soyumalıydı və dönüb getməliydi işinin dalıncaq. Amma o deyib, yox e, avtobus sürücüsü kimdir ki, mənə, general oğluna "asta sür" deyir.

Bəli, general oğluna "asta sür" demək ağır təhqirdir, bu təhqirin qisası ancaq qanla, duellə alına bilər. İndinin dueli də belədir: təkbətək çıxmırlar, 5-6 adam tökülüşüb birini çırpır, sonra qaçıb gedirlər.

10 il əvvəl bir təvazökar nazir oğlu bir hikkəli deputat oğluna "Nərimanov" metro stansiyanın həndəvərində "asta sür" demişdi, deputat oğlu hiddətlənərək, maşınından düşüb nazir oğlunun çənəsini sındırmış, bir-iki saatdan sonra nə qələt elədiyini anlamışdı, amma gec olmuşdu. Onun özünü də aparıb təcridxanada atası sudan gəlincəyə qədər döymüşdülər.

Yəni bir sürücünün maşını yekədirsə, atası vəzifəlidirsə, özünün cibində pul çoxdursa, gərək ona "asta sür", "ehtiyatlı ol", "bu necə maşın sürməkdir" kimi təhqiramiz sözlər deməyəsən, deyəndə də sözün əvvəlində "qurban olum", axırında "qadan alım", "başına dönüm" kimi sözlər olmalıdır ki, növcavan hirslənməsin. Yoxsa maşını döndərib adamın dalınca düşər, çatıb küçənin ortasında biabır edər.

Bu işlər belədir.

İntəhası, bəzən elə olur ki, belə işləri yat-yut eləmək olmur və haqq-hesab ictimailəşir, səs-küyü çıxır, yuxarılarda əks-səda verir və hirsli oğulun sakit papasını çəkirlər ortalığa. O da məcbur olur, deyir ki, özüm də, balalarım da rəhbərə qurban olsun.

Əslində belə bir adamın ən yüksək rütbəsi gizir ola bilərdi, amma işə bax ki, gəlib general olub.

Bir tərəfə baxanda harın oğulların öz hərəkətləri ilə vaxtaşırı öz atalarını ifşa eləməsi yaxşıdır. Camaat kimin qabında nə olduğunu bilir. Yoxsa kim bilərdi ki, general rütbəsi daşıyan Novruzəli poçt qutusunun önündə oturub ağasının məktubuna qarovul çəkəsi adamdır.

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017



# Generallar və xalq artistləri

Zamin HACI
zaminhaci@gmail.com

**Son çağlar regionun liderinə çevrilməkdə olan mediamızda belə başlıqlara tez-tez rast gəlmək mümkündür: "Generalın oğlu adam döydü" (vəziyyətdən asılı olaraq feil dəyişilə, "öldürdü", "maşınla vurdu", "bıçaqladı", "qucaqladı", "basmarladı" və sairə şəklində ola bilər) və "Xalq artistinin oğlunu döydülər" (burada da sonluq eynilə "öldürdülər", "ayaqladılar", "gözünü çıxartdılar", "maşınla vurdular" formasında dəyişilə bilir). Təbii ki, diqqətli media ekspertlərindən biri kimi bu hala biz laqeyd qala bilmərik, mütləq analiz etməliyik.**

Məncə, bunun əsas səbəblərindən biri, bəlkə də birincisi onunla bağlıdır ki, hazırda Azərbaycan cəmiyyəti tam ortadan, diametral şəkildə (qoy desinlər nə savadlı oğlandır) iki yerə bölünmüşdür. Yarısı generallar və onların uşaqlarıdırsa, yarısı da xalq artistləri və onların uşaqlarıdır. Örnək üçün, indi bu yazını oxuyan hörmətli oxucu əgər özünü generallara aid bilmirsə, deməli, o, mütləq xalq artistləri sinfinə aiddir. Yox, özünü artist saymırsa, demək, generaldır. Başqa yolu yox artıq - o mahnıda deyilən kimi. Ya generalsan, ya da artist. Mən özüm hələlik artistlər kateqoriyasına aidəm, inşallah, rəhbərlik söz verib, tezliklə generallar sinfinə keçməliyəm. Özümü lap yaxşı aparsam hovuza su və tok da verəcəklər.

Bax, bu səbəbdən kimsə maşına qaz verib adam vurursa vurulanın xalq artisti, ya da onun uşağı çıxması ehtimalı yüz faizə bərabərdir. Və qaz verən də general, ya da general oğlu olmalıdır. Doğrudur, ehtimal nəzəriyyəsinə görə, general oğlu xalq artistinin oğlunu yox, general oğlunu da maşınla vura bilər. O cümlədən xalq artistinin oğlunu xalq artistinin oğlu döyər. Ancaq adından göründüyü kimi, bu, ehtimal nəzəriyyəsidir. Bizim ölkədə isə hər şey dəqiq yazılıb, ölçülüb-biçilib, dövlət proqramına salınıb. Hətta bu dəqiqə biz 3549-cu ildə Soğanverdilər-Dəliməmmədli-Beyləqan-Ağcabədi avtomobil yolunun 14 kilometrlik hissəsinə neçə dənə müasir işıq dirəyi basdırılacaq, Ağsunun mərkəzi parkına neçə metr yaşıl örtük salınacaq, feysbukda nə qədər trol işə götürüləcək, neçə kilo yaltaq istehsal olunacaq və sairə - bunların hamısını dəqiq bilirik, Nazirlər Kabinetində dövlət planlaması şəklində müvafiq sənədlərdə yazılıbdır. O Amerikada, Fransada, Britaniya-zad kimi geridə qalmış ölkələrdə olur, heç 5 il sonra prezidentləri kim olacaq, onu da bilmirlər! Britaniyanın hətta prezidenti belə yoxdur! Nahaq yerə "dumanlı" demirlər ki...

Bəzən generalın oğlunun hərəkətinə görə generalı işdən çıxarırlar, məncə, bu, kadr islahatlarımıza uyğun deyil. Hələ el atası Stalinin vaxtından belə söz qalıbdır ki, oğul ataya, ata oğula cavabdeh olmamalıdır. Hərçənd, qoca qurd başqa bir yerdə "Xalq düşmənlərinin nəslini kəsməliyik" deyibmiş. Elə dövlət siyasəti də bu ikinci göstərişə daha çox uyğun gəlirdi, çünki 1930-1950-ci illərdə SSRİ-də xalq düşmənlərinin ailə üzvlərini saxlamaq üçün xüsusi türmə olubdur. Qazaxıstanın dəhşətli çöllərində yerləşən bu türməyə ALJİR adı qoyulmuşdu, Əlcəzairə qətiyyən dəxli yox idi, "Akmolinskiy Laqer Jen İzmennikov Rodinı" (Vətən xainlərinin arvadları üçün Akmolinsk düşərgəsi) sözlərindən düzəldilmişdi. 30 min nəfərə yaxın "xalq düşməninin" ailə üzvləri o lagerdə əzab çəkmiş, çoxları işgəncələrdən ölmüşdü.

İndi biz bəlkə sistemli yanaşaq, generallar və xalq artistləri üçün ayrı-ayrı cəza düşərgələri quraq? *(Deyəsən, generallar üçün beləsi artıq var)*. O cümlədən, bəzən görürsən oğula görə general işdən qovulur, sonra deyir üzr istəyirəm, qələt eləmişəm, bağışlayın və sairə. Ancaq demir ki, bahalı maşınları, dəbdəbəli həyatı oğlu üçün hansı pullarla təmin edirmiş. Görürsən, oğlunun bir maşınla şəkli çıxdı, həmin maşının puluna yalan olmasın, Qarabağın 20 faizini geri almaq mümkündür.

İndi söz əlaqədar generallar və uşaqlarınındır - müəllifi döyün. "Xalq artisti yazı yazarkən döyüldü" başlığına ethiyac var.



# Vaşinqtondan Kremlə Bakı üzərindən mesaj - ABŞ Rusiyanın yolunu "kəsir"

## Ağ Evin Rusiyaya qarşı ağırlaşan sanksiyaları "Türk axını"nı tormozlaya bilər - ilginc gözlənti; Vaşinqton Moskvanı ən zəif olduğu mübarizə müstəvisinə çəkir; Bakı da gözdə-qulaqda olmalıdır...

**Rusiya və ABŞ arasında geosiyasi rəqabət özünü təkcə Yaxın Şərq proseslərində büruzə vermir. Son vaxtlar iki fövqəldövlət arasında gərginlik digər bölgələrdə və sferalarda, o cümlədən energetika sahəsində özünü getdikcə daha qabarıq göstərməkdədir. Dərinləşən rəqabət isə böyük mineral ehtiyatlara və əlverişli coğrafi mövqeyə malik Azərbaycana da yansımaqdadır.**

Sirr deyil ki, Vaşinqtonun strateji hədəflərindən biri Avropa qaz bazarında Rusiyanın qaz inhisarına son qoymaq və ya bu inhisarçılığı minimuma endirməkdir. Çünki Kreml qaz monopoliyasından illərdir Avropaya, Qərbə qarşı siyasi şantaj aləti kimi istifadə edir. Hətta Krımın Rusiya tərəfindən işğalında da bu amil dolayısıyla rol oynamış, bəzi Avropa Birliyi ölkələrinin yumşaq mövqeyinə səbəb olmuşdu. İndi də bu təsir özünü müəyyən mənada saxlayır.

Bu üzdən ABŞ özünün Rusiya təbii qazına ehtiyacı olmasa belə, həmin qaza alternativ mənbələrin işə düşməsi və Avropaya nəqlinə böyük önəm verməkdədir. Onlardan biri də "Şahdəniz 2" Azərbaycan qazını Avropa bazarına çatdıracaq Cənub Qaz Dəhlizinin inşasıdır - hansı meqa-layihə ki, Birləşmiş Ştatlar ona həm siyasi, həm maliyyə, həm də mənəvi sponsorluq edir və böyük diqqət göstərir.

***

Təzəcə başa çatan 22-ci İstanbul Dünya Neft Sərgisində ABŞ-ın dövlət katibi Reks Tillerson səviyyəsində iştirakı bunu bir daha təsdiqlədi. Cənab Tillersonun Azərbaycan prezidenti İlham Əliyevlə görüşündə toxunulan həssas mövzulardan aydın oldu ki, Ağ Ev Bakıya Kremlin qaz savaşında sonadək dəstək verməkdə israrlıdır və onu Rusiya təzyiqləri qarşısında tək buraxmayacaq.

Bunu Vaşinqtonun Bakı üzərindən Kremlə ismarışı da saymaq olar. Özü də söhbət təkcə neft-qaz məsələsində dəstəkdən getmir. Yeri gəlmişkən, toplantıdakı çıxışı zamanı Azərbaycan prezidenti İlham Əliyev SDQ ilə bağlı tikinti işlərinin maneələrə rəğmən, uğurla davam etdiyini, inşa işlərinin sona çatmaq üzrə olduğunu qeyd elədi. Bu kəmər üzrə artıq gələn il qardaş Türkiyəyə 6 milyard, o biri ildən etibarən Avropaya isə 10 milyard kub metr Azərbaycan qazının nəqli nəzərdə tutulur.

Qeyd edilən bu kimi bütün məqamlar, həmçinin Tillerson-Əliyev təması Rusiyadan yan keçən neft-qaz kəmərlərinə əngəllər yaratmağa çalışan Kremlə əslində növbəti bir çatdırış idi. Siyasi təhlilçilərin bu yöndə şərh və təhlilləri davam edir.

**"Azərbaycan prezidenti İlham Əliyevin ABŞ dövlət katibi Reks Tillerson ilə görüşü Rusiyaya mesajdır". Bu sözləri axar.az-a görüşün yekunlarını şərh edən politoloq Fərhad Mehdiyev deyib. Onun sözlərinə görə, son diplomatik bəyanatlardan sonra Azərbaycanın ABŞ ilə əlaqələrinin gücləndirilməsi böyük məna kəsb edir.**

"Bununla Rusiyaya mesaj göndərilir ki, Azərbaycan xarici siyasətində təklənməyəcək. Düşünürəm ki, Azərbaycan yenə balanslı siyasət yeridəcək. 7 iyul 2017-ci ildə ABŞ səfirliyində ənənəvi olaraq qəbul günü keçirilib. Bu tədbirdə prezidentin köməkçisi Əli Həsənov iştirak edib. Bu, Azərbaycan tərəfinin ABŞ-la münasibətlərini inkişaf etdirdiyinin göstəricisidir. Hazırda Rusiya tərəfindən Bakıya qarşı müəyyən mənada təzyiq var, çünki Kreml Azərbaycanın Rusiya ilə daha çox yaxınlaşmasını, Avrasiya İttifaqına üzvlüyünü istəyir. Azərbaycan tərəfi isə ABŞ-la münasibətləri inkişaf etdirməklə göstərir ki, Bakı balanslı siyasətini davam etdirməkdə qərarlıdır", - deyə o bildirib.

***

Bakı balanslı siyasəti davam etdirir, ancaq o da faktdır ki, bu siyasət ən çox Moskvanın ürəyincə deyil. Az öncə Rusiyanın "Qazprom" şirkəti rəsmisi Medvedyevin Cənub Qaz Dəhlizi ilə bağlı söylədiyi pessimist fikirlər, faktiki, Bakıya ünvanlı şantaj xarakterli açıqlama da Rusiyanın Azərbaycana münasibətdə gerçək münasibətinə işarə idi.

Hər necə olmasa, Moskva Cənub Qaz Dəhlizinin Rusiyanın tezliklə reallaşdırmağa çalışdığı "Türk axını"na rəqib hesab edir. CQD-nin axırıncı seqmenti kimi TAP-ın İtaliya ərazisindən keçən hissəsinin tikintisinə Rusiyaya bağlı siyasi qüvvələrin necə vaxtdır əngəl yaratmağa çalışması da təsadüfi deyil. Bunu da Vaşinqtonda bilir və izləyirlər. Təkcə izləmirlər, eyni zamanda kontur-tədbirlər hazırlayırlar. Bu da növbəti fakt.

Bəllidir ki, ötən həftə Rusiyanın "Qazprom" şirkəti "Türk axını" layihəsinin Türkiyədən keçəcək hissəsinin maliyyələşməsi ilə bağlı "Botaş" şirkəti ilə müqavilə imzalayıb. Lakin məlumata görə, "Qazprom" "Türk axını" və "Şimal axını 2" layihələrinin inşasının ABŞ-ın sanksiyaları səbəbindən baş tutmayacağından narahat olmağa başlayıb. Belə ki, ABŞ prezidenti bir müddət əvvəl Rusiya ilə əlaqəli nəhəng layihələrin inşasını həyata keçirən şirkətlərə sanksiya və embarqolar tətbiq edilməsi ilə bağlı sərəncam imzalayıb.

Doğrudur, hələlik bu məsələ ilə bağlı rəsmi açıqlama verilməyib. Ancaq ABŞ-ın Rusiyaya qarşı sanksiyaların çoxşaxəli olduğu da diqqət çəkməyə bilməz. Başqa sözlə, bu sanksiyalar həm də Rusiyanın aparıcı olduğu iri iqtisadi layihələri iflic eləməyə yönəlib. Rusiyanın özünün isə belə layihələri başa çatdırmağa yetərli maliyyəsi yoxdur. Sanksiyaların tətbiqindən sonra heç yoxdur.

Bir ölkənin maliyyə gücü və ya gücsüzlüyü isə elə onun siyasi gücü və ya siyasi gücsüzlüyü anlamına gəlir. Beləcə, Vaşinqton Moskvanı ən zəif olduğu mübarizə müstəvisinə çəkir. Demək, Bakı da gözdə-qulaqda olmalıdır.

❑ **Analitik xidmət**

# Türkiyə prezidenti SOCAR rəhbərliyi ilə görüşəcək

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan 15 iyul hadisələrinin ildönümündə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) rəhbərliyinin də təmsil olunacağı 350 nəhəng şirkətin rəhbəri ilə görüşəcək.**

"R.T.Ərdoğan 15 iyulun ildönümündə dünyanın və Türkiyənin qabaqcıl şirkət rəhbərləri ilə görüşəcək. Türkiyə prezidenti ümumilikdə 4 trln. dolları idarə edən qlobal şirkətlərin rəhbərlərinə 15 iyul dövlət çevrilişinə cəhddən sonra baş verənləri danışaraq "Türkiyə güvənilən ünvandır, gəlin, sərmayələrinizi yatırın" mesajını verəcək", - deyə yerli KİV-də yayılan məlumatda qeyd olunub.

"Beynəlxalq İş dünyası toplantı"sında SOCAR, "Bank of China", "Bauhaus", "Benetton", "Chine Energy", "Coca Cola", "Facebook", "General Electric", "Google", "Hewlett Packard", IBM, "Koç", "Mercedes", "Motorola", "Microsoft", "Nike", "Pepsi", "Cisco", "Siemens", "Toyota", "Vodafone" və digər şirkətlərin rəhbərlərinin yer alacağı gözlənilir (report).

# Ermənistan isterikada: “Nə qələt ediblər ki...”

**İyulun 4-də Ermənistanın işğalçı qüvvələrinin Alxanlı kəndində azyaşlı körpəni qətlə yetirməsi ilə Qarabağda müharibə riski daha da artıb. Ermənistanın işğalçı və vəhşi mahiyyətini bir daha ortaya qoyan bu hadisə rəsmi Bakının diplomatik cəbhədə ermənilərə ağır zərbələr vurması ilə nəticələndi. Dünya ölkələri, əcnəbi diplomatlar rəsmi İrəvanın “çocuq qatili” olmasına bir daha şahidlik etdi. Bu hadisə Azərbaycanın torpaqlarını müharibə yolu ilə azad etmək üçün hər cür əsası olduğunu sübut etdi. ATƏT-in Minsk Qrupu həmsədrlərinin əvvəl verdikləri ənənəvi bəyanatı sonradan dəyişməsi əslində Azərbaycan cəmiyyətində “müharibədən başqa yol yoxdur”, çağırışlarını qismən də olsa önləməyə hesablanmışdı. Həmsədr ölkələr Qarabağda məhz Ermənistanın pozucu əməlləri nəticəsində yaranmış gərginliyi azaltmaq üçün demək olar ki, daha gecələr də rahat yatmırlar.**




## II Qarabağ savaşı qapıda-mümkün ssenarilər...

### Ermənistanın ən qorxduğu Rusiyanın onları Qarabağda müharibə ilə cəzalandıra biləcəyidir-bu ssenari olarsa, Azərbaycan cəmi bir həftəyə qoşunlarını Laçın koridoruna çıxara, Ağdam-Xocalını işğaldan azad edərək Xankəndinə yaxınlaşa bilər; **rusiyalı ekspert:** “Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir”

Çünki Ermənistanın başını sığallayan həmsədr ölkələr müharibənin alovlanacağı təqdirdə onların da üzərinə ciddi məsuliyyət düşəcəyinin fərqindədirlər.

Bu səbəbdən də son günlər onların səsləri daha möhkəm çıxmağa başlayıb. Xarici işlər nazirlərini Brüsseldə bir masa arxasında oturtmağa nail olan həmsədrlər Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təklif ediblər. Həmsədrlərin yaydığı bəyanatda bildirilir ki, Məmmədyarov və Nalbəndyan öz prezidentlərinə həmsədrlərin bu ilin sonunadək yüksək səviyyəli görüşün keçirilməsi ilə bağlı təklifini çatdırmağa razılıq verib. “Həmsədrlər prezidentlərin görüşünün təşkilinə köməklərini təklif ediblər” deyə, bəyanatda bildirilir.

**Amma təkcə Azərbaycanda və işğalçı ölkədə deyil, münaqişə ilə yaxından maraqlanan tanınmış ekspertlər də Qarabağda hər gün artan müharibə ehtimalından danışırlar.**

**“Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir. Hazırda hər iki tərəf aktiv şəkildə savaşa hazırlaşır. Əgər hər iki tərəf hazırlaşırsa, o zaman yekunda toqquşma mütləq olacaq”. Axar.az xəbər verir ki, bunu “1in.am” saytına açıqlamasında rusiyalı hərbi ekspert Pavel Felgenhauer söyləyib:** “Konfliktə təsir edən daxili və xarici faktorlar var. Hər iki tərəf intensiv şəkildə öz gücünü artırır. Genişmiqyaslı toqquşmaların qarşısını almaqdan ötrü nəsə etmək lazımdır. Genişmiqyaslı müharibəni başlamaq üçün təsadüfi olmayan, məqsədyönlü fəaliyyətlər tələb olunur. Tərəflərdən hansısa biri qərar verməlidir ki, başqa variant yoxdur və uğur qazanılması üçün heç olmasa lokal zərbə endirilməlidir”, deyə, Felgenhauer vurğulayıb.

**Ekspertin fikrincə, Qarabağda atəşkəslə bağlı edilən çağırışlar kifayət deyil:** “Biz Qarabağ münaqişəsinin kompromis yolu ilə həllinə müəyyən siyasi səbəblərin izn vermədiyini görürük. Situasiya kompromislər və ciddi de-eskalasiya olmadan dəyişməyəcək. Genişmiqyaslı müharibəyə doğru aparan geridönülməz proses baş verir. Tərəflər hələlik ciddi hərbi fəaliyyətləri başlamağa hazır deyil. Bu, çox yaxşıdır, amma bu, savaşın qarşısını almaq üçün yetərli deyil”.

Müharibənin başlayacağı barədə xəbərdarlıqlar Ermənistanın özündə də ciddi narahatlıq doğurmaqdadır. Rəsmi İrəvan Alxanlıdakı qətli də üzərindən təmizləyə bilməyəcəyinin fərqindədir və bu səbəbdən də “tülkü kimi gizlənmək” siyasətinə üstünlük verirlər. Amma erməni ekspertləri artıq mümkün müharibə variantında onları gözləyən təhlükələr barədə açıq danışmaqdan çəkinmirlər.

Bu aqoniya əhval-ruhiyyəsi Rusiyanın Azərbaycana növbəti partiya silah göndərməsi fonunda daha da artıb. İrəvanda bunu hətta “Rusiyanın Azərbaycanı Ermənistana qarşı müharibəyə təşviq eləməsi” kimi izah edirlər. Məsələn, erməni siyasi şərhçisi Sərkis Arsruni Azərbaycanın növbəti dəfə müharibəyə hazırlaşdığı haqda xəbərdarlıq edərək, həmçinin işarə vurur ki, bunu Moskvanın razılığı ilə olmasa da, susqun razılığı əsasında edir. “Cəbhədəki son eskalasiyalar fonunda da növbəti partiya Rusiya silah-sursatı Azərbaycana göndərməsi onu göstərir ki, Moskva yeni müharibədə maraqlıdır - böyük ehtimalla da o ümidlə ki, regionda bu yolla öz təsirini gücləndirəcək”, - deyə ekspert bildirib.

Erməni analitik əlavə edib ki, müharibə başlayarsa, Rusiyanın da cavabdehliyi böyük olacaq.

Rusiyanın mümkün müharibə variantında hansı mövqe tutacağı son günlər yenidən ciddi müzakirə mövzusuna çevrilməkdədir. Ötən il Qarabağdakı 5 günlük lokal müharibə zamanı bir daha təsdiqləndi ki, nə Fransa, nə ABŞ-ın müharibəni dayandırmaq imkanı yoxdur, bu, yalnız Moskvanın vasitəçiliyi ilə mümkündür. İndi yeni müharibə riskinin artdığı bir vaxtda da həm Bakıda, həm İrəvanda “Moskva indi hansı mövqe tuta bilər” müzakirələri aktuallaşıb. Azərbaycan ekspertləri bu müzakirələrdə birmənalı rəy bildirmir, çünki Rusiyanın Qafqaz siyasətində dəyişən dəngələri hesablamaq o qədər də asan deyil. Ermənistanda isə açıq şəkildə Rusiyaya təzyiq elementləri hiss olunmaqdadır. Ermənistandan artıq təhdidlər də var ki, Rusiya Azərbaycanın öz torpaqlarını işğaldan azad etməyə imkan verəcəyi təqdirdə İrəvan Avrasiya İqtisadi Birliyi və KTMT-də üzvlüyünü dondurmalıdır. Bu “məni qoru” yalvarışı əvəzinə, Kremlə açıq təhdid, daha dəqiqi, şantaj siyasətidir ki, Ermənistan rəhbərliyi bunun üçün hələ ekspertləri önə verib. Amma aydındır ki, Ermənistanda sağlam düşünən adamlar müharibə başlayacağı və Rusiyanın loyallığını qoruyacağı təqdirdə İrəvanın belə təhlükədə olduğunu anlayırlar. Di gəl ki, “qorxuruq, bizi Azərbaycandan qoruyun”, demək əvəzinə, şantaj siyasəti işə salınır ki, bu da ermənilərin xislətindən xəbər verir. İrəvan Rusiyanın bütün göstərişlərinə əməl etmək məcburiyyətindədir, amma Kremlə inanmadıqlarını da məqamı düşən kimi büruzə verirlər.

Son aylar İrəvan rəhbərliyinin Avropa Birliyində, Brüsseldə NATO koridorlarında sülənmələrinin əsas səbəblərindən biri də özlərinə mümkün Qarabağ savaşında yeni “qoruyucu ilahələr” tapmaq niyyətindən xəbər verir. Kreml hələ ki, İrəvanın “yeni dayı” axtarmaq prosesini diqqətli izləyir.

**Bugünlərdə Kremlə yaxın rosbalt. ru saytı Ermənistanı ağıllı olmağa çağırış edərək xəbərdarlıq da etmişdi. Sitat:** “Ərazisini Rusiya hərbi bazası hesabına qarantiya altına alan Ermənistan niyə NATO ilə bu cür oyunlara həvəslənib? Rusiyanın və İranın bu məsələyə mövqeyi necə olacaq? Əlbəttə ki, çox pis. Rusiya Ermənistanın iki stulda oturmasına heç vaxt imkan verməyəcək. İrəvanın ”çoxqütblü xarici siyasət" bəhanəsi isə Ermənistanın özü üçün pis qurtaracaq". Burada “ərazisi” sözü ustalıqla “maskirovka” edilsə də, şübhə yoxdur ki, söhbət Qarabağdakı işğal edilmiş ərazilərdən də gedir.

Ermənistanın isə ən qorxduğu ssenari Rusiyanın onları Qarabağda müharibə ilə cəzalandıra biləcəyidir. Bu ssenari olarsa, Azərbaycan cəmi bir həftəyə qoşunlarını Laçın koridoruna çıxara, Ağdam-Xocalını işğaldan azad edərək Xankəndinə yaxınlaşa bilər. “Bir həftəlik canı” olan Ermənistanın müharibədən çox qorxduğu, ən əsası Rusiyanın mövqeyindən narahatlıqları aşkar ortadır.

Rusiyanın Ermənistanı qurban verə biləcəyinə inananlar azdır ki, bu da qeyd edilməlidir. Amma unutmaq olmaz ki, “su boğaza çıxanda meymun da balasını ayağı altına qoyur”. Ermənistanın işğalçı siyasəti Rusiya rəhbərliyinə də dünyada xeyli başağrısı gətirir. Kremlin buna rəğmən hələ Ermənistanın arxasını qoruması, ermənilərin isə dara düşən kimi Rusiyaya dil uzatmaları indiki situasiyada Azərbaycanın çox xeyrinədir. Eləcə də Ermənistanın narahatlığı psixoloji baxımdan Azərbaycana xeyli üstünlüklər verir.

Bəlkə Ermənistanın elədiyi böyük bir qələti biz bilmirik ki, İrəvanda bu qədər narahatdırlar?

❑ **“YM”**



## Prezident: “Balaca Zəhranın və nənəsinin qanı yerdə qalmadı”

### “Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq”

**“Balaca Zəhranın və onun nənəsinin öldürülməsi hərbi cinayətdir və erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi”.**

Azərbaycan prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iyulun 12-də keçirilən iclasında belə deyib.

**Dövlət başçısı daha sonra vurğulayıb:** “Bu cinayət cavabsız qalmadı. Azərbaycan ictimaiyyəti də bunu bilir. Baxmayaraq ki, Ermənistan öz itkilərini həmişə gizlətmək istəyir. Amma bütün itkiləri gizlədə bilmir. Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, onun nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq.

Nəyə hesablanmışdır bu cinayət? İlk növbədə, bu, Ermənistan siyasi rəhbərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir. Bu, birincisi.

İkincisi, iyulun 11-də xarici işlər nazirlərinin görüşü nəzərdə tutulmuşdu. Artıq bu tarix bəlli idi, sadəcə olaraq, son günlərdə bu tarix açıqlandı. Bu təxribatı törətməklə onlar hesab edirdilər ki, Azərbaycan danışıqlardan imtina edəcək. Biz imtina edə bilərdik, əgər onlara layiqli cavab verməsəydik. Cavablarını verdik, işğalçıları məhv etdik, onları cəzalandırdıq, sonra da danışıqlara getdik.

Bax, budur Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan əsas məsələlər. Ona görə mən deyirəm ki, bu il Azərbaycanın mövqeləri daha da möhkəmləndi. Alxanlı kəndində törədilmiş hərbi cinayətin dünyada böyük əks-sədası var. Yəni Ermənistan gördü ki, Azərbaycan böyük beynəlxalq dəstəyə malikdir. Bizim bütün qurumlarımız çox fəal, operativ işlədilər, bu məlumatı dünya ictimaiyyətinə çatdırdılar. Həm dövlət qurumları, səfirliklər, diaspor təşkilatları, ictimai təşkilatlar, bizim xaricdəki dostlarımız öz səslərini ucaltdılar və Ermənistana, onun faşist xislətli siyasi rəhbərliyinə dünyada nifrət daha da artdı.

O ki qaldı danışıqların perspektivlərinə, bir daha demək istəyirəm ki, danışıqlar bərpa edilir, bu, müsbət haldır. İndi əsas vəzifə tezliklə məsələni həll etməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Əminəm ki, belə də olacaq. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq".

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Sınıqçıların sındırdığı həyatlar...

**Bugünlərdə qolu sındığı üçün Ağdaş Mərkəzi Rayon Xəstəxanasında əməliyyat edilən 9 yaşlı Seymur Mehralıyevin ölümü yenidən bir neçə məsələni aktuallaşdırdı. Qeyd edək ki, Qəbələ rayonu Qaradeyin kənd sakini olan S. Mehralıyev bu yaxınlarda evlərinin pilləkənlərindən yıxılaraq qolunu sındırıb. Atasının dediyinə görə, qolundan zədə alan uşağı əvvəlcə sınıqçıya aparıblar. Bir müddət keçdikdən sonra isə məlum olub ki, sınıqçının səhvi ucbatından uşağın qolu əyri bitib. Rentgen müayinəsi də sümüklərin əyriliyini təsdiqlədiyindən S. Mehralıyev əməliyyata alınıb. Əməliyyatdan öncə uşağa verilən narkozun təsirindən o, əməliyyat stolundaca dünyasını dəyişib.**

## Vaqif Qarayev: "İlin-günün bu vaxtında uşağın sınıqçıya aparılması cahillikdən başqa heç nə deyil"

Bəzi ekspertlər bu hadisənin həkim səhlənkarlığı ucbatından baş verdiyini bildirirlər. Qeyd edirlər ki, anafilaktik şokun olmaması üçün uşağa həmin narkoz verilməzdən əvvəl yoxlama inyeksiyası ("prob") edilə bilərdi. Bəziləri isə uşağın ölümündə travmatoloq cərrahın deyil, bundan əvvəl ona türkəçarə yardım göstərən sınıqçının günahkar olduğunu iddia edir.

Bu hadisə onu göstərdi ki, tibb sahəsi, müasir avadanlıq nə qədər inkişaf etsə də insanlar hələ də xalq təbabətinin populyar simaları olan sınıqçılara, çöpçülərə və digər "ara həkimləri"nə müraciət edirlər.

Xalq təbabətində sınıqçılıq xüsusilə məşhurdur. Ümumiyyətlə, cərrahlıq meydana gələnə qədər insanlar yalnız sınıqçılara müraciət ediblər. Hətta yaxşı sınıqçı üçün bir rayondan digərinə gedərdilər. Sınıqçı hərəkətin, sümüyün tamlığının pozulması, şişkinlik və ya hərəkət zamanı sümükdən hər hansı səsin gəlməsini düzəldir. Öncə zədə müəyyən olunur, sonra yumşaldıcı vasitələrdən istifadə edilir. Çünki sınıq zamanı sümüklər yerini dəyişə bilir və bu da əzələlərin yığılmasına səbəb olur. Daha sonra sümükləri yerinə oturtduqdan sonra yumurtadan, xəmirdən və başqa bərkidici məhsullardan istifadə edərək həmin nahiyədə hərəkətsizlik yaradılır ki, hərəkətsizlik nəticəsində sınıq yeri rahat sağala bilsin. Ekspertlər qeyd edir ki, məhz bunları yaxşı bildikləri üçün sümükləri düzgün müalicə edə bilir və beləliklə də insanların etibarını qazana bilirlər. Lakin son hadisədən də göründüyü kimi, bir çox hallarda sınıqçının səhvi ciddi fəsadlara yol aça bilir və hətta faciə ilə nəticələnir.

Maraqlıdır, niyə müasir dövrdə sınıqçılara, digər "ara həkimləri"nə hələ də ehtiyac var? İnsanların həkimlərdən çox, türkəçarə metodlara üz tutmasının səbəbi nədir?



Ekspertlərin fikrincə, bunun əsas səbəbi sosial vəziyyətlə bağlıdır. Maddi imkansızlıqdan insanlar daha sərfəli yol kimi türkəçarəyə müraciət edirlər.

**Sosioloq Əhməd Qəşəmoğlu qeyd etdi ki, bu tip məsələlərə müxtəlif faktlardan yanaşmaq lazımdır:**

"Burada ən başlıca problem səhiyyə sistemində olan problemlərdir. Digər tərəfdən də çox təəssüf ki, tibbi kadrlarımızın səviyyəsi arzuolunan deyil. Eyni zamanda ölkəmizdə tibbi maarifləndirilməyə ehtiyac var. İnsanlara nə qədər desək ki, həkimə tez-tez gedin, mümkün olmur, çünki bu, insanların maddi imkanları xaricindədir. Ona görə də bu məsələdə bir neçə faktlar var və onları ayrı-ayrı həll etməliyik".

**Həkim Vaqif Qarayev mövzuya bu cür şərh bildirdi:** "Sınıqçılıq adətən təbabətin inkişaf etmədiyi vaxtlarda əyalətlərdə, kəndlərdə populyar idi. Xüsusi əl qabiliyyətinə malik olan insanlar var idi, hansı ki, onlar əlləri ilə toxunanda bilirdilər ki, harada sınıq var. Və yumurtadan gipsə bənzər "yaxı" düzəldirdi. Bununla sağalanlar da olurdu, bunu danmaq olmaz. Lakin indiki vaxtda, yəni müasir avadanlıqların olduğu bir zamanda sınıqçıya müraciət edilməsi, üstəlik, nəticədə fəsadların yaranması və həkimə müraciət edilməsi ki, xəstə əlil olub, bunun özü əlillikdir. Sümüklər sına bilər, amma sınmış uclar yerini dəyişməyə bilməz. Onu ancaq həkim dartıb, çəkib sınmış sümükləri uc-uca qoya bilər. Mütləqdir ki, sümüklər düz olaraq bitişsin, əyrilik, deformasiya olmasın. Ola bilsin ki, sınıqçıların xüsusi vərdişi olsun, sınmış sümüyü bərkidə bilsin, lakin qoyduğu "gipsin" ucbatından monitorda görmək olmur ki, sümük düzgün yerinə oturub, ya yox. Nə qədər xüsusi vərdiş olsa da, rentgenin göstərdiyini heç bir əl, barmaq onu hiss edə, duya bilməz. Yəni ilin-günün bu vaxtında uşağın sınıqçıya aparılması cahillikdən başqa heç nə deyil. Uşağın əlil olmaması üçün xəstəni həkimə aparmaq lazımdır".

**Həkim qeyd etdi ki, fəsadlı halların baş verməməsi üçün müvafiq qurumlar ciddi tədbirlər görməlidir:** "Eşitdiyimə görə, bir kənddə məşhur bir sınıqçı var. Onun çox bahalı villası var və bütün sutka ərzində qapısında maşınlar növbəyə düzülür. Düşünürəm ki, ilk növbədə dövlət bu işə qarışmalıdır. Təhsili, tibbi müdaxilə ilə işləməyə izni olmayan şəxslərin bu cür çalışması cinayətdir. Yəni bunları ləğv etməlidir".

❑ **Xalidə GƏRAY**

# Samux musiqi məktəbində "ölü kadrlar" necə maaş alır?

## Direktor: "Məktəbdə yoxlanış aparılıb və heç bir neqativ hal aşkarlanmayıb"

**Samuxun Sərkar kənd musiqi məktəbində baş verən korrupsiya qalmaqalı haqqında qəzetimizin bundan əvvəlki saylarında məlumat dərc etmişdik. Redaksiyamıza daxil olan şikayət məktublarında bildirilirdi ki, adıçəkilən məktəbin direktoru Səadət Fərhad qızı Məmmədbəyova vəzifəsindən sui-istifadə edərək adları məktəbdə gedən, amma faktiki olaraq işləməyən şəxslərin adına əmək haqqı yazaraq mənimsəyir, uşaqların sayını artırmaqla sinif yaradır, nəticədə külli miqdarda pul mənimsəyir. Çantasında Salman Nağıyevin, Alim İbrahimovun, Aytən Alməmmədovun, Rövşən Əsgərovun, Babək Hüseynovun, Nigar Salmanovanın maaş kartlarını gəzdirir. Onların maaşları bankomatlardan şəxsən özü çıxarır. Hətta uzun müddət Rusiyada yaşayan Lalə Şahismayıl qızı Xeyirxəbərovanın maaş kartına keçən 427 manat pulu mənimsəyir.**

Faktla bağlı redaksiyamıza Lalə Xeyirxəbərovanın adına olan hesabdan çıxarış da təqdim olunub. Həmin çıxarışda L.Xeyirxəbərovanın adına 2016-cı il dekabrın 5-dən bu ilin mart ayının 30-dək adına çıxarış edilən maaşların miqdarı yazılıb.

Müraciətdə həmçinin bildirilir ki, əgər Nağıyev Salman, Əsədova Pərvanə və Əliyev Şaiqin uzun illərdir əmək haqqı kartlarının bankomatdan çıxarılması yoxlanılarsa, Azərbaycan Beynəlxalq Bankına sorğu verilərsə, pulun kimin tərəfindən bankomatdan çıxarıldığı açıq-aşkar görünər. Çünki kartı bankomata daxil edib pulu məxaric edərkən həmin bankomat tərəfindən kartı daxil edən şəxsin avtomatik şəkli çəkilir. Bu zaman pulun məktəbin direktoru Səadət müəllimə tərəfindən götürüldüyü aşkar olunacaq.

Məktəbdə ştat üzrə 295 şagird təhsil alındığı bildirilsə də, həqiqətdə bu belə deyildir. Musiqi məktəbində faktiki 173 nəfər şagird təhsil alır. Buna sübut olaraq Həzrətov Orxan Vidadi oğlunu göstərmək olar ki, həmin şagird hazırda Sumqayıt Musiqi Kollecinin truba aləti sinfində təhsil alır.

S.Məmmədbəyovanın keçmiş qudası Elman Hüseynovun redaksiyamıza ünvanladığı məktubda bildirilirdi ki, keçmiş gəlini Şəms Hüseynova savadsızdır, notları belə tanımır, pianoda ifa belə edə bilmir, amma yüksək maaşla pianodan dərs deyir.

Xatırlatma verərək bildirək ki, S.Məmmədbəyovanın əməlləri ilə bağlı baş Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə müraciət ünvanlayıb.



HESABDAN ÇIXARIŞ

**Məsələ ilə bağlı məktəbin direktoru S. Məmmədbəyova "Yeni Müsavat"a açıqlama verib. Direktor qeyd edib ki, korrupsiya qalmaqalı ilə bağlı may ayında məktəbdə yoxlanış aparılıb və heç bir neqativ hal aşkarlanmayıb:** "Aşkarlandı ki, deyilənlərin hamısı şər-böhtandır. Ötən il mən haqqımda səslənən ittihamlara, şər-böhtanlara, şəxsiyyət və ləyaqətimi alçaltdığı üçün Günay Məmmədovanı məhkəməyə verdim. Məhkəmədə təsdiq olundu ki, onun dedikləri yalandır".

**Direktor məktəbin "ölü kadr"ı L.Xeyirxəbərova ilə bağlı ittihamlara da cavab verib:** "O, sağlamlığında yaranmış problemlərə görə ötən il dekabrın sonunda məzuniyyət günündə icazə alaraq bir həftəlik Rusiyaya müalicəyə getdi. Bununla belə, Günay Məmmədova onun haqqında da ittihamlar irəli sürüb. Lalə gənc kadrdır, yaxşı müəllimdir. Sadəcə, yeni ailə həyatı qurmuşdu və səhhətində yaranmış problemlərə görə bir müddət ölkədən getmişdi. Müvafiq orqanlar onun haqqında da araşdırma apardı və deyilənlərin yalan olduğunu sübut etdilər".





Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi

cənab Kamran Əliyevə

Samux rayonu Kolayır kəndində yaşayan Məmmədova Günay Duman qızı tərəfindən

TEL: 055-550-79-76

ƏRİZƏ

**Direktor qızı Şəms Hüseynova haqqında ittihamlara isə bu cür cavab verdi:** "Mənim keçmiş qudamın dedikləri də yalandır. Qızım erkən vaxtında ailə həyatı qurdu. Lakin ailədə tez-tez döyülürdü, buna görə hətta polisə də müraciət etmişdik. Savadına gəldikdə isə bildirim ki, qızım Şəms 5 yaşından musiqi ilə məşğul olur. O, Gəncədə 5 saylı musiqi məktəbini bitirib. Oxuduğu müddətdə daima konsertlərdə, tədbirlərdə iştirak edib. Daha sonra isə Gəncə Musiqi Kollecində fortepiano üzrə təhsil alıb. Qızımın savadsız olması haqqında səslənən ittihamların hamısı əsassızdır".

Uzun müddət məktəbdə müəllim işləyən Günay Məmmədovanın əməkdaşımıza verdiyi açıqlamaya görə, məktəbdə hələ də korrupsiya halları səngimək bilmir: "Ötən il məktəbin direktoru haqqında səsləndirdiyim ittihamlara görə məni məhkəməyə verdi və təzminat davası açdı. Təzminat məsələsi məni qorxutduğu üçün ərizəmi geri götürdüm, məhkəmə barışıq qərarı çıxartdı. Lakin baş verən neqativ halların heç biri araşdırılmadı. Bu gün də qeyd edirəm ki, müraciətimdəki bütün faktlar doğrudur, gerçəkdir. Hazırda da Səadət Məmmədbəyova müəllimlərdən pul tələb etməkdə davam edir. Müəllimlərin hüquqlarını pozması artıq dözülməz həddə çatıb. Hər ay bütün müəllimlərin əmək haqlarından qanunsuz pul tutulmaları aparır".

**G.Məmmədova Rusiyada yaşamış həmkarı ilə bağlı qalmaqala da aydınlıq gətirib:** "Lalə Rusiyada yaşayırdı, lakin adına 3 "stavka" maaş kəsilirdi. Halbuki qanunla bu doğru deyil. Baş verən qalmaqala görə o, təcili olaraq bu ilin əvvəlində Azərbaycana gəldi".

Adının çəkilməsini istəməyən digər müəllimin sözlərinə görə də məktəbdə korrupsiya, hər ay müəllimlərdən pul alınması artıq ənənəvi hala çevrilib.

**Mövzunu davam etdirəcəyik.**

❑ **Xalidə GƏRAY**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**Xəbər verildiyi kimi, iyulun 12-də Brüsseldə Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbəndyan arasında görüş keçirilib. Görüş ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən təşkil olunub və onların iştirakı ilə keçirilib. Ermənistan XİN-in məlumatına görə, görüşdə danışıqlar prosesinin hərəkətə gətirilməsi naminə müvafiq şəraitin yaradılması müzakirə edilib.**



# Müharibə riski sülh şansına qarşı: nəticəsiz görüşlər nəyi dəyişəcək?

## **Rəsmi Bakı:** "Ermənistan anlamalıdır ki, status-kvoya güvəndikcə müstəqilliyini tam itirmək riski ilə üzləşəcək"; **rusiyalı rəsmi:** "Moskva problemin həllində hərəkətə keçməlidir..."




Məlumata görə, həmsədrlər həmçinin prezidentlərin görüşünün təşkili üçün XİN rəhbərlərindən təkliflərini təqdim etməyi xahiş ediblər. Vasitəçi diplomatların iştirakı ilə XİN başçılarının növbəti görüşünün bu ilin sentyabrda Nyu-Yorkda keçiriləcək BMT Baş Məclisinin iclası zamanı keçirilməsi razılaşdırılıb. Bu barədə həmsədrlərin Məmmədyarov-Nalbəndyan görüşü ilə bağlı yaydıqları bəyanatda deyilir. Bəyanatda habelə deyilir ki, nazirlər öz prezidentlərinə həmsədrlərin bu ilin sonunadək yüksək səviyyəli görüşün keçirilməsi ilə bağlı təklifini çatdırmağa razılıq veriblər. Həmsədrlər prezidentlərin görüşünün təşkilinə köməklərini təklif ediblər. Bəyanatda həmçinin qeyd edilir ki, görüş zamanı təmas xəttindəki son vəziyyət də müzakirə edilib.

**"Həmsədrlər tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin görüşü barəsində təklif hər iki ölkənin xarici işlər nazirləri tərəfindən dövlət başçılarına məruzə ediləcək. Prezidentlərin görüşündən sonra 2017-ci ilin payızında həmsədrlərin regiona təkrar səfəri planlaşdırılıb. Görüş əsnasında xarici işlər naziri Elmar Məmmədyarov bir daha bildirib ki, münaqişə ilə əlaqədar gərginliyin azaldılması və regionda təhlükəsizliyin təmin olunması üçün həmsədrlərin təqdim etdikləri mövcud planlara uyğun olaraq Ermənistan qoşunları Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır. Görüşdə hər hansı mexanizmlərin yaradılması müzakirə mövzusu olmayıb". Bu fikri isə Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev bildirib.**

***

Maraqlıdır ki, Brüssel görüşündən öncə Ermənistan XİN başçısı rusiyalı həmkarı Sergey Lavrovla bir araya gəlib.

Xatırladaq ki, iki ölkə XİN rəhbərlərinin bundan öncəki təması aprelin 29-da Moskvada baş tutmuşdu. Həm Moskva, həm də Brüssel görüşləri neçə vaxtdır dondurulmuş vəziyyətdə olan danışıqlara hansısa stimul vermək və bununla da artmaqda olan müharibə riskini azaltmaq niyyəti güdürdü. Hər halda, vasitəçilərin son bəyanat və açıqlamalarından ən əvvəl belə qənaət hasil olur.

Ancaq sülh prosesində irəliləyiş bu gün Azərbaycandan çox işğalçı Ermənistandan asılı vəziyyətdədir. Alxanlı vəhşiliyi isə göstərdi ki, İrəvan dinc nizamlama prosesinə nəinki konstruktiv yanaşmır, üstəlik, özünün davam edən təxribatları ilə kövrək danışıqlara olan ümidləri də topa tutur. Brüssel görüşü məhz danışıqlar prosesində üzücü durğunluğun davam eləməsi və konflikt zonasında artan eskalasiya faktları fonunda ikiqat önəm kəsb edirdi. Yəni münaqişə ətrafında situasiyanın daha çox hansı məcrada inkişaf tapacağına aydınlıq gətirmək baxımından önəm daşıyırdı.

Hələ ki vasitəçilərin iştirakı ilə nazirlərin budəfəki görüşünün hansı pozitiv nəticələrinin olacağını söyləmək çətindir. Həm də ona görə ki, görüş ərəfəsində də İrəvan rəsmilərinin Dağlıq Qarabağla bağlı barışmaz, danışıqlar prosesinin məntiqi ilə bir araya sığmayan davakar ritorikası davam edib. O sırada hətta Alxanlı vəhşiliyinə dolayısı ilə haqq qazandırılıb.

Erməni tərəfinin radikal, maksimalist mövqeyi özünü habelə eyni gündə - iyulun 11-də Avstriyada başlayan ATƏT XİN başçılarının qeyri-formal görüşündə Ermənistan nümayəndə heyətinin çıxışında da göstərib. Təbii ki, bu mövqe cavabsız qalmayıb. Nümayəndə heyətimizin adekvat reaksiyası ilə üzləşib.

**"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏT regionunda təhlükəsizliyə və sülhə qarşı ən ciddi təhdid olaraq qalmaqda davam edir. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin ATƏT-ə verdiyi mandata baxmayaraq, biz müşahidə edirik ki, təşkilat daxilində əsas meyl münaqişə ilə əlaqədar gərginliyi aradan qaldırmaqdır. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin edilmədən gərginliyin aradan qaldırılması problemi həll etməyəcək".**

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, bu fikirlər Azərbaycan nümayəndə heyətinin çıxışında yer alıb. Bildirilib ki, ATƏT daxilində münaqişədə status-kvonun qeyri-davamlı olması barədə yekdil mövqe təsbit edilməlidir:** "Ermənistanın cəbhə xətti boyu münaqişənin gərginləşməsinə yönəlmiş bütün növ təxribatları nəzərə alınaraq status-kvo dəyişilməlidir. Yaşayış məntəqələrinin heç bir fərq qoyulmadan atəşə tutulması nəticəsində iki azərbaycanlı mülki vətəndaşın öldürülməsi Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn kobud surətdə pozmasıdır və bir daha mülki əhalini hədəfə almaqla Azərbaycanı reaksiya verməyə təhrik etmək siyasətinin sübutudur, eyni zamanda Ermənistana sülh səylərini pozmaq üçün bəhanə verir.

Diqqətə çatdırılıb ki, münaqişə həll olunduqdan sonra Ermənistanın hazırkı rejiminin labüd legitimlik böhranı ilə üzləşəcəyi bu rejimi belə təxribatlara əl atmağa sövq edir. Ermənistanın siyasi rəhbərliyi anlayır ki, münaqişənin sülh yolu ilə beynəlxalq hüquqa uyğun həll edilməsi Azərbaycanın işğal olunmuş ərazilər üzərində suverenliyinin və ərazi bütövlüyünün bərpası ilə nəticələnəcək. Məhz buna görə də Ermənistan rəhbərliyi rejimin ömrünü uzatmaq məqsədilə mövcud status-kvonu möhkəmləndirmək üçün hər yola əl atır. Ermənistan dərk etməlidir ki, mövcud status-kvoya güvəndikcə müstəqilliyini tamamilə itirmək və regiondakı siyasi oyunlarda alətə çevrilmək riski ilə üzləşir. Yalnız münaqişəni sülh yolu ilə həll etməklə, Azərbaycan və regionun digər ölkələri ilə yaxşı qonşuluq münasibətləri yaratmaqla Ermənistan öz xalqı üçün müstəqil və xoş gələcək yarada və regionun inkişafından bəhrələnə bilər".

**Çıxışda daha sonra deyilir:** "Təəssüf ki, Ermənistanın xarici işlər naziri Mauerbaxda dialoq imkanını yenə əldən verdi. O, Azərbaycana qarşı əsassız ittihamlarla dolu bəyanatla çıxış etdi. Belə bəyanat daxili siyasi istehlak üçün nəzərdə tutulub. Bu, ATƏT-də gözlənilən çıxış deyil. Bu zalda olan hər kəs anlayır ki, Ermənistan-Azərbaycan münaqişəsində təcavüzkar və təcavüzə məruz qalmış tərəf kimdir. Bizi maraqlandıran sual odur ki, Ermənistanın naziri öz bəyanatı ilə nəyə nail olmaq istəyirdi. Əgər nazir hesab edirsə ki, bu yolla ATƏT daxilində etimad və etibarın bərpasına hansısa töhfə verə bilər, tamamilə aydındır ki, o, iflasa uğradı. Brüsseldə Azərbaycanın xarici işlər naziri və ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə planlaşdırılmış görüşü nəzərə aldıqda, Ermənistanın naziri həddən artıq təxribatçı çıxış səsləndirdi. Biz Ermənistanın nümayəndəliyini həm burada - ATƏT-də, həm də Brüsseldə keçiriləcək danışıqlarda konstruktiv mövqe nümayiş etdirməyə səsləyirik".

***

Göründüyü kimi, Nalbəndyan hətta Brüssel görüşünə saatlar qalmış da ölkəsinin ənənəvi təxribatçı mövqeyini ortaya qoyub. Bir daha İrəvanın ədalətli sülhdə maraqlı olmadığını nümayiş etdirib. Belə olan surətdə görəsən, Azərbaycandan daha hansı "konstruktiv təklif" gözlənilə bilər ki? Fakt odur ki, işğalçı tərəfin təxribatları üzündən bu gün sülh deyil, müharibə şansları artıb.

O üzdən siyasi və hərbi ekspertlər Brüssel görüşünün nəticələrindən dolayı da bir elə nikbin deyillər. Hərçənd **Rusiya siyasi elmlər doktoru, dövlət müşaviri Tatyana Poloskova** hesab edir ki, hələ sülh şansları itirilməyib. Musavat.com-un məlumatına görə, haqqin.az saytına eksklüziv açıqlamasında rusiyalı rəsmi bildirib ki, Rusiya da daxil, böyük dövlətlərin siyasi iradəsi olmadan, Dağlıq Qarabağ problemini çözmək mümkün olmayacaq.

"Aydındır ki, Azərbaycanla Ermənistan arasında gərginlik, onların arasındakı hərbi konflikt manipulyasiya üçün əlverişli alətdir - özü də heç də həmişə bizim ölkələrin xalqlarının marağında olmayan bir alət", - deyə o qeyd edib. Siyasətşünasın fikrincə, bir qrup Rusiya siyasətçisi problemə təkcə Azərbaycan və Ermənistan daxilindəki proseslərə təsir vasitəsi kimi deyil, həm də şəxsi PR faktoru kimi baxır.

"Bu da ola bilər. Mən o fikirlə razıyam ki, münaqişə tərəflərinin siyasi iradəsi olmadan konfliktin həlli mümkün deyil. Lakin prosesdə ən mühüm tərəf həm də Rusiya rəhbərliyidir. Odur ki, anlamaq istəyirəm: Rusiyanın buna siyasi iradəsi varmı və nə dərəcədə tez bir zamanda bu iradə real addımlara çevriləcək?", - deyə dövlət müşaviri sonda sual edib.

***

Əslində bu sualın özü ritorikdir. Çünki rəsmi Moskvanın Dağlıq Qarabağ məsələsinin dinc və ədalətli həllində real irəliləyişə nail olmasına ona özündən başqa heç bir qüvvə əngəl yaratmır, yarada bilməz. O səbəbə ki, problemin həlli üçün ən güclü rıçaq məhz onun əlindədir. Hələ ki onun əlindədir. O üzdən Moskva siyasi iradə göstərmək məsələsində bir qədər tələssə, yaxşıdır. Əks halda, yeni status-kvonun, işğal rejiminin davam edəcəyi təqdirdə əsas rıçaqın da daima onun əlində qalacağına zəmanət yoxdur. Bunu yəqin ki, Kreml dəhlizlərində də bilirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017



**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**
**Musavat.com xəbər verir ki, hakim Həbin Həsənovun sədrliyi ilə keçirilən prosesdə Akif Çovdarov ifadə verib.**

# Həbsdəki generaldan Tağı Əhmədovla bağlı sensasion açıqlamalar

## Akif Çovdarov: "Həmin şəxs dedi ki, "bu bombadı, partlaya bilər, qoy özündə qalsın"

General ilk olaraq YAP-ın Yasamal rayon təşkilatının sədri, Bakı Metropoliteninin sabiq rəhbəri Tağı Əhmədovun 3 milyonunun ələ keçirilməsi epizodu üzrə danışıb.

**Akif Çovdarov deyib ki, Tağı Əhmədov işdən çıxarılandan sonra quruma yeni rəis təyin olunan Zaur Həsənov ona zəng edib:** "Mənə dedi ki, stansiyaların çıxışlarından sökülən obyektlərin icarədarları metroya girişi bağlayıb, aksiya keçirirlər. Mən də dedim bu barədə polisə məlumat vermək lazımdı. Zaur Həsənov dedi, polisə demişik, onlar bacarmır".

**A.Çovdarov deyib ki, bundan sonra rəhbərliyinə məlumat verib:** "Mən hadisə barədə nazirliyin rəhbərliyinə müraciət etdim, onlar da ölkə rəhbərliyinə məruzə etdilər. Göstəriş verildi ki, araşdırılsın. Biz də araşdırdıq və bəlli oldu ki, metro stansiyalarının çıxışlarında 1200 obyekt var. Bunlar da 2007-ci ilə qədər Bakı Şəhər İcra Hakimiyyətinin, sonra isə Bakı Metropoliteninin balansında olub. Həmin obyektlərin aylıq icarə haqqı 200 dollardan 3 min dollara kimi idi. Bunlar da 3 aylıq icarə pulunu öncədən alırdılar. Tağı Əhmədov işdən çıxandan sonra da yeni rəhbərlik köşkləri ləğv etmişdi. Aksiya edənlər verdikləri icarə haqlarını tələb edirdilər".

**Çıxışında general deyib ki, sökülən obyektlər Tağı Əhmədovun hakim işləyən oğlu Rauf Əhmədovun yaxın dostları arasında bölüşdürülürmüş:** "Tağı Əhmədov ötən iclasda dedi ki, ildə 120 min manat icarə pulu verib. Ona sual verilməlidir ki, 1200 köşkün icarəsi 120 min edirsə, belə çıxır ki, biri 8 manat 50 qəpik olub? Həmin vaxt icarədarlardan alınan 3 aylıq ödəniş 5 milyon dollardan artıq idi. Biz bunu da rəhbərliyə məruzə etdik. Dövlət rəhbərliyi bizi çağırıb detallı araşdırma aparıb metropolitenin fəaliyyətinin yoxlanılmasını tapşırdı. Metropoliten hər il dövlətdən subsidiya alsa da, bu qədər gəlir əldə edirmiş".

**Generalın sözlərinə görə, detallı araşdırma aparılan zaman bəlli olub ki, metro stansiyalarında aparatlar elə qurulub ki, hər 4 jetondan biri qeydiyyatdan keçməyib və onun pulu Tağı Əhmədovun cibinə gedirmiş:** "Bütün bunları bizə Tağının qardaşı oğlu Şövqi Əhmədov dedi. Buna görə də Tağı Əhmədov öz qardaşı oğlundan imtina edib".

**Tağı Əhmədovun barəsində sensasiya sayılacaq açıqlamaları davam edən A.Çovdarov çıxışına bunları əlavə edib:** "Bundan başqa, biz agentura xəttimiz vasitəsilə müəyyən etdik ki, təzə vaqon adı ilə Moskvadan işlənmiş vaqon alıb "kraskalayıb"lar. Bununla da 11 milyondan çox dövlət vəsaiti mənimsənilib. Hər 4 jetondan birini əldə etməklə aya 300 min manat pul qazanırdılar. İşıq puluna görə "Azərenerji"yə 4 milyon manat borcları var idi. Onu da mənimsəmişdi".

**Çovdarov daha sonra Tağı Əhmədovun əmlakları barədə danışıb:** "Bunlar üzə çıxandan sonra biz Tağı Əhmədovun əmlaklarını da müəyyən etməyə başladıq. İndi yadımda qalanları deyəcəm. "Sahil" metrosunun üstündəki binada 4 mənzil, "Yeni Həyat" yaşayış kompleksində 4 mənzil, Neft Akademiyasının əsas korpusu ilə üzbəüz 7-8 dükan, Bakıda 6-7 bağ evi, Yasamal Rayon Məhkəməsinin yeni binasının arxasındakı "Kolizey" və "Şəhrizad" restoranları, Dubayda elit yaşayış kompleksində yerləşən hotelin bütövlükdə 3 mərtəbəsi, Dubayda bir böyük ticarət mərkəzi. Bundan başqa, Tağı Əhmədov Xarici İşlər Nazirliyində işləyən oğlu Ruslan Əhmədov vasitəsilə 17 milyon dollar pulu ofşor hesablarla ölkədən çıxarıb. Dubaydakı hoteli və ticarət mərkəzini də bu pulla alıb. Moskvada metro çıxışında 5 milyona 120 kvadratmetrlik dükan alıb, arendaya verib".

**Akif Çovdarov Tağı Əhmədovun bank hesablarındakı pulları haqda da danışıb. O bildirib ki, Tağı Əhmədovun təkcə "Texnikabank"da 13 milyon dolları olub.** "Digər pulları isə "Bank of Baku" və "Unibank"dakı hesablarında idi. "Texnikabank" müflis olanda öz hesabından 9 milyon çıxarıb ofşora yatırmışdı. Qalan 4 milyonu da Ruslan Əhmədov müxtəlif qohumlarının adına 30-50 min miqdarında köçürmüşdü. Qohumları hesablardan pulu çıxarıb əlbəəl Ruslana verməşdilər, bunun kamera görüntüləri də var idi. Ümumilikdə Tağı Əhmədov və yaxınlarının hesablarında 21 milyon pul müəyyən edildi. Biz məlumatları toplayıb rəhbərliyə təqdim etdik, bizə cavab verdilər ki, hələ gözləyin, məlumatları özünüzdə saxlayın, prokurorluq istəyəndə verərsiniz. Sonra mən prokurorluqdan yüksək vəzifəli şəxslə əlaqə saxladım və telefonda hansı məlumatlar olduğunu ona dedim. Həmin şəxs dedi ki, "bu bombadı, partlaya bilər, qoy özündə qalsın. Sən onu bizə göndərsən biz gərək qeydiyyata salaq, onda da ortaya çıxacaq"" deyə, A. Çovdarov çıxışına əlavə edib.



**Məhkəmədə çıxış edən prokuror isə qeyd edib ki, Tağı Əhmədov haqda prokurorluqda heç bir araşdırma aparılmayıb. A.Çovdarov prokurora belə cavab verib:**

"Sən məndən bunu soruşma, soruş ki, mən prokurorluqda yüksək vəzifəli şəxs olan kimlə danışmışam".

Amma prokuror bu sualı dinləməklə kifayətlənib.

**Prosesin davamında Çovdarov Tağı Əhmədov barəsində danışmağa davam edib:** "Tağı Əhmədovun mənə pul verməsi yalandır. Bir dəfə nazirliyimizə 10-12 minlik yüngül maşınlar lazım idi, rəhbərlik məsləhət gördü ki, əməkdaşlıq etdiyimiz qurumlardan istəyək, onlar da hədiyyə etsinlər. Mən Rəsula dedim ki, get Tağıya denən, lazımdısa nazir müavininin adından rəsmi məktub da yazaq. Onda Tağı demişdi ki, "3-5 min verə bilərəm, üstünü özünüz düzəldərsiz". Mən bilirdim ki, Tağının arxasında kim var, ona görə bu məsələnin üstünə getmədik. Tağı Əhmədovun mənimsəmələri isə dövlət rəhbərliyinin məlumatı olduğu məsələ idi, 3 yox, 15 milyon da versə idi, mən onu bağlaya bilməzdim. Tağı Əhmədovun arxasında kimin olduğunu da onun daha əvvəlki işində bildik. O metro üçün işlənmiş mikrosxemləri avtobusda xüsusi hazırlanmış gizli saxlanc yerində ölkəyə gətirirdi. Biz həmin avtobusu nəzarətə götürdük. Sürücü bizim onu izlədiyimizi bildi, onu saxlamaq istəyəndə işçimizin birini avtobusla vurdu, xəsarət aldı. Sumqayıt postunda sürücünü saxladıq, məsələni rəhbərliyə məruzə edəndə bizə dedilər ki, Tağı Əhmədovla işiniz olmasın".

**Çovdarov bildirib ki, Tağı Əhmədovun ondan şikayət etmək fikri olmayıb:** "Şikayət edəndən sonra da peşman olmuşdu. 2016-cı ildə ərizəsini geri götürmək istəyirdi, neçə yerdə də demişdi ki, bu yaşımda mənə lazım idi bu? Onu şantaj etdilər, oğlu Ruslan Çovdarov içkili vəziyyətdə qəza törətmişdi, adam ölmüşdü. Ruslan da ANS-in kamerasına düşmüşdü. Tağı da bu məsələyə görə məcbur olub mənim əleyhimə yalan ifadə verdi".

Məhkəmə prosesi iyulun 18-də davam etdiriləcək.

**Qeyd edək ki, Akif Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.**

❑ **İlkin MURADOV**

# Eldar Mahmudovun həbsinin üzə çıxaracağı sirlər

## Sabiq nazirin işçilərindən əsas fərqi odur ki, onun malik olduğu kompromatlar hər an agentləri tərəfindən üzə çıxarıla bilər



**Bakı Hərbi Məhkəməsində sahibkarlara hədə-qorxu gəlməkdə, külli miqdarda əmlakını ələ keçirməkdə təqsirləndirilən MTN polkovniki Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. Hakim Siyavuş Hacıyevin çıxardığı hökmlə Vüsal Ələkbərov 12 il müddətinə azadlıqdan məhrum edilib və polkovnik rütbəsindən məhrum edilib. V.Ələkbərova məxsus olan və həyat yoldaşı Şəhla Ələkbərovanın adına rəsmiləşdirilən Badamdar qəsəbəsindəki 18 sot torpaq sahəsi və üzərində yerləşən fərdi yaşayış evi, Şərifzadə küçəsindəki mənzili, ümumi dəyəri 1 milyon 277 min manat olan əmlakları müsadirə edilib. Məhkəmə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Baş İstintaq İdarəsinin keçmiş rəisi Mövlam Şıxəliyev barəsində cinayət işinin başlanması üçün prokurorluğa təqdimat göndərib. Hökmdə göstərilib ki, təqdimat zərərçəkmişlərin şikayəti əsasında hazırlanıb.**

M.Şıxəliyev gununsesi.info-ya deyib ki, barəsində xüsusi qərardad çıxarılmasından məlumatsızdır: "Bakı Hərbi Məhkəməsinin barəmdə cinayət işinin başlanması üçün qərardad çıxarması ilə bağlı xəbəri mətbuatdan oxudum. Bu barədə məlumatsızam. Əgər sizin üçün maraqlıdırsa, özünüz məhkəməyə müraciət edib məlumat ala bilərsiniz".

E.Mahmudovdan isə vəzifədən çıxarılandan sonra xəbər yoxdur. Onun ölkədə olması, xaricə getməsi haqda bilgilər yayılsa da, sabiq nazirin konkret harada olması bilinmir. Əgər xüsusi qərardad üzrə cinayət işi başlansa və E.Mahmudov həbs edilsə, hansı məqamlar üzə çıxa bilər?

Onun uzun illər rəhbərlik etdiyi sahədə cəmiyyətin ən müxtəlif təbəqələrindən olan üzvlərinə qarşı kompromatlar toplanıb. Media, biznes, iqtidarlı-müxalifətli bütün sahələrdə özünün agentləri olub. E.Mahmudov həbs olunarsa, həmin şəxslərin də deşifrə olunması prosesi baş verə bilər. Hərçənd ki, E.Mahmudovun həbs ediləcəyinə əksər ekspertlər böyük şübhə ilə yanaşırlar. Sabiq nazirin 10 illik fəaliyyəti dövründə topladığı kompomatlardan özünə qala qura bildiyi, özünü kompromatlarla qoruduğu haqda bilgilər də var.

E.Mahmudovla onun baş istintaqçısı M.Şıxəliyevin barəsində çıxarılan xüsusi qərardad qeyd etdiyimiz kimi, MTN müstəntiqi Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmənin yekun qərarında yer alıb.

V.Ələkbərovun özü belə məhkəməsində kompromatlardan istifadə etməyə çalışıb. Sabiq müstəntiq "mən 2005-ci ilin martında Bakıda öldürülən "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun cinayət işini araşdırmışam" sözlərini deməklə özünün sıradan biri olmadığını, geniş bilgilərə sahibliyini diqqətə çatdırmaq istəyib. Məhkəmədə onun dediklərinə əhəmiyyət verilməməsi görüntüsü yaradılsa da, eks-müstəntiqin mesajı ünvanına çatmamış deyil. Bununla belə, bu açıqlama V.Ələkbərov üçün "ikibaşlı dəyənəyə" də çevrilə bilər. Mümkündür ki, V.Ələkbərov vaxtilə iş yoldaşı olmuş ləğv edilən MTN-in Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyevin taleyini yaşaya bilər. Yada salaq ki, İ.Əliyev E.Mahmudov işdən çıxarılandan dərhal sonra həbsə alınan MTN-çilərdən idi. Belə məlumatlar vardı ki, o, həbs qərarından verdiyi şikayətlə əlaqəli aparıldığı məhkəmədə bildiklərini açıqlayacağı ilə bağlı bəyanat vermişdi. Bu bəyanatdan bir neçə gün sonra onu saxlandığı Bakı İstintaq Təcridxanasının kamerasında asılmış vəziyyətdə aşkar etdilər. Hazırda məhkəməsi keçirilən MTN generalı Akif Çovdarov İlqar Əliyevin öldürüldüyünü və sonradan asıldığını açıqladı.

E.Mahmudovun həbsi gerçəkləşərsə, onun da belə bir tale yaşaya biləcəyi istisna deyil. Lakin sabiq nazirin işçilərindən əsas fərqi odur ki, onun malik olduğu kompromatlar hər an agentləri tərəfindən üzə çıxarıla bilər. Görünür, bu məqam sabiq naziri həbsdən sığortalayır.

❑ **E.HÜSEYNOV**

**ABŞ-da prezident seçkilərinə "Rusiya müdaxiləsi" ilə bağlı qalmaqalların yeni dalğası yüksəlmək üzrədir. ABŞ KİV-ində hesab edirlər ki, prezidentin oğlu - kiçik Trampın Azərbaycan əsilli rusiyalı milyarder Araz Ağalarovun oğlu ilə münasibətləri Kremlin seçkilərə təsirini göstərir.**

# Araz Ağalarov oğlunun adı qarışan kompromatdan danışdı

## "Trampın oğlu ilə Emin ünsiyyət saxlayırdılar, ancaq necə, nədən danışırdılar, bilmirəm"

Rusiyanın müxalifyönlü mətbuatında isə yazılır ki, ABŞ seçkilərinə "Rusiya müdaxiləsi" işini araşdıran xüsusi prokuror Robert Müller ABŞ prezidentinin oğlu ilə rusiyalı vəkilin elektron yazışmasını araşdırmaq niyyətindədir, bütün bunlar haqqında CNN kanalı öz mənbələrinə istinadən məlumat verir. Daha öncə isə "New York Times" məlumat vermişdi ki, Kremllə əlaqəsinin olduğu iddia edilən Rusiyadan olan vəkil Natalya Veselniçkaya 2016-cı ildə prezidentin oğlu ilə görüşüb və ona prezidentliyə namizəd Hillari Klintona qarşı əlində kompromat olduğunu bildirib. Prezidentin oğlu mətbuat nümayəndəsinə bildirib ki, Veselniçkaya ilə görüş zamanı bəlli olub ki, onda heç bir əhəmiyyətli informasiya yoxdur və söhbətin məcrası uşaqların övladlığa götürülməsi zamanı yaşanan problemlərlə dəyişib və əslində görüşün əsas səbəbi də məhz bu olub. Veselniçkaya, sadəcə, "kompromat məsələsindən" görüşə nail olmaq üçün istifadə edib.

Bununla yanaşı, gənc Tramp twitter səhifəsində musiqi tənqidçisi Rob Qoldstoun ilə yazışmasını paylaşıb, Qoldstoun onun Emin Ağalarov ilə görüşünü təşkil etməli idi. Donald və Emin hələ 2013-cü ildən tanışdırlar. ABŞ KİV-i bu münasibəti də Kremllə əlaqələrin sübutu kimi qiymətləndirir. Çünki Eminin atası Aras Ağalarov ilə Rusiya prezidenti Vladimir Putin dostdur.

Kiçik Trampın Qoldstounla yazışmasında Emin Ağalarovla görüşün təşkili barədə müzakirə gedir. Həmin yazışmada kiçik Tramp Qoldstouna belə yazır: **"Əgər bu, sən deyən məsələdirsə(Klinton haqda informasiya), o zaman bu, mənim xoşuma gəlir".**

Öz növbəsində Qoldstoun bəyan edib ki, vəkil ona daha öncə Hillari Klintonun seçki kampaniyası ilə bağlı ilginc məlumatlar çatdıracağını anons edib. "Rusiyanın baş prokuroru Trampın seçki qərargahına Rusiya ilə Hillari Klinton arasındakı münasibətlərlə bağlı rəsmi sənəd və məlumatlar çatdıracağını deyib. Bu isə sizin atanızın xeyrinə ola bilər" - bu isə Qoldstonun 3 iyun 2016-cı ildə kiçik Trampa yazdığı məktubda öz əksini tapıb.

Kiçik Tramp öncə bu sual ətrafında telefonda müzakirə aparmağı təklif edib. Amma bu, alınmayanda üzbəüz görüşə razılıq verib. Bununla belə, o bir daha iddia edib ki, "sözügedən qadın" (söhbət Veselnitskayadan gedir) rusiyalı məmur olmayıb, sadəcə, övladlığa götürmə və "Maqnitski Aktı" ilə bağlı məlumat əldə etməyə çalışıb. Kiçik Tramp eyni zamanda deyib ki, atası onun rusiyalı vəkillə görüşündən xəbərdar olmayıb.

Trampın oğlu deyib ki, rus vəkil ona kampaniya üçün əhəmiyyətli olacaq informasiyaya malik olduğunu söyləyib. O deyib ki, guya Rusiyaya bağlı şəxslər Demokratik Partiyanın Milli Komitəsini və Hillari Klintonu dəstəkləyirlər. Oğul Trampın dediyinə görə, söhbət əsnasında tezliklə aydın olub ki, vəkilin informasiyası yayğındır və heç bir sübuta söykənmir.




Cənab Varner deyib ki, rusiyalı vəkillə söhbət Tramp administrasiyasının "yaddaşsızlıq" vərdişinin daha bir epizodudur. Başqa sözlərlə Tramp administrasiyası və kampaniyasının rəsmiləri ruslarla görüşlərini nədənsə bir qayda olaraq "unutmuş" olurlar. Senator deyib ki, indiyədək Tramp kampaniyasının ruslarla əlaqələrinə dair çox sayda iddialar olub, lakin prezident və onun yaxın çevrəsi bütün bu iddiaları rədd ediblər.

BBC xəbər verir ki, "The İndependent" hüquq ekspertinə istinadən yazır ki, ola bilsin, oğul Tramp öz bəyanatı ilə cinayət törətdiyini təsdiq edib. MSNBC şəbəkəsindən təhlükəsizlik təhlilçisi və Ədliyyə Nazirliyinin keçmiş sözçüsü Metyu Miller deyib ki, prezidentin oğlu xarici vətəndaşdan dəyəri olan nəsə almaq istədiyini və buna çalışdığını etiraf etməklə qanunu pozduğunu da etiraf edir. Ekspert deyib ki, ABŞ qanunlarına görə, bu "qiymətli nəsənin" pul olması vacib deyil, bu bir informasiya da ola bilər.

"Krokus" qrupunun sahibi, milyarder Araz Ağalarov ABŞ prezidenti Donald Trampın oğlu tərəfindən dərc edilmiş və Hillari Klinton əleyhinə kompromatla əlaqədar onun oğlu Emin Ağalarovun adıçəkilən məktubu "uydurma" adlandırıb.

**Virtualaz.org bildirir ki, BFM-ə müsahibəsində A.Ağalarov deyib:** "Mən düşünürəm, bu hansısa bir uydurmadır. Amma onu kim uydurur, bilmirəm. Hillari Klintonun bura nə dəxli var? Mən bilmirəm..."

"Trampın oğlu ilə tanışsınızmı" sualına Araz Ağalarov "yox" cavabı verib.

"Onunla Emin tanışdır, mən tanış deyiləm. Amma biz beynəlxalq gözəllik yarışması keçirdik və orada müəyyən əlaqələr oldu. Onlar təxminən eyni yaşdadır, haradan bilim ki, hansı formada ünsiyyət saxlayırdılar. Bəli, ünsiyyət saxlayırdılar, ancaq necə, nədən danışırdılar, bilmirəm", - deyə A.Ağalarov bildirib və əlavə edib ki, Trampın oğlu bir müddət Eminlə menecer kimi işləyib və yəqin, yaxud ehtimal ki, Amerikada nəsə müəyyən işlər görüb.

"Ümumiyyətlə, o işləyirdi. Onlar ünsiyyət saxlayırdılar", - deyə milyarder bir daha vurğulayıb.

❑ **Sevinc TELMANQIZI**

# ABŞ həm "qaçan"ın, həm də "qovan"ın yanındadır

## Vaşinqton və Doha arasında son anlaşma ərəb ölkələrini məmnun etmir

**Qətər ətrafında gərginliyin davam etdiyi bir vaxtda Türkiyə ordusu bu ölkədəki hərbi bazasına növbəti dəfə hərbçi göndərib. Ötən gün "Birinci ordu"ya məxsus 45 xüsusi təyinatlı hərbçi Qətər gəlib və bununla da Qətərdəki Türkiyə hərbçilərinin sayı 150 nəfərdən çox olub. İyulun 16-19-da isə Qətərə daha 25 nəfərdən ibarət artilleriya heyəti gedəcək. Bundan sonra isə iki ölkənin birgə hərbi təlimləri başlayacaq.**

Xatırladaq ki, 2014-cü ilin sonunda imzalanmış Qətər-Türkiyə anlaşması bu ilin iyun ayında Türkiyə parlamenti tərəfindən təsdiqlənib və bundan sonra Türkiyə hərbçilərinin Qətərə göndərilməsi başlayıb. Bütün bunlar Qətər ətrafında böhranın başladığı günlərlə eyni vaxta təsadüf edib. İyunun əvvəlində 4 ərəb ölkəsi - Səudiyyə Ərəbistanı, Misir, Bəhreyn və BƏƏ Qətəri terrorizmi maliyyələşdirməkdə ittiham edərək Doha ilə diplomatik əlaqələri dayandırıb. Bundan sonra Qətərə yerinə yetirməsi üçün 13 təklif göndərilib, ancaq rəsmi Doha tələbləri qəbul etməyib.

İki gün əvvəl isə ABŞ dövlət katibi Reks Tillerson Dohaya səfər edib. Səfər çərçivəsində ABŞ və Qətər hökumətləri arasında "terrorla mübarizə və terrorun maliyyələşdirilməsinin qarşısının alınması" haqqında anlaşma imzalanıb. Anlaşma nəticəsində iki ölkə Qətərin terrorla mübarizəsinə dəstək verilməsi və terrora maliyyə dəstəyi verilməsi ilə bağlı problemləri aradan qaldırmaq üçün birgə hərəkət edəcəklər.

Qeyd edək ki, 4 ərəb ölkəsinin Qətərə qarşı əsas ittihamları məhz terroru maliyyələşdirməklə bağlıdır. Adları yuxarıda qeyd olunan ərəb ölkələri isə ABŞ və Qətər arasında imzalanmış anlaşmanın "yetərli olmadığı" ilə bağlı birgə açıqlama yayıb. Bu səbəbdən də Qətərə qarşı embarqo davam edəcək. Ancaq eyni zamanda ərəb dövlətləri ABŞ-ın Qətər böhranını aradan qaldırmaqla bağlı addımlarını təqdir ediblər. Qətər hökuməti isə anlaşmanın Qətər böhranı ilə bağlı olmadığını bildirib.

Yeri gəlmişkən, bu gün Qətərə embarqo tətbiq edən 4 ərəb ölkəsi - Səudiyyə Ərəbistanı, BƏƏ, Misir və Bəhreyn xarici işlər nazirləri Səudiyyə Ərəbistanının Ciddə şəhərində bir araya gələcək. Məsələ ondadır ki, Qətər böhranı əslində ABŞ-ın, daha dəqiqi, prezident Donald Trampın xeyir-duası ilə başlayıb. Mayın 21-də Səudiyyə Ərəbistanına səfər edən ABŞ prezidenti müsəlman ölkələri ilə toplantıdan bir neçə gün sonra 4 ərəb ölkəsi Qətərə qarşı məlum bəyanatla çıxış ediblər. Daha sonra ABŞ prezidenti özü də Qətəri ittiham edən açıqlama verdi.

Bununla da məlum oldu ki, ABŞ prezidenti əslində bu prosesin içərisindədir. Lakin eyni zamanda prezidentdən fərqli olaraq Dövlət Departamenti daha yumşaq bəyanat verdi. ABŞ Müdafiə Nazirliyi (Pentaqon) isə ümumiyyətlə, Qətəri müdafiə etdi. Məlum olduğu kimi, hazırda ABŞ-ın körfəz regionunda ən böyük hərbi hava bazalarından biri Qətərdə yerləşir. 13 min hərbçinin olduğu baza İraq və Suriyada İŞİD-ə qarşı mübarizənin əsas mərkəzi hesab olunur. Pentaqon bəyan etdi ki, bazanın bağlanması İŞİD-ə qarşı əməliyyatlara mənfi təsir edə bilər.

Bu prosesdə Qətər rəhbərliyi Vaşinqtonda ciddi diplomatik fəaliyyət yürütdü, ABŞ-dan 12 milyardlıq silah alınması haqda müqavilə imzaladı. Bununla da Doha müəyyən qədər Vaşinqtonu neytrallaşdırmağa nail oldu. İndi isə Amerika Qətərlə anlaşma imzalamaqla yaranmış gərginliyi yumşaltmağa çalışır. Görünür, Tillersonun Doha səfəri zamanı bu mövzu müzakirə olunub və Vaşinqton Qətərdən müəyyən vədlər alıb. Bu anlaşma Dohanı Vaşinqton təhlükəsindən sığortalayır.

Məsələ ondadır ki, ABŞ hökuməti bu böhranın daha da dərinləşməsində maraqlı deyil. Aydın məsələdir ki, Qətər "ərəb baharı" prosesində bir sıra ölkələrdə, o cümlədən Liviya, Misir, Suriya kimi ölkələrdə silahlı üsyançı qrupları maliyyələşdirib və indi də maliyyələşdirməkdə davam edir. Eyni zamanda körfəzdə bir sıra ərəb ölkələrinin hakim ailələrinin gizli şəkildə İŞİD-i maliyyələşdirdiyi də məlumdur. Ancaq Qətər hökumətinin silahlı qrupları dəstəkləməsi tamamilə açıq olub. Son illərdə Qətərin digər ərəb ölkələri ilə ideoloji-siyasi fikir ayrılığı dərinləşib və apardığı müstəqil siyasət körfəz ölkələrini qıcıqlandırıb. Bu səbəbdən, ona qarşı kəskin mövqe ortaya qoydular. Vaşinqtonla sözügedən anlaşma Qətəri xarici müdaxilə təhdidindən sığortalayır və yaranmış böhranın aradan qaldırılması prosesini sürətləndirəcək. Bu anlaşma Dohanı müəyyən qədər Vaşinqtonun təsiri altına alır. Anlaşma çərçivəsində Doha Vaşinqtonla məlumat mübadiləsi aparacaq və fəaliyyətlərini ABŞ-la koordinasiya edəcək. Bu vəziyyət Vaşinqtonu məmnun etsə də, körfəz ölkələrini razı salmır, çünki faktiki olaraq Qətər heç bir tələbi yerinə yetirmədi.

Eyni zamanda Türkiyə ilk gündən olduğu kimi, Dohanı dəstəkləməkdə davam edir. Artıq Ankara Dohaya hava koridoru da açıb. Üstəlik, ora əsgər göndərməklə Qətərin təhlükəsizliyini faktiki olaraq təminat altına alıb. Bu hadisə bir tərəfdən Türkiyəyə Qətər kimi bir müttəfiq qazandırmaqla yanaşı, ən azından 4 düşmən ölkə qazandırıb. Bu isə Yaxın Şərqə acılmı siyasi hədəf elan edən Ankara üçün ciddi riskdir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Vətəndaşları dəlixanaya salıb mənzillərini ələ keçiriblər - şok məhkəmə işi

## İşdən qovulan başçının adı vətəndaşların mülklərinin ələ keçirilməsinə qarışıb

**Bakı Apelyasiya Məhkəməsində hakim Xuraman Məhərrəmovanın sədrliyi ilə Yasamal rayonunda böyük mənzil fırıldaqlarının açılmasında açar rolunu oynaya biləcək şikayət araşdırılır.**



Məsələnin mahiyyəti budur ki, Ədliyyə Nazirliyinin sabiq işçisi Arzu Səfərov 2009-cu ildə 83 min dollar ödəməklə Yasamal rayonu, Yeni Yasamal-1 küçəsi, ev 13 ünvanlı binanın 10 saylı mənzilini alıb. Mənzili satan isə Həsən Novruzov olub. A.Səfərov mənzildə 5 il yaşayıb və günlərin birində Yasamal Rayon Məhkəməsindən ünvanına qətnamə gəlib. Həmin qətnamədən belə aydın olub ki, A.Səfərova satılan mənzil Şirzad Qəhrəmanov soyadlı vətəndaşa məxsusdur. Həmin mənzildə vaxtilə bir qaçqın ailəsi məskunlaşıb. Qaçqın ailəsini isə mənzildən Yasamal rayon 22 saylı Mənzil İstismar Sahəsinin rəisi Saqib Məmmədov çıxarıb və mənzili sahibinə - Şirzad Qəhrəmanova qaytarmaq əvəzinə öz kürəkəni Həsən Novruzovun adına məhkəmə yolu ilə sənədləşdirib. 2009-cu ildə isə mənzili kürəkəni Həsən Novruzovun adından Arzu Səfərova 83 min dollara satıb. Ş.Qəhrəmanov qaçqının mənzildən çıxarıldığını və mənzilin digər bir şəxsin adına keçirildiyini öyrəndikdən sonra məhkəməyə müraciət edərək əmlakının ona qaytarılması iddiası ilə çıxış edib. Məhkəmə iddianı təmin edib və A.Səfərovun ailəsi ilə birgə mənzildən çıxarılmağını, bununla bərabər vicdanlı alıcı kimi ona mənzili alarkən ödədiyi 83 min dolların qaytarılmasını qət edib. Bundan başqa, mənzil Həsən Novruzovun adına sənədləşdirilərkən yol verilən sənədlərin saxtalaşdırılması faktlarının araşdırılması üçün xüsusi qərardad çıxarılıb. Bu məhkəmə çəkişməsi bir müddət əvvəl işdən qovulan Yasamalın icra başçısı İbrahim Mehdiyevin rayon ərazisində baş verən mənzil fırıldaqlarına, vətəndaşların mənzillərinin ələ keçirilməsi faktlarına göz yumması da ortaya çıxarıb.

**A.Səfərov "Yeni Müsavat"a deyib ki, məhkəmələrin gedişi zamanı öyrənib ki, Saqib Məmmədov-İbrahim Mehdiyev tandeminin əməllərindən zərərçəkən təkcə o deyil. Belə ki, Yasamal ərazisində belə faktlar çox imiş!**

**Onun sözlərinə görə, iş üzrə məhkəmə çəkişmələri 3 ildən artıqdır ki, davam edir. Məhkəmələrə tərəf kimi Həsən Novruzov dəfələrlə rəsmi çağırışla dəvət olunub. H.Novruzov məhkəmə proseslərinə qatılmayıb. Bir müddət əvvəl isə H.Novruzov Ali Məhkəməyə şikayət edərək mənzilin dəyərini mübahisələndirib və işin Bakı Apelyasiya Məhkəməsinə qaytarılmasına nail olub. H.Novruzov deyir ki, mənzili 83 min dollara deyil, guya 32 min 120 manata satib:** "2014-cü ildə məhkəmədən qətnamə alandan sonra mən vəkilimlə birgə H.Novruzovun qayınatası Saqib Məmmədov və mənzilin alqı-satqısında iştirak edən maklerlə söhbətə getmişdim. Anlayırdım ki, Saqib Məmmədov məhkəmələrə yaxın gəlməyəcək, özünün dediyinə görə heç Həsəni də göndərməyəcək. Ondan sonra qərara gəldim ki, vəkilimin iştirakı ilə onu danışdırım. Ehtiyat edirdim ki, evin alqı-satqısı zamanı aldığı pulun məbləğini dansın. Həmin söhbət zamanı o hər şeyi necə etdiyini danışdı və heç bir məhkəmə prosesinə gəlmədi. Heç bir sənəd təqdim etmədi. 2014-cü il avqustun 1-də baş tutan söhbəti də diktofona yazmışdım. Söhbətin stenoqramını da çıxarmışam. Saqib Məmmədov deyir ki, mənzilin alqı-satqısında iştirak edən maklerlər ona 75 min 500 pul veriblər".





**Şok ittiham:** "Mənzili ələ keçirilənlərdən biri də tatar millətindən olan yaşlı qadındır. Həmin qadının sonradan psixi xəstələr üçün nəzərdə tutulan xəstəxanaya yerləşdirilməsi haqda da məlumat olub"

**A.Səfərovun sözlərinə görə, S.Məmmədovun kürəkəni H.Novruzovun şikayəti əsasında Bakı Apelyasiya Məhkəməsində iyulun 6-da məhkəməyə hazırlıq iclası keçirilib. Həmin iclasa əvvəllər tanımadıqları 2 qadın da qatılıb:** "Proses yekunlaşdı, qadınlar mənə, vəkilimə yaxınlaşdılar. Aydın oldu ki, həmin qadınlar da Saqib Məmmədov, İbrahim Mehdiyevin yol verdikləri saxtakarlıqlara görə 5 ildən artıqdır ki, məhkəmələrdədir. Həmin qadınlar - Afət Cabbarova və Zümrüd Mehdiyevadır. Qadınlar vaxtilə Yasamal rayonu, Xaqan Dadaşov küçəsində qonşu olublar. Z.Mehdiyeva X.Dadaşov küçəsi ev 8 ünvanında, Afət Cabbarova isə X.Dadaşov küçəsi ev 8 a ünvanında yaşayıblar".

**Redakisyamıza təşrif buyuran qadınlar bildiriblər ki, S.Məmmədovun qanunsuzluqlarından şikayət etmədikləri yer qalmayıb.**

"Mən gəlin gətirəndən sonra "JEK"ə getdim, gəlini qeydiyyata saldırmaq istəyirdim. Mənə bir arayış verdilər, baxdım ki, qonşunun evində yaşayan Etibar Məmmədovu bizim ünvana - X.Dadaşov küçəsi 8 a ünvanına qeydiyyata salıblar. Buna sərt reaksiya verdim, Saqib Məmmədov verdikləri arayışı əlimdən zorla almaq istədi. Arayışın balaca bir hissəsi cırılsa da, əlimdən ala bilmədi. Məhkəməyə verdim, icra başçısı İbrahim Mehdiyevin qəbuluna getdim. Ona sual etdim ki, 2 eyni nömrəli ünvan ola bilər. Gülüb məni ələ saldı. Başçının qəbuluna ona görə getmişdim ki, mən məhkəməyə müraciət edəndə cavabdeh kimi Yasamal Rayon İcra Hakimiyyəti iddiamın təmin olunmamasını istəmişdi. İbrahim Mehdiyev etiraz yazmışdı ki, iddiam təmin olunmasın. Mən iddiamla tələb edirdim ki, Etibar Məmmədov bizim ünvandan qeydiyyatdan çıxarılsın. İbrahim Mehdiyevə Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin verdiyi ünvan arayışımı göstərib ondan məhkəməyə yazdığı etirazı əsaslandırmasını tələb etdim. Gördü ki, saxtakarlıqlarının üstü açılır, dedi ki, mən sənə kömək etməyəcəyəm. Həmin arayışı alana qədər İbrahim Mehdiyevin məhkəməyə göndərdiyi hüquqşünas üzümüzə direşirdi ki, guya biz X.Dadaşov küçəsi 8 ünvanında yaşayırıq. Arayışda isə əsl həqiqət yazılmışdı, biz X.Dadaşov 8 a ünvanında yaşayırıq" - deyə Afət Cabbarova bildirib.

**Z.Mehdiyeva bildirib ki, Saqib Məmmədovla İbrahim Mehdiyev ünvanları səhv göstərməklə faktiki olaraq onun 354 kvadrat metrlik evinin dələduzluqla ələ keçirilməsinə "qanuni don" geydirməyə nail olmaq istəyiblər:** "Bu gün mənim Yasamal rayonu, X.Dadaşov 8 ünvanında yerləşən 2 mərtəbəli evimdə Etibar Məmmədov yaşayır. O, 22 saylı "JEK"in rəisi Saqib Məmmədovun əli ilə mənim evimi özəlləşdirib. E.Məmmədov, faktiki olaraq, mənim evimdə yaşasa da, rəsmi sənədlərlə qonşunun ünvanını özəlləşdirib. 5 ildir ki, Azərbaycan məhkəmələri Saqib Məmmədovla İbrahim Mehdiyevin qurduqları cinayətin sonuna çıxa bilmirlər".

**Z.Mehdiyeva bildirib ki, E.Məmmədov evinə kirəkeş kimi gəlib və sonradan sənədlərin saxtalaşdırılması yolu ilə mülkünü əlindən alıblar:** "1993-də Etibarın bacısı Tirmədən 4 min dollar borc almışdım. 2 il müddətində həmin 4 min dolların 30 faizini hər ay ödəmişəm. Hər ay 1200 dollar ödədim. Sonra inflyasiya oldu, ödəyə bilmədim. Ona görə də təklif etdim ki, evimdə yaşamaq üçün kirəkeş tapsınlar. Kirəkeşdən aldıqları pulu da götürsünlər, pullarını tam alandan sonra evimi boşaltsınlar. Özüm də 2 uşaq və anamla gedib xalamın evinin zirzəmisində yaşamışam. Tirmə də öz qardaşı Etibarı evimə kirəkeş göndərdi. Düşünürdüm ki, pullarını götürəndən sonra evimdən çıxacaqlar. Amma çıxmadılar. Üstəlik, qonşunun mənzilinə də qeydiyyata düşüblər. Bizim şikayətlərimiz əsasında Saqib Məmmədovun əməllərinin araşdırılması üçün məhkəmə xüsusi qərardad çıxararaq Yasamal Rayon Prokurorluğuna göndərib. Lakin prokurorluq deyir ki, Saqib Məmmədov kristal adamdır, onun barəsində cinayət işi başlaya bilmərik. Ona görə də baş prokurordan xahiş edirik ki, Saqib Məmmədovun əməllərinin araşdırılmasını digər prokurorluq orqanına tapşırsın. Mənim Yasamalda olan yeganə mülkümü saxtakarlıqla əlimdən alıblar. Məhkəmələrdə bu saxtakarlıqlar sübut olunur, Yasamal Prokurorluğu isə həmin saxtakarlıqları araşdırmaqdan yayınır".

Qadınlar bildiriblər ki, 22 saylı Mənzil İstismar Sahəsinin sabiq müdiri Saqib Məmmədovun Yasamal rayonu ərazisində tənha, kimsəsiz ahıl yaşda vətəndaşların, qaçqınların məskunlaşdığı mənzilləri ələ keçirməsi haqda məlumatlar eşidiblər. Mənzili ələ keçirilənlərdən biri də tatar millətindən olan yaşlı qadındır. Həmin qadının sonradan psixi xəstələr üçün nəzərdə tutulan xəstəxanaya yerləşdirilməsi haqda da məlumat olub.

**Arzu Səfərovun, Z.Mehdiyeva və A.Cabbarovanın redaksiyamıza təqdim etdikləri sənədlərdən, məhkəmə və xətşünaslıq ekspertizası rəylərindən, xüsusi qərardadlardan, stenoqramdan belə aydın olur ki, ortada vətəndaşlara qarşı törədilən cinayətlər haqda çoxsaylı sübutlar var. Vətəndaşların Konstitusiyamızın təməl prinsiplərindən olan mülkiyyət hüquqlarına qəsd açıq-aydın görünür. Bəs niyə bu qədər üzdə olan faktlara hüquqi müstəvidə qiymət verilməyib?**

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

**Bu gün UEFA Avropa Liqasının II mərhələsində Azərbaycanın "Zirə" klubu səfərdə Rumıniyanın "Astra" komandası ilə qarşılaşacaq. 7 min azarkeş tutan "Marin Anastasoviçi" stadionunda keçiriləcək matç Bakı vaxtilə saat 21:30-da başlayacaq.**






# "Zirə" "Qara şeytanlar"ın caynağında - haydı, "Qəbələ"...

## Bu gün daha iki klubumuz Avroliqada güclü rəqiblərlə qarşılaşır

### "Astra" üçün Avroliqaya göydəndüşmə vəsiqə

"Astra" Avroliqaya "təmiz" vəsiqə qazanmayıb. Çünki klub daxili çempionatı 6-cı yerdə başa vurub. Amma 5-ci pillənin sahibi "CFR Cluj" Avrokuboklarda çıxış üçün lisenziya olmadığı üçün "Astra" Avroliqa şansını sınamaq imkanı qazanıb.

"Astra" Rumıniyanın Corcu şəhərini təmsil edir. Klub 1934-cü ildə yaradılıb. Amma 1998-ci ilədək heç bir uğur qazana bilməyib. 1998-ci ildə isə komanda A divizionuna vəsiqə qazana bilib. Klub 2003-cü ildə şəhərin digər komandası "Petrolul"la birləşərək, "Ployeşti" adı altında çıxış etməyə başlayıb. Bir ara 3-cü liqaya kimi geriləyən komanda 2009-cu ildə yenidən yüksək liqaya qayıdıb. Elə həmin ildən "Astra" adını özünə qaytaran klub, 2012-ci ildə Ployeştidən köçərək, Curcuda məskən salıb.

Klub əsas uğurlarını məhz şəhər dəyişikliyindən sonra qazanmağa başlayıb. Belə ki, komanda yeni şəhərə köçdükdən sonra Rumıniya çempionu (2015/16), ölkə çempionatının gümüş mükafatçısı (2013/14), ölkə kubokunun qalibi (2013/14), finalçısı (2016/17) və iki dəfə ölkə superkubokun (2014, 2016) qalibi olub.

"Astra" qara-ağ formada çıxış edir və azarkeşlər klubu "qara şeytanlar" adlandırırlar. 2012-ci ildə "Astra" ilk dəfə Rımıniya kubokunu almağa yaxın olub. Amma yarımfinalda "ÇFR Cluj" a uduzub. 14 komandanın iştirak etdiyi Rımıniya çempionatı iki mərhələdə keçirilir. Birinci mərhələdə 14 klub ev və qonaq meydanda görüş keçirir. 26 tur başa çatdıqdan sonra klublar iki qrupa bölünür. Birinci dövrədə ilk altılığa düşə bilən komanda öz aralarında ilk 6-lığı müəyyənləşdirmək üçün hər klubla yenə iki oyun keçirir. Digər qrupdakı komandalar da öz aralarında 7-ci və sonuncu yerin sahibini müəyyənləşdirirlər. 13-cü və 14-cü yeri tutan klublar ikinci diviziona düşür.

"Astra" UEFA-nın rəsmi saytının məlumatına görə, ən yaxşı klub komandaları sırasında 97-ci yerdə qərarlaşıb.

1996-cı ildən klubun sahibi "İnter Agro Group"un rəhbəri olan Yoan Nikulaedir. 2005-ci ildə "Astra"nın milyarder prezidenti Nikulae Sosial Demokrat Partiyasının seçki kampaniyasına qanunsuz pul ayırmaqda ittiham edilərək 2 il yarım müddətinə həbs edilib.





### "Astra"nın baş məşqçisi həm qorxur, həm də...

İş orasındadır ki, hazırda klubda heyət problemi var. Yay transferi dövründən sonra klubda vəziyyət xeyli qarışıq görünür. "Astra"nın Avropa Liqasındakı əsas silahı Budesku və Alibek komandanı tərk ediblər.



Rumıniya klubunun baş məşqçisi Edvard Yordanesku ölkəsinin mətbuatına açıqlama verərək heyətdəki dəyişikliklərdən narahat olduğunu gizlətməyib.

"Komandada müxtəlif dəyişikliklər oldu. Keyfiyyətli futbolçular transfer etsək də, onlar birlikdə oynamayıblar. "Zirə" ilə ilk görüşün keçirilməsinə isə az vaxt qalıb. Bu amil məni narahat edir. Bəzi mövqelərə futbolçu tapa bilsək, uğur qazana bilərik. Oyunçularımızın çoxu cavandırlar, II və III liqalarda çıxış ediblər. Bizi çətin sınaqlar gözləyir. Rəhbərlik yeni transferlərlə bağlı bəzi vədlər verib. Ümid edirəm ki, tez formalaşacağıq. Tələblərim çox yüksəkdir. Rumıniyanın ən yaxşı komandaları sırasında olmaq istəyirik".

**Yoxlama oyununda adı heç nə deməyən "Snaqov"a 8:0 hesabı ilə qalib gəldikləri oyundan sonra baş məşqçi daha ürəkli danışıb:** "Bizim "Zirə" ilə oyuna hazırlaşmağa az vaxtımız oldu. Şadam ki, vacib oyundan əvvəl yoxlama matçı keçirdik. Komandada çox müsbət məqamlar gördüm".




### Müdafiə xətti güclü görünür: braziliyalı və xorvat...

Qeyd edək ki, "Astra" yay transferində əsas oyunçularından biri yaponiyalı SetoTakayukini itirib. Klub Eriko da Silva və Filip Mrzljakı isə Rumıniya klublarından transfer edib.



Eriko (Erico Constantino Da Silva) braziliyalıdır. 27 yaşlı müdafiəçinin transfer qiyməti 200 min avrodur. Klubun daha bir braziliyalı üzvü Marquinhosdur (Marcus Vinicius Vidal Cunha).

25 yaşlı yarımmüdafiəçi də rəqib üçün təhlükəlidir.

24 yaşlı Mrzljak isə xorvatdır. Komandanın hücum ümidi isə fransız futbolçu Antoni Le Tallakdır. 34 yaşlı hücumçu Yunanıstanın "Atromitos" klubundan transfer olub. Klubda daha bir əcnəbi futbolçu Pyotr Polçakdır. O, "Krakoviya"(Polşa) klubunda oynayıb.

Klubun əsas qapıçısı isə Plamen İvanov Pelevdir. 25 yaşlı bolqarıstanlının transfer qiyməti 500 min avrodur.

"İnter"ə problem yarada biləcək hücumçulardan biri də rumıniyalı, adı da heç də dilə yatmayan Chipirliudir (Remus Bogdan Chipirliu). 24 yaşlı hücumçu bugünkü qarşılaşmada "Zirə"nin müdafiəçilərinə ciddi problemlər yaşada bilər.

"Astra" - "Zirə" oyununu belaruslu referi Sergey Sinkeviçə tapşırılıb. Yan xətt hakimləri - Vitali Malyutin və Yevgeni Romanov olacaq.

### Haydı, "Qəbələ"...

UEFA Avropa Liqasının ikinci təsnifat mərhələsinin ilk oyununu keçirəcək "Qəbələ" də bu gün "Yagelloniya" (Polşa) klubunu qəbul edəcək.

"Bakcell Arena"da keçiriləcək matç saat 21:00-da başlayacaq.

### "Yagelloniya"nın güclü heyəti var

"Yagelloniya" Polşanın Belostok şəhərini təmsil edir. 1920-ci ildə yaradılmış klub ev oyunlarını 22 min azarkeş tutan "Şəhər stadionu"nunda keçirir. Komandanın əsas ümidi hücumçu 26 yaşlı Fyodr Çernıxdır. "Qəbələ" ilə oyunda adı iştirakçılar sırasında olan Çernıx rus kökənli olsa da, Litva millisində oynayır. Daha bir hücumçu Kilian Şeridan irlandiyalıdır. 28 yaşlı hücumçu İrlandiya millisində də oynayıb. "Qəbələ" ilə oyunda meydanda görə biləcəyimiz daha bir oyunçu Karol Sviderskidir. Cəmi 20 yaşı olan polşalı hücumçuya da ümidlər çoxdur. Lukas Sekulski də klubun gənc futbolçularından sayılır. Onun da 26 yaşı var.

### Rəqib klubun məşqçisi nəyə arxayındır?

"Qəbələ" böyük büdcəyə və yaxşı oyunçulara sahib klubdur. Onlar yay fasiləsində 9 oyunçu transfer ediblər. Ancaq bu o demək deyil ki, onlar komandanı gücləndiriblər. Çünki yeni futbolçuların yeni kollektivə uyğunlaşmaq üçün zamana ehtiyacları var".

**"Yagelloniya"nın baş məşqçisi İreniuş Mamrot belə deyib. O bildirib ki, "Qəbələ"nin yeni transferlərinin hamısı start heyətində meydana çıxsa, Polşa klubu üçün daha yaxşı olar:** "Çünki çox az müddət bir yerdə olublar və kollektivin formalaşması vaxt tələb edir. Bu da bizə əlavə şans yaradır".

**İ.Mamrot "Qəbələ"ni yaxşı təhlil etdiklərini söyləyib:** "Onlarda çempionat çoxdan bitib. Amma rəqibin Kiyev "Dinamo"su və "Ludoqorets"lə yoxlama oyunlarının videoyazısına baxmışam. Əlbəttə ki, güclü komandadır. Ancaq biz onların zəif cəhətlərindən istifadə etməyə çalışacağıq".

İnanırıq ki, bu gün hər iki klubumuz meydandan azarkeşləri sevindirəcək nəticə ilə ayrılacaq.

❑ Nazim SABİROĞLU





YENİ MÜSAVAT

Son səhifə

N 146 (6760) 13 iyul 2017



# İngiltərədə müsəlmanlarla bağlı "ilk"

**Böyük Britaniyada ilk dəfə müsəlmanlar arasında eynicinsli nikah bağlanıb. Bu barədə 11 iyulda "The Daily Telegraph" qəzeti yazıb. Mərasim Uolsoll şəhərindəki nikah idarəsində baş tutub. 24 yaşlı Cahed Çauduri və 19 yaşlı Şon Roqan nikah mərasiminə ənənəvi Banqladeş kostyumlarında gəliblər. "Biz bütün dünyaya göstərəcəyik ki, müsəlmanlar da eynicinsli nikah bağlaya bilərlər" - bunu Çauduri deyib.**

Daha öncə yaxınları tərəfindən Çauduri qeyri-ənənəvi cinsi oriyentasiyasına görə təqib və təzyiqə məruz qalıb. Onu 15 yaşından bəri ziyarət etdiyi məsciddən də qovublar. O, dəyişməyə cəhd edib, dərman qəbul edib və hətta bir qızla görüşməyə başlayıb. Amma bunların heç biri ona yardım etməyib. Kişi məhz buna görə intihara cəhd edib, amma gələcək "həyat yoldaşı" ilə tanışlıq onu bu bəladan xilas edib.

İyun ayında isə məlum oldu ki, Kolumbiyada ilk dəfə üç kişi arasında nikah qeydə alınıb.

# Ana südü körpənin həyatını xilas etmir, əksinə...

**Körpələrin minimum 6 aya qədər ana südü ilə qidalanması həkimlərin hər zaman səsləndirdiyi tövsiyələrdəndir. Britaniya və İrlandiya həkimləri kifayət qədər ana südü içməyən körpələrin xəstəlikləri ilə bağlı araşdırma aparıblar. Amma araşdırma zamanı məlum olub ki, ana südü uşaqda ciddi surətdə dehidrasiyaya (susuzluğa) səbəb olur. Hazırda xəstəxanalarda bununla bağlı statistik məlumatlar toplanır. Kəskin hipernatremik susuzluq nadir, lakin ölümcül bir hal kimi xarakterizə olunur. Güman edilir ki, südvermə populyarlaşdıqca, belə halların sayı arta bilər. Lokal tədqiqatlara əsasən, bəzi xəstəxanalara həftədə bir dəfə körpələr dehidrasiyanın mülayim və ya kəskin forması ilə qəbul edilir.**



Lakin bu problemlə ciddi məşğul olmaq üçün tibb icmasına daha çox məlumat lazımdır. Hazırda Britaniya Tibb Departamenti qadınlara ilk 6 ay ərzində körpələri yalnız ana südü ilə qidalandırmağı məsləhət görsə də, problemi hərtərəfli araşdırır.

# Qənaətcil qadın ictimai ayaqyolunda çimir

**Bu qadının unikal həyatı var. Daha doğrusu, onun özü həyatını belə məcraya salıb. Onu tanıyan-bilənlərin dediklərinə görə, bu qadın dünyanın ən qənaətcil qadınıdır. Həyat şərtlərinin ən bahalı olduğu şəhərlərdən birində - Nyu-Yorkda yaşamasına rəğmən, o, gündəlik xərclərini minimuma endirib. Daha doğrusu, bu qadın, ümumiyyətlə, pul xərcləməməyə çalışır. Zibil yeşiklərində tam xarab olmamış, zayı çıxmamış ərzaq, qida, meyvə və tərəvəz axtarır. O, üç ayda bir dəfə mayka, yarım ildə bir dəfə köynək və ya şalvar alır.**

İxtisasca mühasib olan Key Haşimoto bu minvalla ayda 4 min dollara qənaət edir və o pulları yığır. Nyu-Yorkun Harlem səmtində yaşayan Keyin dediyinə görə, sabaha ümidi olmadığından həyatını planlaşdırmağa çalışır. Həftədə 3 dəfə Vest-Sayda gedərək işsizlər və evsizlər üçün pulsuz paylanan yeməklərlə qidalanan Haşimotonun aylıq büdcəsi belədir: 1. Ərzaq - 15 dollar 2. Paltar - 0 dollar 3. Sabun və diş məcunu - ayda 0,17 dollar 4. Mənzil haqqı - 237 dollar.

Haşimoto bu minvalla ayda 4 min dollara qənaət edir. O, 250 min dollar yığaraq ev almaq istəyir.





# 11 yaşlı qızı sürəti artırdığı üçün saxladılar

**Amerikanın Texas ştatındakı Pasadena şəhərində yerli polis departamentinin əməkdaşları 11 yaşlı qızı avtomobilin sürətini artırdığı üçün saxlayıblar. Bu barədə 12 iyulda "Associated Press" xəbər verib. Adı açıqlanmayan qız deyib ki, anası ona sükan arxasında oturmağa icazə verib - baxmayaraq ki, birinci dəfə o, maşını yanında böyüklər olmadan, 10 yaşlı qardaşı salonda oturarkən idarə edib.**

O, Hyustonda yerləşən evinə doğru gedib. Avtomobil həvəskarı sürət həddi maksimum saatda 56 kilometr olan ərazidə sürəti 79-a qədər artırıb. Məhz bu məqam da yol polislərinin diqqətini cəlb edib. Qızın anası Mariya Dexesus Lopesə iki uşağın həyatını təhlükə altında qoyduğu üçün ittiham irəli sürülüb. Qadını 3 min dollarlıq girov müqabilində evə buraxıblar. Sözügedən iş üzrə məhkəmə baxışı 17 iyula təyin edilib. Bu ilin iyul ayında məlum oldu ki, Çinin Quançjou şəhərində 12 yaşlı oğlan avtobus oğurlayıb. Səfər 40 dəqiqə davam edib. Həmin müddət ərzində yeniyetmə 10 kilometrə qədər məsafə qət edib.




**QOÇ** - Adi günlərdən birini yaşayacaqsınız. Hansısa qeyri-adi yenilik və ya uğursuzluq gözləməyin. Amma belə bir təqvimdə hər şeydən əvvəl istirahətinizi təmin etməlisiniz, uzaq yol getməyin.

**BUĞA** - Hansısa uğursuzluq haqqında düşünməyin. Çünki iştirakçısı olduğunuz bütün situasiyalar xeyrinizə işləyəcək, səmərəli görüşlər, maliyyə uğurları da yolunuzu gözləyir.

**ƏKİZLƏR** - Hər şeydən əvvəl ünsiyyət qurduğunuz şəxslərin etibarını yoxlayın. Çünki ətrafınızda sizi aldadanlar artıb. Ciddi məbləğdə gəliriniz gözlənilməsə də, gün boyu büdcəniz boş qalmayacaq.

**XƏRÇƏNG** - Sakit bir gün yaşayacaqsınız. Ara-sıra fikir və düşüncələrinizdə təlatümlər baş qaldırsa da, bunu kənardan heç kim bilməyəcək. Səhv və günahlarınızı etiraf etməyi bacarın. Burada qəbahət yoxdur.

**ŞİR** - Saat 13-ə qədər əsəblərinizi cilovlaya bilsəniz, heç bir narahatçılığınız olmayacaq. Ulduzlar təcrübəli insanların məsləhətlərindən yararlanmağı tövsiyə edir. Bu gün imkan daxilində uzaq səfərləri təxirə salın.

**QIZ** - Əsas diqqətinizi maliyyə problemlərinin həllinə yönəldin. Çünki indi - himayədarınız olan Saturnun təsir gücünün artdığı bir vaxtda bunu bacarmasanız, qarşıda sizi uzunmüddətli kasıbçılıq gözləyə bilər.

**TƏRƏZİ** - Səhhətinizi qoruya bilsəniz, gün boyu heç bir çətinliklə rastlaşmayacaqsınız. Ailə-sevgi münasibətlərindəki soyuqluğu aradan qaldırın. Təzə əyin-baş almaq üçün çox uğurlu vaxtdır.

**ƏQRƏB** - Gün ərzində bütün diqqətinizi pulla bağlı məsələlərə yönəldin. Əgər reallığa uyğun addım atsanız, səmərəli nəticəni görəcəksiniz. Uzaqda yaşayan qohumlarınızla əlaqələri dərinləşdirin.

**OXATAN** - Bəxtinizə təzadlı bir gün düşüb. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, ayıq-sayıqlığınızı artırmalı, prosesləri dərindən analiz etməli və məqamındaca addım atmalısınız.

**OĞLAQ** - Ümumən gərgin gün olsa da, özünüzü cilovlamalısınız. Hansısa məsələdə tərəddüdünüz varsa, mütləq etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Hirsli başda ağlın olmamasını da unutmayın.

**SUTÖKƏN** - Yalnız saat 12-14 aralığı gərginlik görünür. Həmin vaxt maksimum ehtiyatlı olun. Qalan zamanda isə çox şey ürəyinizcə olacaq. Hətta perspektivli təkliflər alacağınız da qaçılmazdır.

**BALIQLAR** - İlk öncə bildirək ki, hazırda ciddi bir seçim qarşısındasınız. Tərəddüdləriniz çoxdur. Buna baxmayaraq, özünüzü ələ almalı, cəsarət göstərib seçiminizi etməlisiniz. Çətinlik çəksəniz, məsləhətləşmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Eqoistsənsə, xoşbəxtsən...

**Amerikalı alimlər müəyyənləşdiriblər ki, insanlar günahkarlıq hissi keçirmədikləri halda, eqoist olmalarında heç bir problem yoxdur. Çünki bu eqoizm ona xoşbəxtlik gətirir. "Psychological Science" jurnalında yayımlanan araşdırmaya görə, hər nə qədər nəzakət və fədakarlıq insanı böyütsə də, insan ən çox öz mənfəətinin arxasınca gedəndə xoşbəxt olur. Pensilvaniya Universitetinin alimləri bunu bir təcrübə ilə ortaya çıxarıblar. Belə ki, hərəsinə 3 dollar verdikləri 216 tələbəni üç qrupa ayırıblar. İlk qrupa pullarını UNICEF-ə bağışlamaları, ikinci qrupa pulu özlərinə saxlamaları, üçüncü qrupa isə istəyirlərsə, pulu özlərinə saxlamaları, istəməzlərsə bağışlamaları azadlığı tanınıb. Araşdırmanın sonunda məlum olub ki, pulu özünə saxlayan tələbələr digər qrupdakılarla müqayisədə daha çox xoşbəxtdir. Alimlər bildirib ki, bu tələbələr sırf bir qərar vermək məcburiyyətində qalmadıqları üçün xoşbəxtlik hissi keçiriblər.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Ermənistan isterikada: "Nə qələt ediblər ki..."

**İyulun 4-də Ermənistanın işğalçı qüvvələrinin Alxanlı kəndində azyaşlı körpəni qətlə yetirməsi ilə Qarabağda müharibə riski daha da artıb. Ermənistanın işğalçı və vəhşi mahiyyətini bir daha ortaya qoyan bu hadisə rəsmi Bakının diplomatik cəbhədə ermənilərə ağır zərbələr vurması ilə nəticələndi. Dünya ölkələri, əcnəbi diplomatlar rəsmi İrəvanın "çocuq qatili" olmasına bir daha şahidlik etdi. Bu hadisə Azərbaycanın torpaqlarını müharibə yolu ilə azad etmək üçün hər cür əsası olduğunu sübut etdi. ATƏT-in Minsk Qrupu həmsədrlərinin əvvəl verdikləri ənənəvi bəyanatı sonradan dəyişməsi əslində Azərbaycan cəmiyyətində "müharibədən başqa yol yoxdur", çağırışlarını qismən də olsa önləməyə hesablanmışdı. Həmsədr ölkələr Qarabağda məhz Ermənistanın pozucu əməlləri nəticəsində yaranmış gərginliyi azaltmaq üçün demək olar ki, daha gecələr də rahat yatmırlar.**




# II Qarabağ savaşı qapıda-mümkün ssenarilər...

## Ermənistanın ən qorxduğu Rusiyanın onları Qarabağda müharibə ilə cəzalandıra biləcəyidir-bu ssenari olarsa, Azərbaycan cəmi bir həftəyə qoşunlarını Laçın koridoruna çıxara, Ağdam-Xocalını işğaldan azad edərək Xankəndinə yaxınlaşa bilər; **rusiyalı ekspert:** "Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir"

Çünki Ermənistanın başını sığallayan həmsədr ölkələr müharibənin alovlanacağı təqdirdə onların da üzərinə ciddi məsuliyyət düşəcəyinin fərqindədirlər.

Bu səbəbdən də son günlər onların səsləri daha möhkəm çıxmağa başlayıb. Xarici işlər nazirlərini Brüsseldə bir masa arxasında oturtmağa nail olan həmsədrlər Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təklif ediblər. Həmsədrlərin yaydığı bəyanatda bildirilir ki, Məmmədyarov və Nalbəndyan öz prezidentlərinə həmsədrlərin bu ilin sonunadək yüksək səviyyəli görüşün keçirilməsi ilə bağlı təklifini çatdırmağa razılıq verib. "Həmsədrlər prezidentlərin görüşünün təşkilinə köməklərini təklif ediblər" deyə, bəyanatda bildirilir.

**Amma təkcə Azərbaycanda və işğalçı ölkədə deyil, münaqişə ilə yaxından maraqlanan tanınmış ekspertlər də Qarabağda hər gün artan müharibə ehtimalından danışırlar.**

**"Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir. Hazırda hər iki tərəf aktiv şəkildə savaşa hazırlaşır. Əgər hər iki tərəf hazırlaşırsa, o zaman yekunda toqquşma mütləq olacaq". Axar.az xəbər verir ki, bunu "1in.am" saytına açıqlamasında rusiyalı hərbi ekspert Pavel Felgenhauer söyləyib:** "Konfliktə təsir edən daxili və xarici faktorlar var. Hər iki tərəf intensiv şəkildə öz gücünü artırır. Genişmiqyaslı toqquşmaların qarşısını almaqdan ötrü nəsə etmək lazımdır. Genişmiqyaslı müharibəni başlamaq üçün təsadüfi olmayan, məqsədyönlü fəaliyyətlər tələb olunur. Tərəflərdən hansısa biri qərar verməlidir ki, başqa variant yoxdur və uğur qazanılması üçün heç olmasa lokal zərbə endirilməlidir", deyə, Felgenhauer vurğulayıb.

**Ekspertin fikrincə, Qarabağda atəşkəslə bağlı edilən çağırışlar kifayət deyil:** "Biz Qarabağ münaqişəsinin kompromis yolu ilə həllinə müəyyən siyasi səbəblərin izn vermədiyini görürük. Situasiya kompromislər və ciddi de-eskalasiya olmadan dəyişməyəcək. Genişmiqyaslı müharibəyə doğru aparan geridönülməz proses baş verir. Tərəflər hələlik ciddi hərbi fəaliyyətləri başlamağa hazır deyil. Bu, çox yaxşıdır, amma bu, savaşın qarşısını almaq üçün yetərli deyil".

Müharibənin başlayacağı barədə xəbərdarlıqlar Ermənistanın özündə də ciddi narahatlıq doğurmaqdadır. Rəsmi İrəvan Alxanlıdakı qətli də üzərindən təmizləyə bilməyəcəyinin fərqindədir və bu səbəbdən də "tülkü kimi gizlənmək" siyasətinə üstünlük verirlər. Amma erməni ekspertləri artıq mümkün müharibə variantında onları gözləyən təhlükələr barədə açıq danışmaqdan çəkinmirlər.

Bu aqoniya əhval-ruhiyyəsi Rusiyanın Azərbaycana növbəti partiya silah göndərməsi fonunda daha da artıb. İrəvanda bunu hətta "Rusiyanın Azərbaycanı Ermənistana qarşı müharibəyə təşviq eləməsi" kimi izah edirlər. Məsələn, erməni siyasi şərhçisi Sərkis Arsruni Azərbaycanın növbəti dəfə müharibəyə hazırlaşdığı haqda xəbərdarlıq edərək, həmçinin işarə vurur ki, bunu Moskvanın razılığı ilə olmasa da, susqun razılığı əsasında edir. "Cəbhədəki son eskalasiyalar fonunda da növbəti partiya Rusiya silah-sursatı Azərbaycana göndərməsi onu göstərir ki, Moskva yeni müharibədə maraqlıdır - böyük ehtimalla da o ümidlə ki, regionda bu yolla öz təsirini gücləndirəcək", - deyə ekspert bildirib.

Erməni analitik əlavə edib ki, müharibə başlayarsa, Rusiyanın da cavabdehliyi böyük olacaq.

Rusiyanın mümkün müharibə variantında hansı mövqe tutacağı son günlər yenidən ciddi müzakirə mövzusuna çevrilməkdədir. Ötən il Qarabağdakı 5 günlük lokal müharibə zamanı bir daha təsdiqləndi ki, nə Fransa, nə ABŞ-ın müharibəni dayandırmaq imkanı yoxdur, bu, yalnız Moskvanın vasitəçiliyi ilə mümkündür. İndi yeni müharibə riskinin artdığı bir vaxtda da həm Bakıda, həm İrəvanda "Moskva indi hansı mövqe tuta bilər" müzakirələri aktuallaşıb. Azərbaycan ekspertləri bu müzakirələrdə birmənalı rəy bildirmir, çünki Rusiyanın Qafqaz siyasətində dəyişən dəngələri hesablamaq o qədər də asan deyil. Ermənistanda isə açıq şəkildə Rusiyaya təzyiq elementləri hiss olunmaqdadır. Ermənistandan artıq təhdidlər də var ki, Rusiya Azərbaycanın öz torpaqlarını işğaldan azad etməyə imkan verəcəyi təqdirdə İrəvan Avrasiya İqtisadi Birliyi və KTMT-də üzvlüyünü dondurmalıdır. Bu "məni qoru" yalvarışı əvəzinə, Kremlə açıq təhdid, daha dəqiqi, şantaj siyasətidir ki, Ermənistan rəhbərliyi bunun üçün hələ ekspertləri önə verib. Amma aydındır ki, Ermənistanda sağlam düşünən adamlar müharibə başlayacağı və Rusiyanın loyallığını qoruyacağı təqdirdə İrəvanın belə təhlükədə olduğunu anlayırlar. Di gəl ki, "qorxuruq, bizi Azərbaycandan qoruyun", demək əvəzinə, şantaj siyasəti işə salınır ki, bu da ermənilərin xislətindən xəbər verir. İrəvan Rusiyanın bütün göstərişlərinə əməl etmək məcburiyyətindədir, amma Kremlə inanmadıqlarını da məqamı düşən kimi büruzə verirlər.

Son aylar İrəvan rəhbərliyinin Avropa Birliyində, Brüsseldə NATO koridorlarında sülənmələrinin əsas səbəblərindən biri də özlərinə mümkün Qarabağ savaşında yeni "qoruyucu ilahələr" tapmaq niyyətindən xəbər verir. Kreml hələ ki, İrəvanın "yeni dayı" axtarmaq prosesini diqqətli izləyir.

**Bugünlərdə Kremlə yaxın rosbalt. ru saytı Ermənistanı ağıllı olmağa çağırış edərək xəbərdarlıq da etmişdi. Sitat:** "Ərazisini Rusiya hərbi bazası hesabına qarantiya altına alan Ermənistan niyə NATO ilə bu cür oyunlara həvəslənib? Rusiyanın və İranın bu məsələyə mövqeyi necə olacaq? Əlbəttə ki, çox pis. Rusiya Ermənistanın iki stulda oturmasına heç vaxt imkan verməyəcək. İrəvanın "çoxqütblü xarici siyasət" bəhanəsi isə Ermənistanın özü üçün pis qurtaracaq". Burada "ərazisi" sözü ustalıqla "maskirovka" edilsə də, şübhə yoxdur ki, söhbət Qarabağdakı işğal edilmiş ərazilərdən də gedir.

Ermənistanın isə ən qorxduğu ssenari Rusiyanın onları Qarabağda müharibə ilə cəzalandıra biləcəyidir. Bu ssenari olarsa, Azərbaycan cəmi bir həftəyə qoşunlarını Laçın koridoruna çıxara, Ağdam-Xocalını işğaldan azad edərək Xankəndinə yaxınlaşa bilər. "Bir həftəlik canı" olan Ermənistanın müharibədən çox qorxduğu, ən əsası Rusiyanın mövqeyindən narahatlıqları aşkar ortadır.

Rusiyanın Ermənistanı qurban verə biləcəyinə inananlar azdır ki, bu da qeyd edilməlidir. Amma unutmaq olmaz ki, "su boğaza çıxanda meymun da balasını ayağı altına qoyur". Ermənistanın işğalçı siyasəti Rusiya rəhbərliyinə də dünyada xeyli başağrısı gətirir. Kremlin buna rəğmən hələ Ermənistanın arxasını qoruması, ermənilərin isə dara düşən kimi Rusiyaya dil uzatmaları indiki situasiyada Azərbaycanın çox xeyrinədir. Eləcə də Ermənistanın narahatlığı psixoloji baxımdan Azərbaycana xeyli üstünlüklər verir.

Bəlkə Ermənistanın elədiyi böyük bir qələti biz bilmirik ki, İrəvanda bu qədər narahatdırlar?

❑ "YM"



# Prezident: "Balaca Zəhranın və nənəsinin qanı yerdə qalmadı"

## "Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq"

**"Balaca Zəhranın və onun nənəsinin öldürülməsi hərbi cinayətdir və erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi".**

Azərbaycan prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iyulun 12-də keçirilən iclasında belə deyib.

**Dövlət başçısı daha sonra vurğulayıb:** "Bu cinayət cavabsız qalmadı. Azərbaycan ictimaiyyəti də bunu bilir. Baxmayaraq ki, Ermənistan öz itkilərini həmişə gizlətmək istəyir. Amma bütün itkiləri gizlədə bilmir. Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, onun nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq.

Nəyə hesablanmışdır bu cinayət? İlk növbədə, bu, Ermənistan siyasi rəhbərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir. Bu, birincisi.

İkincisi, iyulun 11-də xarici işlər nazirlərinin görüşü nəzərdə tutulmuşdu. Artıq bu tarix bəlli idi, sadəcə olaraq, son günlərdə bu tarix açıqlandı. Bu təxribatı törətməklə onlar hesab edirdilər ki, Azərbaycan danışıqlardan imtina edəcək. Biz imtina edə bilərdik, əgər onlara layiqli cavab verməsəydik. Cavablarını verdik, işğalçıları məhv etdik, onları cəzalandırdıq, sonra da danışıqlara getdik.

Bax, budur Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan əsas məsələlər. Ona görə mən deyirəm ki, bu il Azərbaycanın mövqeləri daha da möhkəmləndi. Alxanlı kəndində törədilmiş hərbi cinayətin dünyada böyük əks-sədası var. Yəni Ermənistan gördü ki, Azərbaycan böyük beynəlxalq dəstəyə malikdir. Bizim bütün qurumlarımız çox fəal, operativ işlədilər, bu məlumatı dünya ictimaiyyətinə çatdırdılar. Həm dövlət qurumları, səfirliklər, diaspor təşkilatları, ictimai təşkilatlar, bizim xaricdəki dostlarımız öz səslərini ucaltdılar və Ermənistana, onun faşist xislətli siyasi rəhbərliyinə dünyada nifrət daha da artdı.

O ki qaldı danışıqların perspektivlərinə, bir daha demək istəyirəm ki, danışıqlar bərpa edilir, bu, müsbət haldır. İndi əsas vəzifə tezliklə məsələni həll etməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Əminəm ki, belə də olacaq. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq".

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Sınıqçıların sındırdığı həyatlar...

**Bugünlərdə qolu sındığı üçün Ağdaş Mərkəzi Rayon Xəstəxanasında əməliyyat edilən 9 yaşlı Seymur Mehralıyevin ölümü yenidən bir neçə məsələni aktuallaşdırdı. Qeyd edək ki, Qəbələ rayonu Qaradeyin kənd sakini olan S. Mehralıyev bu yaxınlarda evlərinin pilləkənlərindən yıxılaraq qolunu sındırıb. Atasının dediyinə görə, qolundan zədə alan uşağı əvvəlcə sınıqçıya aparıblar. Bir müddət keçdikdən sonra isə məlum olub ki, sınıqçının səhvi ucbatından uşağın qolu əyri bitib. Rentgen müayinəsi də sümüklərin əyriliyini təsdiqlədiyindən S. Mehralıyev əməliyyata alınıb. Əməliyyatdan öncə uşağa verilən narkozun təsirindən o, əməliyyat stolundaca dünyasını dəyişib.**

## Vaqif Qarayev: "İlin-günün bu vaxtında uşağın sınıqçıya aparılması cahillikdən başqa heç nə deyil"



Bəzi ekspertlər bu hadisənin həkim səhlənkarlığı ucbatından baş verdiyini bildirirlər. Qeyd edirlər ki, anafilaktik şokun olmaması üçün uşağa həmin narkoz verilməzdən əvvəl yoxlama inyeksiyası ("prob") edilə bilərdi. Bəziləri isə uşağın ölümündə travmatoloq cərrahın deyil, bundan əvvəl ona türkəçarə yardım göstərən sınıqçının günahkar olduğunu iddia edir.

Bu hadisə onu göstərdi ki, tibb sahəsi, müasir avadanlıq nə qədər inkişaf etsə də insanlar hələ də xalq təbabətinin populyar simaları olan sınıqçılara, çöpçülərə və digər "ara həkimləri"nə müraciət edirlər.

Xalq təbabətində sınıqçılıq xüsusilə məşhurdur. Ümumiyyətlə, cərrahlıq meydana gələnə qədər insanlar yalnız sınıqçılara müraciət ediblər. Hətta yaxşı sınıqçı üçün bir rayondan digərinə gedərdilər. Sınıqçı hərəkətin, sümüyün tamlığının pozulması, şişkinlik və ya hərəkət zamanı sümükdən hər hansı səsin gəlməsini düzəldir. Öncə zədə müəyyən olunur, sonra yumşaldıcı vasitələrdən istifadə edilir. Çünki sınıq zamanı sümüklər yerini dəyişə bilir və bu da əzələlərin yığılmasına səbəb olur. Daha sonra sümükləri yerinə oturtduqdan sonra yumurtadan, xəmirdən və başqa bərkidici məhsullardan istifadə edərək həmin nahiyədə hərəkətsizlik yaradılır ki, hərəkətsizlik nəticəsində sınıq yeri rahat sağala bilsin. Ekspertlər qeyd edir ki, məhz bunları yaxşı bildikləri üçün sümükləri düzgün müalicə edə bilir və beləliklə də insanların etibarını qazana bilirlər. Lakin son hadisədən də göründüyü kimi, bir çox hallarda sınıqçının səhvi ciddi fəsadlara yol aça bilir və hətta faciə ilə nəticələnir.

Maraqlıdır, niyə müasir dövrdə sınıqçılara, digər "ara həkimləri"nə hələ də ehtiyac var? İnsanların həkimlərdən çox, türkəçarə metodlara üz tutmasının səbəbi nədir?

Ekspertlərin fikrincə, bunun əsas səbəbi sosial vəziyyətlə bağlıdır. Maddi imkansızlıqdan insanlar daha sərfəli yol kimi türkəçarəyə müraciət edirlər.

**Sosioloq Əhməd Qəşəmoğlu qeyd etdi ki, bu tip məsələlərə müxtəlif faktlardan yanaşmaq lazımdır:**

"Burada ən başlıca problem səhiyyə sistemində olan problemlərdir. Digər tərəfdən də çox təəssüf ki, tibbi kadrlarımızın səviyyəsi arzuolunan deyil. Eyni zamanda ölkəmizdə tibbi maarifləndirilməyə ehtiyac var. İnsanlara nə qədər desək ki, həkimə tez-tez gedin, mümkün olmur, çünki bu, insanların maddi imkanları xaricindədir. Ona görə də bu məsələdə bir neçə faktlar var və onları ayrı-ayrı həll etməliyik".

**Həkim Vaqif Qarayev mövzuya bu cür şərh bildirdi:** "Sınıqçılıq adətən təbabətin inkişaf etmədiyi vaxtlarda əyalətlərdə, kəndlərdə populyar idi. Xüsusi əl qabiliyyətinə malik olan insanlar var idi, hansı ki, onlar əlləri ilə toxunanda bilirdilər ki, harada sınıq var. Və yumurtadan gipsə bənzər "yaxı" düzəldilirdi. Bununla sağalanlar da olurdu, bunu danmaq olmaz. Lakin indiki vaxtda, yəni müasir avadanlıqların olduğu bir zamanda sınıqçıya müraciət edilməsi, üstəlik, nəticədə fəsadların yaranması və həkimə müraciət edilməsi ki, xəstə əlil olub, bunun özü əlillikdir. Sümüklər sına bilər, amma sınmış uclar yerini dəyişməyə bilməz. Onu ancaq həkim dartıb, çəkib sınmış sümükləri uc-uca qoya bilər. Mütləqdir ki, sümüklər düz olaraq bitişsin, əyrilik, deformasiya olmasın. Ola bilsin ki, sınıqçıların xüsusi vərdişi olsun, sınmış sümüyü bərkidə bilsin, lakin qoyduğu "gipsin" ucbatından monitorda görmək olmur ki, sümük düzgün yerinə oturub, ya yox. Nə qədər xüsusi vərdiş olsa da, rentgenin göstərdiyini heç bir əl, barmaq onu hiss edə, duya bilməz. Yəni ilin-günün bu vaxtında uşağın sınıqçıya aparılması cahillikdən başqa heç nə deyil. Uşağın əlil olmaması üçün xəstəni həkimə aparmaq lazımdır".

**Həkim qeyd etdi ki, fəsadlı halların baş verməməsi üçün müvafiq qurumlar ciddi tədbirlər görməlidir:** "Eşitdiyimə görə, bir kənddə məşhur bir sınıqçı var. Onun çox bahalı villası var və bütün sutka ərzində qapısında maşınlar növbəyə düzülür. Düşünürəm ki, ilk növbədə dövlət bu işə qarışmalıdır. Təhsili, tibbi müdaxilə ilə işləməyə izni olmayan şəxslərin bu cür çalışması cinayətdir. Yəni bunları ləğv etməlidir".

❑ **Xalidə GƏRAY**

# Samux musiqi məktəbində "ölü kadrlar" necə maaş alır?

## Direktor: "Məktəbdə yoxlanış aparılıb və heç bir neqativ hal aşkarlanmayıb"




Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi

cənab Kamran Əliyevə

Samux rayonu Kolayır kəndində yaşayan
Məmmədova Günay Duman qızı tərəfindən
TEL: 055-550-79-76

ƏRİZƏ

**Samuxun Sərkar kənd musiqi məktəbində baş verən korrupsiya qalmaqalı haqqında qəzetimizin bundan əvvəlki saylarında məlumat dərc etmişdik. Redaksiyamıza daxil olan şikayət məktublarında bildirilirdi ki, adıçəkilən məktəbin direktoru Səadət Fərhad qızı Məmmədbəyova vəzifəsindən sui-istifadə edərək adları məktəbdə gedən, amma faktiki olaraq işləməyən şəxslərin adına əmək haqqı yazaraq mənimsəyir, uşaqların sayını artırmaqla sinif yaradır, nəticədə külli miqdarda pul mənimsəyir. Çantasında Salman Nağıyevin, Alim İbrahimovun, Aytən Alməmmədovun, Rövşən Əsgərovun, Babək Hüseynovun, Nigar Salmanovanın maaş kartlarını gəzdirir. Onların maaşları bankomatlardan şəxsən özü çıxarır. Hətta uzun müddət Rusiyada yaşayan Lalə Şahisməyıl qızı Xeyirxəbərovanın maaş kartına keçən 427 manat pulu mənimsəyir.**

Faktla bağlı redaksiyamıza Lalə Xeyirxəbərovanın adına olan hesabdan çıxarış da təqdim olunub. Həmin çıxarışda L.Xeyirxəbərovanın adına 2016-cı il dekabrın 5-dən bu ilin mart ayının 30-dək adına çıxarış edilən maaşların miqdarı yazılıb.

Müraciətdə həmçinin bildirilir ki, əgər Nağıyev Salman, Əsədova Pərvanə və Əliyev Şaiqin uzun illərdir əmək haqqı kartlarının bankomatdan çıxarılması yoxlanılarsa, Azərbaycan Beynəlxalq Bankına sorğu verilərsə, pulun kimin tərəfindən bankomatdan çıxarıldığı açıq-aşkar görünər. Çünki kartı bankomata daxil edib pulu məxaric edərkən həmin bankomat tərəfindən kartı daxil edən şəxsin avtomatik şəkli çəkilir. Bu zaman pulun məktəbin direktoru Səadət müəllimə tərəfindən götürüldüyü aşkar olunacaq.

Məktəbdə ştat üzrə 295 şagird təhsil aldığı bildirilsə də, həqiqətdə bu belə deyildir. Musiqi məktəbində faktiki 173 nəfər şagird təhsil alır. Buna sübut olaraq Həzrətov Orxan Vidadi oğlunu göstərmək olar ki, həmin şagird hazırda Sumqayıt Musiqi Kollecinin truba aləti sinfində təhsil alır.

S.Məmmədbəyovanın keçmiş qudası Elman Hüseynovun redaksiyamıza ünvanladığı məktubda bildirilirdi ki, keçmiş gəlini Şəms Hüseynova savadsızdır, notları belə tanımır, pianoda ifa belə edə bilmir, amma yüksək maaşla pianodan dərs deyir.


HESABDAN ÇIXARIŞ

Xatırlatma verərək bildirək ki, S.Məmmədbəyovanın əməlləri ilə bağlı baş Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə müraciət ünvanlayıb.

**Məsələ ilə bağlı məktəbin direktoru S. Məmmədbəyova "Yeni Müsavat"a açıqlama verib. Direktor qeyd edib ki, korrupsiya qalmaqalı ilə bağlı may ayında məktəbdə yoxlanış aparılıb və heç bir neqativ hal aşkarlanmayıb:** "Aşkarlandı ki, deyilənlərin hamısı şər-böhtandır. Ötən il mən haqqımda səslənən ittihamlara, şər-böhtanlara, şəxsiyyət və ləyaqətimi alçaltdığı üçün Günay Məmmədovanı məhkəməyə verdim. Məhkəmədə təsdiq olundu ki, onun dedikləri yalandır".

**Direktor məktəbin "ölü kadr"ı L.Xeyirxəbərova ilə bağlı ittihamlara da cavab verib:** "O, sağlamlığında yaranmış problemlərə görə ötən il dekabrın sonunda məzuniyyət günündə icazə alaraq bir həftəlik Rusiyaya müalicəyə getdi. Bununla belə, Günay Məmmədova onun haqqında da ittihamlar irəli sürüb. Lalə gənc kadrdır, yaxşı müəllimdir. Sadəcə, yeni ailə həyatı qurmuşdu və səhhətində yaranmış problemlərə görə bir müddət ölkədən getmişdi. Müvafiq orqanlar onun haqqında da araşdırma apardı və deyilənlərin yalan olduğunu sübut etdilər".

**Direktor qızı Şəms Hüseynova haqqında ittihamlara isə bu cür cavab verdi:** "Mənim keçmiş qudamın dedikləri də yalandır. Qızım erkən vaxtında ailə həyatı qurdu. Lakin ailədə tez-tez döyülürdü, buna görə hətta polisə də müraciət etmişdik. Savadına gəldikdə isə bildirim ki, qızım Şəms 5 yaşından musiqi ilə məşğul olur. O, Gəncədə 5 saylı musiqi məktəbini bitirib. Oxuduğu müddətdə daima konsertlərdə, tədbirlərdə iştirak edib. Daha sonra isə Gəncə Musiqi Kollecində fortepiano üzrə təhsil alıb. Qızımın savadsız olması haqqında səslənən ittihamların hamısı əsassızdır".

Uzun müddət məktəbdə müəllim işləyən Günay Məmmədovanın əməkdaşımıza verdiyi açıqlamaya görə, məktəbdə heç də korrupsiya halları səngiməyk bilmir: "Ötən il məktəbin direktoru haqqında səsləndirdiyim ittihamlara görə məni məhkəməyə verdi və təzminat davası açdı. Təzminat məsələsi məni qorxutduğu üçün ərizəmi geri götürdüm, məhkəmə barışıq qərarı çıxartdı. Lakin baş verən neqativ halların heç biri araşdırılmadı. Bu gün də qeyd edirəm ki, müraciətimdəki bütün faktlar doğrudur, gerçəkdir. Hazırda da Səadət Məmmədbəyova müəllimlərdən pul tələb etməkdə davam edir. Müəllimlərin hüquqlarını pozması artıq dözülməz həddə çatıb. Hər ay bütün müəllimlərin əmək haqlarından qanunsuz pul tutulmaları aparır".

**G.Məmmədova Rusiyada yaşamış həmkarı ilə bağlı qalmaqala da aydınlıq gətirib:** "Lalə Rusiyada yaşayırdı, lakin adına 3 "stavka" maaş kəsilirdi. Halbuki qanunla bu doğru deyil. Baş verən qalmaqala görə o, təcili olaraq bu ilin əvvəlində Azərbaycana gəldi".

Adının çəkilməsini istəməyən digər müəllimin sözlərinə görə də məktəbdə korrupsiya, hər ay müəllimlərdən pul alınması artıq ənənəvi hala çevrilib.

**Mövzunu davam etdirəcəyik.**

❑ **Xalidə GƏRAY**

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 iyul 2017-ci il Çərşənbə axşamı № 144 (6758) Qiyməti 60 qəpik

**Xəbər**

## Gəncədə idmançı ata söyüşünə görə adam öldürdü

yazısı səh.14-də

**Gündəm**

### 20 ay sonra Eldar Mahmudova cinayət işi açılır - niyə indi?



Sabiq nazir və Baş İstintaq İdarəsinin rəisi Mövlam Şıxəliyevin həbsinə hazırlıq başlayıb

yazısı səh.3-də

### Zəhranın ziyarətinə partiya sədrləri də gedəcək

yazısı səh.3-də

### Müxalifət ölkə boyu yürüş keçirmək arzusunda - marşrutlar

yazısı səh.6-da

### Bakının "ərəb turist" problemi başlayıb - ilginc təfsilatlar

yazısı səh.13-də

### Türkiyə Avropa Birliyi ilə bütün "körpüləri" yandırır

yazısı səh.11-də

### Çimərlik xəstəlikləri: təhlükələrdən özümüzü necə qoruyaq?

yazısı səh.14-də

### G 20 zirvəsi: Rusiyaya qarşı münasibət dəyişmədi

yazısı səh.9-da

### Bakı-Sumqayıt yolunun tıxac dərdi

yazısı səh.10-da

### "Parnik"dən Avropaya çıxan futbolumuz...

yazısı səh.15-də

### Bəzi ərzaq məhsulları ucuzlaşıb - səbəb

yazısı səh.10-da

### Bakıya ən yeni Rusiya raketləri gətirildi

yazısı səh.2-də

## Azərbaycan enerji nəhənglərinin gündəmində

# AMERİKADAN BAKIYA TAM DƏSTƏK - PREZİDENT ABŞ-IN DÖVLƏT KATİBİ İLƏ GÖRÜŞDÜ

İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində əsas diqqətlər Azərbaycan qazını Avropaya çıxaracaq "Cənub Qaz Dəhlizi"nə yönəlib; Ağ Evin neft strategiyasını formalaşdıran Reks Tillerson: "ABŞ bu layihənin həyata keçirilməsinə bundan sonra da dəstək verəcək"; Rusiya narahat olacaq, bəs...




yazısı səh.5-də

## Ermənistan üçün kritik seçim anı: Rusiya ilə hara kimi?

İşğalçı ölkənin xarici borcu ilə yanaşı, Kremldən asılılığı da sürətlə artır; düşmən ölkə Azərbaycan və Türkiyə ilə dil tapmadan süquta məhkumdur...

yazısı səh.8-də




### Aşıq Ələsgərin kötücəsi "Yeni Müsavat"a şəcərələrini danışdı, od püskürdü

yazısı səh.12-də



### Arif Hacılının Ərdoğana ilginc çağırışına reaksiyalar

yazısı səh.6-da



### Nosikin "burnunun ucunda" görmədiyi həqiqət...

yazısı səh.4-də

# Lapşinin məhkəmə istintaqı başa çatıb

**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycanda həbsdə olan blogger Aleksandr Lapşinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



APA-nın məlumatına görə, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən iclasda şahid qismində ekspert Almaz Bayramova ifadə verib. O, A. Lapşinin yazıları ilə bağlı tərtib etdiyi rəyi təsdiqləyib. A. Lapşinin vəkili Eduard Çerninin suallarını cavablandıran şahid bildirib ki, A. Lapşin yazılarında Azərbaycanın ərazi bütövlüyünə qarşı çağırışlar edib: "Məsələn, yazısında göstərib ki, "Ermənistan hardadırsa, Qarabağ da ordadır". Qarabağın adını "Artsax" kimi qeyd edib".

**A.Lapşin şahidə suallar verib:** "Mən yazımda göstərmişəm ki, Qarabağda Azərbaycana məxsus yüksəkliklərə Ermənistan nəzarət edir. Bəs siz nə üçün bu yazıma da rəy verməmisiniz?"

Ekspert belə bir yazıya rast gəlmədiyini deyib.

A.Lapşinin vəkili vəsatətlə çıxış edərək, məhkəmədə dindirilən şahidlərin yalnız internet üzərindən hadisəyə istinad etməsinin məqbul sayılmadığını və şahidlərin ifadələrinin sübutlar siyahısından çıxarılmasını istəyib.

Hakimlər Kollegiyası bu vəsatətə müşavirə otağında qərar elan edilərkən baxılacağını deyib və vəsatəti bu səbəbdən təmin etməyib.

Prosesdə məhkəmə istintaqının başa çatdığı elan olunub.

Prokuror çıxış üçün məhkəmədən vaxt istəyib.

Proses iyulun 14-də davam etdiriləcək.

Qeyd edək ki, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan A. Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi əsasında təqsirləndirilən şəxs qismində cəlb edilərək beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya edilib.

A.Lapşin Cinayət Məcəlləsinin 281.2 (dövlətə qarşı açıq çağırışlar) və 318.2 (sərhədi qanunsuz keçmək) maddələri üzrə ittiham olunur.

## Generalın oğlu tutuldu, bəs sabiq deputatın oğlu?



Elton Məmmədov

**General Novruzəli Orucovun oğluna görə işdən qovulması məmur övladlarının törətdikləri cinayətləri bir daha gündəmə gətirib. N.Orucovun oğlu Rüstəm Orucov ölümlə nəticələnən avtoqəza törətsə də, şərti azadlıqdan məhrum olunub. Buna baxmayaraq, məmur oğlu növbəti cinayəti törətməkdən çəkinməyib. Başının dəstəsi ilə avtobus sürücüsünü 8 dayanacaq təqib edib, sürücünü huşu itənə qədər döyüblər. Sürücü hələ də xəstəxanadadır. Buna görə də R.Orucovun barəsində həbs qərarı verilib, atası işdən çıxarılıb.**

N.Orucov övladına görə işdən qovulan ilk məmur deyil. Amma cəmiyyətə qarşı açıq hörmətsizlik edən, cinayət sifarişi verən məmur övladları da var ki, istintaqdan kənar qalmağı bacara biliblər və bu günə qədər də əməllərinə görə adekvat cəza almayıblar.

2014-cü il aprelin 25-də "Yeni Müsavat"ın reportyoru Fərahim İlqaroğlu yaşadığı binanın girəcəyində döyüldü. Sonradan jurnalisti döyən Feyruz Termişi saxlanıldı. Ona bu təlimatı verən Kik-Boksinq Federasiyasında çalışan Tural Bayramov tutulmadı. T.Bayramov o dövrdə nəqliyyat naziri olan Ziya Məmmədovun yaxınlarının "silləvuranı" kimi tanınırdı. İstintaq araşdırmaları gedişində aydın oldu ki, Fərahim İlqaroğlunun döyülməsi sifarişini Tural Bayramova o dövrdə deputat olan Z.Məmmədovun qardaşı Elton Məmmədovun oğlu Aynar Məmmədov verib. Sifarişin verilməsini şərtləndirən isə jurnalistin A.Məmmədovun avtoxuliqanlığını ictimailəşdirməsi, özünün sosial şəbəkədəki profili üzərindən yayması olub. A.Məmmədov avtoxuliqanlığını gizlətmək üçün jurnalistin qanuni peşə fəaliyyətinə görə döyülməsini sifariş etmişdi. Həmin dövrdə bu məlumatlar ictimailəşdirilsə də, E.Məmmədov mandatından olmadı, oğlu avtoxuliqanlığına görə jurnalisti döymək sifarişi etməsinə görə məsuliyyətə cəlb olunmadı. Həmin dövrdə bu, Məmmədov klanının güclü olması ilə izah olunurdu. İndi isə Məmmədovların mövqeləri zəiflədilib və A.Məmmədovun jurnalistə qarşı cinayətinin araşdırılması məqamıdır.

**❑ E.MƏMMƏDƏLİYEV**

## Türkiyədə fövqəladə vəziyyət rejimi nə vaxt aradan qaldırılacaq?



**Terrorla mübarizəyə ehtiyac qalmadıqda ölkədə fövqəladə vəziyyət rejimi aradan qaldırılacaq.**

"Trend"in məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Dövlət başçısı qeyd edib ki, Fəthullah Gülən hərəkatı və PKK ilə mübarizədə önəmli bir məsafə qət edildi: "Yeni fövqəladə vəziyyət rejimi çox da uzaq olmayan bir gələcəkdə ləğv edilə bilər".

Qeyd edək ki, Türkiyədə fövqəladə vəziyyət ötən il iyulun 15-də dövlət çevrilişinə cəhddən sonra üç ay müddətinə tətbiq edilib və sonradan bir neçə dəfə uzadılıb.

## Rusiyada tonlarla Azərbaycan pomidoru satışdan yığışdırıldı



**Rusiyada 16,193 ton Azərbaycan pomidoru satışından yığışdırılıb.**

Virtualaz.org Rusiya KİV-inə istinadən bildirir ki, bu barədə Baytarlıq və Fitosanitar Nəzarəti Federal Xidmətinin Kurqansk vilayəti üzrə idarəsindən məlumat verilib.

Məlumatda bildirilir ki, Azərbaycan Respublikasından gətirilən tərəvəzlərdə zərərverici - Cənubi Amerika güvəsi aşkar edilib.

Federal Xidmət region ərazisində zərərvericilərə yoluxmuş məhsulun satışını qadağan edib. Sahibkarlara təlimat verilib ki, pomidorları dezinfeksiya etsinlər.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.



## Rayonlarda şimşək çaxacaq, yağış yağacaq

**İyulun 13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, şimal-şərq küləyi əsəcək.

Havanın temperaturunun yarımadada gecə 21-24° isti, gündüz 29-34° isti, Bakıda gecə 22-24° isti, gündüz 31-33° isti olacağı gözlənilir.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 21-22°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 22-23°, Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən, dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 20-25° isti, gündüz 32-37° isti, dağlarda gecə 12-17° isti, gündüz 20-25° isti olacaq.

## Vergilər Nazirliyində beş sahibkar barəsində həbs-qətimkan tədbiri seçildi



**2017-ci ilin I yarısında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 139 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 7 milyon 806,5 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.**

Nazirlikdən APA-ya verilən məlumata görə, 38 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilib.

Departamentin İstintaq idarəsində 254 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 5 nəfər təqsirləndirilən şəxs barəsində həbs-qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 65 iş üzrə 75 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 13 nəfər şəxs tutularaq departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 129 şəxsin məcburi qaydada gətirilməsi, 172 şəxsin tapılaraq istintaqa gəlmələri, 190 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına kömək göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 82 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlmələri təmin olunub.

## Azərbaycanda 3 nəfər zəhərlənmədən ölüb

**Bu ilin 6 ayında 188 zəhərlənmə hadisəsi qeydə alınıb. Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən virtualaz.org saytına verilən məlumatda deyilir ki, zəhərlənmə nəticəsində 3 nəfər dünyasını dəyişib.**

İlin birinci yarısında 285 nəfər zəhərlənib. 21 botulizm hadisəsi baş verib. İyun ayında 24 zəhərlənmə qeydə alınıb, nəticədə 31 nəfər zərər çəkib.

Qeyd edək ki, zəhərlənmələrin ən ağır forması insan ölümünə səbəb olan botulizmdır. Oksigen olmayan şəraitdə botulotoksin əmələ gəlir və insanda botulizm adlı xəstəlik baş verir. Zəhərlənmələrin əksəriyyəti evdə hazırlanan qidalardan baş verib.



## Pirallahıda şpris istehsal edən zavod tikiləcək

**Pirallahı Sənaye Parkının yeni rezidenti - "Diamed Co" MMC tərəfindən burada qabaqcıl Avropa ölkələri, eləcə də Yaponiya və Koreya texnologiyaları əsasında ildə 55-58 milyon ədəd müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı nəzərdə tutulur.**

İqtisadiyyat Nazirliyi bildirir ki, zavodda şpris istehsalı zamanı yerli və xarici xammaldan istifadə edilməsi planlaşdırılır.

Zavod tam gücü ilə işə düşdükdən sonra Azərbaycanda əczaçılıq sənayesinin inkişafında əhəmiyyətli rol oynamaqla, daxili tələbat yerli istehsal hesabına keyfiyyətli birdəfəlik şprislə təmin edəcək, bu məhsullara idxaldan asılılığı azaldacaq və ixrac potensialını artıracaq.

Müasir avadanlıqlar və texnologiyalarla təchiz ediləcək zavodda 50 yeni iş yeri açılacaq.

## Erməni əsgəri Azərbaycan əsgərinə məktub yazdı

**Ermənistan mətbuatında... Epress nəşri erməni ordusunun müddətli hərbi qulluqçusunun Gürcüstanda tanış olduğu dostuna - Azərbaycan əsgərinə ünvanlanmış məktubunu dərc edib.**

Virtualaz.org-un Ermənistan bürosu bildirir ki, məktubda deyilir: "Məni orduya çağırdılar və iki il mən də nifrət oyadan yerdə olacağam. Biz ölkələrimizin münaqişəsi haqqında çox danışırdıq və səndə bütün bunlara mənim baxışlarım haqda ümumi fikir var. Beləliklə, sənə yazıram ki, xatırlayasan. Bir çox millətçilərin, nasistlərin, psevdopatriotların və başqalarının içərisində həmçinin mən də xidmət edirəm. Və sən erməni milləti (dolaşıq yazılıb-red.) və erməni ordusu haqqında nə eşitsən də, bil ki, mən də oradayam. Böyük nifrətlə və seçim haqqı əlindən alınmış vəziyyətdə".

Hərbçinin qeyd etdiyi kimi, ona təskinlik verən yeganə məqam odur ki, iki ildən sonra azad olacaq və onda üzərində "boynuna dolanmış heç bir borc" qalmayacaq.

"Uğurlar sənə, qardaş və bil - bizim kimilərі az deyil!" - deyə erməni əsgəri azərbaycanlıya yazdığı müraciətini tamamlayıb.

## Britaniyanın neft servis şirkəti Azərbaycanı tərk edir

**Böyük Britaniyanın "Petrowell" neft servis şirkətinin filialı "Petrowell Caspian LTD" Azərbaycandakı nümayəndəliyinin bağlanması barədə elan edib.**

"Trend"in məlumatına görə, şirkətin kreditorları öz tələblərini növbəti iki ay ərzində Bakı, M.Muxtarov küçəsi 203A, 37 ünvanına irəli sürə bilərlər.

Qeyd edək ki, "Petrowell" şirkəti müxtəlif neft-qaz avadanlığının layihələndirilməsi, hazırlanması, istehsalı və sınaqdan keçirilməsi sahəsində ixtisaslaşır.

**Avtobus sürücüsünə hücum edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini (artıq sabiq müavin - red.) Novruzəli Orucovun oğlu Rüstəm Orucov həbs edilib, Novruzəli Orucov isə prezidentin sərəncamı ilə vəzifəsin-**



# Ölkənin danışdığı hadisə - oğlu generalı necə rüsvay etdi

## Prezident məmurlara yenidən xəbərdarlıq etdi; **işdən qovulan general:** "Mən özümdən başqa heç kimdə günah görmürəm"




Baş Prokurorluq generalın oğlunun həbs edilməsi ilə bağlı açıqlamasında bildirib ki, 2017-ci il iyulun 3-də Bakı şəhər sakini Rüstəm Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu 8 dayanacaq təqib edərək sərnişinlərin narahatçılığına və insanlarda vahiməyə səbəb olub, vətəndaşların gözü qarşısında bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib. Baş Prokurorluğun məlumatında həmçinin qeyd edilir ki, Rüstəm Orucov piyadanın ölümünə səbəb olan yol nəqliyyat hadisəsi törədib hadisə yerindən qaçdığına görə hələ 2014-cü ildə 4 il müddətinə azadlıqdan məhrum olub, 2016-cı ildə isə şərti olaraq vaxtından əvvəl azad edilib. Yuxarıda qeyd olunmuş xuliqanlıq hadisəsi də məhz onun şərti azadlıqda olduğu dövrdə baş verib. Faktla bağlı 2017-ci il 4 iyul tarixdə Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb. Rüstəm Orucov həmin maddə ilə ittiham olunaraq barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

İyulun 11-də isə prezident İlham Əliyev general-mayor Novruzəli Orucovun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.

Ölkə prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iyulun 12-də keçirilən iclasında bir daha məmurlara xəbərdarlıq edib.

Prezident deyib ki, dövlət məmurları və onların ailə üzvləri davranış normalarına ciddi əməl etməlidirlər.

Dövlət başçısı xalqa xidmət, təvazökarlıq, təkəbbürlü davranmamaq prinsiplərinin dövlət məmurlarının əsas həyat və fəaliyyət normasına çevrilməsinin zəruriliyini vurğulayıb. Prezident bu məsələdə heç kimə güzəşt olunmadığını və bundan hamının nəticə çıxarmalı olduğunu bildirib.

Yada salaq ki, bundan əvvəl "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin keçmiş sədr müavini Mübariz Mədətov oğlunun "qurbanına" çevrilib. Belə ki, M.Mədətovun oğlu Xalid Mədət xalq artisti, məşhur tarzən Ağasəlim Abdullayevin həyat yoldaşı və nəvəsinin ölümünə səbəb olan nəqliyyat qəzası törədib. Bahalı "Mercedes-Benz G-55" avtomobilini həddən artıq sürətlə idarə etdiyi üçün sözügedən şəxslərin həyatına son qoymuşdu. Nəticədə X.Mədətovun özü həbs edildi, atası isə vəzifəsindən azad olundu.

Sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov da bir neçə il öncə vəzifəsini oğlunun İsmayıllıda sakinlərlə kobud davranışı və rayonda gərginliyə səbəb olma üzündən vəzifəsini itirməli olmuşdu. Nazirin İsmayıllının o zamankı icra bağçısı olan qardaşı da bu olaydan sonra vəzifədən kənarlaşdırılmışdı.

Zığ şossesində avtoxuliqanlıq etdiyi haqda məlumat yayılan polis əməkdaşı Tural Həsənovun atası, Dövlət Gömrük Komitəsinin Yevlax Gömrük İdarəsinin rəisi Əliməmməd Həsənov da övladının ictimai yerdə qaydaları kobudcasına pozduğuna, qanunlara hörmət etmədiyinə görə tutduğu vəzifədən azad edilib. T. Həsənovun özü də polis orqanlarından da xaric olunub.

Hələlik isə ən son Novruzəli Orucovun vəzifəsinə övladı baiskar oldu.

Bu hadisənin sonuncu olması üçün nə olmalıdır?

**Deputat Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ölkə prezidenti bundan öncə də övladları qanun-qaydanı nəzərə almayan bir neçə yüksək vəzifəli məmuru işdən azad edib. Bu addım da bir ciddi xəbərdarlıqdır:** "Məmur övladları sadə insanlardan daha çox məsuliyyətli olmalıdırlar, harınlıq etməməlidirlər. Bilməlidirlər ki, harınlıq etmələri sonda həm özlərini, həm atalarını zərbə altında qoyacaq. Çoxlu vəsaitin olması o demək deyil ki, qanunları tapdalamalısan, özündən kasıb insanları əzməlisən. Heç kimin hüququnu pozmağa heç kimin ixtiyarı yoxdur. Məmur övladları başqalarına müsbət nümunə olmalıdır. Mən general Novruzəli Orucovun müsahibəsini oxuyanda ona yazığım gəldi ki, övladı onu gətirdi hansı duruma saldı. Dövlət vəzifəsi daşıyan valideynlər bu məsələdə daha məsuliyyətli olmalıdırlar. Vəzifəli şəxslər bilməlidirlər ki, övladlarına aşırı dərəcədə sərbəstlik vermələri, aşırı dərəcədə vəsait ayırmaları gec-tez onların özlərinin başağrısına çevriləcək. Əziyyətsiz əldə edilən böyük vəsaitlər onlarda harınlıq yaradır. Valideynləri onların baş ağrısına çevriləcək bu cür övladlarına nəzarəti gücləndirməlidirlər. Övlad da başa düşməlidir ki, atası vəzifədədirsə, özünü daha məsuliyyətli, tərbiyəli aparmalıdır".

**Deputat Zahid Oruc isə prezidentin qərarını dürüst məmur obrazının formalaşdırılması üçün prezidentin uzun illər həyata keçirdiyi xəttin növbəti həlqəsi adlandırıb:** "Ötən on illər ərzində cənab prezident komanda üzvlərinə qarşı təvazökarlıq, xalq qarşısında hesabatlılıq, hər bir hərəkətlərinin ölçülü-biçili səviyyədə aparılması kimi keyfiyyətləri tələb edib. Bəziləri isə nəticə çıxarmayıblar. Düşünürəm ki, belə qanunsuzluqlara, səhvlərə yol verən hər hansı şəxsin özü, yaxud ailə üzvünün davranışına göstərilən reaksiya, həm cəmiyyətin rəyini, həm də komanda üzvlərinin hər birinin yaxın çevrəsinə nümunəvi təsir göstərən, onları hüququn çərçivəsinə alan tədbirlərdir. Biz başa düşməliyik ki, vəzifə məsuliyyət deməkdir. Biz vəzifəni prestij, yaxud özünü başqalarından fərqləndirmək, onun üzərində dominantlıq təşkil etmək, imkanlarının qabarıq nümayişinə çevirməməliyik. Dövlət başçısı bir daha sübut etdi ki, o, hər kəsə bu kriteriyadan yanaşır. Prezidentin son qərarı hər birimizin ürəyindən xəbər verir və hamımız üçün bir siqnaldır".

**Novruzəli Orucov isə oğlunun törətdiyi cinayətə görə özünü günahkar sayır. Bu barədə o, dünən yenicag.az-a açıqlamasında belə deyib. N.Orucov bildirib ki, prezident onu daha əvvəl işdən çıxartmalı idi:** "Hadisədir baş verib, mübahisə yaranıb və sonu da belə olub. Bu məsələdə vəzifəli şəxs kimi mənim də səhvim çox böyük olub, uşağı başlı-başına buraxmışam. Başlı-başına deyəndə ki... Mən özüm atasız böyümüşəm, istəməmişəm ki, uşaqlarım da nəyinsə ehtiyacını çəksinlər. Atam Böyük Vətən müharibəsinin iştirakçısı olub, 1943-cü ildə yaralanıb gəlmişdi, onu altı yaşımda itirmişəm. Altı uşaq olmuşuq, çox ağır ailə həyatı sürmüşəm. Ancaq böyüdük, oxuduq, hamımız ali təhsil aldıq.

Deyim ki, oğlum birinci hadisəni törədəndə cənab prezident, Ali Baş Komandanım mənə çox hörmət elədi, məni o zaman işdən çıxartmalı idi. Açığı, onda özüm də işdən getməyə hazırlaşırdım. Ancaq xidmətlərim nəzərə alındı və işimə davam etməyim məsləhət oldu. Bu dəfə hadisə ilə bağlı cənab prezidentə məruzə edilib və o da qərarını verib. Mən özümdən başqa heç kimdə günah görmürəm. İki oğlum, bir qızım var. Bu, mənim sonbeşiyimdir, bir az ərköyün böyütdük. İdmançı uşaqdır, 1200 metrdən paraşütdən tullanmaq üzrə dünya rekordçusudur.

Bir ata kimi, bir general kimi bütün valideynlərə səslənirəm, yeri gələndə övladlarını sıxsınlar, xüsusilə oğlan uşaqlarına lap bir sillə vursunlar ki, onlar pis hərəkətlər etməsinlər".

❑ Etibar SEYİDAĞA

## "Qarabağ"la oyunda baş verənlərlə bağlı DİN-dən açıqlama

**Bəzi KİV-lərdə iyulun 11-də Bakıda keçirilən "Qarabağ" - "Samtredia" matçı öncəsi bir qrup azarkeşin ermənilərin qətlə yetirdikləri 2 yaşlı Zəhra haqqında hazırladıqları pankartı polis əməkdaşlarının stadiona buraxmadıqları və buna görə də həmin azarkeş qrupun üzvlərinin matçı tərk etməsi barədə xəbər yayılıb.**

İddiaların doğru olub-olmadığını öyrənmək üçün DİN-in mətbuat xidməti ilə əlaqə saxladıq.

Mətbuat xidmətinin şöbə rəisi **İlham Babayev** musavat.com-a bildirib ki, belə bir fakt qeydə alınıb: "Əvvəla, onu deyim ki, öz xalqına və dövlətinə sədaqətlə xidmət edən Azərbaycan polisi 2 yaşlı Zəhra balamızın faciəsi ilə əlaqədar olan ümumxalq kədəri, düşmənə nifrəti ürəkdən bölüşür. Lakin dünən bu faciədən öz çirkin siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstərən ünsürlərə rast gəldik. Belə ki, futbol matçı öncəsi stadionda və ətrafında ictimai asayişə və ictimai təhlükəsizliyə nəzarəti həyata keçirən polis əməkdaşları qeyd edilən pankartla yanaşı, digər siyasi məzmunlu şüar və plakatları da daşıyan bəzi dırnaqarası azarkeşlərin stadiona daxil olmalarının qarşısını alıblar. Bu zaman məlum olub ki, belə şüarların əksəriyyəti Azərbaycanı istəməyən bəzi xarici kəşfiyyat orqanlarının həbsdə olan nökərlərinin azadlığa buraxılmasını tələb edən siyasi məzmun daşıyır. Deməli, bu ünsürlər 2 yaşlı günahsız Zəhra balamızın faciəsindən sui-istifadə edərək öz çirkin məqsədlərini həyata keçirməyə cəhd edirlərmiş".

**İ.Babayevin sözlərinə görə, bundan əlavə, ölkəmizin də üzv olduğu Avropa Konvensiyası, eləcə də "Bədən tərbiyəsi və idman haqqında" Qanun kütləvi oyunlar, futbol matçları zamanı idmana aid olmayan pankartların, şüarların stadiona keçirilməsini qadağan edir:** "Belə hal qeydə alınarsa, ev sahibi olan kluba, idman təşkilatına beynəlxalq sanksiyalar tətbiq olunur və yarışlardan kənarlaşdırılmaya qədər cəzalandırıla bilər".

**Mətbuat xidmətinin şöbə rəisi deyib:** "Ona görə də bir qrup dırnaqarası azarkeşin polis əməkdaşlarının bu hərəkətini qınaması ədalətsizlikdir. Əksinə, asayiş keşikçilərimiz düşmən tərəfindən qətlə yetirilən məsum körpənin faciəsindən yararlanaraq idmanla heç bir əlaqəsi olmayan öz siyasi məqsədlərinə çatmaq istəyənlərin və bununla da dövlətimiz, idmanımız haqqında beynəlxalq arenada mənfi fikir formalaşdırmağa uğursuz cəhd edənlərin qarşısını alıblar. Azarkeş "fan-klub" adından sui-istifadə edən beləlləri birdəfəlik bilməlidirlər ki, bundan sonra da siyasi məqsədlər üçün heç kimə bu cür hərəkətləri təkrarlamağa imkan verilməyəcək".

❑ Musavat.com



## General oğlunun döydüyü sürücü...

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini, Həqiqi hərbi xidmətə çağırış baş idarəsinin rəisi Novruzəli Orucov tutduğu vəzifədən azad olunub.**

Yenicag.az xəbər verir ki, general-mayorun işindən azad olunmasına səbəb olan oğlu Rüstəm Orucovun xuliqanlıq əməlinə görə həbs olunmasıdır.

O, "Xaliq Faiqoğlu" MMC-yə məxsus 85 saylı marşrutun sürücüsünü döyməkdə təqsirli bilinir. Hadisə zamanı zərərçəkən sürücü Səmədov Sənan Mehman oğlunun fotosunu təqdim edirik.

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

**Maliyyə Bazarlarına Nəzarət Palatası rəhbərliyinin əməkhaqları ilə bağlı sensasion məlumat dərc edilib. İki gündür mediada və sosial şəbəkələrdə ciddi müzakirə mövzusuna çevrilən bu məlumatda iddia edilir ki, Palatanın Direktorlar Şurasının sədri Rüfət Aslanlı ayda 65 min manat, müavinlərinin hər biri 38000, icraçı direktor 18000, departament direktorları 10000, sıravi işçilər isə 800-1500 manat rəsmi məvacib alırlar.**

# Rüfət Aslanlının "aslan" maaşı gündəmdə

## Natiq Cəfərli: "Təkzibin normal şəkildə verilməməsi şübhələr yaradır"


Rüfət Aslanlı

Təkcə Rüfət Aslanlı və 2 müavininin əməkhaqlarının ödənilməsinə ildə 2 milyon manat vəsait sərf edildiyi qeyd edilir.

Qeyd edək ki, Rüfət Aslanlının iddia edilən maaşı prezident İlham Əliyevin maaşından 4 dəfə, ölkədəki orta aylıq əməkhaqqından 130, orta aylıq pensiyadan 325 dəfə çoxdur.

**Modern.az bu iddialarla bağlı Maliyyə Bazarlarına Nəzarət Palatasından cavab almağa çalışıb. Palata sorğuya cavab olaraq yayılmış məlumatları təkzib edib:** "Bu cür məlumatlar həqiqətə uyğun olmadığından şərhə ehtiyac görmürük. Bunun həqiqət olmasına inanmaq özü sadəlövhlükdür".

İki gün boyunca mediada və ictimai müzakirələrdə geniş rezonans doğuran bu xəbər təkzib olunsa da, yenə də onun mənbəyi maraq mövzusu olaraq qalır. Bu rəqəm havadanmı götürülmüşdü? Bunu yayan sayt kimə və hansı mənbəyə istinad edirdi? Yenə yazdıqları xəbərin arxasında dayanırlarmı?

**Xəbəri yayan moderator.az saytının baş redaktoru Zülfüqar Hüseynzadə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, onlara gələn bir informasiya əsasında belə bir xəbər yayıblar. Amma müsahibimiz təkzib verildiyi üçün mövzunun da onlar üçün qapandığını dedi:** "Məsələni ictimailəşdirdik. Kaş ki, doğru olmasın. Bizim əsas missiyamız prezidentin çağırışlarına dəstək verməkdir. Bugünlərdə hətta Özbəkistan prezidenti demişdi ki, korrupsiyadan yazın. Biz bu cür məlumatı ictimailəşdirməklə həmin qurumun nüfuzuna xələl gətirmirik".

**"Könül istərdi ki, biz yanılaq, belə şeylər olmasın" deyən müsahibimizə görə, oxucular da onlara çoxsaylı müraciətlər edir. Baş redaktorun sözlərinə görə, indi hər kəs banklara borcludur. Bu məsələ ilə bağlı müvafiq qurumlara tapşırıq verilib ki, məsələ həllini tapsın, şəffaflıq olsun:** "Banklar insanların mal-mülkünü alırlar, onları borclarına görə çox pis duruma salırlar. Amma bizim kimisə hədəfə götürmək fikrimiz yoxdur. Sadəcə, bu informasiyanı dəqiqləşdirmək imkanımız olmayıb. Dediyim kimi, təkzib yayılandan sonra isə mövzu bizim üçün qapandı".

**İqtisadçı ekspert Natiq Cəfərli isə hesab edir ki, prinsipial, texniki və qanunvericilik baxımından belə məvacib durumunun olması mümkündür. Müsahibimiz xatırlatdı ki, Rusiyanın dövlət orqanlarında məvaciblər milyonlarla ölçülür:** "Sadəcə, təkzibin normal şəkildə verilməməsi, ictimaiyyətə informasiyanın detallı çatdırılmaması şübhələr yaradır. Həmin qurumun rəhbərliyi bu məlumatdan sonra sakinləri qane edəcək səviyyədə açıqlama verməlidir. Dövlətin təsis etdiyi bir qurumdan söhbət gedir. Cəmiyyət orda çalışan insanların məvaciblərini bilməlidir. Bu açıqlama xatirinə açıqlama vermək şübhələri daha da artırır".

**N.Cəfərli bir daha vurğuladı ki, səslənən rəqəmlərin gerçəyi əks etdirməsi mümkündür. Amma hansı qurumun, hansı gəlirliliyin müqabilində bunun yazılması əsas sualdır:** "Publik hüquqi şəxs olsa da, banklardan müəyyən üzvlük haqqı, faiz qazanır. Bu Palata keçən ili gəlirlə yox, zərərlə başa vurub. Yaradılışının ilk ilində zərərlə qapadıb ili. Əslində isə mən belə düşünürəm ki, dövlət idarələrində, nazirliklərdə çalışan insanlar yüksək maaş almalıdılar ki, korrupsiyanın qarşısını alsınlar. Şəffaf və açıq olmalı insanlar barədə informasiyalar da açıq olmalıdır. Nazir və məmurların həyat tərzinə baxanda məlum olur ki bu maaşla belə dəbdəbəli həyat tərzi keçirmək olmaz. Hansısa bir məmur bir imzası, qanunsuz bir əməli ilə milyonlar qazanırsa və yüksək maaşla onu bundan çəkindirmək mümkündürsə, bu, edilməlidir. Palatanın borcudur ki, ictimaiyyəti açıq şəkildə bu barədə məlumatlandırsın. Palata gəlirlər işləyirsə, top menecerlərin də yüksək məvacib alması tam mümkündür".

❑ **Sevinc TELMANQIZI**

# Ali Məhkəmə "üsyankar müstəntiq"i həbsdə saxladı

## Eldar Sabiroğlu: "Oğlumun həbs qərarını qüvvədə saxlayan hakimi vaxtilə bolluca tərifləmişdim..."

**İyulun 11-də Ali Məhkəmə Zərdab Rayon Prokurorluğunun müstəntiqi vəzifəsindən istefa verdikdən sonra həbs olunan Rüfət Səfərovun kasasiya şikayətini təmin etməyib. Prosesə hakim Gülzar Rzayeva sədrlik edib. R.Səfərov məhkəmə heyətinə etiraz etməyib. Vəkillər Bəhruz Bayramov, Yalçın İmanov və Fariz Namazlı keçmiş müstəntiqin günahının olmadığını, ittihamların istintaqda və məhkəmədə sübut olunmadığını, istintaqın və məhkəmələrin qanun pozuntuları ilə keçirildiyini bildirib. Vəkillər məhkəmədən cinayət işinə xitam verilməsi və Rüfət Səfərova bəraət verilməsi barədə qərar qəbul etməsini xahiş edib.**



**Vəkil Yalçın İmanov** deyib ki, məhkəmə vəkilə və Rüfət Səfərova son çıxışa hazırlaşmaq üçün vaxt verməyib. "Hüququn əsas prinsipi belədir: "Bir şahid şahid deyil". İstənilən adam istənilən şəxsə şər ata bilər və istədiyini deyə bilər. Rüfət Səfərova qarşı deyilən rüşvəti sübut edən hər hansı fakt yoxdur və təsdiq edilməyib".

**Vəkilin və R. Səfərovun son söz deməsi üçün birinci instansiya məhkəməsi cəmi 15 dəqiqə vaxt verib.** "Şəxsin özünü müdafiəsi üçün hazırlaşmağa cəmi 15 dəqiqə vaxt verilirsə, bu məhkəmənin sifarişi notarial qaydada təsdiqi kimi başa düşülməlidir" deyə, Y. İmanov qeyd edib.

**R.Səfərovun atası Eldar Sabiroğlu isə məhkəmə barədə sosial şəbəkədəki statusunda qeyd edib ki, bu dəfə oğlunu dəmir barmaqlıqlar arasına yox, şüşəli qəfəsin içərisinə salmışdılar. "Sanki qatı cinayətkar kimi qaçışından ehtiyat edirdilər" deyən E.Sabiroğluna görə, müttəhimin anası Tahirə xanımla bu mənzərəni seyr etmək onlara son dərəcə ağır gəlib:** "Övladım bir günahın sahibi deyil, amma həbsxanadadır. Güvəncimiz yenə Uca Rəbbimizədir. Yalnız onun ədalətinə inanır və tapınırıq. Gün gələcək ki, qaranlıqların üzərinə bir işıq düşəcək, həqiqəti, doğruları dediyinə görə 9 il müddətinə azadlıqdan məhrum edilən Rüfətin və digər günahsız həbs edilənlərin əzablı taleyi aydınlığa çıxacaq. Arzuları çoxdur Rüfətin. Allah yerdə qoymaz yəqin".

**Oğlunun şüşəli qəfəsin içində çox məğrur göründüyünü deyən E.Sabiroğlu özünün, anasının və məhkəmədə iştirak edən dostlarının onun cəsarətli, məntiqli çıxışından qürur duyduğunu vurğulayıb:** "Bu məmləkətdə müstəntiq vəzifəsinin nə demək olduğunu hər kəs gözəl bilir. Rüfət karyeranın və komfortun, gün-güzəranın üzərindən xətti çəkib ədalətli bir ölkədə yaşamaq üçün istefa verib haqqın tərəfində durdu. Əgər rüşvəti belə sevən idisə nədən vəzifəsindən ayrılırdı? Qalıb işləyər, bir tərəfdən də o çapıbtalayardı. Ancaq istefasından sonra üzünə öyrədilmiş idarə rəislərini qoyaraq onu "içəriyə" atdılar."

**E.Sabiroğlu oğlunun həbs qərarını qüvvədə saxlayan hakim barədə də maraqlı faktlar yazıb:** "Ali Məhkəmənin hakimi Gülzar Rzayeva ədalətsiz hökmü qüvvədə saxladı. Həmin an qeyri-ixtiyari gözlərim Gülzar xanıma dikildi. Onun hakim kimi Milli Məclisdə təsdiq edildiyi anları xatırladım. O zaman rəhmətlik Murtuz Ələsgərovdan söz alaraq Gülzar xanım Rzayevanı bolluca tərif etmişdim. Bilmirəm yadında qalıb, ya yox. Xatırlasa belə, indi onun üçün yəqin ki heç bir əhəmiyyəti yoxdur.Çünki ona və onun kimilərə rəyasət lazımdır. Rəyasət! Amma vaxtilə etdiyim həmin çıxışa görə peşman deyiləm. Və etdiyim tərifləri də həmin hakim xanıma halal edirəm. Nəhayət, hakim qərarını bitirdi. Rüfətin anası Tahirə xanım isə salonda yox idi. Sən demə, ana övladına su alıb gətirmək üçün yaxınlıqdakı mağazaları gəzirmiş. O, yubandı. Gülzar xanımın oxuduğu son qərarı eşidə bilmədi. Mən isə diqqətlə izləyirdim. Hakimin çöhrəsindəki təkəbbürlülük və özündənrazılıq hisslərindən duyğulandım və hakim ananın evə qayıtdıqdan sonra övladlarının və nəvələrinin üzünə necə baxacağını düşündüm. Bir də ki, onlar belə şeylərə öyrəşiblər. Belələrindən insaf və ədalət gözləməyin yeri və mənası varmı?! Beləliklə, 9 illik həbsə atılan Rüfətin 9-cu məhkəmə salonundakı işi də beləcə yekunlaşdı. Görək, bundan sonra Rüfəti daha hansı işgəncələr, karserin daha hansı əzab-əziyyətləri gözləyir?! "

2016-cı il yanvarın 15-də R.Səfərov rüşvət almaq ittihamı ilə həbs olunub. Lakin yanvarın 22-də o, ev dustaqlığına buraxılıb. R.Səfərov ittihamı rədd edib və cinayət işinin sifariş olduğunu bildirib. O, ev dustaqlığı dövründə də əvvəlki fikirlərindən geri çəkilməyib, tənqidi bəyanatlarını davam etdirib.

Keçmiş müstəntiq Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 2016-cı ilin sentyabrında 9 il azadlıqdan məhrum olunub. Elə məhkəmə zalında da həbs edilib.

2016-cı il dekabrın 22-də Şirvan Apelyasiya Məhkəməsi onun şikayətini təmin etməyib.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Mətbuat orqanları çətin durumda: ixtisarlar media sektoruna da sıçradı

**Hökumətdə ciddi struktur və kadr islahatlarının aparılacağı barədə uzun müddətdir mətbuatda məlumatlar gedirdi. Hətta son olaraq, bu barədə "Yeni Müsavat" qəzetində yazı dərc olunmuşdu. Yazıda qeyd olunurdu ki, İslamiada və Formula-1 yarışlarından sonra hökumətdə neçə vaxtdır gözlənilən struktur islahatlarına başlanılacaq.**



**Rauf Arifoğlu:** "Yarım ildən çoxdur ki, ekstremal vəziyyətdə işləyirik"



**Vüsalə Mahirqızı:** "Hədəfimiz daha az, lakin peşəkar kollektivlə işləyib yüksək nəticəyə nail olmaqdır"



**Aydın Quliyev:** "Bəzi xərclərimizi azaltmaqla durğunluqdan çıxmağa çalışacağıq"

Artıq YAP-ın icra katibinin müavini Siyavuş Novruzov da bunu APA-ya müsahibəsində təsdiq edib. S.Novruzov həm bəzi dövlət qurumlarının ləğv ediləcəyi və birləşdiriləcəyi anonsunu verib, həm də nazir müavinləri səviyyəsində kadr islahatlarının aparılacağını istisna etməyib.

Göründüyü kimi, dövlət iqtisadi vəziyyətin çətinliyini anlayaraq, kəmərsıxma əməliyyatına başlayıb. Əminliklə demək olar ki, özəl sektorda vəziyyət heç də dövlət sektorundan yaxşı deyil. Bir-birinin ardınca müəssisələrin bağlanması, işçilərin ixtisar edilməsi, şəhərdə icarəyə verilən müəssisələrin sayının artması, iri holdinqlərin belə müxtəlif xərclərini ixtisar etməsi vəziyyəti göz önünə sərir.

Biznes sektorunda ən çox çətinlik yaşayan qurumlardan biri də media qurumlarıdır. Maliyyə təminatı əsasən reklamdan olan müstəqil mətbuat orqanları artıq o imkandan da məhrumdur. Çünki reklam verən şirkətlərin də vəziyyəti ağırlaşdıqca, ilk ixtisara düşən xərclər reklam xərcləri olur. Digər tərəfdən, nağdlaşdırma ilə bağlı qoyulan məhdudiyyətlər mövcud maliyyə mənbələrinə çıxışı da qapadıb. Nəticədə media qurumları da vəziyyətdən çıxmaq üçün bir neçə pis variantdan birini seçmək məcburiyyətində qalırlar.

Bəs görəsən, hazırda hansı media qurumları bu çətinliyi real olaraq yaşayır və onlar vəziyyətdən çıxış yolu kimi nələr etməyə başlayıblar?

**"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu sualımıza cavab olaraq bildirdi ki, son günlər məhz nağdlaşdırma ilə bağlı yaşanan maddi çətinliklər səbəbindən qəzetin aylıq 4 nömrəsi ixtisar olunub:** "Azərbaycanın biznes sektorunda vəziyyət olduqca gərgindir. Media sektorunda da bu gərginlik özünü göstərməkdədir. Artıq yarım ildən yuxarıdır ki, biz ekstremal vəziyyətdə işləyirik. Hesabdan nağdlaşdırmanın məhdudlaşdırılması ilə bu vəziyyət daha kritik həddə çatıb. Üstəlik, məhz bu qərardan sonra bizim bir sıra reklam verənlərimiz, təxminən 4-ə yaxın hüquqi şəxs bizi tərk edib. Yerdə qalan 3 çox ciddi firmaya məxsus reklam verənimiz isə bir neçə aydır ki, pulları ödəyə bilmir. Belə bir vəziyyət bizim üçün kritik situasiya yaradıb. Ancaq biz çətin anlarda dostlarımızı, əməkdaşlarımızı kənara atmaq taktikası ilə vəziyyətdən çıxmağa üstünlük vermədik. Bu dəfə də qəzetin dövriliyini azaltmaq və dövrilikdən kəsmək qərarını verdik. Biznes qanunlarına görə, kəsilən pulların əvəzində 3 və ya 4 əməkdaşımızı ixtisar etməli idik. Biz bu yolu yox, qəzetin dövriliyini ayda 4 dəfə aşağı salmaqla kağızın, qəzet kağızı üçün olan dəmir lövhələrin və çap pulunun qənaəti hesabına qarşıdakı iki ayda vəziyyətdən çıxmağı yoxlayacağıq. Ümid edirik ki, bu vəziyyətdən çıxa biləcəyik".

**Media kapitanı bildirdi ki, əgər mövcud durumdan çıxmaq mümkün olmasa, qarşıda Azərbaycan mətbuatını, özəlliklə yazılı mətbuatı heç də yaxşı nəticələr gözləmir:** "Biz bu barədə dövlət yetkililəri ilə də danışırıq. Onlarla da yazışmalar aparırıq. Mətbuat günü yaxınlaşır. Vəziyyət bu qədər çətin olsa, mən həmin gün ərəfəsində ölkə rəhbərliyinə, prezident İlham Əliyevə müraciət edəcəyəm. Bildiyiniz kimi, prezident İlham Əliyev yazılı mətbuatın qorunması üçün əlindən gələni edir. O, bir fond yaradıb, həmin fond ildə 120 min manat vəsaitlə 33 qəzetə kömək edir. Ancaq bu, kifayət deyil. Çünki qəzet kağızının qiyməti həddindən artıq qalxıb. Kağıza əlavə dəyər vergisi də qoyulub ki, bu da ayda "Yeni Müsavat"ın xərclərini 400-500 dollar artırır. Belə olan halda, biz vəziyyətdən çıxış yolu üçün, ölkədə yazılı mətbuatın tamamilə sıradan çıxmaması üçün prezidentə müraciət etmək məcburiyyətində qalacağıq".

**"APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, rəhbərlik etdiyi qurumun idarəetmə siyasəti optimal, daha az, lakin peşəkar kollektivlə işləmək, daha yüksək nəticəyə nail olmaqdır:** "Bizim şirkətin strukturlarında əlavə ştat vahidi saxlanılmır. Ona görə də ixtisar etməkdənsə, əlavə xərcləri azaltmaq, şirkət olaraq daha çox marketinq, piar işi qurmaq, daha çox reklam cəlb etməklə qazanc əldə etmək və xərcləri optimallaşdırmaq barədə qərar qəbul etmişik. Artıq iki ilə yaxındır ki, bu cür də davam edirik".

**"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev də mətbuatın xüsusilə yay aylarında maliyyə çətinliyi yaşamasını gizlətmədi:** "KİVDF-nin mətbuata və mediaya dəstəyinin başladığı 2009-cu ildən bu yana iqtisadi çətinliklərimiz xeyli dərəcədə aradan qaldırılsa da, tam şəkildə həllini tapmadı. Sözsüz ki, əvvəlki dövrlərlə müqayisədə xeyli dərəcədə az olsa da, var. Xüsusilə də yay aylarında bu çətinliklərin yeni təzahürləri meydana çıxır. Çünki yayda həm cəmiyyətdə yaşanan durğunluq mətbuata təsir edir, həm də qəzetlərə, informasiya qurumlarına ictimai maraq zəifləyir. Bunun nəticəsi olaraq qəzetlərin maddi durumunda fərq özünü göstərir. Maddi çətinliklərimiz az da olsa var, lakin mən bunlara müvəqqəti hal kimi baxıram. Çünki hər il yay aylarında vəziyyət belə olur. Ümid edirəm ki, yaxın aylarda, sentyabr-oktyabr aylarında bu çətinlikləri xeyli dərəcədə aradan qaldıra biləcəyik. Ancaq mən heç bir halda bu çətinliklərdən çıxmağın ağırlığını kollektivdə ixtisarlar aparmaq və ya qonorarı, əmək haqlarını aşağı salmağın hesabına həll etməmişəm. Bu il də həmin yolla getməyəcəyik. Çalışacağıq ki, işçilərin sayını da qoruyaq və əmək haqlarını da əvvəlki səviyyədə saxlayaq. Başqa bəzi xərclərimizi azaltmaqla bu yay dövrünün durğunluğundan çıxmağa çalışacağıq".

❑ Nərgiz LİFTİYEVA

---

# Rusiyanın fiaskosu və ya Hamburq niyə Yalta olmadı?



**Hüseynbala SƏLİMOV**

**Sanki bu görüş büsbütün dünyanı dəyişəcək və Rusiyanın geosiyasi ambisiyalarını tamam sənədləşdirəcək, onlara siyasi mandat verəcəkdi. Amma bunların heç biri olmadı.**

İndi rusiyalı təhlilçilər arasında məyusluq var, çünki ikinci Yalta konfransı alınmadı. Hərçənd, Hamburq görüşü ərəfəsində onların çoxu Rusiya ilə ABŞ arasında ikinci Yalta konfransına bənzər anlaşmanın baş tutacağına ümid edirdi.

Yada salım ki, Yalta konfransı 1945-ci ildə olmuşdu və müharibədən sonrakı dünyanın ABŞ, SSRİ, İngiltərə arasında bölüşdürülməsilə başa çatmışdı. İndilik isə demək olar ki, nəhayət, ABŞ və Rusiya prezidentləri görüşə bildilər. Daha realistlər irəlicədən düşünürdülər ki, ən yaxşı halda yalnız Suriya məsələsində hansısa irəliləyiş ola bilər. Başqa məsələlər isə yalnız "zond" xarakteri daşıyacaq və tərəflər ayrı-ayrı məqamlarla bağlı bir-birinin mövqeyini öyrənməyə cəhd edəcək.

Belə pessimist proqnozlar boş yerdən qaynaqlanmırdı. Donald Tramp ABŞ cəmiyyətinin və müvafiq strukturlarının ciddi nəzarəti altındadır. Onun kiçik güzəşti belə öz ətrafındakı şübhə atmosferini bir az da tündləşdirə bilərdi.

Amma təbii bir sual yaranır. Sonra nə olacaq? Vaxtilə politoloq Z.Bjezinski dünyada beş geosiyasi mərkəz-qütb müəyyənləşdirmişdi. Onlardan dördü dünya xəritəsində oturuşub. Bunlar ABŞ, Avropa, Rusiya və Çindir. Ən maraqlısı odur ki, təkcə ABŞ-la Rusiya arasında deyil, elə ABŞ-la Çin və yaxud ABŞ-la Avropa arasında da müəyyən "sürtünmə" duyulur və bu, özünü Hamburq ərəfəsində də büruzə verdi.

Görüş ərəfəsində ABŞ-la Avropa arasında müəyyən qədər söz "atışması" oldu, Çinlə Rusiya rəhbərləri isə özlərinin 22-ci görüşlərini keçirdilər. Maraqlı tərəfi budur ki, Avropanı da, Çini də müəyyən mənada ABŞ siyasətinin "körpə"ləri adlandırmaq mümkündür.

Düzdür, vahid Avropa ideyasının çox böyük tarixi var - ən azı, gedib Napoleon dövrünə çıxır. Amma bu ideyanın gerçək xarakter alması, onun institusional mahiyyət tapması üçün ABŞ çox böyük töhfə verib. Çini isə ABŞ üçün vaxtilə sabiq dövlət katibi H.Kissincer kəşf etmişdi. Amma indi bu iki ünvan - Avropa və Çin müstəqil geosiyasi vahidlər kimi çıxış edirlər.

Bütün bunlar o deməkdir ki, ən azı bir müddət çoxqütblü dünya modeli üstünlük təşkil edəcək. Bu isə özündə müəyyən qədər qeyri-müəyyənlik və hətta bir az xaos da ehtiva edir. Amma nə etmək olar? Böyük hesabla birinci "soyuq müharibə"nin müəyyənliyi artıq keçmişdə qalıb. Bunun da səbəbləri var.

Əsas budur ki, məsələn, hətta Rusiyaya qarşı belə, "vahid cəbhə" yaratmaq mümkün deyil, çünki böyük geosiyasi ambisiyaları olsa da, daha Rusiya əvvəlki dövrlərdə olduğu kimi, qlobal siyasi və ya iqtisadi çağırışları daşımır özündə. Bəs onda nəyə ümid etmək qalır?

Yalnız bir sıra ədədlər müəyyən təskinlik verir. Məsələn, ABŞ-ın təkcə hərbi büdcəsi Rusiyanın total büdcəsindən iki dəfə və NATO-nun illik büdcəsi Rusiyanın hərbi büdcəsindən 15 dəfə böyükdür. Deməli, növbəti silahlanma yarışı olarsa, kimin irəli, kimin geri gedəcəyi elə bir tapmaca deyil.

İndi Rusiya iqtisadiyyatı planlı dövlət iqtisadiyyatı deyil, di gəl, o, yenə də rəqabət qabiliyyəti olmayan iqtisadiyyatdır və hətta ən patriotik rus iqtisadçıları belə, Rusiyanın sıçrayış edərək texnoloji cəhətdən inkişaf etmiş ölkələr sırasına qalxacağına inanmırlar.

Elə ona görə də söz yenə əlahəzrət iqtisadiyyatındır, əsl dünya liderini yenə də o, müəyyən edəcək - gec və ya tez...

Dünyadakı geosiyasi proseslərə baxanda da geoiqtisadi çalarlar heç də az nəzərə çarpmır. Dünyada nüfuz üstündə, enerji və tranzit imkanları uğrunda savaş gedir. Heç kimin də əslində güzəşt etmək fikri yoxdur.

Trampın hakimiyyətə gəlişi ərəfəsində elə hey bir sual verirdim: görən, ABŞ siyasəti nə qədər personifikasiya olunub, o, bir siyasi liderin siyasi simpatiya və antipatiyalarından nə qədər asılıdır?

İndi görürəm ki, ABŞ-da da siyasət daha çox institusional xarakter daşıyır və "Amerika arzusu" kimi elə "Amerika siyasət maşını" da real məzmuna malik məsələdir. Ona görə bir daha deyirəm ki, Rusiyanı böyük məyusluq gözləyir. Prinsipcə, dünyanın yenidən bölüşdürülməsi baş verə bilər, amma bundan əvvəl daha bir "soyuq müharibə" olmalıdır...

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# “Bu, ABŞ-ın enerji layihələrinə dəstəyidir...”

**“ABŞ-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyub”.**

Bunu prezident İlham Əliyev iyulun 12-də Nazirlər Kabinetinin iclasında çıxışı zamanı deyib.

Bakıda keçirilmiş 24-cü Beynəlxalq Neft və Qaz Sərgisinə ABŞ prezidenti Donald Trampın ünvanlandığı məktubun əhəmiyyətindən danışan dövlət başçısı ABŞ dövlət katibi ilə bir neçə gün öncə İstanbulda keçirdiyi görüşü də yüksək qiymətləndirib: “Bu il 24-cü Xəzər neft-qaz sərgi və konfransı keçirilib. Bu sərgi və konfrans dünya miqyasında enerji sektorunda seçilmiş tədbirlərdən biridir. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, bu tədbirə Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Tramp məktub göndərib. Mənə ünvanlanan məktub əlbəttə ki, Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətini artırır, eyni zamanda Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycanın icra etdiyi uğurlu enerji layihələrinə göstərilən növbəti dəstəkdir. Əlbəttə ki, belə xoş münasibət Amerika-Azərbaycan əlaqələrinin uğurlu inkişafı üçün yeni zəmin yaradır.

Bir neçə gün bundan əvvəl Amerikanın dövlət katibi ilə İstanbulda görüşüm bir daha bizim strateji əlaqələrimizi təsdiqlədi və bu gün Amerika-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyur".




# DSX sədri məktub göndərdi, Rusiyadan təkzib gəldi

**Rusiya Federal Təhlükəsizlik Xidmətinin Ermənistandakı Sərhəd Qoşunları İdarəsi İran İslam Respublikası ərazisindən Azərbaycan Respublikası dövlət sərhədinin yarılması və şərti qaçaqmalçıların Dağlıq Qarabağ ərazisinə keçmək cəhdinin qarşısının alınması ssenarisi üzrə birgə təlimlərin keçirilməsi ilə bağlı iki gün əvvəl yaydığı xəbərə təkzib verib və onun mətnini dəyişib.**

Virtualaz.org bildirir ki, bu barədə erməni KİV-i məlumat yayıb.

Xatırladaq ki, əvvəlki məlumatda Rusiya Sərhəd Xidməti ilə Ermənistan sərhədçilərinin birgə hərbi təlimlərə başladıqları bildirilirdi. Vurğulanırdı ki, hərbi təlimdə Ermənistan-İran sərhədinin qorunması, həmçinin şərti qaçaqmalçıların “Dağlıq Qarabağ Respublikası”na keçməsinin qarşısının alınması ssenarisi sınaqdan keçirilib.

“İki şərti sərhəd pozucusu İrandan Ermənistana keçərək, Dağlıq Qarabağda gizləniblər. Döyüş tapşırığına uyğun olaraq, sərhədpozucularının axtarışı aparılıb və təlim uğurla başa çatdırılıb”, - deyə Rusiyanın Ermənistandakı sərhəd qoşunlarının mətbuat xidmətinin məlumatında deyilirdi.

Azərbaycan Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev tərəfindən bu məsələyə aydınlıq gətirilməsi məqsədilə iyulun 11-də Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin direktoru ordu generalı Vladimir Kulişova rəsmi məktub göndərilmişdi.

Yuxarıda haqqında bəhs etdiyimiz dəqiqləşdirmədə Rusiya Sərhəd Qoşunları Ermənistan sərhədçiləri ilə birlikdə İrandan Qarabağa keçmək istəyən sərhəd pozucularına qarşı təlimin keçirilməsi ilə bağlı məlumatı təkzib edib.

Məlumatda göstərilib ki, Rusiya və Ermənistan İranla sərhəddə təlimlər keçirib.

Təlimlərdə İran-Ermənistan sərhədini keçən şərti sərhəd pozucusunun Rusiyanın Mehridəki sərhəd dəstəsinin *(Ermənistan-İran sərhəd hissəsi-red.)* köməyi ilə ələ keçirilmə ssenariləri işlənib.

# YAP funksioneri Rusiyanın “seçki planlarını” alt-üst etdi

**Siyavuş Novruzov:** “Bu cür “proqnozları" rusiyapərəstlər, bu ölkənin kəşfiyyatına xidmət edənlər, Rusiyada biznesi olanlar dövriyyəyə buraxır"



**YAP icra katibinin müavini Siyavuş Novruzov APA-ya geniş müsahibəsində növbəti prezident seçkiləri, hakim partiyanın seçki hazırlıqları barədə də danışıb.**

**S.Novruzov** bildirib ki, növbəti prezident seçkiləri ərəfəsində xarici dövlətlərdən təzyiqlərin olacağı ilə bağlı proqnozları Azərbaycandakı bəzi rusiyapərəst şəxslər yayır. Onlar bununla Rusiyanın bu məsələdə mövqeyini şişirtmək istəyirlər: “Azərbaycan xalqı prezidentini özü seçir. Kənardan müdaxilələr qaldı 90-cı illərin əvvəlində. Azərbaycan xalqı öz rəhbərini seçəndə heç kimlə razılaşdırmır, bu faktdır. Bu cür ”proqnozları" isə Azərbaycanda olan, keçmişdən qalan rusiyapərəstlər, bu ölkənin kəşfiyyatına xidmət edən insanlar, eyni zamanda bu gün Rusiyada biznesi olan bəziləri dövriyyəyə buraxır. Vaxtilə Azərbaycanda vəzifədə olub indi gedib Rusiyaya sığınan bəziləri belə şeyi yazdırıb özlərini şişirtmək istəyir, ürək bulandırırlar. Ola bilsin ki, onun Moskvada-Kremldə kiminləsə “salam-əleykümü” var. Amma Rusiyanın mövqeyi Kreml rəhbərinin mövqeyidir, onun da Azərbaycanla bağlı mövqeyi yüksək münasibətlərə əsaslanır".

Deputat bununla belə deyib ki, seçki ilində ənənəvi olaraq, Azərbaycanın təbii sərvətlərindən maksimum güzəştlə yararlanmaq istəyən dövlətlər, güzəştli şəkildə öz işlərini görmək istəyən qlobal şirkətlər, Azərbaycanın güclənməsini istəməyənlər bəzi cəhdlər edəcəklər. “Bunlardan bəziləri Avropa Parlamentinin, Avropa Şurası Parlament Assamnleyasının, ATƏT-in ələ aldıqları üzvləri vasitəsilə, başqa bəzi yollarla təzyiq göstərməyə cəhd edəcəklər. Lakin Azərbaycanda güclü dövlət, güclü lider, xalqla iqtidar arasında güclü birlik var. Ona görə də bunlar cəhd olaraq qalacaq” deyə, o bildirib.

**S.Novruzov prezident seçkilərinə YAP-da artıq müəyyən hazırlıq işləri getdiyini də açıqlayıb:** “İlk növbədə partiyadaxili strukturların hazırlıq məsələsinə baxırıq. Rayon-şəhər təşkilatlarında hesabat-seçki yığıncaqları keçirilir. Partiyanın son keçirilən İdarə Heyəti iclasında da bu barədə hesabat verildi və qərar qəbul edildi. Yəni bizdə hər şey qərarladır. Rəhbər strukturun qərarı ilədir. 61 rayonda artıq konfranslar yekunlaşıb, 23 rayonda da keçirəcəyik. 11 rayonda təşkilat sədrləri dəyişib. Tərkibdə dəyişikliklər gedir. Çünki say artdıqca bu labüddür. Bununla biz bütün bu strukturu ilin sonuna qədər gələnilki seçkiyə hazırlayırıq. Tam hazır olduqdan sonra partiyanın rəhbər orqanı prezidentliyə namizədliyin irəli sürülməsi barədə qərar qəbul edəcək. Seçkinin gələn ilin payızında keçiriləcəyini nəzərə alsaq, yəqin ki, gələn ilin bu vaxtına qədər qurultay barədə qərar veriləcək”.

**S.Novruzov prezident seçkilərində YAP-ın öz namizədinə rəqib görüb-görmədiyi barədə suala belə cavab verib:** “Elə bir rəqib yoxdur, görmürük. Bizim partiyamızın sədri cənab prezidentin apardığı siyasət, gördüyü işlər reytinqini ildən-ilə artırır. Cənab prezident seçki ərəfəsində verdiyi sözdən dəfələrlə artıq işlər görür, xalq da bunu qiymətləndirir. Artıq Azərbaycan miqyasında yox, dünya miqyasında sorğu keçirsək, görərik ki, bizim sədrimizin-cənab prezidentin alternativi yoxdur. Bu həqiqətdir. Cənab prezident İlham Əliyev həm xalqın maraqlarının dəstəklənməsi, həm sabitliyin qorunması, iqtisadiyyatın inkişafı, quruculuq işləri - hansı ki, bunun sayəsində ölkədə artıq rayon-şəhər fərqi aradan qalxıb - və s. bu kimi işləri çox uğurla və sürətlə həyata keçirib. İslahatlar dayanmadan davam edir, məmurların daim xalqın qulluğunda olmasına nəzarət edir. Hər bir rayona səfər edir, insanlarla daim ünsiyyətdədir. Bu səbəbdən biz namizədimizə heç bir rəqib görmürük”.

Siyavuş Novruzovun müsahibəsində bir çox maraqlı məqamlar diqqəti cəlb edir. Birinci məqam ondan ibarətdir ki, S.Novruzov 2018-ci ildə keçirilməsi gözlənilən prezident seçkiləri ilə bağlı son günlər hakimiyyət düşərgəsindən narahatlığı bölüşmür. **Yada salaq ki, neçə gün öncə Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, YAP-çı deputat Yevda Abramov müsahibəsində demişdi ki, gələn il Azərbaycanda keçiriləcək prezident seçkiləri ərəfəsində ehtiyatlı olmaq lazımdır:** “Seçki elə kampaniyadır ki, nəticəsi bütün zümrələri, insanları qane etmir. Ona görə də seçkinin nəticələrindən qalib tərəf razı, məğlub tərəf isə narazı qalır. Bu, bütün dünyada belədir. Azərbaycanda da seçkinin nəticələrindən narazı qalanlar olacaq. Biz Azərbaycan müstəqillik qazandıqdan sonra müəyyən ajiotajlara rast gəlmişik. Ona görə də seçki ərəfəsində də, seçkidən sonra da müəyyən qüvvələr aranı qatmaq istəyəcək”.

**Onun ardınca YAP-çı deputat, hakim partiyanın Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə həmkarının fikri ilə razı olduğunu deyib. A.Mirzəzadə bildirib ki, seçki ərəfəsində Azərbaycanda bəzi qüvvələr var ki, aranı qatmaq istəyəcəklər:** “Azərbaycanda hər seçki ərəfəsində xaricdəki anti-Azərbaycan mərkəzləri ölkəmizdə provokasiya törətməyə və gərginlik yaratmağa çalışırlar. Düzdür, bunun üçün Azərbaycanda sosial baza yoxdur. Ancaq pulla ələ alınan, özünü müxalifət adlandıran müəyyən qüvvələr böyük həvəslə buna gedirlər. Eyni zamanda sosial şəbəkələr vasitəsilə səbədsiz adamları yoldan çıxartmağa, seçki prosesini idarəolunmaz bir istiqamətə yönəltməyə çalışırlar. Ancaq hər seçkidən-seçkiyə onların cəhdlərinin əbəs yerə olduğu, cəmiyyətin onları dəstəkləmədiyi qənaətinə gəlirlər. Bu seçki ərəfəsində də aranı qatmaq istəyənlər olacaq. Amma yenə də Azərbaycan cəmiyyəti buna layiqincə cavab verə biləcək”.

**İkinci maraqlı məqam isə S.Novruzovun hakim partiyanın seçki hazırlıqlarına başladığı və YAP-ın namizədinin hazırkı prezident olacağı ilə bağlı dedikləri hesab olunur. ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, hakim partiyanın rəhbərliyinə daxil olan S.Novruzov bu açıqlaması ilə müəyyən dairələrə mesaj göndərir ki, YAP İlham Əliyevə alternativ görmür və ondan başqa kimsənin namizədliyini irəli sürmək istəmir:** “Bu mesaj təsiri bağışlayan açıqlama hakimiyyətə rəqib olan müxalifət düşərgəsindən çox hakimiyyətin özünün daxilindəki qüvvələridir".

**❑ Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Türkiyə səfirliyində 15 iyul hadisələrinin ildönümü anıldı

**Səfir Erkan Özoral:** “Bu, Türkiyə demokratiyası üçün sınaq idi və ölkə ondan uğurla çıxdı, Azərbaycan bizə ilk dəstək verən ölkələrdən oldu...”

**Türkiyənin Bakıdakı səfirliyində ötən il qardaş ölkədə baş verən 15 iyul dövlət çevrilişi cəhdinin ildönümü ilə bağlı mətbuat konfransı keçirilib. Tədbirdə çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral ilk növbədə Ermənistan ordusunun hücumu nəticəsində Füzuli rayonunda dünyasını dəyişənlərin ailələrinə başsağlığı verib, ermənilərin xain hücumunu lənətləyib.**



**Daha sonra səfir 15 iyulda Türkiyədə baş verən hərbi çevrilişdən bəhs edərək, bildirdi ki, ötən il gerçəkləşən xain çevriliş bu günə qədər Türkiyəyə qarşı baş verən ən böyük hadisələrdən, ən böyük xəyanətlərdən biridir:** “Həmin gecə 240 vətəndaşımız şəhid oldu. 2000-ni yaralandı. O gecə darbeçilərin göstərdiyi vəhşiliyin dünyada tayı-bənzəri yox idi. Onların etdiyi xəyanətin də dünyada bənzəri olmayıb. Türkiyə bu xain dəstə ilə uzun müddəti idi ki, mübarizədə idi. Darbeçilər özlərinə qarşı olan mübarizəni önləmək üçün Türkiyənin bir çox dövlət qurumlarının binalarını həmin gecə bombalamaqdan çəkinmədilər”.

**Diplomat həmin xainlərin insanlıqdan və vicdandan kənar davranışlarından danışaraq, onları Fətullah Gülənin əmrlərini düşüncəsizcəsinə icra edən robot adlandırdı:** “Videogörüntülərdən də görünür ki, onlar heç bir şəkildə insanlıq və vicdan barədə düşnməyiblər, sadəcə, Pensilvaniyadakı rəhbərlərindən aldıqları əmrləri yerinə yetirən bir robot olublar”.

**Səfirin sözlərinə görə, 15 iyul Türkiyə demokratiyası üçün bir sınaq oldu və ölkəsi bu sınaqdan uğurla çıxdı:** “Türk xalqı dövlət başçısının arxasında tək ürək, tək bədən oldu. Həyatları bahasına demokratiyanı qorudular, müdafiə etdilər. Bundan sonra da həmin müdafiə davam etdi, çox fərqli siyasi görüşdən olan vətəndaşlar bir araya gəldilər və dövlətlərini qorumaq üçün əllərindən gələn fədakarlığı etdilər, tankların qarşısına yataraq dövlətlərini qorumağa çalışdılar. Türk milləti bu sınağı uğurla keçdi. Darbe çevrilişində günahkar bilinən 130 min nəfər göz altına alındı, 45 min nəfər həbs olundu. 15 iyuldan sonra Türkiyədə xain "FETÖ"çuları təmizləmə işi davam etdirildi. Türk milləti də bu məsələdə dövlətinə dəstək oldu. Təkrar vurğulayıram ki,15 iyul Türkiyə cümhuriyyəti üçün də önəmli dönüş nöqtəsi oldu. Bu hadisəni həyata keçirən xainlər özünü Məsih elan edən bir xainin arxasından getməkdədirlər. Özünü peyğəmbər hesab edən, Quranı-Kərimi yarımçıq sayan və onu tamamlayacağını iddia edən bir dindən dönmüşün arxasında gedənlərin təmizlənməsi bizim üçün ən başlıca vəzifədir. Onu da vurğulayım ki, çevrilişdən sonra ötən dövr Türkiyəni zəifltəmədi, dövlətimiz əvvəlkindən də güclü hala gəldi. Bu bir ildə Türkiyə iqtisadiyyatı daha da böyüdü. Bütün sahələrdə xalqa güvən verəcək bir inkişaf müşahidə olundu".





**Səfir daha sonra vurğuladı ki, son 1 ildə Türkiyənin terrorla mücadiləsi daha böyük həcmdə davam etdirilib:** “Dövlət çevrilişdən 45 gün sonra Türkiyə ordusu azad Suriya ordusu ilə birlikdə sərhədimizin o tayında Suriyada üçün təhlükə yaradan qüvvələrə qarşı hərəkat başlatdı, bu hərəkat nəticəsində sərhədlərimizin təhlükəsizliyi təmin olundu. Bu günə Türkiyədə meydana gələn terror hadisələrinin sayında çox ciddi azalma var. Artıq Türkiyə Suriyanın və özünün təhlükəsizliyi üçün çox ciddi tədbirlər görüb. İndiyə qədər terrorçuların məhv edilməsində də çox böyük uğurlar əldə edilib. Ələ keçirilən terroristlərin sayı artıb. Dövlətin içinə yerləşmiş örgüt nümayəndələrinin təmizlənməsi də çox böyük uğurdur”.

**Erkan Özoral FETÖ ilə mübarizənin təkcə Türkiyədə deyil, ölkə xaricində də aparıldığını qeyd etdi və Azərbaycanın Türkiyəyə ən böyük dəstək verən ölkələrdən biri olduğunu vurğuladı:** “Azərbaycan bizə ilk dəstək verən ölkə oldu. Bu bir ildə də hər zaman dəstəyini artırdı. Azərbaycan xalqı da Türkiyəyə hər zaman dəstək olub, bundan sonra da olacağına şübhəmiz yoxdur. Ona görə də Azərbaycan prezidenti İlham Əliyevə və Azərbaycan xalqına təşəkkürlərimizi bildiririk. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür. Biz terrorla mübarizədə Azərbaycanı hər zaman yanımızda görməkdən böyük bir güc alırıq. Təəssüf ki, heç də bütün ölkələr bizə Azərbaycan qədər dəstək göstərmədilər. Bəzi ölkələr FETÖ mənsublarına qucaq açdılar. Ancaq bütün dünya bilməlidir ki, terror bir ilandır və bir gün onları da çalacaq. Türkiyə bir neçə terror təşkilatı ilə eyni vaxtda mübarizə aparır. Biz terrordan ən çox əziyyət çəkən ölkəyik. Bizim yaşadıqlarımızı heç bir dövlətin yaşamasını istəmirik. Ona görə də bütün dövlətlərdən bizə terrorla mücadilədə dəstək olmalarını gözləyirik. FETÖ-nün, bu terror təşkilatının başındakı cinayətkar şəxsin hədəfi, sadəcə, Türkiyə deyil, bütün dünyada idarəetməni ələ keçirməkdir. Odur ki, terrorçularla mübarizədə hər kəs bizə dəstəyini göstərməlidir”.

**Səfir çıxışının ardından media mənsublarının suallarını cavablandırdı. O, jurnalistlərin sualına cavab olaraq bildirdi ki, FETÖ təhlükəsinin bitdiyini söyləmək mümkün deyil:** “Bu elə bir qurumdur ki, tamamilə ortaya çıxarılıb kökü kəsilənə qədər bu təhlükə və təhdid ortadan qalxmayacaq. FETÖ təhlükəsi ilə sona qədər mücadilə etmək lazımdır. FETÖ təhdidi təbii ki, 15 iyuldan önceki gücündə deyil. Bu terrorçu təşkilatla mübarizədə çox böyük bir yol qət edildi, böyük uğurlar əldə edildi. Fəqət bu təşkilatla sonuna qədər mübarizə aparılmasına ehtiyac var. Fətullah Gülənin Türkiyəyə ekstradisiyası ilə bağlı Amerika ilə danışıqlar davam edir. Həm siyasi səviyyədə, həm də ədliyyə qurumları səviyyəsində məsələ ilə bağlı danışıqlar aparılır. Ancaq biz bu mövzuda dostlarımızdan və müttəfiqlərimizdən yetərincə dəstək görmürük. Müttəfiqlərimizin lazımi dəstəyi göstərməsini gözləyirik”.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar Məğrur MƏRDINDIR**

# İkinci Novruzəli vaqiəsi



**Samir SARI**

**Xəbərin ilk cümləsi adama heç nə demir. Hə, nə olsun, “Bakıda xuliqanlıq edən sürücü saxlanılıb”. Bakıda o qədər avtoxuliqan var ki... Hər gün də 3-4-ünü saxlayırlar. Sonra da ya cərimələyib buraxırlar, ya elə-belə buraxırlar, ya da üzr istəyib buraxırlar.**

Yəni Bakıda avtoxuliqanların olması, hər gün xuliqanlıq etmələri, saxlanılmaları sıradan hadisədir.

Ancaq məlum olur ki, bu dəfə xuliqanlıq edən sürücü general oğludur. Onda vəziyyət dəyişir. Ona görə yox ki, general oğlu xuliqanlıq etməz, edə bilməz, əsasən ona görə ki, general oğlu belə şey eləsə, saxlanılmaz, saxlanılsa da, tez buraxılar.

Sözügedən general oğlu isə saxlanılıb və buraxılmayıb. Həm də ona görə ki, Rüstəm adlı bu gənc təkcə avtoxuliqanlıq etməyib, həm də avtosuz xuliqanlıq edib, qəza şəraiti yaratdığına görə ona irad bildirən sürücünü basıb döyüb.

Sonradan məlum olub ki, Rüstəm avtomobillə adam da öldürüb, məhkum da olunub, üstəlik, sürücülük vəsiqəsi də olmayıb.

Sürücülük vəsiqəsi olmadan avtomobil sürmək, həm də avtoxuliqanlıq etmək üçün, əlbəttə, ən azı general oğlu olmaq lazımdır. Prinsipcə, polkovnik oğlu da bu qələti edə bilər, amma üstü açılsa, atası general olmaz.

Budur, Rüstəm o hərəkəti ilə, türkün sözü, atasının karyerasını da becərdi. O boyda generalı işindən-gücündən aldılar.

İndi tanıyanlar, bilənlər orda-burda deyəcəklər, yox, Novruzəli Orucov yaxşı kişiydi, neyləsin, oğlu onu güdaza verdi.

Amma yox, elə deyil, qardaşlar və bacılar, Novruzəli Orucov yaxşı ata olsaydı, oğlunu elə harın böyütməzdi. Budur, özü də deyir ki, uşağı başlı-başına buraxmışam.

N.Orucov yaxşı, prinsipial, gözü-könlü tox məmur olsaydı, oğluna bahalı maşınlar alıb verə bilməzdi.

Bunun əvəzində o oğlunu elə böyüdüb ki, Rüstəm dünənə qədər elə bilirdi ki, Ucardakı Şilyan təpələrini bunun atası yaradıb.

Əmin olun ki, onun o, maşınla adam öldürən, maşında adamdöyən oğlu gündə yeddi dəfə ona-buna “heç bilirsiz, mən kiməm”, “bilirsən, sənə neyniyərəm” deyənlərdən olub.

Hiss olunur ki, gənc adam çox hirsli-hikkəliymiş. Bir şey ki, ona irad bildirən avtobus sürücüsünü düz 8 dayanacaq təqib edib. Əslində artıq 3-cü dayanacaqdan sonra onun hirsi soyumalıydı və dönüb getməliydi işinin dalıncaq. Amma o deyib, yox e, avtobus sürücüsü kimdir ki, mənə, general oğluna “asta sür” deyir.

Bəli, general oğluna “asta sür” demək ağır təhqirdir, bu təhqirin qisası ancaq qanla, duellə alına bilər. İndinin dueli də belədir: təkbətək çıxmırlar, 5-6 adam tökülüşüb birini çırpır, sonra qaçıb gedirlər.

10 il əvvəl bir təvazökar nazir oğlu bir hikkəli deputat oğluna “Nərimanov” metro stansiyanın həndəvərində “asta sür” demişdi, deputat oğlu hiddətlənərək, maşınından düşüb nazir oğlunun çənəsini sındırmış, bir-iki saatdan sonra nə qələt elədiyini anlamışdı, amma gec olmuşdu. Onun özünü də aparıb təcridxanada atası sudan gəlincəyə qədər döymüşdülər.

Yəni bir sürücünün maşını yekədirsə, atası vəzifəlidirsə, özünün cibində pul çoxdursa, gərək ona “asta sür”, “ehtiyatlı ol”, “bu necə maşın sürməkdir” kimi təhqiramiz sözlər deməyəsən, deyəndə də sözün əvvəlində “qurban olum”, axırında “qadan alım”, “başına dönüm” kimi sözlər olmalıdır ki, növcavan hirslənməsin. Yoxsa maşını döndərib adamın dalınca düşər, çatıb küçənin ortasında biabır edər.

Bu işlər belədir.

İntəhası, bəzən elə olur ki, belə işləri yat-yut eləmək olmur və haqq-hesab ictimailəşir, səs-küyü çıxır, yuxarılarda əks-səda verir və hirsli oğulun sakit papasını çəkirlər ortalığa. O da məcbur olur, deyir ki, özüm də, balalarım da rəhbərə qurban olsun.

Əslində belə bir adamın ən yüksək rütbəsi gizir ola bilərdi, amma işə bax ki, gəlib general olub.

Bir tərəfə baxanda harın oğulların öz hərəkətləri ilə vaxtaşırı öz atalarını ifşa eləməsi yaxşıdır. Camaat kimin qabında nə olduğunu bilir. Yoxsa kim bilərdi ki, general rütbəsi daşıyan Novruzəli poçt qutusunun önündə oturub ağasının məktubuna qarovul çəkəsi adamdır.



# Generallar və xalq artistləri

Zamin HACI
zaminhaci@gmail.com

**Son çağlar regionun liderinə çevrilməkdə olan mediamızda belə başlıqlara tez-tez rast gəlmək mümkündür: "Generalın oğlu adam döydü" (vəziyyətdən asılı olaraq feil dəyişilə, "öldürdü", "maşınla vurdu", "bıçaqladı", "qucaqladı", "basmarladı" və sairə şəklində ola bilər) və "Xalq artistinin oğlunu döydülər" (burada da sonluq eynilə "öldürdülər", "ayaqladılar", "gözünü çıxartdılar", "maşınla vurdular" formasında dəyişilə bilir). Təbii ki, diqqətli media ekspertlərindən biri kimi bu hala biz laqeyd qala bilmərik, mütləq analiz etməliyik.**

Məncə, bunun əsas səbəblərindən biri, bəlkə də birincisi onunla bağlıdır ki, hazırda Azərbaycan cəmiyyəti tam ortadan, diametral şəkildə (qoy desinlər nə savadlı oğlandır) iki yerə bölünmüşdür. Yarısı generallar və onların uşaqlarıdırsa, yarısı da xalq artistləri və onların uşaqlarıdır. Örnək üçün, indi bu yazını oxuyan hörmətli oxucu əgər özünü generallara aid bilmirsə, deməli, o, mütləq xalq artistləri sinfinə aiddir. Yox, özünü artist saymırsa, demək, generaldır. Başqa yolu yox artıq - o mahnıda deyilən kimi. Ya generalsan, ya da artist. Mən özüm hələlik artistlər kateqoriyasına aidəm, inşallah, rəhbərlik söz verib, tezliklə generallar sinfinə keçməliyəm. Özümü lap yaxşı aparsam hovuza su və tok da verəcəklər.

Bax, bu səbəbdən kimsə maşına qaz verib adam vurursa vurulanın xalq artisti, ya da onun uşağı çıxması ehtimalı yüz faizə bərabərdir. Və qaz verən də general, ya da general oğlu olmalıdır. Doğrudur, ehtimal nəzəriyyəsinə görə, general oğlu xalq artistinin oğlunu yox, general oğlunu da maşınla vura bilər. O cümlədən xalq artistinin oğlunu xalq artistinin oğlu döyər. Ancaq adından göründüyü kimi, bu, ehtimal nəzəriyyəsidir. Bizim ölkədə isə hər şey dəqiq yazılıb, ölçülüb-biçilib, dövlət proqramına salınıb. Hətta bu dəqiqə biz 3549-cu ildə Soğanverdilər-Dəliməmmədli-Beyləqan-Ağcabədi avtomobil yolunun 14 kilometrlik hissəsinə neçə dənə müasir işıq dirəyi basdırılacaq, Ağsunun mərkəzi parkına neçə metr yaşıl örtük salınacaq, feysbukda nə qədər trol işə götürüləcək, neçə kilo yaltaq istehsal olunacaq və sairə - bunların hamısını dəqiq bilirik, Nazirlər Kabinetində dövlət planlaması şəklində müvafiq sənədlərdə yazılıbdır. O Amerikada, Fransada, Britaniya-zad kimi geridə qalmış ölkələrdə olur, heç 5 il sonra prezidentləri kim olacaq, onu da bilmirlər! Britaniyanın hətta prezidenti belə yoxdur! Nahaq yerə "dumanlı" demirlər ki...

Bəzən generalın oğlunun hərəkətinə görə generalı işdən çıxarırlar, məncə, bu, kadr islahatlarımıza uyğun deyil. Hələ el atası Stalinin vaxtından belə söz qalıbdır ki, oğul ataya, ata oğula cavabdeh olmamalıdır. Hərçənd, qoca qurd başqa bir yerdə "Xalq düşmənlərinin nəslini kəsməliyik" deyibmiş. Elə dövlət siyasəti də bu ikinci göstərişə daha çox uyğun gəlirdi, çünki 1930-1950-ci illərdə SSRİ-də xalq düşmənlərinin ailə üzvlərini saxlamaq üçün xüsusi türmə olubdur. Qazaxıstanın dəhşətli çöllərində yerləşən bu türməyə ALJİR adı qoyulmuşdu, Əlcəzairə qətiyyən dəxli yox idi, "Akmolinskiy Laqer Jen İzmennikov Rodini" (Vətən xainlərinin arvadları üçün Akmolinsk düşərgəsi) sözlərindən düzəldilmişdi. 30 min nəfərə yaxın "xalq düşməninin" ailə üzvləri o lagerdə əzab çəkmiş, çoxları işgəncələrdən ölmüşdü.

İndi biz bəlkə sistemli yanaşaq, generallar və xalq artistləri üçün ayrı-ayrı cəza düşərgələri quraq? *(Deyəsən, generallar üçün beləsi artıq var)*. O cümlədən, bəzən görürsən oğula görə general işdən qovulur, sonra deyir üzr istəyirəm, qələt eləmişəm, bağışlayın və sairə. Ancaq demir ki, bahalı maşınları, dəbdəbəli həyatı oğlu üçün hansı pullarla təmin edirmiş. Görürsən, oğlunun bir maşınla şəkli çıxdı, həmin maşının puluna yalan olmasın, Qarabağın 20 faizini geri almaq mümkündür.

İndi söz əlaqədar generallar və uşaqlarınındır - müəllifi döyün. "Xalq artisti yazı yazarkən döyüldü" başlığına ethiyac var.



# Vaşinqtondan Kremlə Bakı üzərindən mesaj - ABŞ Rusiyanın yolunu "kəsir"

## Ağ Evin Rusiyaya qarşı ağırlaşan sanksiyaları "Türk axını"nı tormozlaya bilər - ilginc gözlənti; Vaşinqton Moskvanı ən zəif olduğu mübarizə müstəvisinə çəkir; Bakı da gözdə-qulaqda olmalıdır...

**Rusiya və ABŞ arasında geosiyasi rəqabət özünü təkcə Yaxın Şərq proseslərində büruzə vermir. Son vaxtlar iki fövqəldövlət arasında gərginlik digər bölgələrdə və sferalarda, o cümlədən energetika sahəsində özünü getdikcə daha qabarıq göstərməkdədir. Dərinləşən rəqabət isə böyük mineral ehtiyatlara və əlverişli coğrafi mövqeyə malik Azərbaycana da yansımaqdadır.**

Sirr deyil ki, Vaşinqtonun strateji hədəflərindən biri Avropa qaz bazarında Rusiyanın qaz inhisarına son qoymaq və ya bu inhisarçılığı minimuma endirməkdir. Çünki Kreml qaz monopoliyasından illərdir Avropaya, Qərbə qarşı siyasi şantaj aləti kimi istifadə edir. Hətta Krımın Rusiya tərəfindən işğalında da bu amil dolayısıyla rol oynamış, bəzi Avropa Birliyi ölkələrinin yumşaq mövqeyinə səbəb olmuşdu. İndi də bu təsir özünü müəyyən mənada saxlayır.

Bu üzdən ABŞ özünün Rusiya təbii qazına ehtiyacı olmasa belə, həmin qaza alternativ mənbələrin işə düşməsi və Avropaya nəqlinə böyük önəm verməkdədir. Onlardan biri də "Şahdəniz 2" Azərbaycan qazını Avropa bazarına çatdıracaq Cənub Qaz Dəhlizinin inşasıdır - hansı meqa-layihə ki, Birləşmiş Ştatlar ona həm siyasi, həm maliyyə, həm də mənəvi sponsorluq edir və böyük diqqət göstərir.

***

Təzəcə başa çatan 22-ci İstanbul Dünya Neft Sərgisində ABŞ-ın dövlət katibi Reks Tillerson səviyyəsində iştirakı bunu bir daha təsdiqlədi. Cənab Tillersonun Azərbaycan prezidenti İlham Əliyevlə görüşündə toxunulan həssas mövzulardan aydın oldu ki, Ağ Ev Bakıya Kremlin qaz savaşında sonadək dəstək verməkdə israrlıdır və onu Rusiya təzyiqləri qarşısında tək buraxmayacaq.

Bunu Vaşinqtonun Bakı üzərindən Kremlə ismarışı da saymaq olar. Özü də söhbət təkcə neft-qaz məsələsində dəstəkdən getmir. Yeri gəlmişkən, toplantıdakı çıxışı zamanı Azərbaycan prezidenti İlham Əliyev SDQ ilə bağlı tikinti işlərinin maneələrə rəğmən, uğurla davam etdiyini, inşa işlərinin sona çatmaq üzrə olduğunu qeyd elədi. Bu kəmər üzrə artıq gələn il qardaş Türkiyəyə 6 milyard, o biri ildən etibarən Avropaya isə 10 milyard kub metr Azərbaycan qazının nəqli nəzərdə tutulur.

Qeyd edilən bu kimi bütün məqamlar, həmçinin Tillerson-Əliyev təması Rusiyadan yan keçən neft-qaz kəmərlərinə əngəllər yaratmağa çalışan Kremlə əslində növbəti bir çatdırış idi. Siyasi təhlilçilərin bu yöndə şərh və təhlilləri davam edir.

**"Azərbaycan prezidenti İlham Əliyevin ABŞ dövlət katibi Reks Tillerson ilə görüşü Rusiyaya mesajdır". Bu sözləri axar.az-a görüşün yekunlarını şərh edən politoloq Fərhad Mehdiyev deyib. Onun sözlərinə görə, son diplomatik bəyanatlardan sonra Azərbaycanın ABŞ ilə əlaqələrinin gücləndirilməsi böyük məna kəsb edir.**

"Bununla Rusiyaya mesaj göndərilir ki, Azərbaycan xarici siyasətində təklənməyəcək. Düşünürəm ki, Azərbaycan yenə balanslı siyasət yeridəcək. 7 iyul 2017-ci ildə ABŞ səfirliyində ənənəvi olaraq qəbul günü keçirilib. Bu tədbirdə prezidentin köməkçisi Əli Həsənov iştirak edib. Bu, Azərbaycan tərəfinin ABŞ-la münasibətlərini inkişaf etdirdiyinin göstəricisidir. Hazırda Rusiya tərəfindən Bakıya qarşı müəyyən mənada təzyiq var, çünki Kreml Azərbaycanın Rusiya ilə daha çox yaxınlaşmasını, Avrasiya İttifaqına üzvlüyünü istəyir. Azərbaycan tərəfi isə ABŞ-la münasibətləri inkişaf etdirməklə göstərir ki, Bakı balanslı siyasətini davam etdirməkdə qərarlıdır", - deyə o bildirib.

***

Bakı balanslı siyasəti davam etdirir, ancaq o da faktdır ki, bu siyasət ən çox Moskvanın ürəyincə deyil. Az öncə Rusiyanın "Qazprom" şirkəti rəsmisi Medvedyevin Cənub Qaz Dəhlizi ilə bağlı söylədiyi pessimist fikirlər, faktiki, Bakıya ünvanlı şantaj xarakterli açıqlama da Rusiyanın Azərbaycana münasibətdə gerçək münasibətinə işarə idi.

Hər necə olmasa, Moskva Cənub Qaz Dəhlizinin Rusiyanın tezliklə reallaşdırmağa çalışdığı "Türk axını"na rəqib hesab edir. CQD-nin axırıncı seqmenti kimi TAP-ın İtaliya ərazisindən keçən hissəsinin tikintisinə Rusiyaya bağlı siyasi qüvvələrin neçə vaxtdır əngəl yaratmağa çalışması da təsadüfi deyil. Bunu da Vaşinqtonda bilir və izləyirlər. Təkcə izləmirlər, eyni zamanda kontur-tədbirlər hazırlayırlar. Bu da növbəti fakt.

Bəllidir ki, ötən həftə Rusiyanın "Qazprom" şirkəti "Türk axını" layihəsinin Türkiyədən keçəcək hissəsinin maliyyələşməsi ilə bağlı "Botaş" şirkəti ilə müqavilə imzalayıb. Lakin məlumata görə, "Qazprom" "Türk axını" və "Şimal axını 2" layihələrinin inşasının ABŞ-ın sanksiyaları səbəbindən baş tutmayacağından narahat olmağa başlayıb. Belə ki, ABŞ prezidenti bir müddət əvvəl Rusiya ilə əlaqəli nəhəng layihələrin inşasını həyata keçirən şirkətlərə sanksiya və embarqolar tətbiq edilməsi ilə bağlı sərəncam imzalayıb.

Doğrudur, hələlik bu məsələ ilə bağlı rəsmi açıqlama verilməyib. Ancaq ABŞ-ın Rusiyaya qarşı sanksiyaların çoxşaxəli olduğu da diqqət çəkməyə bilməz. Başqa sözlə, bu sanksiyalar həm də Rusiyanın aparıcı olduğu iri iqtisadi layihələri iflic eləməyə yönəlib. Rusiyanın özünün isə belə layihələri başa çatdırmağa yetərli maliyyəsi yoxdur. Sanksiyaların tətbiqindən sonra heç yoxdur.

Bir ölkənin maliyyə gücü və ya gücsüzlüyü isə elə onun siyasi gücü və ya siyasi gücsüzlüyü anlamına gəlir. Beləcə, Vaşinqton Moskvanı ən zəif olduğu mübarizə müstəvisinə çəkir. Demək, Bakı da gözdə-qulaqda olmalıdır.

❑ **Analitik xidmət**

# Türkiyə prezidenti SOCAR rəhbərliyi ilə görüşəcək

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan 15 iyul hadisələrinin ildönümündə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) rəhbərliyinin də təmsil olunacağı 350 nəhəng şirkətin rəhbəri ilə görüşəcək.**

"R.T.Ərdoğan 15 iyulun ildönümündə dünyanın və Türkiyənin qabaqcıl şirkət rəhbərləri ilə görüşəcək. Türkiyə prezidenti ümumilikdə 4 trln. dolları idarə edən qlobal şirkətlərin rəhbərlərinə 15 iyul dövlət çevrilişinə cəhddən sonra baş verənləri danışaraq "Türkiyə güvənilən ünvandır, gəlin, sərmayələrinizi yatırın" mesajını verəcək", - deyə yerli KİV-də yayılan məlumatda qeyd olunub.

"Beynəlxalq İş dünyası toplantı"sında SOCAR, "Bank of China", "Bauhaus", "Benetton", "Chine Energy", "Coca Cola", "Facebook", "General Electric", "Google", "Hewlett Packard", IBM, "Koç", "Mercedes", "Motorola", "Microsoft", "Nike", "Pepsi", "Cisco", "Siemens", "Toyota", "Vodafone" və digər şirkətlərin rəhbərlərinin yer alacağı gözlənilir (report).

SOCAR

# Ermənistan isterikada: "Nə qələt ediblər ki..."

**İyulun 4-də Ermənistanın işğalçı qüvvələrinin Alxanlı kəndində azyaşlı körpəni qətlə yetirməsi ilə Qarabağda müharibə riski daha da artıb. Ermənistanın işğalçı və vəhşi mahiyyətini bir daha ortaya qoyan bu hadisə rəsmi Bakının diplomatik cəbhədə ermənilərə ağır zərbələr vurması ilə nəticələndi. Dünya ölkələri, əcnəbi diplomatlar rəsmi İrəvanın "çocuq qatili" olmasına bir daha şahidlik etdi. Bu hadisə Azərbaycanın torpaqlarını müharibə yolu ilə azad etmək üçün hər cür əsası olduğunu sübut etdi. ATƏT-in Minsk Qrupu həmsədrlərinin əvvəl verdikləri ənənəvi bəyanatı sonradan dəyişməsi əslində Azərbaycan cəmiyyətində "müharibədən başqa yol yoxdur", çağırışlarını qismən də olsa önləməyə hesablanmışdı. Həmsədr ölkələr Qarabağda məhz Ermənistanın pozucu əməlləri nəticəsində yaranmış gərginliyi azaltmaq üçün demək olar ki, daha gecələr də rahat yatmırlar.**




# II Qarabağ savaşı qapıda-mümkün ssenarilər...

## Ermənistanın ən qorxduğu Rusiyanın onları Qarabağda müharibə ilə cəzalandıra biləcəyidir-bu ssenari olarsa, Azərbaycan cəmi bir həftəyə qoşunlarını Laçın koridoruna çıxara, Ağdam-Xocalını işğaldan azad edərək Xankəndinə yaxınlaşa bilər; **rusiyalı ekspert:** "Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir"

Çünki Ermənistanın başını sığallayan həmsədr ölkələr müharibənin alovlanacağı təqdirdə onların da üzərinə ciddi məsuliyyət düşəcəyinin fərqindədirlər.

Bu səbəbdən də son günlər onların səsləri daha möhkəm çıxmağa başlayıb. Xarici işlər nazirlərini Brüsseldə bir masa arxasında oturtmağa nail olan həmsədrlər Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təklif ediblər. Həmsədrlərin yaydığı bəyanatda bildirilir ki, Məmmədyarov və Nalbəndyan öz prezidentlərinə həmsədrlərin bu ilin sonunadək yüksək səviyyəli görüşün keçirilməsi ilə bağlı təklifini çatdırmağa razılıq verib. "Həmsədrlər prezidentlərin görüşünün təşkilinə köməklərini təklif ediblər" deyə, bəyanatda bildirilir.

**Amma təkcə Azərbaycanda və işğalçı ölkədə deyil, münaqişə ilə yaxından maraqlanan tanınmış ekspertlər də Qarabağda hər gün artan müharibə ehtimalından danışırlar.**

**"Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir. Hazırda hər iki tərəf aktiv şəkildə savaşa hazırlaşır. Əgər hər iki tərəf hazırlaşırsa, o zaman yekunda toqquşma mütləq olacaq". Axar.az xəbər verir ki, bunu "1in.am" saytına açıqlamasında rusiyalı hərbi ekspert Pavel Felgenhauer söyləyib:** "Konfliktə təsir edən daxili və xarici faktorlar var. Hər iki tərəf intensiv şəkildə öz gücünü artırır. Genişmiqyaslı toqquşmaların qarşısını almaqdan ötrü nəsə etmək lazımdır. Genişmiqyaslı müharibəni başlamaq üçün təsadüfi olmayan, məqsədyönlü fəaliyyətlər tələb olunur. Tərəflərdən hansısa biri qərar verməlidir ki, başqa variant yoxdur və uğur qazanılması üçün heç olmasa lokal zərbə endirilməlidir", deyə, Felgenhauer vurğulayıb.

**Ekspertin fikrincə, Qarabağda atəşkəslə bağlı edilən çağırışlar kifayət deyil:** "Biz Qarabağ münaqişəsinin kompromis yolu ilə həllinə müəyyən siyasi səbəblərin izn vermədiyini görürük. Situasiya kompromislər və ciddi de-eskalasiya olmadan dəyişməyəcək. Genişmiqyaslı müharibəyə doğru aparan geridönülməz proses baş verir. Tərəflər hələlik ciddi hərbi fəaliyyətləri başlamağa hazır deyil. Bu, çox yaxşıdır, amma bu, savaşın qarşısını almaq üçün yetərli deyil".

Müharibənin başlayacağı barədə xəbərdarlıqlar Ermənistanın özündə də ciddi narahatlıq doğurmaqdadır. Rəsmi İrəvan Alxanlıdakı qətli də üzərindən təmizləyə bilməyəcəyinin fərqindədir və bu səbəbdən də "tülkü kimi gizlənmək" siyasətinə üstünlük verirlər. Amma erməni ekspertləri artıq mümkün müharibə variantında onları gözləyən təhlükələr barədə açıq danışmaqdan çəkinmirlər.

Bu aqoniya əhval-ruhiyyəsi Rusiyanın Azərbaycana növbəti partiya silah göndərməsi fonunda daha da artıb. İrəvanda bunu hətta "Rusiyanın Azərbaycanı Ermənistana qarşı müharibəyə təşviq eləməsi" kimi izah edirlər. Məsələn, erməni siyasi şərhçisi Sərkis Arsruni Azərbaycanın növbəti dəfə müharibəyə hazırlaşdığı haqda xəbərdarlıq edərək, həmçinin işarə vurur ki, bunu Moskvanın razılığı ilə olmasa da, susqun razılığı əsasında edir. "Cəbhədəki son eskalasiyalar fonunda da növbəti partiya Rusiya silah-sursatı Azərbaycana göndərməsi onu göstərir ki, Moskva yeni müharibədə maraqlıdır - böyük ehtimalla da o ümidlə ki, regionda bu yolla öz təsirini gücləndirəcək", - deyə ekspert bildirib.

Erməni analitik əlavə edib ki, müharibə başlayarsa, Rusiyanın da cavabdehliyi böyük olacaq.

Rusiyanın mümkün müharibə variantında hansı mövqe tutacağı son günlər yenidən ciddi müzakirə mövzusuna çevrilməkdədir. Ötən il Qarabağdakı 5 günlük lokal müharibə zamanı bir daha təsdiqləndi ki, nə Fransa, nə ABŞ-ın müharibəni dayandırmaq imkanı yoxdur, bu, yalnız Moskvanın vasitəçiliyi ilə mümkündür. İndi yeni müharibə riskinin artdığı bir vaxtda da həm Bakıda, həm İrəvanda "Moskva indi hansı mövqe tuta bilər" müzakirələri aktuallaşıb. Azərbaycan ekspertləri bu müzakirələrdə birmənalı rəy bildirmir, çünki Rusiyanın Qafqaz siyasətində dəyişən dəngələri hesablamaq o qədər də asan deyil. Ermənistanda isə açıq şəkildə Rusiyaya təzyiq elementləri hiss olunmaqdadır. Ermənistandan artıq təhdidlər də var ki, Rusiya Azərbaycanın öz torpaqlarını işğaldan azad etməyə imkan verəcəyi təqdirdə İrəvan Avrasiya İqtisadi Birliyi və KTMT-də üzvlüyünü dondurmalıdır. Bu "məni qoru" yalvarışı əvəzinə, Kremlə açıq təhdid, daha dəqiqi, şantaj siyasətidir ki, Ermənistan rəhbərliyi bunun üçün hələ ekspertləri önə verib. Amma aydındır ki, Ermənistanda sağlam düşünən adamlar müharibə başlayacağı və Rusiyanın loyallığını qoruyacağı təqdirdə İrəvanın belə təhlükədə olduğunu anlayırlar. Di gəl ki, "qorxuruq, bizi Azərbaycandan qoruyun", demək əvəzinə, şantaj siyasəti işə salınır ki, bu da ermənilərin xislətindən xəbər verir. İrəvan Rusiyanın bütün göstərişlərinə əməl etmək məcburiyyətindədir, amma Kremlə inanmadıqlarını da məqamı düşən kimi büruzə verirlər.

Son aylar İrəvan rəhbərliyinin Avropa Birliyində, Brüsseldə NATO koridorlarında sülənmələrinin əsas səbəblərindən biri də özlərinə mümkün Qarabağ savaşında yeni "qoruyucu ilahələr" tapmaq niyyətindən xəbər verir. Kreml hələ ki, İrəvanın "yeni dayı" axtarmaq prosesini diqqətli izləyir.

**Bugünlərdə Kremlə yaxın rosbalt. ru saytı Ermənistanı ağıllı olmağa çağırış edərək xəbərdarlıq da etmişdi. Sitat:** "Ərazisini Rusiya hərbi bazası hesabına qarantiya altına alan Ermənistan niyə NATO ilə bu cür oyunlara həvəslənib? Rusiyanın və İranın bu məsələyə mövqeyi necə olacaq? Əlbəttə ki, çox pis. Rusiya Ermənistanın iki stulda oturmasına heç vaxt imkan verməyəcək. İrəvanın "çoxqütblü xarici siyasət" bəhanəsi isə Ermənistanın özü üçün pis qurtaracaq". Burada "ərazisi" sözü ustalıqla "maskirovka" edilsə də, şübhə yoxdur ki, söhbət Qarabağdakı işğal edilmiş ərazilərdən də gedir.

Ermənistanın isə ən qorxduğu ssenari Rusiyanın onları Qarabağda müharibə ilə cəzalandıra biləcəyidir. Bu ssenari olarsa, Azərbaycan cəmi bir həftəyə qoşunlarını Laçın koridoruna çıxara, Ağdam-Xocalını işğaldan azad edərək Xankəndinə yaxınlaşa bilər. "Bir həftəlik canı" olan Ermənistanın müharibədən çox qorxduğu, ən əsası Rusiyanın mövqeyindən narahatlıqları aşkar ortadır.

Rusiyanın Ermənistanı qurban verə biləcəyinə inananlar azdır ki, bu da qeyd edilməlidir. Amma unutmaq olmaz ki, "su boğaza çıxanda meymun da balasını ayağı altına qoyur". Ermənistanın işğalçı siyasəti Rusiya rəhbərliyinə də dünyada xeyli başağrısı gətirir. Kremlin buna rəğmən hələ Ermənistanın arxasını qoruması, ermənilərin isə dara düşən kimi Rusiyaya dil uzatmaları indiki situasiyada Azərbaycanın çox xeyrinədir. Eləcə də Ermənistanın narahatlığı psixoloji baxımdan Azərbaycana xeyli üstünlüklər verir.

Bəlkə Ermənistanın elədiyi böyük bir qələti biz bilmirik ki, İrəvanda bu qədər narahatdırlar?

❑ "YM"



# Prezident: "Balaca Zəhranın və nənəsinin qanı yerdə qalmadı"

## "Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq"

**"Balaca Zəhranın və onun nənəsinin öldürülməsi hərbi cinayətdir və erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi".**

Azərbaycan prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iyulun 12-də keçirilən iclasında belə deyib.

**Dövlət başçısı daha sonra vurğulayıb:** "Bu cinayət cavabsız qalmadı. Azərbaycan ictimaiyyəti də bunu bilir. Baxmayaraq ki, Ermənistan öz itkilərini həmişə gizlətmək istəyir. Amma bütün itkiləri gizlədə bilmir. Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, onun nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq.

Nəyə hesablanmışdır bu cinayət? İlk növbədə, bu, Ermənistan siyasi rəhbərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir. Bu, birincisi.

İkincisi, iyulun 11-də xarici işlər nazirlərinin görüşü nəzərdə tutulmuşdu. Artıq bu tarix bəlli idi, sadəcə olaraq, son günlərdə bu tarix açıqlandı. Bu təxribatı törətməklə onlar hesab edirdilər ki, Azərbaycan danışıqlardan imtina edəcək. Biz imtina edə bilərdik, əgər onlara layiqli cavab verməsəydik. Cavablarını verdik, işğalçıları məhv etdik, onları cəzalandırdıq, sonra da danışıqlara getdik.

Bax, budur Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan əsas məsələlər. Ona görə mən deyirəm ki, bu il Azərbaycanın mövqeləri daha da möhkəmləndi. Alxanlı kəndində törədilmiş hərbi cinayətin dünyada böyük əks-sədası var. Yəni Ermənistan gördü ki, Azərbaycan böyük beynəlxalq dəstəyə malikdir. Bizim bütün qurumlarımız çox fəal, operativ işlədilər, bu məlumatı dünya ictimaiyyətinə çatdırdılar. Həm dövlət qurumları, səfirliklər, diaspor təşkilatları, ictimai təşkilatlar, bizim xaricdəki dostlarımız öz səslərini ucaltdılar və Ermənistana, onun faşist xislətli siyasi rəhbərliyinə dünyada nifrət daha da artdı.

O ki qaldı danışıqların perspektivlərinə, bir daha demək istəyirəm ki, danışıqlar bərpa edilir, bu, müsbət haldır. İndi əsas vəzifə tezliklə məsələni həll etməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Əminəm ki, belə də olacaq. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq".

**Bugünlərdə qolu sındığı üçün Ağdaş Mərkəzi Rayon Xəstəxanasında əməliyyat edilən 9 yaşlı Seymur Mehralıyevin ölümü yenidən bir neçə məsələni aktuallaşdırdı. Qeyd edək ki, Qəbələ rayonu Qaradeyin kənd sakini olan S. Mehralıyev bu yaxınlarda evlərinin pilləkənlərindən yıxılaraq qolunu sındırıb. Atasının dediyinə görə, qolundan zədə alan uşağı əvvəlcə sınıqçıya aparıblar. Bir müddət keçdikdən sonra isə məlum olub ki, sınıqçının səhvi ucbatından uşağın qolu əyri bitib. Rentgen müayinəsi də sümüklərin əyriliyini təsdiqlədiyindən S. Mehralıyev əməliyyata alınıb. Əməliyyatdan öncə uşağa verilən narkozun təsirindən o, əməliyyat stolundaca dünyasını dəyişib.**

# Sınıqçıların sındırdığı həyatlar...

## Vaqif Qarayev: "İlin-günün bu vaxtında uşağın sınıqçıya aparılması cahillikdən başqa heç nə deyil"



Bəzi ekspertlər bu hadisənin həkim səhlənkarlığı ucbatından baş verdiyini bildirirlər. Qeyd edirlər ki, anafilaktik şokun olmaması üçün uşağa həmin narkoz verilməzdən əvvəl yoxlama inyeksiyası ("prob") edilə bilərdi. Bəziləri isə uşağın ölümündə travmatoloq cərrahın deyil, bundan əvvəl ona türkəçarə yardım göstərən sınıqçının günahkar olduğunu iddia edir.

Bu hadisə onu göstərdi ki, tibb sahəsi, müasir avadanlıq nə qədər inkişaf etsə də insanlar hələ də xalq təbabətinin populyar simaları olan sınıqçılara, çöpçülərə və digər "ara həkimləri"nə müraciət edirlər.

Xalq təbabətində sınıqçılıq xüsusilə məşhurdur. Ümumiyyətlə, cərrahlıq meydana gələnə qədər insanlar yalnız sınıqçılara müraciət ediblər. Hətta yaxşı sınıqçı üçün bir rayondan digərinə gedərdilər. Sınıqçı hərəkətin, sümüyün tamlığının pozulması, şişkinlik və ya hərəkət zamanı sümükdən hər hansı səsin gəlməsini düzəldir. Öncə zədə müəyyən olunur, sonra yumşaldıcı vasitələrdən istifadə edilir. Çünki sınıq zamanı sümüklər yerini dəyişə bilir və bu da əzələlərin yığılmasına səbəb olur. Daha sonra sümükləri yerinə oturtduqdan sonra yumurtadan, xəmirdən və başqa bərkidici məhsullardan istifadə edərək həmin nahiyədə hərəkətsizlik yaradılır ki, hərəkətsizlik nəticəsində sınıq yeri rahat sağala bilsin. Ekspertlər qeyd edir ki, məhz bunları yaxşı bildikləri üçün sümükləri düzgün müalicə edə bilir və beləliklə də insanların etibarını qazana bilirlər. Lakin son hadisədən də göründüyü kimi, bir çox hallarda sınıqçının səhvi ciddi fəsadlara yol aça bilir və hətta faciə ilə nəticələnir.

Maraqlıdır, niyə müasir dövrdə sınıqçılara, digər "ara həkimləri"nə hələ də ehtiyac var? İnsanların həkimlərdən çox, türkəçarə metodlara üz tutmasının səbəbi nədir?

Ekspertlərin fikrincə, bunun əsas səbəbi sosial vəziyyətlə bağlıdır. Maddi imkansızlıqdan insanlar daha sərfəli yol kimi türkəçarəyə müraciət edirlər.

**Sosioloq Əhməd Qəşəmoğlu qeyd etdi ki, bu tip məsələlərə müxtəlif faktlardan yanaşmaq lazımdır:** "Burada ən başlıca problem səhiyyə sistemində olan problemlərdir. Digər tərəfdən də çox təəssüf ki, tibbi kadrlarımızın səviyyəsi arzuolunan deyil. Eyni zamanda ölkəmizdə tibbi maarifləndirilməyə ehtiyac var. İnsanlara nə qədər desək ki, həkimə tez-tez gedin, mümkün olmur, çünki bu, insanların maddi imkanları xaricindədir. Ona görə də bu məsələdə bir neçə faktlar var və onları ayrı-ayrı həll etməliyik".

**Həkim Vaqif Qarayev mövzuya bu cür şərh bildirdi:** "Sınıqçılıq adətən təbabətin inkişaf etmədiyi vaxtlarda əyalətlərdə, kəndlərdə populyar idi. Xüsusi əl qabiliyyətinə malik olan insanlar var idi, hansı ki, onlar əlləri ilə toxunanda bilirdilər ki, harada sınıq var. Və yumurtadan gipsə bənzər "yaxı" düzəldilirdi. Bununla sağalanlar da olurdu, bunu danmaq olmaz. Lakin indiki vaxtda, yəni müasir avadanlıqların olduğu bir zamanda sınıqçıya müraciət edilməsi, üstəlik, nəticədə fəsadların yaranması və həkimə müraciət edilməsi ki, xəstə əlil olub, bunun özü əlillikdir. Sümüklər sına bilər, amma sınmış uclar yerini dəyişməyə bilməz. Onu ancaq həkim dartıb, çəkib sınmış sümükləri uc-uca qoya bilər. Mütləqdir ki, sümüklər düz olaraq bitişsin, əyrilik, deformasiya olmasın. Ola bilsin ki, sınıqçıların xüsusi vərdişi olsun, sınmış sümüyü bərkidə bilsin, lakin qoyduğu "gipsin" ucbatından monitorda görmək olmur ki, sümük düzgün yerinə oturub, ya yox. Nə qədər xüsusi vərdiş olsa da, rentgenin göstərdiyini heç bir əl, barmaq onu hiss edə, duya bilməz. Yəni ilin-günün bu vaxtında uşağın sınıqçıya aparılması cahillikdən başqa heç nə deyil. Uşağın əlil olmaması üçün xəstəni həkimə aparmaq lazımdır".

**Həkim qeyd etdi ki, fəsadlı halların baş verməməsi üçün müvafiq qurumlar ciddi tədbirlər görməlidir:** "Eşitdiyimə görə, bir kənddə məşhur bir sınıqçı var. Onun çox bahalı villası var və bütün sutka ərzində qapısında maşınlar növbəyə düzülür. Düşünürəm ki, ilk növbədə dövlət bu işə qarışmalıdır. Təhsili, tibbi müdaxilə ilə işləməyə izni olmayan şəxslərin bu cür çalışması cinayətdir. Yəni bunları ləğv etməlidir".

❑ Xalidə GƏRAY

# Samux musiqi məktəbində "ölü kadrlar" necə maaş alır?

## Direktor: "Məktəbdə yoxlanış aparılıb və heç bir neqativ hal aşkarlanmayıb"



«Мусават» гәзетинин тәсисчиси вә баш редактору Рауф Арифоғлу ҹәнабларына
Көнә шәһәр Тәбриз күч. бина 94с Мәнзил № 30-да јашајан Һүсејнов Елман Јәһја оғлу тәрәфиндән

Мүраҹиәт

Һөрмәтли Рауф Арифоғлу, мүраҹиәтими гыса мә'луматла башламаг истәјирәм. Белә ки, Самух р-н Сәркар кәнд мусиги мәктәбинин мүдири Мәммәдбәјова Сәадәт Фәрһад гызы ... Әминликлә дејә биләрәм ки, о 2007-ҹи илдә Мүәллим...



Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi

cənab Kamran Əliyevə

Samux rayonu Kolayır kəndində yaşayan
Məmmədova Günay Duman qızı tərəfindən
TEL: 055-550-79-76

ƏRİZƏ

**Samuxun Sərkar kənd musiqi məktəbində baş verən korrupsiya qalmaqalı haqqında qəzetimizin bundan əvvəlki saylarında məlumat dərc etmişdik. Redaksiyamıza daxil olan şikayət məktublarında bildirilirdi ki, adıçəkilən məktəbin direktoru Səadət Fərhad qızı Məmmədbəyova vəzifəsindən sui-istifadə edərək adları məktəbdə gedən, amma faktiki olaraq işləməyən şəxslərin adına əmək haqqı yazaraq mənimsəyir, uşaqların sayını artırmaqla sinif yaradır, nəticədə külli miqdarda pul mənimsəyir. Çantasında Salman Nağıyevin, Alim İbrahimovun, Aytən Alməmmədovun, Rövşən Əsgərovun, Babək Hüseynovun, Nigar Salmanovanın maaş kartlarını gəzdirir. Onların maaşları bankomatlardan şəxsən özü çıxarır. Hətta uzun müddət Rusiyada yaşayan Lalə Şahismayıl qızı Xeyirxəbərovanın maaş kartına keçən 427 manat pulu mənimsəyir.**

Faktla bağlı redaksiyamıza Lalə Xeyirxəbərovanın adına olan hesabdan çıxarış da təqdim olunub. Həmin çıxarışda L.Xeyirxəbərovanın adına 2016-cı il dekabrın 5-dən bu ilin mart ayının 30-dək adına çıxarış edilən maaşların miqdarı yazılıb.

Müraciətdə həmçinin bildirilir ki, əgər Nağıyev Salman, Əsədova Pərvanə və Əliyev Şaiqin uzun illərdir əmək haqqı kartlarının bankomatdan çıxarılması yoxlanılarsa, Azərbaycan Beynəlxalq Bankına sorğu verilərsə, pulun kimin tərəfindən bankomatdan çıxarıldığı açıq-aşkar görünər. Çünki kartı bankomata daxil edib pulu məxaric edərkən həmin bankomat tərəfindən kartı daxil edən şəxsin avtomatik şəkli çəkilir. Bu zaman pulun məktəbin direktoru Səadət müəllimə tərəfindən götürüldüyü aşkar olunacaq.

Məktəbdə ştat üzrə 295 şagird təhsil alındığı bildirilsə də, həqiqətdə bu belə deyildir. Musiqi məktəbində faktiki 173 nəfər şagird təhsil alır. Buna sübut olaraq Həzrətov Orxan Vidadi oğlunu göstərmək olar ki, həmin şagird hazırda Sumqayıt Musiqi Kollecinin truba aləti sinfində təhsil alır.

S.Məmmədbəyovanın keçmiş qudası Elman Hüseynovun redaksiyamıza ünvanladığı məktubda bildirilirdi ki, keçmiş gəlini Şəms Hüseynova savadsızdır, notları belə tanımır, pianoda ifa belə edə bilmir, amma yüksək maaşla pianodan dərs deyir.

Xatırlatma verərək bildirək ki, S.Məmmədbəyovanın əməlləri ilə bağlı baş Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə müraciət ünvanlayıb.

**Məsələ ilə bağlı məktəbin direktoru S. Məmmədbəyova "Yeni Müsavat"a açıqlama verib. Direktor qeyd edib ki, korrupsiya qalmaqalı ilə bağlı may ayında məktəbdə yoxlanış aparılıb və heç bir neqativ hal aşkarlanmayıb:** "Aşkarlandı ki, deyilənlərin hamısı şər-böhtandır. Ötən il mən haqqımda səslənən ittihamlara, şər-böhtanlara, şəxsiyyət və ləyaqətimi alçaltdığı üçün Günay Məmmədovanı məhkəməyə verdim. Məhkəmədə təsdiq olundu ki, onun dedikləri yalandır".



HESABDAN ÇIXARIŞ

**Direktor məktəbin "ölü kadr"ı L.Xeyirxəbərova ilə bağlı ittihamlara da cavab verib:** "O, sağlamlığında yaranmış problemlərə görə ötən il dekabrın sonunda məzuniyyət günündə icazə alaraq bir həftəlik Rusiyaya müalicəyə getdi. Bununla belə, Günay Məmmədova onun haqqında da ittihamlar irəli sürüb. Lalə gənc kadrdır, yaxşı müəllimdir. Sadəcə, yeni ailə həyatı qurmuşdu və səhhətində yaranmış problemlərə görə bir müddət ölkədən getmişdi. Müvafiq orqanlar onun haqqında da araşdırma apardı və deyilənlərin yalan olduğunu sübut etdilər".

**Direktor qızı Şəms Hüseynova haqqında ittihamlara isə bu cür cavab verdi:** "Mənim keçmiş qudamın dedikləri də yalandır. Qızım erkən vaxtında ailə həyatı qurdu. Lakin ailədə tez-tez döyüldü, buna görə hətta polisə də müraciət etmişdik. Savadına gəldikdə isə bildirim ki, qızım Şəms 5 yaşından musiqi ilə məşğul olur. O, Gəncədə 5 saylı musiqi məktəbini bitirib. Oxuduğu müddətdə daima konsertlərdə, tədbirlərdə iştirak edib. Daha sonra isə Gəncə Musiqi Kollecində fortepiano üzrə təhsil alıb. Qızımın savadsız olması haqqında səslənən ittihamların hamısı əsassızdır".

Uzun müddət məktəbdə müəllim işləyən Günay Məmmədovanın əməkdaşımıza verdiyi açıqlamaya görə, məktəbdə heç də korrupsiya halları səngimək bilmir: "Ötən il məktəbin direktoru haqqında səsləndirdiyim ittihamlara görə məni məhkəməyə verdi və təzminat davası açdı. Təzminat məsələsi məni qorxutduğu üçün ərizəmi geri götürdüm, məhkəmə barışıq qərarı çıxartdı. Lakin baş verən neqativ halların heç biri araşdırılmadı. Bu gün də qeyd edirəm ki, müraciətimdəki bütün faktlar doğrudur, gerçəkdir. Hazırda da Səadət Məmmədbəyova müəllimlərdən pul tələb etməkdə davam edir. Müəllimlərin hüquqlarını pozması artıq dözülməz həddə çatıb. Hər ay bütün müəllimlərin əmək haqlarından qanunsuz pul tutulmaları aparır".

**G.Məmmədova Rusiyada yaşamış həmkarı ilə bağlı qalmaqala da aydınlıq gətirib:** "Lalə Rusiyada yaşayırdı, lakin adına 3 "stavka" maaş kəsilirdi. Halbuki qanunla bu doğru deyil. Baş verən qalmaqala görə o, təcili olaraq bu ilin əvvəlində Azərbaycana gəldi".

Adının çəkilməsini istəməyən digər müəllimin sözlərinə görə də məktəbdə korrupsiya, hər ay müəllimlərdən pul alınması artıq ənənəvi hala çevrilib.

**Mövzunu davam etdirəcəyik.**

❑ Xalidə GƏRAY

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Müharibə riski sülh şansına qarşı: nəticəsiz görüşlər nəyi dəyişəcək?

## Rəsmi Bakı: "Ermənistan anlamalıdır ki, status-kvoya güvəndikcə müstəqilliyini tam itirmək riski ilə üzləşəcək"; rusiyalı rəsmi: "Moskva problemin həllində hərəkətə keçməlidir..."

**Xəbər verildiyi kimi, iyulun 12-də Brüsseldə Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbəndyan arasında görüş keçirilib. Görüş ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən təşkil olunub və onların iştirakı ilə keçirilib. Ermənistan XİN-in məlumatına görə, görüşdə danışıqlar prosesinin hərəkətə gətirilməsi naminə müvafiq şəraitin yaradılması müzakirə edilib.**



Məlumata görə, həmsədrlər həmçinin prezidentlərin görüşünün təşkili üçün XİN rəhbərlərindən təkliflərini təqdim etməyi xahiş ediblər. Vasitəçi diplomatların iştirakı ilə XİN başçılarının növbəti görüşünün bu ilin sentyabrda Nyu-Yorkda keçiriləcək BMT Baş Məclisinin iclası zamanı keçirilməsi razılaşdırılıb. Bu barədə həmsədrlərin Məmmədyarov-Nalbəndyan görüşü ilə bağlı yaydıqları bəyanatda deyilir. Bəyanatda habelə deyilir ki, nazirlər öz prezidentlərinə həmsədrlərin bu ilin sonunadək yüksək səviyyəli görüşün keçirilməsi ilə bağlı təklifini çatdırmağa razılıq veriblər. Həmsədrlər prezidentlərin görüşünün təşkilinə köməklərini təklif ediblər. Bəyanatda həmçinin qeyd edilir ki, görüş zamanı təmas xəttindəki son vəziyyət də müzakirə edilib.

**"Həmsədrlər tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin görüşü barəsində təklif hər iki ölkənin xarici işlər nazirləri tərəfindən dövlət başçılarına məruzə ediləcək. Prezidentlərin görüşündən sonra 2017-ci ilin payızında həmsədrlərin regiona təkrar səfəri planlaşdırılıb. Görüş əsnasında xarici işlər naziri Elmar Məmmədyarov bir daha bildirib ki, münaqişə ilə əlaqədar gərginliyin azaldılması və regionda təhlükəsizliyin təmin olunması üçün həmsədrlərin təqdim etdikləri mövcud planlara uyğun olaraq Ermənistan qoşunları Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır. Görüşdə hər hansı mexanizmlərin yaradılması müzakirə mövzusu olmayıb". Bu fikri isə Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev bildirib.**

***

Maraqlıdır ki, Brüssel görüşündən öncə Ermənistan XİN başçısı rusiyalı həmkarı Sergey Lavrovla bir araya gəlib.

Xatırladaq ki, iki ölkə XİN rəhbərlərinin bundan öncəki təması aprelin 29-da Moskvada baş tutmuşdu. Həm Moskva, həm də Brüssel görüşləri neçə vaxtdır dondurulmuş vəziyyətdə olan danışıqlara hansısa stimul vermək və bununla da artmaqda olan müharibə riskini azaltmaq niyyəti güdürdü. Hər halda, vasitəçilərin son bəyanat və açıqlamalarından ən əvvəl belə qənaət hasil olur.

Ancaq sülh prosesində irəliləyiş bu gün Azərbaycandan çox işğalçı Ermənistandan asılı vəziyyətdədir. Alxanlı vəhşiliyi isə göstərdi ki, İrəvan dinc nizamlama prosesinə nəinki konstruktiv yanaşmır, üstəlik, özünün davam edən təxribatları ilə kövrək danışıqlara olan ümidləri də topa tutur. Brüssel görüşü məhz danışıqlar prosesində üzücü durğunluğun davam eləməsi və konflikt zonasında artan eskalasiya faktları fonunda ikiqat önəm kəsb edirdi. Yəni münaqişə ətrafında situasiyanın daha çox hansı məcrada inkişaf tapacağına aydınlıq gətirmək baxımından önəm daşıyırdı.

Hələ ki vasitəçilərin iştirakı ilə nazirlərin budəfəki görüşünün hansı pozitiv nəticələrinin olacağını söyləmək çətindir. Həm də ona görə ki, görüş ərəfəsində də İrəvan rəsmilərinin Dağlıq Qarabağla bağlı barışmaz, danışıqlar prosesinin məntiqi ilə bir araya sığmayan davakar ritorikası davam edib. O sırada hətta Alxanlı vəhşiliyinə dolayısı ilə haqq qazandırılıb.

Erməni tərəfinin radikal, maksimalist mövqeyi özünü habelə eyni gündə - iyulun 11-də Avstriyada başlayan ATƏT XİN başçılarının qeyri-formal görüşündə Ermənistan nümayəndə heyətinin çıxışında da göstərib. Təbii ki, bu mövqe cavabsız qalmayıb. Nümayəndə heyətimizin adekvat reaksiyası ilə üzləşib.




**"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏT regionunda təhlükəsizliyə və sülhə qarşı ən ciddi təhdid olaraq qalmaqda davam edir. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin ATƏT-ə verdiyi mandata baxmayaraq, biz müşahidə edirik ki, təşkilat daxilində əsas meyl münaqişə ilə əlaqədar gərginliyi aradan qaldırmaqdır. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin edilmədən gərginliyin aradan qaldırılması problemi həll etməyəcək".**

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, bu fikirlər Azərbaycan nümayəndə heyətinin çıxışında yer alıb. Bildirilib ki, ATƏT daxilində münaqişədə status-kvonun qeyri-davamlı olması barədə yekdil mövqe təsbit edilməlidir:** "Ermənistanın cəbhə xətti boyu münaqişənin gərginləşməsinə yönəlmiş bütün növ təxribatları nəzərə alınaraq status-kvo dəyişilməlidir. Yaşayış məntəqələrinin heç bir fərq qoyulmadan atəşə tutulması nəticəsində iki azərbaycanlı mülki vətəndaşın öldürülməsi Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn kobud surətdə pozmasıdır və bir daha mülki əhalini hədəfə almaqla Azərbaycanı reaksiya verməyə təhrik etmək siyasətinin sübutudur, eyni zamanda Ermənistana sülh səylərini pozmaq üçün bəhanə verir.

Diqqətə çatdırılıb ki, münaqişə həll olunduqdan sonra Ermənistanın hazırkı rejiminin labüd legitimlik böhranı ilə üzləşəcəyi bu rejimi belə təxribatlara əl atmağa sövq edir. Ermənistanın siyasi rəhbərliyi anlayır ki, münaqişənin sülh yolu ilə beynəlxalq hüquqa uyğun həll edilməsi Azərbaycanın işğal olunmuş ərazilər üzərində suverenliyinin və ərazi bütövlüyünün bərpası ilə nəticələnəcək. Məhz buna görə də Ermənistan rəhbərliyi rejimin ömrünü uzatmaq məqsədilə mövcud status-kvonu möhkəmləndirmək üçün hər yola əl atır. Ermənistan dərk etməlidir ki, mövcud status-kvoya güvəndikcə müstəqilliyini tamamilə itirmək və regiondakı siyasi oyunlarda alətə çevrilmək riski ilə üzləşir. Yalnız münaqişəni sülh yolu ilə həll etməklə, Azərbaycan və regionun digər ölkələri ilə yaxşı qonşuluq münasibətləri yaratmaqla Ermənistan öz xalqı üçün müstəqil və xoş gələcək yarada və regionun inkişafından bəhrələnə bilər".

**Çıxışda daha sonra deyilir:** "Təəssüf ki, Ermənistanın xarici işlər naziri Mauerbaxda dialoq imkanını yenə əldən verdi. O, Azərbaycana qarşı əsassız ittihamlarla dolu bəyanatla çıxış etdi. Belə bəyanat daxili siyasi istehlak üçün nəzərdə tutulub. Bu, ATƏT-də gözlənilən çıxış deyil. Bu zalda olan hər kəs anlayır ki, Ermənistan-Azərbaycan münaqişəsində təcavüzkar və təcavüzə məruz qalmış tərəf kimdir. Bizi maraqlandıran sual odur ki, Ermənistanın naziri öz bəyanatı ilə nəyə nail olmaq istəyirdi. Əgər nazir hesab edirsə ki, bu yolla ATƏT daxilində etimad və etibarın bərpasına hansısa töhfə verə bilər, tamamilə aydındır ki, o, iflasa uğradı. Brüsseldə Azərbaycanın xarici işlər naziri və ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə planlaşdırılmış görüşü nəzərə aldıqda, Ermənistanın naziri həddən artıq təxribatçı çıxış səsləndirdi. Biz Ermənistanın nümayəndəliyini həm burada - ATƏT-də, həm də Brüsseldə keçiriləcək danışıqlarda konstruktiv mövqe nümayiş etdirməyə səsləyirik".

***

Göründüyü kimi, Nalbəndyan hətta Brüssel görüşünə saatlar qalmış da ölkəsinin ənənəvi təxribatçı mövqeyini ortaya qoyub. Bir daha İrəvanın ədalətli sülhdə maraqlı olmadığını nümayiş etdirib. Belə olan surətdə görəsən, Azərbaycandan daha hansı "konstruktiv təklif" gözlənilə bilər ki? Fakt odur ki, işğalçı tərəfin təxribatları üzündən bu gün sülh deyil, müharibə şansları artıb.

O üzdən siyasi və hərbi ekspertlər Brüssel görüşünün nəticələrindən dolayı da bir elə nikbin deyillər. Hərçənd **Rusiya siyasi elmlər doktoru, dövlət müşaviri Tatyana Poloskova** hesab edir ki, hələ sülh şansları itirilməyib. Musavat.com-un məlumatına görə, haqqin.az saytına eksklüziv açıqlamasında rusiyalı rəsmi bildirib ki, Rusiya da daxil, böyük dövlətlərin siyasi iradəsi olmadan, Dağlıq Qarabağ problemini çözmək mümkün olmayacaq.

"Aydındır ki, Azərbaycanla Ermənistan arasında gərginlik, onların arasındakı hərbi konflikt manipulyasiya üçün əlverişli alətdir - özü də heç də həmişə bizim ölkələrin xalqlarının marağında olmayan bir alət", - deyə o qeyd edib. Siyasətşünasın fikrincə, bir qrup Rusiya siyasətçisi problemə təkcə Azərbaycan və Ermənistan daxilindəki proseslərə təsir vasitəsi kimi deyil, həm də şəxsi PR faktoru kimi baxır.

"Bu da ola bilər. Mən o fikirlə razıyam ki, münaqişə tərəflərinin siyasi iradəsi olmadan konfliktin həlli mümkün deyil. Lakin prosesdə ən mühüm tərəf həm də Rusiya rəhbərliyidir. Odur ki, anlamaq istəyirəm: Rusiyanın buna siyasi iradəsi varmı və nə dərəcədə tez bir zamanda bu iradə real addımlara çevriləcək?", - deyə dövlət müşaviri sonda sual edib.

***

Əslində bu sualın özü ritorikdir. Çünki rəsmi Moskvanın Dağlıq Qarabağ məsələsinin dinc və ədalətli həllində real irəliləyişə nail olmasına ona özündən başqa heç bir qüvvə əngəl yaratmır, yarada bilməz. O səbəbə ki, problemin həlli üçün ən güclü rıçaq məhz onun əlindədir. Hələ ki onun əlindədir. O üzdən Moskva siyasi iradə göstərmək məsələsində bir qədər tələssə, yaxşıdır. Əks halda, yəni status-kvonun, işğal rejiminin davam edəcəyi təqdirdə əsas rıçaqın da daima onun əlində qalacağına zəmanət yoxdur. Bunu yəqin ki, Kreml dəhlizlərində də bilirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Həbsdəki generaldan Tağı Əhmədovla bağlı sensasion açıqlamalar

## Akif Çovdarov: "Həmin şəxs dedi ki, "bu bombadı, partlaya bilər, qoy özündə qalsın"

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**
**Musavat.com xəbər verir ki, hakim Həbin Həsənovun sədrliyi ilə keçirilən prosesdə Akif Çovdarov ifadə verib.**



General ilk olaraq YAP-ın Yasamal rayon təşkilatının sədri, Bakı Metropoliteninin sabiq rəhbəri Tağı Əhmədovun 3 milyonunun ələ keçirilməsi epizodu üzrə danışıb.

**Akif Çovdarov deyib ki, Tağı Əhmədov işdən çıxarılandan sonra quruma yeni rəis təyin olunan Zaur Həsənov ona zəng edib:** "Mənə dedi ki, stansiyaların çıxışlarından sökülən obyektlərin icarədarları metroya girişi bağlayıb, aksiya keçirirlər. Mən də dedim bu barədə polisə məlumat vermək lazımdı. Zaur Həsənov dedi, polisə demişik, onlar bacarmır".

**A.Çovdarov deyib ki, bundan sonra rəhbərliyinə məlumat verib:** "Mən hadisə barədə nazirliyin rəhbərliyinə müraciət etdim, onlar da ölkə rəhbərliyinə məruzə etdilər. Göstəriş verildi ki, araşdırılsın. Biz də araşdırdıq və bəlli oldu ki, metro stansiyalarının çıxışlarında 1200 obyekt var. Bunlar da 2007-ci ilə qədər Bakı Şəhər İcra Hakimiyyətinin, sonra isə Bakı Metropoliteninin balansında olub. Həmin obyektlərin aylıq icarə haqqı 200 dollardan 3 min dollara kimi idi. Bunlar da 3 aylıq icarə pulunu öncədən alırdılar. Tağı Əhmədov işdən çıxandan sonra da yeni rəhbərlik köşkləri ləğv etmişdi. Aksiya edənlər verdikləri icarə haqlarını tələb edirdilər".

**Çıxışında general deyib ki, sökülən obyektlər Tağı Əhmədovun hakim işləyən oğlu Rauf Əhmədovun yaxın dostları arasında bölüşdürülürmüş:** "Tağı Əhmədov ötən iclasda dedi ki, ildə 120 min manat icarə pulu verib. Ona sual verilməlidir ki, 1200 köşkün icarəsi 120 min edirsə, belə çıxır ki, biri 8 manat 50 qəpik olub? Həmin vaxt icarədarlardan alınan 3 aylıq ödəniş 5 milyon dollardan artıq idi. Biz bunu da rəhbərliyə məruzə etdik. Dövlət rəhbərliyi bizi çağırıb detallı araşdırma aparıb metropolitenin fəaliyyətinin yoxlanılmasını tapşırdı. Metropoliten hər il dövlətdən subsidiya alsa da, bu qədər gəlir əldə edirmiş".

**Generalın sözlərinə görə, detallı araşdırma aparılan zaman bəlli olub ki, metro stansiyalarında aparatlar elə qurulub ki, hər 4 jetondan biri qeydiyyatdan keçməyib və onun pulu Tağı Əhmədovun cibinə gedirmiş:** "Bütün bunları bizə Tağının qardaşı oğlu Şövqi Əhmədov dedi. Buna görə də Tağı Əhmədov öz qardaşı oğlundan imtina edib".

**Tağı Əhmədovun barəsində sensasion sayılacaq açıqlamaları davam edən A.Çovdarov çıxışına bunları əlavə edib:** "Bundan başqa, biz agentura xəttimiz vasitəsilə müəyyən etdik ki, təzə vaqon adı ilə Moskvadan işlənmiş vaqon alıb "kraskalayıb"lar. Bununla da 11 milyondan çox dövlət vəsaiti mənimsənilib. Hər 4 jetondan birini əldə etməklə aya 300 min manat pul qazanırdılar. İşıq puluna görə "Azərenerji"yə 4 milyon manat borcları var idi. Onu da mənimsəmişdi".

**Çovdarov daha sonra Tağı Əhmədovun əmlakları barədə danışıb:** "Bunlar üzə çıxandan sonra biz Tağı Əhmədovun əmlaklarını da müəyyən etməyə başladıq. İndi yadımda qalanları deyəcəm. "Sahil" metrosunun üstündəki binada 4 mənzil, "Yeni Həyat" yaşayış kompleksində 4 mənzil, Neft Akademiyasının əsas korpusu ilə üzbəüz 7-8 dükan, Bakıda 6-7 bağ evi, Yasamal Rayon Məhkəməsinin yeni binasının arxasındakı "Kolizey" və "Şəhrizad" restoranları, Dubayda elit yaşayış kompleksində yerləşən hotelin bütövlükdə 3 mərtəbəsi, Dubayda bir böyük ticarət mərkəzi. Bundan başqa, Tağı Əhmədov Xarici İşlər Nazirliyində işləyən oğlu Ruslan Əhmədov vasitəsilə 17 milyon dollar pulu ofşor hesablarla ölkədən çıxarıb. Dubaydakı hoteli və ticarət mərkəzini də bu pulla alıb. Moskvada metro çıxışında 5 milyona 120 kvadratmetrlik dükan alıb, arendaya verib".

**Akif Çovdarov Tağı Əhmədovun bank hesablarındakı pulları haqda da danışıb. O bildirib ki, Tağı Əhmədovun təkcə "Texnikabank"da 13 milyon dolları olub.** "Digər pulları isə "Bank of Baku" və "Unibank"dakı hesablarında idi. "Texnikabank" müflis olanda öz hesabından 9 milyon çıxarıb ofşora yatırmışdı. Qalan 4 milyonu da Ruslan Əhmədov müxtəlif qohumlarının adına 30-50 min miqdarında köçürmüşdü. Qohumları hesablardan pulu çıxarıb əlbəəl Ruslana vermişdilər, bunun kamera görüntüləri də var idi. Ümumilikdə Tağı Əhmədov və yaxınlarının hesablarında 21 milyon pul müəyyən edildi. Biz məlumatları toplayıb rəhbərliyə təqdim etdik, bizə cavab verdilər ki, hələ gözləyin, məlumatları özünüzdə saxlayın, prokurorluq istəyəndə verərsiniz. Sonra mən prokurorluqdan



yüksək vəzifəli şəxslə əlaqə saxladım və telefonda hansı məlumatlar olduğunu ona dedim. Həmin şəxs dedi ki, "bu bombadı, partlaya bilər, qoy özündə qalsın. Sən onu bizə göndərsən biz gərək qeydiyyata salaq, onda da ortaya çıxacaq"" deyə, A. Çovdarov çıxışına əlavə edib.

**Məhkəmədə çıxış edən prokuror isə qeyd edib ki, Tağı Əhmədov haqda prokurorluqda heç bir araşdırma aparılmayıb. A.Çovdarov prokurora belə cavab verib:**

"Sən məndən bunu soruşma, soruş ki, mən prokurorluqda yüksək vəzifəli şəxs olan kimlə danışmışam".

Amma prokuror bu sualı dinləməklə kifayətlənib.

**Prosesin davamında Çovdarov Tağı Əhmədov barəsində danışmağa davam edib:** "Tağı Əhmədovun mənə pul verməsi yalandır. Bir dəfə nazirliyimizə 10-12 minlik yüngül maşınlar lazım idi, rəhbərlik məsləhət gördü ki, əməkdaşlıq etdiyimiz qurumlardan istəyək, onlar da hədiyyə etsinlər. Mən Rəsula dedim ki, get Tağıya denən, lazımdısa nazir müavininin adından rəsmi məktub da yazaq. Onda Tağı demişdi ki, "3-5 min verə bilərəm, üstünü özünüz düzəldərsiz". Mən bilirdim ki, Tağının arxasında kim var, ona görə bu məsələnin üstünə getmədik. Tağı Əhmədovun mənimsəmələri isə dövlət rəhbərliyinin məlumatı olduğu məsələ idi, 3 yox, 15 milyon da versə idi, mən onu bağlaya bilməzdim. Tağı Əhmədovun arxasında kimin olduğunu da onun daha əvvəlki işində bildik. O metro üçün işlənmiş mikrosxemləri avtobusda xüsusi hazırlanmış gizli saxlanc yerində ölkəyə gətirirdi. Biz həmin avtobusu nəzarətə götürdük. Sürücü bizim onu izlədiyimizi bildi, onu saxlamaq istəyəndə işçimizin birini avtobusla vurdu, xəsarət aldı. Sumqayıt postunda sürücünü saxladıq, məsələni rəhbərliyə məruzə edəndə bizə dedilər ki, Tağı Əhmədovla işiniz olmasın".

**Çovdarov bildirib ki, Tağı Əhmədovun ondan şikayət etmək fikri olmayıb:** "Şikayət edəndən sonra da peşman olmuşdu. 2016-cı ildə ərizəsini geri götürmək istəyirdi, neçə yerdə də demişdi ki, bu yaşımda mənə lazım idi bu? Onu şantaj etdilər, oğlu Ruslan Çovdarov içkili vəziyyətdə qəza törətmişdi, adam ölmüşdü. Ruslan da ANS-in kamerasına düşmüşdü. Tağı da bu məsələyə görə məcbur olub mənim əleyhimə yalan ifadə verdi".

Məhkəmə prosesi iyulun 18-də davam etdiriləcək.

**Qeyd edək ki, Akif Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.**

❑ İlkin MURADOV

# Eldar Mahmudovun həbsinin üzə çıxaracağı sirlər



## Sabiq nazirin işçilərindən əsas fərqi odur ki, onun malik olduğu kompromatlar hər an agentləri tərəfindən üzə çıxarıla bilər

**Bakı Hərbi Məhkəməsində sahibkarlara hədə-qorxu gəlməkdə, külli miqdarda əmlakını ələ keçirməkdə təqsirləndirilən MTN polkovniki Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. Hakim Siyavuş Hacıyevin çıxardığı hökmlə Vüsal Ələkbərov 12 il müddətinə azadlıqdan məhrum edilib və polkovnik rütbəsindən məhrum edilib. V.Ələkbərova məxsus olan və həyat yoldaşı Şəhla Ələkbərovanın adına rəsmiləşdirilən Badamdar qəsəbəsindəki 18 sot torpaq sahəsi və üzərində yerləşən fərdi yaşayış evi, Şərifzadə küçəsindəki mənzili, ümumi dəyəri 1 milyon 277 min manat olan əmlakları müsadirə edilib. Məhkəmə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Baş İstintaq İdarəsinin keçmiş rəisi Mövlam Şıxəliyev barəsində cinayət işinin başlanması üçün prokurorluğa təqdimat göndərib. Hökmdə göstərilib ki, təqdimat zərərçəkmişlərin şikayəti əsasında hazırlanıb.**

M.Şıxəliyev gununsesi.info-ya deyib ki, barəsində xüsusi qərardad çıxarılmasından məlumatsızdır: "Bakı Hərbi Məhkəməsinin barəmdə cinayət işinin başlanması üçün qərardad çıxarması ilə bağlı xəbəri mətbuatdan oxudum. Bu barədə məlumatsızam. Əgər sizin üçün maraqlıdırsa, özünüz məhkəməyə müraciət edib məlumat ala bilərsiniz".

E.Mahmudovdan isə vəzifədən çıxarılandan sonra xəbər yoxdur. Onun ölkədə olması, xaricə getməsi haqda bilgilər yayılsa da, sabiq nazirin konkret harada olması bilinmir. Əgər xüsusi qərardad üzrə cinayət işi başlansa və E.Mahmudov həbs edilsə, hansı məqamlar üzə çıxa bilər?

Onun uzun illər rəhbərlik etdiyi sahədə cəmiyyətin ən müxtəlif təbəqələrindən olan üzvlərinə qarşı kompromatlar toplanıb. Media, biznes, iqtidarlı-müxalifətli bütün sahələrdə özünün agentləri olub. E.Mahmudov həbs olunarsa, həmin şəxslərin də deşifrə olunması prosesi baş verə bilər. Hərçənd ki, E.Mahmudovun həbs ediləcəyinə əksər ekspertlər böyük şübhə ilə yanaşırlar. Sabiq nazirin 10 illik fəaliyyəti dövründə topladığı kompomatlardan özünə qala qura bildiyi, özünü kompromatlarla qoruduğu haqda bilgilər də var.

E.Mahmudovla onun baş istintaqçısı M.Şıxəliyevin barəsində çıxarılan xüsusi qərardad qeyd etdiyimiz kimi, MTN müstəntiqi Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmənin yekun qərarında yer alıb.

V.Ələkbərovun özü belə məhkəməsində kompromatlardan istifadə etməyə çalışıb. Sabiq müstəntiq "mən 2005-ci ilin martında Bakıda öldürülən "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun cinayət işini araşdırmışam" sözlərini deməklə özünün sıradan biri olmadığını, geniş bilgilərə sahibliyini diqqətə çatdırmaq istəyib. Məhkəmədə onun dediklərinə əhəmiyyət verilməməsi görüntüsü yaradılsa da, eks-müstəntiqin mesajı ünvanına çatmamış deyil. Bununla belə, bu açıqlama V.Ələkbərov üçün "ikibaşlı dəyənəyə" də çevrilə bilər. Mümkündür ki, V.Ələkbərov vaxtilə iş yoldaşı olmuş ləğv edilən MTN-in Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyevin taleyini yaşaya bilər. Yada salaq ki, İ.Əliyev E.Mahmudov işdən çıxarılandan dərhal sonra həbsə alınan MTN-çilərdən idi. Belə məlumatlar vardı ki, o, həbs qərarından verdiyi şikayətlə əlaqəli aparıldığı məhkəmədə bildiklərini açıqlayacağı ilə bağlı bəyanat vermişdi. Bu bəyanatdan bir neçə gün sonra onu saxlandığı Bakı İstintaq Təcridxanasının kamerasında asılmış vəziyyətdə aşkar etdilər. Hazırda məhkəməsi keçirilən MTN generalı Akif Çovdarov İlqar Əliyevin öldürüldüyünü və sonradan asıldığını açıqladı.

E.Mahmudovun həbsi gerçəkləşərsə, onun da belə bir tale yaşaya biləcəyi istisna deyil. Lakin sabiq nazirin işçilərindən əsas fərqi odur ki, onun malik olduğu kompromatlar hər an agentləri tərəfindən üzə çıxarıla bilər. Görünür, bu məqam sabiq naziri həbsdən sığortalayır.

❑ E.HÜSEYNOV

**ABŞ-da prezident seçkilərinə "Rusiya müdaxiləsi" ilə bağlı qalmaqalların yeni dalğası yüksəlmək üzrədir. ABŞ KİV-ində hesab edirlər ki, prezidentin oğlu - kiçik Trampın Azərbaycan əsilli rusiyalı milyarder Araz Ağalarovun oğlu ilə münasibətləri Kremlin seçkilərə təsirini göstərir.**

# Araz Ağalarov oğlunun adı qarışan kompromatdan danışdı

## "Trampın oğlu ilə Emin ünsiyyət saxlayırdılar, ancaq necə, nədən danışırdılar, bilmirəm"

Rusiyanın müxalifyönlü mətbuatında isə yazılır ki, ABŞ seçkilərinə "Rusiya müdaxiləsi" işini araşdıran xüsusi prokuror Robert Müller ABŞ prezidentinin oğlu ilə rusiyalı vəkilin elektron yazışmasını araşdırmaq niyyətindədir, bütün bunlar haqqında CNN kanalı öz mənbələrinə istinadən məlumat verir. Daha öncə isə "New York Times" məlumat vermişdi ki, Kremllə əlaqəsinin olduğu iddia edilən Rusiyadan olan vəkil Natalya Veselniçkaya 2016-cı ildə prezidentin oğlu ilə görüşüb və ona prezidentliyə namizəd Hillari Klintona qarşı əlində kompromat olduğunu bildirib. Prezidentin oğlu mətbuat nümayəndəsinə bildirib ki, Veselniçkaya ilə görüş zamanı bəlli olub ki, onda heç bir əhəmiyyətli informasiya yoxdur və söhbətin məcrası uşaqların övladlığa götürülməsi zamanı yaşanan problemlərlə dəyişib və əslində görüşün əsas səbəbi də məhz bu olub. Veselniçkaya, sadəcə, "kompromat məsələsindən" görüşə nail olmaq üçün istifadə edib.

Bununla yanaşı, gənc Tramp twitter səhifəsində musiqi tənqidçisi Rob Qoldstoun ilə yazışmasını paylaşıb, Qoldstoun onun Emin Ağalarov ilə görüşünü təşkil etməli idi. Donald və Emin hələ 2013-cü ildən tanışdırlar. ABŞ KİV-i bu münasibəti də Kremllə əlaqələrin sübutu kimi qiymətləndirir. Çünki Eminin atası Aras Ağalarov ilə Rusiya prezidenti Vladimir Putin dostdur.

Kiçik Trampın Qoldstounla yazışmasında Emin Ağalarovla görüşün təşkili barədə müzakirə gedir. Həmin yazışmada kiçik Tramp Qoldstouna belə yazır: **"Əgər bu, sən deyən məsələdirsə(Klinton haqda informasiya), o zaman bu, mənim xoşuma gəlir".**

Öz növbəsində Qoldstoun bəyan edib ki, vəkil ona daha öncə Hillari Klintonun seçki kampaniyası ilə bağlı ilginc məlumatlar çatdıracağını anons edib. "Rusiyanın baş prokuroru Trampın seçki qərargahına Rusiya ilə Hillari Klinton arasındakı münasibətlərlə bağlı rəsmi sənəd və məlumatlar çatdıracağını deyib. Bu isə sizin atanızın xeyrinə ola bilər" - bu isə Qoldstonun 3 iyun 2016-cı ildə kiçik Trampa yazdığı məktubda öz əksini tapıb.

Kiçik Tramp öncə bu sual ətrafında telefonda müzakirə aparmağı təklif edib. Amma bu, alınmayanda üzbəüz görüşə razılıq verib. Bununla belə, o bir daha iddia edib ki, "sözügedən qadın" (söhbət Veselnitskayadan gedir) rusiyalı məmur olmayıb, sadəcə, övladlığa götürmə və "Maqnitski Aktı" ilə bağlı məlumat əldə etməyə çalışıb. Kiçik Tramp eyni zamanda deyib ki, atası onun rusiyalı vəkillə görüşündən xəbərdar olmayıb.

Trampın oğlu deyib ki, rus vəkil ona kampaniya üçün əhəmiyyətli olacaq informasiyaya malik olduğunu söyləyib. O deyib ki, guya Rusiyaya bağlı şəxslər Demokratik Partiyanın Milli Komitəsini və Hillari Klintonu dəstəkləyirlər. Oğul Trampın dediyinə görə, söhbət əsnasında tezliklə aydın olub ki, vəkilin informasiyası yayğındır və heç bir sübuta söykənmir.




Cənab Varner deyib ki, rusiyalı vəkillə söhbət Tramp administrasiyasının "yaddaşsızlıq" vərdişinin daha bir epizodudur. Başqa sözlərlə Tramp administrasiyası və kampaniyasının rəsmiləri ruslarla görüşlərini nədənsə bir qayda olaraq "unutmuş" olurlar. Senator deyib ki, indiyədək Tramp kampaniyasının ruslarla əlaqələrinə dair çox sayda iddialar olub, lakin prezident və onun yaxın çevrəsi bütün bu iddiaları rədd ediblər.

BBC xəbər verir ki, "The İndependent" hüquq ekspertinə istinadən yazır ki, ola bilsin, oğul Tramp öz bəyanatı ilə cinayət törətdiyini təsdiq edib. MSNBC şəbəkəsindən təhlükəsizlik təhlilçisi və Ədliyyə Nazirliyinin keçmiş sözçüsü Metyu Miller deyib ki, prezidentin oğlu xarici vətəndaşdan dəyəri olan nəsə almaq istədiyini və buna çalışdığını etiraf etməklə qanunu pozduğunu da etiraf edir. Ekspert deyib ki, ABŞ qanunlarına görə, bu "qiymətli nəsənin" pul olması vacib deyil, bu bir informasiya da ola bilər.

"Krokus" qrupunun sahibi, milyarder Araz Ağalarov ABŞ prezidenti Donald Trampın oğlu tərəfindən dərc edilmiş və Hillari Klinton əleyhinə kompromatla əlaqədər onun oğlu Emin Ağalarovun adıçəkilən məktubu "uydurma" adlandırıb.

**Virtualaz.org bildirir ki, BFM-ə müsahibəsində A.Ağalarov deyib:** "Mən düşünürəm, bu hansısa bir uydurmadır. Amma onu kim uydurur, bilmirəm. Hillari Klintonun bura nə dəxli var? Mən bilmirəm..."

"Trampın oğlu ilə tanışsınızmı" sualına Araz Ağalarov "yox" cavabı verib.

"Onunla Emin tanışdır, mən tanış deyiləm. Amma biz beynəlxalq gözəllik yarışması keçirdik və orada müəyyən əlaqələr oldu. Onlar təxminən eyni yaşdadır, haradan bilim ki, hansı formada ünsiyyət saxlayırdılar. Bəli, ünsiyyət saxlayırdılar, ancaq necə, nədən danışırdılar, bilmirəm", - deyə A.Ağalarov bildirib və əlavə edib ki, Trampın oğlu bir müddət Eminlə menecer kimi işləyib və yəqin, yaxud ehtimal ki, Amerikada nəsə müəyyən işlər görüb.

"Ümumiyyətlə, o işləyirdi. Onlar ünsiyyət saxlayırdılar", - deyə milyarder bir daha vurğulayıb.

❑ **Sevinc TELMANQIZI**

# ABŞ həm "qaçan"ın, həm də "qovan"ın yanındadır

## Vaşinqton və Doha arasında son anlaşma ərəb ölkələrini məmnun etmir

**Qətər ətrafında gərginliyin davam etdiyi bir vaxtda Türkiyə ordusu bu ölkədəki hərbi bazasına növbəti dəfə hərbçi göndərib. Ötən gün "Birinci ordu"ya məxsus 45 xüsusi təyinatlı hərbçi Qətər gəlib və bununla da Qətərdəki Türkiyə hərbçilərinin sayı 150 nəfərdən çox olub. İyulun 16-19-da isə Qətərə daha 25 nəfərdən ibarət artilleriya heyəti gedəcək. Bundan sonra isə iki ölkənin birgə hərbi təlimləri başlayacaq.**

Xatırladaq ki, 2014-cü ilin sonunda imzalanmış Qətər-Türkiyə anlaşması bu ilin iyun ayında Türkiyə parlamenti tərəfindən təsdiqlənib və bundan sonra Türkiyə hərbçilərinin Qətərə göndərilməsi başlayıb. Bütün bunlar Qətər ətrafında böhranın başladığı günlərlə eyni vaxta təsadüf edib. İyunun əvvəlində 4 ərəb ölkəsi - Səudiyyə Ərəbistanı, Misir, Bəhreyn və BƏƏ Qətəri terrorizmi maliyyələşdirməkdə ittiham edərək Doha ilə diplomatik əlaqələri dayandırıb. Bundan sonra Qətərə yerinə yetirməsi üçün 13 təklif göndərilib, ancaq rəsmi Doha tələbləri qəbul etməyib.

İki gün əvvəl isə ABŞ dövlət katibi Reks Tillerson Dohaya səfər edib. Səfər çərçivəsində ABŞ və Qətər hökumətləri arasında "terrorla mübarizə və terrorun maliyyələşdirilməsinin qarşısının alınması" haqqında anlaşma imzalanıb. Anlaşma nəticəsində iki ölkə Qətərin terrorla mübarizəsinə dəstək verilməsi və terrora maliyyə dəstəyi verilməsi ilə bağlı problemləri aradan qaldırmaq üçün birgə hərəkət edəcəklər.

Qeyd edək ki, 4 ərəb ölkəsinin Qətərə qarşı əsas ittihamları məhz terroru maliyyələşdirməklə bağlıdır. Adları yuxarıda qeyd olunan ərəb ölkələri isə ABŞ və Qətər arasında imzalanmış anlaşmanın "yetərli olmadığı" ilə bağlı birgə açıqlama yayıb. Bu səbəbdən də Qətərə qarşı embarqo davam edəcək. Ancaq eyni zamanda ərəb dövlətləri ABŞ-ın Qətər böhranını aradan qaldırmaqla bağlı addımlarını təqdir ediblər. Qətər hökuməti isə anlaşmanın Qətər böhranı ilə bağlı olmadığını bildirib.

Yeri gəlmişkən, bu gün Qətərə embarqo tətbiq edən 4 ərəb ölkəsi - Səudiyyə Ərəbistanı, BƏƏ, Misir və Bəhreyn xarici işlər nazirləri Səudiyyə Ərəbistanının Ciddə şəhərində bir araya gələcək. Məsələ ondadır ki, Qətər böhranı əslində ABŞ-ın, daha dəqiqi, prezident Donald Trampın xeyir-duası ilə başlayıb. Mayın 21-də Səudiyyə Ərəbistanına səfər edən ABŞ prezidenti müsəlman ölkələri ilə toplantıdan bir neçə gün sonra 4 ərəb ölkəsi Qətərə qarşı məlum bəyanatla çıxış ediblər. Daha sonra ABŞ prezidenti özü də Qətəri ittiham edən açıqlama verdi.

Bununla da məlum oldu ki, ABŞ prezidenti əslində bu prosesin içərisindədir. Lakin eyni zamanda prezidentdən fərqli olaraq Dövlət Departamenti daha yumşaq bəyanat verdi. ABŞ Müdafiə Nazirliyi (Pentaqon) isə ümumiyyətlə, Qətəri müdafiə etdi. Məlum olduğu kimi, hazırda ABŞ-ın körfəz regionunda ən böyük hərbi hava bazalarından biri Qətərdə yerləşir. 13 min hərbçinin olduğu baza İraq və Suriyada İŞİD-ə qarşı mübarizənin əsas mərkəzi hesab olunur. Pentaqon bəyan etdi ki, bazanın bağlanması İŞİD-ə qarşı əməliyyatlara mənfi təsir edə bilər.

Bu prosesdə Qətər rəhbərliyi Vaşinqtonda ciddi diplomatik fəaliyyət yürütdü, ABŞ-dan 12 milyardlıq silah alınması haqda müqavilə imzaladı. Bununla da Doha müəyyən qədər Vaşinqtonu neytrallaşdırmağa nail oldu. İndi isə Amerika Qətərlə anlaşma imzalamaqla yaranmış gərginliyi yumşaltmağa çalışır. Görünür, Tillersonun Doha səfəri zamanı bu mövzu müzakirə olunub və Vaşinqton Qətərdən müəyyən vədlər alıb. Bu anlaşma Dohanı Vaşinqton təhlükəsindən sığortalayır.

Məsələ ondadır ki, ABŞ hökuməti bu böhranın daha da dərinləşməsində maraqlı deyil. Aydın məsələdir ki, Qətər "ərəb baharı" prosesində bir sıra ölkələrdə, o cümlədən Liviya, Misir, Suriya kimi ölkələrdə silahlı üsyançı qrupları maliyyələşdirib və indi də maliyyələşdirməkdə davam edir. Eyni zamanda körfəzdə bir sıra ərəb ölkələrinin hakim ailələrinin gizli şəkildə İŞİD-i maliyyələşdirdiyi də məlumdur. Ancaq Qətər hökumətinin silahlı qrupları dəstəkləməsi tamamilə açıq olub. Son illərdə Qətərin digər ərəb ölkələri ilə ideoloji-siyasi fikir ayrılığı dərinləşib və apardığı müstəqil siyasət körfəz ölkələrini qıcıqlandırıb. Bu səbəbdən, ona qarşı kəskin mövqe ortaya qoydular. Vaşinqtonla sözügedən anlaşma Qətəri xarici müdaxilə təhdidindən sığortalayır və yaranmış böhranın aradan qaldırılması prosesini sürətləndirəcək. Bu anlaşma Dohanı müəyyən qədər Vaşinqtonun təsiri altına alır. Anlaşma çərçivəsində Doha Vaşinqtonla məlumat mübadiləsi aparacaq və fəaliyyətlərini ABŞ-la koordinasiya edəcək. Bu vəziyyət Vaşinqtonu məmnun etsə də, körfəz ölkələrini razı salmır, çünki faktiki olaraq Qətər heç bir tələbi yerinə yetirmədi.

Eyni zamanda Türkiyə ilk gündən olduğu kimi, Dohanı dəstəkləməkdə davam edir. Artıq Ankara Dohaya hava koridoru da açıb. Üstəlik, ora əsgər göndərməklə Qətərin təhlükəsizliyini faktiki olaraq təminat altına alıb. Bu hadisə bir tərəfdən Türkiyəyə Qətər kimi bir müttəfiq qazandırmaqla yanaşı, ən azından 4 düşmən ölkə qazandırıb. Bu isə Yaxın Şərqə acılmı siyasi hədəf elan edən Ankara üçün ciddi riskdir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

**Bakı Apelyasiya Məhkəməsində hakim Xuraman Məhərrəmovanın sədrliyi ilə Yasamal rayonunda böyük mənzil fırıldaqlarının açılmasında açar rolunu oynaya biləcək şikayət araşdırılır.**



# Vətəndaşları dəlixanaya salıb mənzillərini ələ keçiriblər - şok məhkəmə işi

## İşdən qovulan başçının adı vətəndaşların mülklərinin ələ keçirilməsinə qarışıb

Məsələnin mahiyyəti budur ki, Ədliyyə Nazirliyinin sabiq işçisi Arzu Səfərov 2009-cu ildə 83 min dollar ödəməklə Yasamal rayonu, Yeni Yasamal-1 küçəsi, ev 13 ünvanlı binanın 10 saylı mənzilini alıb. Mənzili satan isə Həsən Novruzov olub. A.Səfərov mənzildə 5 il yaşayıb və günlərin birində Yasamal Rayon Məhkəməsindən ünvanına qətnamə gəlib. Həmin qətnamədən belə aydın olub ki, A.Səfərova satılan mənzil Şirzad Qəhrəmanov soyadlı vətəndaşa məxsusdur. Həmin mənzildə vaxtilə bir qaçqın ailəsi məskunlaşıb. Qaçqın ailəsini isə mənzildən Yasamal rayon 22 saylı Mənzil İstismar Sahəsinin rəisi Saqib Məmmədov çıxarıb və mənzili sahibinə - Şirzad Qəhrəmanova qaytarmaq əvəzinə öz kürəkəni Həsən Novruzovun adına məhkəmə yolu ilə sənədləşdirib. 2009-cu ildə isə mənzili kürəkəni Həsən Novruzovun adından Arzu Səfərova 83 min dollara satıb. Ş.Qəhrəmanov qaçqının mənzildən çıxarıldığını və mənzilin digər bir şəxsin adına keçirildiyini öyrəndikdən sonra məhkəməyə müraciət edərək əmlakının ona qaytarılması iddiası ilə çıxış edib. Məhkəmə iddianı təmin edib və A.Səfərovun ailəsi ilə birgə mənzildən çıxarılmağını, bununla bərabər vicdanlı alıcı kimi ona mənzili alarkən ödədiyi 83 min dolların qaytarılmasını qət edib. Bundan başqa, mənzil Həsən Novruzovun adına sənədləşdirilərkən yol verilən sənədlərin saxtalaşdırılması faktlarının araşdırılması üçün xüsusi qərardad çıxarılıb. Bu məhkəmə çəkişməsi bir müddət əvvəl işdən qovulan Yasamalın icra başçısı İbrahim Mehdiyevin rayon ərazisində baş verən mənzil fırıldaqlarına, vətəndaşların mənzillərinin ələ keçirilməsi faktlarına göz yummasını da ortaya çıxarıb.

**A.Səfərov "Yeni Müsavat"a deyib ki, məhkəmələrin gedişi zamanı öyrənib ki, Saqib Məmmədov-İbrahim Mehdiyev tandeminin əməllərindən zərərçəkən təkcə o deyil. Belə ki, Yasamal ərazisində belə faktlar çox imiş!**

**Onun sözlərinə görə, iş üzrə məhkəmə çəkişmələri 3 ildən artıqdır ki, davam edir. Məhkəmələrə tərəf kimi Həsən Novruzov dəfələrlə rəsmi çağırışla dəvət olunub. H.Novruzov məhkəmə proseslərinə qatılmayıb. Bir müddət əvvəl isə H.Novruzov Ali Məhkəməyə şikayət edərək mənzilin dəyərini mübahisələndirib və işin Bakı Apelyasiya Məhkəməsinə qaytarılmasına nail olub. H.Novruzov deyir ki, mənzili 83 min dollara deyil, guya 32 min 120 manata satib:** "2014-cü ildə məhkəmədən qətnamə alandan sonra mən vəkilimlə birgə H.Novruzovun qayınatası Saqib Məmmədov və mənzilin alqı-satqısında iştirak edən maklerlə söhbətə getmişdim. Anlayırdım ki, Saqib Məmmədov məhkəmələrə yaxın gəlməyəcək, özünün dediyinə görə heç Həsəni də göndərməyəcək. Ondan sonra qərara gəldim ki, vəkilimin iştirakı ilə onu danışdırım. Ehtiyat edirdim ki, evin alqı-satqısı zamanı aldığı pulun məbləğini dansın. Həmin söhbət zamanı o hər şeyi necə etdiyini danışdı və heç bir məhkəmə prosesinə gəlmədi. Heç bir sənəd təqdim etmədi. 2014-cü il avqustun 1-də baş tutan söhbəti də diktofona yazmışdım. Söhbətin stenoqramını da çıxarmışam. Saqib Məmmədov deyir ki, mənzilin alqı-satqısında iştirak edən maklerlər ona 75 min 500 pul veriblər".

**A.Səfərovun sözlərinə görə, S.Məmmədovun kürəkəni H.Novruzovun şikayəti əsasında Bakı Apelyasiya Məhkəməsində iyulun 6-da məhkəməyə hazırlıq iclası keçirilib. Həmin iclasa əvvəllər tanımadıqları 2 qadın da qatılıb:** "Proses yekunlaşdı, qadınlar mənə, vəkilimə yaxınlaşdılar. Aydın oldu ki, həmin qadınlar da Saqib Məmmədov, İbrahim Mehdiyevin yol verdikləri saxtakarlıqlara görə 5 ildən artıqdır ki, məhkəmələrdədir. Həmin qadınlar - Afət Cabbarova və Zümrüd Mehdiyevadır. Qadınlar vaxtilə Yasamal rayonu, Xaqan Dadaşov küçəsində qonşu olublar. Z.Mehdiyeva X.Dadaşov küçəsi ev 8 ünvanında, Afət Cabbarova isə X.Dadaşov küçəsi ev 8 a ünvanında yaşayıblar".







**Şok ittiham:** "Mənzili ələ keçirilənlərdən biri də tatar millətindən olan yaşlı qadındır. Həmin qadının sonradan psixi xəstələr üçün nəzərdə tutulan xəstəxanaya yerləşdirilməsi haqda da məlumat olub"

**Redaksiyamıza təşrif buyuran qadınlar bildiriblər ki, S.Məmmədovun qanunsuzluqlarından şikayət etmədikləri yer qalmayıb.**

"Mən gəlin gətirəndən sonra "JEK"ə getdim, gəlini qeydiyyata saldırmaq istəyirdim. Mənə bir arayış verdilər, baxdım ki, qonşunun evində yaşayan Etibar Məmmədovu bizim ünvana - X.Dadaşov küçəsi 8 a ünvanına qeydiyyata salıblar. Buna sərt reaksiya verdim, Saqib Məmmədov verdikləri arayışı əlimdən zorla almaq istədi. Arayışın balaca bir hissəsi cırılsa da, əlimdən ala bilmədi. Məhkəməyə verdim, icra başçısı İbrahim Mehdiyevin qəbuluna getdim. Ona sual etdim ki, 2 eyni nömrəli ünvan ola bilər. Gülüb məni ələ saldı. Başçının qəbuluna ona görə getmişdim ki, mən məhkəməyə müraciət edəndə cavabdeh kimi Yasamal Rayon İcra Hakimiyyəti iddiamın təmin olunmamasını istəmişdi. İbrahim Mehdiyev etiraz yazmışdı ki, iddiam təmin olunmasın. Mən iddiamla tələb edirdim ki, Etibar Məmmədov bizim ünvandan qeydiyyatdan çıxarılsın. İbrahim Mehdiyevə Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin verdiyi ünvan arayışımı göstərib ondan məhkəməyə yazdığı etirazı əsaslandırmasını tələb etdim. Gördü ki, saxtakarlıqlarının üstü açılır, dedi ki, mən sənə kömək etməyəcəyəm. Həmin arayışı alana qədər İbrahim Mehdiyevin məhkəməyə göndərdiyi hüquqşünas üzümüzə direşirdi ki, guya biz X.Dadaşov küçəsi 8 ünvanında yaşayırıq. Arayışda isə əsl həqiqət yazılmışdı, biz X.Dadaşov 8 a ünvanında yaşayırıq" - deyə Afət Cabbarova bildirib.

**Z.Mehdiyeva bildirib ki, Saqib Məmmədovla İbrahim Mehdiyev ünvanları səhv göstərməklə faktiki olaraq onun 354 kvadrat metrlik evinin dələduzluqla ələ keçirilməsinə "qanuni don" geydirməyə nail olmaq istəyiblər:** "Bu gün mənim Yasamal rayonu, X.Dadaşov 8 ünvanında yerləşən 2 mərtəbəli evimdə Etibar Məmmədov yaşayır. O, 22 saylı "JEK"in rəisi Saqib Məmmədovun əli ilə mənim evimi özəlləşdirib. E.Məmmədov, faktiki olaraq, mənim evimdə yaşasa da, rəsmi sənədlərə qonşunun ünvanını özəlləşdirib. 5 ildir ki, Azərbaycan məhkəmələri Saqib Məmmədovla İbrahim Mehdiyevin qurduqları cinayətin sonuna çıxa bilmirlər".

**Z.Mehdiyeva bildirib ki, E.Məmmədov evinə kirəkeş kimi gəlib və sonradan sənədlərin saxtalaşdırılması yolu ilə mülkünü əlindən alıblar:** "1993-də Etibarın bacısı Tirmədən 4 min dollar borc almışdım. 2 il müddətində həmin 4 min dolların 30 faizini hər ay ödəmişəm. Hər ay 1200 dollar ödədim. Sonra inflyasiya oldu, ödəyə bilmədim. Ona görə də təklif etdim ki, evimdə yaşamaq üçün kirəkeş tapsınlar. Kirəkeşdən aldıqları pulu da götürsünlər, pullarını tam alandan sonra evimi boşaltsınlar. Özüm də 2 uşaq və anamla gedib xalamın evinin zirzəmisində yaşamışam. Tirmə də öz qardaşı Etibarı evimə kirəkeş göndərdi. Düşünürdüm ki, pullarını götürəndən sonra evimdən çıxacaqlar. Amma çıxmadılar. Üstəlik, qonşunun mənzilinə də qeydiyyata düşüblər. Bizim şikayətlərimiz əsasında Saqib Məmmədovun əməllərinin araşdırılması üçün məhkəmə xüsusi qərardad çıxararaq Yasamal Rayon Prokurorluğuna göndərib. Lakin prokurorluq deyir ki, Saqib Məmmədov kristal adamdır, onun barəsində cinayət işi başlaya bilmərik. Ona görə də baş prokurordan xahiş edirik ki, Saqib Məmmədovun əməllərinin araşdırılmasını digər prokurorluq orqanına tapşırsın. Mənim Yasamalda olan yeganə mülkümü saxtakarlıqla əlimdən alıblar. Məhkəmələrdə bu saxtakarlıqlar sübut olunur, Yasamal Prokurorluğu isə həmin saxtakarlıqları araşdırmaqdan yayınır".

Qadınlar bildiriblər ki, 22 saylı Mənzil İstismar Sahəsinin sabiq müdiri Saqib Məmmədovun Yasamal rayonu ərazisində tənha, kimsəsiz ahıl yaşda vətəndaşların, qaçqınların məskunlaşdığı mənzilləri ələ keçirməsi haqda məlumatlar eşidiblər. Mənzili ələ keçirilənlərdən biri də tatar millətindən olan yaşlı qadındır. Həmin qadının sonradan psixi xəstələr üçün nəzərdə tutulan xəstəxanaya yerləşdirilməsi haqda da məlumat olub.

**Arzu Səfərovun, Z.Mehdiyeva və A.Cabbarovanın redaksiyamıza təqdim etdikləri sənədlərdən, məhkəmə və xətşünaslıq ekspertizası rəylərindən, xüsusi qərardadlardan, stenoqramdan belə aydın olur ki, ortada vətəndaşlara qarşı törədilən cinayətlər haqda çoxsaylı sübutlar var. Vətəndaşların Konstitusiyamızın təməl prinsiplərindən olan mülkiyyət hüquqlarına qəsd açıq-aydın görünür. Bəs niyə bu qədər üzdə olan faktlara hüquqi müstəvidə qiymət verilməyib?**

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

**Bu gün UEFA Avropa Liqasının II mərhələsində Azərbaycanın "Zirə" klubu səfərdə Rumıniyanın "Astra" komandası ilə qarşılaşacaq. 7 min azarkeş tutan "Marin Anastasoviçi" stadionunda keçiriləcək matç Bakı vaxtilə saat 21:30-da başlayacaq.**






# "Zirə" "Qara şeytanlar"ın caynağında - haydı, "Qəbələ"...

## Bu gün daha iki klubumuz Avroliqada güclü rəqiblərlə qarşılaşır

### "Astra" üçün Avroliqaya göydəndüşmə vəsiqə

"Astra" Avroliqaya "təmiz" vəsiqə qazanmayıb. Çünki klub daxili çempionatı 6-cı yerdə başa vurub. Amma 5-ci pillənin sahibi "CFR Cluj" Avrokuboklarda çıxış üçün lisenziya olmadığı üçün "Astra" Avroliqa şansını sınamaq imkanı qazanıb.

"Astra" Rumıniyanın Corcu şəhərini təmsil edir. Klub 1934-cü ildə yaradılıb. Amma 1998-ci ilədək heç bir uğur qazana bilməyib. 1998-ci ildə isə komanda A divizionuna vəsiqə qazana bilib. Klub 2003-cü ildə şəhərin digər komandası "Petrolul"la birləşərək, "Ployeşti" adı altında çıxış etməyə başlayıb. Bir ara 3-cü liqaya kimi geriləyən komanda 2009-cu ildə yenidən yüksək liqaya qayıdıb. Elə həmin ildən "Astra" adını özünə qaytaran klub, 2012-ci ildə Ployeştidən köçərək, Curcuda məskən salıb.

Klub əsas uğurlarını məhz şəhər dəyişikliyindən sonra qazanmağa başlayıb. Belə ki, komanda yeni şəhərə köçdükdən sonra Rumıniya çempionu (2015/16), ölkə çempionatının gümüş mükafatçısı (2013/14), ölkə kubokunun qalibi (2013/14), finalçısı (2016/17) və iki dəfə ölkə superkubokun (2014, 2016) qalibi olub.

"Astra" qara-ağ formada çıxış edir və azarkeşlər klubu "qara şeytanlar" adlandırırlar. 2012-ci ildə "Astra" ilk dəfə Rımıniya kubokunu almağa yaxın olub. Amma yarımfinalda "ÇFR Cluj" a uduzub. 14 komandanın iştirak etdiyi Rımıniya çempionatı iki mərhələdə keçirilir. Birinci mərhələdə 14 klub ev və qonaq meydanda görüş keçirir. 26 tur başa çatdıqdan sonra klublar iki qrupa bölünür. Birinci dövrədə ilk altılığa düşə bilən komanda öz aralarında ilk 6-lığı müəyyənləşdirmək üçün hər klubla yenə iki oyun keçirir. Digər qrupdakı komandalar da öz aralarında 7-ci və sonuncu yerin sahibini müəyyənləşdirirlər. 13-cü və 14-cü yeri tutan klublar ikinci diviziona düşür.

"Astra" UEFA-nın rəsmi saytının məlumatına görə, ən yaxşı klub komandaları sırasında 97-ci yerdə qərarlaşıb.

1996-cı ildən klubun sahibi "İnter Agro Group"un rəhbəri olan Yoan Nikulaedir. 2005-ci ildə "Astra"nın milyarder prezidenti Nikulae Sosial Demokrat Partiyasının seçki kampaniyasına qanunsuz pul ayırmaqda ittiham edilərək 2 il yarım müddətinə həbs edilib.





### "Astra"nın baş məşqçisi həm qorxur, həm də...

İş orasındadır ki, hazırda klubda heyət problemi var. Yay transferi dövründən sonra klubda vəziyyət xeyli qarışıq görünür. "Astra"nın Avropa Liqasındakı əsas silahı Budesku və Alibek komandanı tərk edibər.



Rumıniya klubunun baş məşqçisi Edvard Yordanesku ölkəsinin mətbuatına açıqlama verərək heyətdəki dəyişikliklərdən narahat olduğunu gizlətməyib.

"Komandada müxtəlif dəyişikliklər oldu. Keyfiyyətli futbolçular transfer etsək də, onlar birlikdə oynamayıblar. "Zirə" ilə ilk görüşün keçirilməsinə isə az vaxt qalıb. Bu amil məni narahat edir. Bəzi mövqelərə futbolçu tapa bilsək, uğur qazana bilərik. Oyunçularımızın çoxu cavandırlar, II və III liqalarda çıxış ediblər. Bizi çətin sınaqlar gözləyir. Rəhbərlik yeni transferlərlə bağlı bəzi vədlər verib. Ümid edirəm ki, tez formalaşacağıq. Tələblərim çox yüksəkdir. Rumıniyanın ən yaxşı komandaları sırasında olmaq istəyirik".

**Yoxlama oyununda adı heç nə deməyən "Snaqov"a 8:0 hesabı ilə qalib gəldikləri oyundan sonra baş məşqçi daha ürəkli danışıb:** "Bizim "Zirə" ilə oyuna hazırlaşmağa az vaxtımız oldu. Şadam ki, vacib oyundan əvvəl yoxlama matçı keçirdik. Komandada çox müsbət məqamlar gördüm".




### Müdafiə xətti güclü görünür: braziliyalı və xorvat...

Qeyd edək ki, "Astra" yay transferində əsas oyunçuların-



dan biri yaponiyalı SetoTakayukini itirib. Klub Eriko da Silva və Filip Mrzljakı isə Rumıniya klublarından transfer edib.

Eriko (Erico Constantino Da Silva) braziliyalıdır. 27 yaşlı müdafiəçinin transfer qiyməti 200 min avrodur. Klubun daha bir braziliyalı üzvü Marquinhosdur (Marcus Vinicius Vidal Cunha).

25 yaşlı yarımmüdafiəçi də rəqib üçün təhlükəlidir.

24 yaşlı Mrzljak isə xorvatdır. Komandanın hücum ümidi isə fransız futbolçu Antoni Le Tallakdır. 34 yaşlı hücumçu Yunanıstanın "Atromitos" klubundan transfer olub. Klubda daha bir əcnəbi futbolçu Pyotr Polçakdır. O, "Krakoviya"(Polşa) klubunda oynayıb.

Klubun əsas qapıçısı isə Plamen İvanov Pelevdir. 25 yaşlı bolqarıstanlının transfer qiyməti 500 min avrodur.

"İnter"ə problem yarada biləcək hücumçulardan biri də rumıniyalı, adı da heç də dilə yatmayan Chipirliudir (Remus Bogdan Chipirliu). 24 yaşlı hücumçu bugünkü qarşılaşmada "Zirə"nin müdafiəçilərinə ciddi problemlər yaşada bilər.

"Astra" - "Zirə" oyununu belaruslu referi Sergey Sinkeviçə tapşırılıb. Yan xətt hakimləri - Vitali Malyutin və Yevgeni Romanov olacaq.

### Haydı, "Qəbələ"...

UEFA Avropa Liqasının ikinci təsnifat mərhələsinin ilk oyununu keçirəcək "Qəbələ" də bu gün "Yagelloniya" (Polşa) klubunu qəbul edəcək.

"Bakcell Arena"da keçiriləcək matç saat 21:00-da başlayacaq.

### "Yagelloniya"nın güclü heyəti var

"Yagelloniya" Polşanın Belostok şəhərini təmsil edir. 1920-ci ildə yaradılmış klub ev oyunlarını 22 min azarkeş tutan "Şəhər stadionu"nunda keçirir. Komandanın əsas ümidi hücumçu 26 yaşlı Fyodr Çernıxdır. "Qəbələ" ilə oyunda adı iştirakçılar sırasında olan Çernıx rus kökənli olsa da, Litva millisində oynayır. Daha bir hücumçu Killian Şeridan irlandiyalıdır. 28 yaşlı hücumçu İrlandiya millisində də oynayıb. "Qəbələ" ilə oyunda meydanda görə biləcəyimiz daha bir oyunçu Karol Sviderskidir. Cəmi 20 yaşı olan polşalı hücumçuya da ümidlər çoxdur. Lukas Sekulski də klubun gənc futbolçularından sayılır. Onun da 26 yaşı var.

### Rəqib klubun məşqçisi nəyə arxayındır?

"Qəbələ" böyük büdcəyə və yaxşı oyunçulara sahib klubdur. Onlar yay fasiləsində 9 oyunçu transfer ediblər. Ancaq bu o demək deyil ki, onlar komandanı gücləndiriblər. Çünki yeni futbolçuların yeni kollektivə uyğunlaşmaq üçün zamana ehtiyacları var".

**"Yagelloniya"nın baş məşqçisi İreniuş Mamrot belə deyib. O bildirib ki, "Qəbələ"nin yeni transferlərinin hamısı start heyətində meydana çıxsa, Polşa klubu üçün daha yaxşı olar:** "Çünki çox az müddət bir yerdə olublar və kollektivin formalaşması vaxt tələb edir. Bu da bizə əlavə şans yaradır".

**İ.Mamrot "Qəbələ"ni yaxşı təhlil etdiklərini söyləyib:** "Onlarda çempionat çoxdan bitib. Amma rəqibin Kiyev "Dinamo"su və "Ludoqorets"lə yoxlama oyunlarının videoyazısına baxmışam. Əlbəttə ki, güclü komandadır. Ancaq biz onların zəif cəhətlərindən istifadə etməyə çalışacağıq".

İnanırıq ki, bu gün hər iki klubumuz meydandan azarkeşləri sevindirəcək nəticə ilə ayrılacaq.

❑ **Nazim SABİROĞLU**





YENİ MÜSAVAT

Son səhifə

N 146 (6760) 13 iyul 2017



## İngiltərədə müsəlmanlarla bağlı "ilk"

Böyük Britaniyada ilk dəfə müsəlmanlar arasında eynicinsli nikah bağlanıb. Bu barədə 11 iyulda "The Daily Telegraph" qəzeti yazıb. Mərasim Uolsoll şəhərindəki nikah idarəsində baş tutub. 24 yaşlı Cahed Çauduri və 19 yaşlı Şon Roqan nikah mərasiminə ənənəvi Banqladeş kostyumlarında gəliblər. "Biz bütün dünyaya göstərəcəyik ki, müsəlmanlar da eynicinsli nikah bağlaya bilərlər" - bunu Çauduri deyib.

Daha öncə yaxınları tərəfindən Çauduri qeyri-ənənəvi cinsi oriyentasiyasına görə təqib və təzyiqə məruz qalıb. Onu 15 yaşından bəri ziyarət etdiyi məsciddən də qovublar. O, dəyişməyə cəhd edib, dərman qəbul edib və hətta bir qızla görüşməyə başlayıb. Amma bunların heç biri ona yardım etməyib. Kişi məhz buna görə intihara cəhd edib, amma gələcək "həyat yoldaşı" ilə tanışlıq onu bu bəladan xilas edib.

İyun ayında isə məlum oldu ki, Kolumbiyada ilk dəfə üç kişi arasında nikah qeydə alınıb.

# Ana südü körpənin həyatını xilas etmir, əksinə...

Körpələrin minimum 6 aya qədər ana südü ilə qidalanması həkimlərin hər zaman səsləndirdiyi tövsiyələrdəndir. Britaniya və İrlandiya həkimləri kifayət qədər ana südü içməyən körpələrin xəstəlikləri ilə bağlı araşdırma apardılar. Amma araşdırma zamanı məlum olub ki, ana südü uşaqda ciddi surətdə dehidrasiyaya (susuzluğa) səbəb olur. Hazırda xəstəxanalarda bununla bağlı statistik məlumatlar toplanır. Kəskin hipernatremik susuzluq nadir, lakin ölümcül bir hal kimi xarakterizə olunur. Güman edilir ki, südvermə populyarlaşdıqca, belə halların sayı arta bilər. Lokal tədqiqatlara əsasən, bəzi xəstəxanalara həftədə bir dəfə körpələr dehidrasiyanın mülayim və ya kəskin forması ilə qəbul edilir.



Lakin bu problemlə ciddi məşğul olmaq üçün tibb icmasına daha çox məlumat lazımdır. Hazırda Britaniya Tibb Departamenti qadınlara ilk 6 ay ərzində körpələri yalnız ana südü ilə qidalandırmağı məsləhət görsə də, problemi hərtərəfli araşdırır.

# Qənaətcil qadın ictimai ayaqyolunda çimir

**Bu qadının unikal həyatı var. Daha doğrusu, onun özü həyatını belə məcraya salıb. Onu tanıyan-bilənlərin dediklərinə görə, bu qadın dünyanın ən qənaətcil qadınıdır. Həyat şərtlərinin ən bahalı olduğu şəhərlərdən birində - Nyu-Yorkda yaşamasına rəğmən, o, gündəlik xərclərini minimuma endirib. Daha doğrusu, bu qadın, ümumiyyətlə, pul xərcləməməyə çalışır. Zibil yeşiklərində tam xarab olmamış, zayı çıxmamış ərzaq, qida, meyvə və tərəvəz axtarır. O, üç ayda bir dəfə mayka, yarım ildə bir dəfə köynək və ya şalvar alır.**

İxtisasca mühasib olan Key Haşimoto bu minvalla ayda 4 min dollara qənaət edir və o pulları yığır. Nyu-Yorkun Harlem səmtində yaşayan Keyin dediyinə görə, sabaha ümidi olmadığından həyatını planlaşdırmağa çalışır. Həftədə 3 dəfə Vest-Sayda gedərək işsizlər və evsizlər üçün pulsuz paylanan yeməklərlə qidalanan Haşimotonun aylıq büdcəsi belədir: 1. Ərzaq - 15 dollar 2. Paltar - 0 dollar 3. Sabun və diş məcunu - ayda 0,17 dollar 4. Mənzil haqqı - 237 dollar.

Haşimoto bu minvalla ayda 4 min dollara qənaət edir. O, 250 min dollar yığaraq ev almaq istəyir.





## 11 yaşlı qızı sürəti artırdığı üçün saxladılar

**Amerikanın Texas ştatındakı Pasadena şəhərində yerli polis departamentinin əməkdaşları 11 yaşlı qızı avtomobilin sürətini artırdığı üçün saxlayıblar. Bu barədə 12 iyulda "Associated Press" xəbər verib. Adı açıqlanmayan qız deyib ki, anası ona sükan arxasında oturmağa icazə verib - baxmayaraq ki, birinci dəfə o, maşını yanında böyüklər olmadan, 10 yaşlı qardaşı salonda oturarkən idarə edib.**

O, Hyustonda yerləşən evinə doğru gedib. Avtomobil həvəskarı sürət həddi maksimum saatda 56 kilometr olan ərazidə sürəti 79-a qədər artırıb. Məhz bu məqam da yol polislərinin diqqətini cəlb edib. Qızın anası Mariya Dexesus Lopesə iki uşağın həyatını təhlükə altında qoyduğu üçün ittiham irəli sürülüb. Qadını 3 min dollarlıq girov müqabilində evə buraxıblar. Sözügedən iş üzrə məhkəmə baxışı 17 iyula təyin edilib. Bu ilin iyul ayında məlum oldu ki, Çinin Quançjou şəhərində 12 yaşlı oğlan avtobus oğurlayıb. Səfər 40 dəqiqə davam edib. Həmin müddət ərzində yeniyetmə 10 kilometrə qədər məsafə qət edib.

## Qoroskop




**QOÇ** - Adi günlərdən birini yaşayacaqsınız. Hansısa qeyri-adi yenilik və ya uğursuzluq gözləməyin. Amma belə bir təqvimdə hər şeydən əvvəl istirahətinizi təmin etməlisiniz, uzaq yol getməyin.

**BUĞA** - Hansısa uğursuzluq haqqında düşünməyin. Çünki iştirakçısı olduğunuz bütün situasiyalar xeyrinizə işləyəcək, səmərəli görüşlər, maliyyə uğurları da yolunuzu gözləyir.

**ƏKİZLƏR** - Hər şeydən əvvəl ünsiyyət qurduğunuz şəxslərin etibarını yoxlayın. Çünki ətrafınızda sizi aldadanlar artıb. Ciddi məbləğdə gəliriniz gözlənilməsə də, gün boyu büdcəniz boş qalmayacaq.

**XƏRÇƏNG** - Sakit bir gün yaşayacaqsınız. Ara-sıra fikir və düşüncələrinizdə təlatümlər baş qaldırsa da, bunu kənardan heç kim bilməyəcək. Səhv və günahlarınızı etiraf etməyi bacarın. Burada qəbahət yoxdur.

**ŞİR** - Saat 13-ə qədər əsəblərinizi cilovlaya bilsəniz, heç bir narahatçılığınız olmayacaq. Ulduzlar təcrübəli insanların məsləhətlərindən yararlanmağı tövsiyə edir. Bu gün imkan daxilində uzaq səfərləri təxirə salın.

**QIZ** - Əsas diqqətinizi maliyyə problemlərinin həllinə yönəldin. Çünki indi - himayədarınız olan Saturnun təsir gücünün artdığı bir vaxtda bunu bacarmasanız, qarşıda sizi uzunmüddətli kasıbçılıq gözləyə bilər.

**TƏRƏZİ** - Səhhətinizi qoruya bilsəniz, gün boyu heç bir çətinliklə rastlaşmayacaqsınız. Ailə-sevgi münasibətlərindəki soyuqluğu aradan qaldırın. Təzə əyin-baş almaq üçün çox uğurlu vaxtdır.

**ƏQRƏB** - Gün ərzində bütün diqqətinizi pulla bağlı məsələlərə yönəldin. Əgər reallığa uyğun addım atsanız, səmərəli nəticəni görəcəksiniz. Uzaqda yaşayan qohumlarınızla əlaqələri dərinləşdirin.

**OXATAN** - Bəxtinizə təzadlı bir gün düşüb. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, ayıq-sayıqlığınızı artırmalı, prosesləri dərindən analiz etməli və məqamındaca addım atmalısınız.

**OĞLAQ** - Ümumən gərgin gün olsa da, özünüzü cilovlamalısınız. Hansısa məsələdə tərəddüdünüz varsa, mütləq etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Hirsli başda ağlın olmamasını da unutmayın.

**SUTÖKƏN** - Yalnız saat 12-14 aralığı gərginlik görünür. Həmin vaxt maksimum ehtiyatlı olun. Qalan zamanda isə çox şey ürəyinizcə olacaq. Hətta perspektivli təkliflər alacağınız da qaçılmazdır.

**BALIQLAR** - İlk öncə bildirək ki, hazırda ciddi bir seçim qarşısındasınız. Tərəddüdləriniz çoxdur. Buna baxmayaraq, özünüzü ələ almalı, cəsarət göstərib seçiminizi etməlisiniz. Çətinlik çəksəniz, məsləhətləşmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Eqoistsənsə, xoşbəxtsən...

Amerikalı alimlər müəyyənləşdiriblər ki, insanlar günahkarlıq hissi keçirmədikləri halda, eqoist olmalarında heç bir problem yoxdur. Çünki bu eqoizm ona xoşbəxtlik gətirir. "Psychological Science" jurnalında yayımlanan araşdırmaya görə, hər nə qədər nəzakət və fədakarlıq insanı böyütsə də, insan ən çox öz mənfəətinin arxasınca gedəndə xoşbəxt olur. Pensilvaniya Universitetinin alimləri bunu bir təcrübə ilə ortaya çıxarıblar. Belə ki, hərəsinə 3 dollar verdikləri 216 tələbəni üç qrupa ayırıblar. İlk qrupa pullarını UNICEF-ə bağışlamaları, ikinci qrupa pulu özlərinə saxlamaları, üçüncü qrupa isə istəyirlərsə, pulu özlərinə saxlamaları, istəməzlərsə bağışlamaları azadlığı tanınıb. Araşdırmanın sonunda məlum olub ki, pulu özünə saxlayan tələbələr digər qrupdakılarla müqayisədə daha çox xoşbəxtdir. Alimlər bildirib ki, bu tələbələr sırf bir qərar vermək məcburiyyətində qalmadıqları üçün xoşbəxtlik hissi keçiriblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Müharibə riski sülh şansına qarşı: nəticəsiz görüşlər nəyi dəyişəcək?

## Rəsmi Bakı: "Ermənistan anlamalıdır ki, status-kvoya güvəndikcə müstəqilliyini tam itirmək riski ilə üzləşəcək"; rusiyalı rəsmi: "Moskva problemin həllində hərəkətə keçməlidir..."

**Xəbər verildiyi kimi, iyulun 12-də Brüsseldə Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbəndyan arasında görüş keçirilib. Görüş ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən təşkil olunub və onların iştirakı ilə keçirilib. Ermənistan XİN-in məlumatına görə, görüşdə danışıqlar prosesinin hərəkətə gətirilməsi naminə müvafiq şəraitin yaradılması müzakirə edilib.**

Məlumata görə, həmsədrlər həmçinin prezidentlərin görüşünün təşkili üçün XİN rəhbərlərindən təkliflərini təqdim etməyi xahiş ediblər. Vasitəçi diplomatların iştirakı ilə XİN başçılarının növbəti görüşünün bu ilin sentyabrda Nyu-Yorkda keçiriləcək BMT Baş Məclisinin iclası zamanı keçirilməsi razılaşdırılıb. Bu barədə həmsədrlərin Məmmədyarov-Nalbəndyan görüşü ilə bağlı yaydıqları bəyanatda deyilir. Bəyanatda habelə deyilir ki, nazirlər öz prezidentlərinə həmsədrlərin bu ilin sonunadək yüksək səviyyəli görüşün keçirilməsi ilə bağlı təklifini çatdırmağa razılıq veriblər. Həmsədrlər prezidentlərin görüşünün təşkilinə köməklərini təklif ediblər. Bəyanatda həmçinin qeyd edilir ki, görüş zamanı təmas xəttindəki son vəziyyət də müzakirə edilib.

**"Həmsədrlər tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin görüşü barəsində təklif hər iki ölkənin xarici işlər nazirləri tərəfindən dövlət başçılarına məruzə ediləcək. Prezidentlərin görüşündən sonra 2017-ci ilin payızında həmsədrlərin regiona təkrar səfəri planlaşdırılıb. Görüş əsnasında xarici işlər naziri Elmar Məmmədyarov bir daha bildirib ki, münaqişə ilə əlaqədar gərginliyin azaldılması və regionda təhlükəsizliyin təmin olunması üçün həmsədrlərin təqdim etdikləri mövcud planlara uyğun olaraq Ermənistan qoşunları Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır. Görüşdə hər hansı mexanizmlərin yaradılması müzakirə mövzusu olmayıb". Bu fikri isə Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev bildirib.**

***

Maraqlıdır ki, Brüssel görüşündən öncə Ermənistan XİN başçısı rusiyalı həmkarı Sergey Lavrovla bir araya gəlib.

Xatırladaq ki, iki ölkə XİN rəhbərlərinin bundan öncəki təması aprelin 29-da Moskvada baş tutmuşdu. Həm Moskva, həm də Brüssel görüşləri neçə vaxtdır dondurulmuş vəziyyətdə olan danışıqlara hansısa stimul vermək və bununla da artmaqda olan müharibə riskini azaltmaq niyyəti güdürdü. Hər halda, vasitəçilərin son bəyanat və açıqlamalarından ən əvvəl belə qənaət hasil olur.

Ancaq sülh prosesində irəliləyiş bu gün Azərbaycandan çox işğalçı Ermənistandan asılı vəziyyətdədir. Alxanlı vəhşiliyi isə göstərdi ki, İrəvan dinc nizamlama prosesinə nəinki konstruktiv yanaşmır, üstəlik, özünün davam edən təxribatları ilə kövrək danışıqlara olan ümidləri də topa tutur. Brüssel görüşü məhz danışıqlar prosesində üzücü durğunluğun davam eləməsi və konflikt zonasında artan eskalasiya faktları fonunda ikiqat önəm kəsb edirdi. Yəni münaqişə ətrafında situasiyanın daha çox hansı məcrada inkişaf tapacağına aydınlıq gətirmək baxımından önəm daşıyırdı.

Hələ ki vasitəçilərin iştirakı ilə nazirlərin budəfəki görüşünün hansı pozitiv nəticələrinin olacağını söyləmək çətindir. Həm də ona görə ki, görüş ərəfəsində də İrəvan rəsmilərinin Dağlıq Qarabağla bağlı barışmaz, danışıqlar prosesinin məntiqi ilə bir araya sığmayan davakar ritorikası davam edib. O sırada hətta Alxanlı vəhşiliyinə dolayısı ilə haqq qazandırılıb.

Erməni tərəfinin radikal, maksimalist mövqeyi özünü habelə eyni gündə - iyulun 11-də Avstriyada başlayan ATƏT XİN başçılarının qeyri-formal görüşündə Ermənistan nümayəndə heyətinin çıxışında da göstərib. Təbii ki, bu mövqe cavabsız qalmayıb. Nümayəndə heyətimizin adekvat reaksiyası ilə üzləşib.

**"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏT regionunda təhlükəsizliyə və sülhə qarşı ən ciddi təhdid olaraq qalmaqda davam edir. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin ATƏT-ə verdiyi mandata baxmayaraq, biz müşahidə edirik ki, təşkilat daxilində əsas meyl münaqişə ilə əlaqədar gərginliyi aradan qaldırmaqdır. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin edilmədən gərginliyin aradan qaldırılması problemi həll etməyəcək".**




**Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, bu fikirlər Azərbaycan nümayəndə heyətinin çıxışında yer alıb. Bildirilib ki, ATƏT daxilində münaqişədə status-kvonun qeyri-davamlı olması barədə yekdil mövqe təsbit edilməlidir:** "Ermənistanın cəbhə xətti boyu münaqişənin gərginləşməsinə yönəlmiş bütün növ təxribatları nəzərə alınaraq status-kvo dəyişilməlidir. Yaşayış məntəqələrinin heç bir fərq qoyulmadan atəşə tutulması nəticəsində iki azərbaycanlı mülki vətəndaşın öldürülməsi Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn kobud surətdə pozmasıdır və bir daha mülki əhalini hədəfə almaqla Azərbaycanı reaksiya verməyə təhrik etmək siyasətinin sübutudur, eyni zamanda Ermənistana sülh səylərini pozmaq üçün bəhanə verir.

Diqqətə çatdırılıb ki, münaqişə həll olunduqdan sonra Ermənistanın hazırkı rejiminin labüd legitimlik böhranı ilə üzləşəcəyi bu rejimi belə təxribatlara əl atmağa sövq edir. Ermənistanın siyasi rəhbərliyi anlayır ki, münaqişənin sülh yolu ilə beynəlxalq hüquqa uyğun həll edilməsi Azərbaycanın işğal olunmuş ərazilər üzərində suverenliyinin və ərazi bütövlüyünün bərpası ilə nəticələnəcək. Məhz buna görə də Ermənistan rəhbərliyi rejimin ömrünü uzatmaq məqsədilə mövcud status-kvonu möhkəmləndirmək üçün hər yola əl atır. Ermənistan dərk etməlidir ki, mövcud status-kvoya güvəndikcə müstəqilliyini tamamilə itirmək və regiondakı siyasi oyunlarda alətə çevrilmək riski ilə üzləşir. Yalnız münaqişəni sülh yolu ilə həll etməklə, Azərbaycan və regionun digər ölkələri ilə yaxşı qonşuluq münasibətləri yaratmaqla Ermənistan öz xalqı üçün müstəqil və xoş gələcək yarada və regionun inkişafından bəhrələnə bilər".

**Çıxışda daha sonra deyilir:** "Təəssüf ki, Ermənistanın xarici işlər naziri Mauerbaxda dialoq imkanını yenə əldən verdi. O, Azərbaycana qarşı əsassız ittihamlarla dolu bəyanatla çıxış etdi. Belə bəyanat daxili siyasi istehlak üçün nəzərdə tutulub. Bu, ATƏT-də gözlənilən çıxış deyil. Bu zalda olan hər kəs anlayır ki, Ermənistan-Azərbaycan münaqişəsində təcavüzkar və təcavüzə məruz qalmış tərəf kimdir. Bizi maraqlandıran sual odur ki, Ermənistanın naziri öz bəyanatı ilə nəyə nail olmaq istəyirdi. Əgər nazir hesab edirsə ki, bu yolla ATƏT daxilində etimad və etibarın bərpasına hansısa töhfə verə bilər, tamamilə aydındır ki, o, iflasa uğradı. Brüsseldə Azərbaycanın xarici işlər naziri və ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə planlaşdırılmış görüşü nəzərə aldıqda, Ermənistanın naziri həddən artıq təxribatçı çıxış səsləndirdi. Biz Ermənistanın nümayəndəliyini həm burada - ATƏT-də, həm də Brüsseldə keçiriləcək danışıqlarda konstruktiv mövqe nümayiş etdirməyə səsləyirik".

***

Göründüyü kimi, Nalbəndyan hətta Brüssel görüşünə saatlar qalmış da ölkəsinin ənənəvi təxribatçı mövqeyini ortaya qoyub. Bir daha İrəvanın ədalətli sülhdə maraqlı olmadığını nümayiş etdirib. Belə olan surətdə görəsən, Azərbaycandan daha hansı "konstruktiv təklif" gözlənilə bilər ki? Fakt odur ki, işğalçı tərəfin təxribatları üzündən bu gün sülh deyil, müharibə şansları artıb.

O üzdən siyasi və hərbi ekspertlər Brüssel görüşünün nəticələrindən dolayı da bir elə nikbin deyillər. Hərçənd **Rusiya siyasi elmlər doktoru, dövlət müşaviri Tatyana Poloskova** hesab edir ki, hələ sülh şansları itirilməyib. Musavat.com-un məlumatına görə, haqqin.az saytına eksklüziv açıqlamasında rusiyalı rəsmi bildirib ki, Rusiya da daxil, böyük dövlətlərin siyasi iradəsi olmadan, Dağlıq Qarabağ problemini çözmək mümkün olmayacaq.

"Aydındır ki, Azərbaycanla Ermənistan arasında gərginlik, onların arasındakı hərbi konflikt manipulyasiya üçün əlverişli alətdir - özü də heç də həmişə bizim ölkələrin xalqlarının marağında olmayan bir alət", - deyə o qeyd edib. Siyasətşünasın fikrincə, bir qrup Rusiya siyasətçisi problemə təkcə Azərbaycan və Ermənistan daxilindəki proseslərə təsir vasitəsi kimi deyil, həm də şəxsi PR faktoru kimi baxır.

"Bu da ola bilər. Mən o fikirlə razıyam ki, münaqişə tərəflərinin siyasi iradəsi olmadan konfliktin həlli mümkün deyil. Lakin prosesdə ən mühüm tərəf həm də Rusiya rəhbərliyidir. Odur ki, anlamaq istəyirəm: Rusiyanın buna siyasi iradəsi varmı və nə dərəcədə tez bir zamanda bu iradə real addımlara çevriləcək?", - deyə dövlət müşaviri sonda sual edib.

***

Əslində bu sualın özü ritorikdir. Çünki rəsmi Moskvanın Dağlıq Qarabağ məsələsinin dinc və ədalətli həllində real irəliləyişə nail olmasına ona özündən başqa heç bir qüvvə əngəl yaratmır, yarada bilməz. O səbəbə ki, problemin həlli üçün ən güclü rıçaq məhz onun əlindədir. Hələ ki onun əlindədir. O üzdən Moskva siyasi iradə göstərmək məsələsində bir qədər tələssə, yaxşıdır. Əks halda, yeni status-kvonun, işğal rejiminin davam edəcəyi təqdirdə əsas rıçaqın da daima onun əlində qalacağına zəmanət yoxdur. Bunu yəqin ki, Kreml dəhlizlərində də bilirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 iyul 2017-ci il Cümə axşamı № 146 (6760) Qiymәti 60 qәpik

**Xəbər**

## General Çovdarovdan Tağı Əhmədovla bağlı sensasion açıqlamalar

yazısı səh.12-də

**Gündəm**

### Ölkənin danışdığı hadisə - oğlu generalı necə rüsvay etdi



Prezident məmurlara yenidən xəbərdarlıq etdi; **işdən qovulan general:** "Mən özümdən başqa heç kimdə günah görmürəm"

yazısı səh.3-də

### Ali Məhkəmə "üsyankar müstəntiq"i həbsdə saxladı

yazısı səh.4-də

### Mətbuat orqanları çətin durumda: ixtisarlar media sektoruna da sıçradı

yazısı səh.5-də

### DSX sədri məktub göndərdi, Rusiyadan təkzib gəldi

yazısı səh.6-da

### Türkiyə səfirliyində 15 iyul hadisələrinin ildönümü anıldı

yazısı səh.7-də

### Samux musiqi məktəbində "ölü kadrlar" necə maaş alır?

yazısı səh.10-da

### ABŞ həm "qaçan"ın, həm də "qovan"ın yanındadır

yazısı səh.13-də

### Sınıqçıların sındırdığı həyatlar...

yazısı səh.10-da

### Araz Ağalarov oğlunun adı qarışan qalmaqaldan danışdı

yazısı səh.13-də

### "Zirə" "Qara şeytanlar"ın caynağında - haydı, "Qəbələ"...

yazısı səh.15-də

## Ermənistan isterikada: "Nə qələt ediblər ki..."

# II QARABAĞ SAVAŞI QAPIDA - MÜMKÜN SSENARİLƏR...

Ermənistanın ən qorxduğu Rusiyanın onları Qarabağda müharibə ilə cəzalandıra biləcəyidir-bu ssenari olarsa, Azərbaycan cəmi bir həftəyə qoşunlarını Laçın koridoruna çıxara, Ağdam-Xocalını işğaldan azad edərək Xankəndinə yaxınlaşa bilər; **rusiyalı ekspert:** "Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir"




yazısı səh.9-da

## Vaşinqtondan Kremlə Bakı üzərindən mesaj - ABŞ Rusiyanın yolunu "kəsir"

Ağ Evin Rusiyaya qarşı ağırlaşan sanksiyaları "Türk axını"nı tormozlaya bilər - ilginc gözlənti; Vaşinqton Moskvanı ən zəif olduğu mübarizə müstəvisinə çəkir; Bakı da gözdə-qulaqda olmalıdır...

yazısı səh.8-də



*Prezident İlham Əliyev:*

### "Balaca Zəhranın və nənəsinin qanı yerdə qalmadı"

yazısı səh.9-da



### Rüfət Aslanlı "aslan" maaşı ilə gündəmdə

yazısı səh.4-də



Siyavuş Novruzov

### YAP funksioneri Rusiyanın "seçki planlarını" alt-üst etdi

yazısı səh.6-da

**13 iyul 2017**

## Generalın oğlu tutuldu, bəs sabiq deputatın oğlu?




**General Novruzəli Orucovun oğluna görə işdən qovulması məmur övladlarının törətdikləri cinayətləri bir daha gündəmə gətirib. N.Orucovun oğlu Rüstəm Orucov ölümlə nəticələnən avtoqəza törətsə də, şərti azadlıqdan məhrum olunub. Buna baxmayaraq, məmur oğlu növbəti cinayəti törətməkdən çəkinməyib. Başının dəstəsi ilə avtobus sürücüsünü 8 dayanacaq təqib edib, sürücünü huşu itənə qədər döyüblər. Sürücü hələ də xəstəxanadadır. Buna görə də R.Orucovun barəsində həbs qərarı verilib, atası işdən çıxarılıb.**

N.Orucov övladına görə işdən qovulan ilk məmur deyil. Amma cəmiyyətə qarşı açıq hörmətsizlik edən, cinayət sifarişi verən məmur övladları da var ki, istintaqdan kənar qalmağı bacara biliblər və bu günə qədər də əməllərinə görə adekvat cəza almayıblar.

2014-cü il aprelin 25-də "Yeni Müsavat"ın reportyoru Fərahim İlqaroğlu yaşadığı binanın girəcəyində döyüldü. Sonradan jurnalisti döyən Feyruz Termişi saxlanıldı. Ona bu təlimatı verən Kik-Boksinq Federasiyasında çalışan Tural Bayramov tutulmadı. T.Bayramov o dövrdə nəqliyyat naziri olan Ziya Məmmədovun yaxınlarının "silləvuranı" kimi tanınırdı. İstintaq araşdırmaları gedişində aydın oldu ki, Fərahim İlqaroğlunun döyülməsi sifarişini Tural Bayramova o dövrdə deputat olan Z.Məmmədovun qardaşı Elton Məmmədovun oğlu Aynar Məmmədov verib. Sifarişin verilməsini şərtləndirən isə jurnalistin A.Məmmədovun avtoxuliqanlığını ictimailəşdirməsi, özünün sosial şəbəkədəki profili üzərindən yayması olub. A.Məmmədov avtoxuliqanlığını gizlətmək üçün jurnalistin qanuni peşə fəaliyyətinə görə döyülməsini sifariş etmişdi. Həmin dövrdə bu məlumatlar ictimailəşdirilsə də, E.Məmmədov mandatından olmadı, oğlu avtoxuliqanlığına görə jurnalisti döyməsini sifariş etməsinə görə məsuliyyətə cəlb olunmadı. Həmin dövrdə bu, Məmmədov klanının güclü olması ilə izah olunurdu. İndi isə Məmmədovların mövqeləri zəiflədilib və A.Məmmədovun jurnalistə qarşı cinayətinin araşdırılması məqamıdır.

❑ **E.MƏMMƏDƏLİYEV**

## Türkiyədə fövqəladə vəziyyət rejimi nə vaxt aradan qaldırılacaq?



**Terrorla mübarizəyə ehtiyac qalmadıqda ölkədə fövqəladə vəziyyət rejimi aradan qaldırılacaq.**

"Trend"in məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Dövlət başçısı qeyd edib ki, Fəthullah Gülən hərəkatı və PKK ilə mübarizədə önəmli bir məsafə qət edildi: "Yeni fövqəladə vəziyyət rejimi çox da uzaq olmayan bir gələcəkdə ləğv edilə bilər".

Qeyd edək ki, Türkiyədə fövqəladə vəziyyət ötən il iyulun 15-də dövlət çevrilişinə cəhddən sonra üç ay müddətinə tətbiq edilib və sonradan bir neçə dəfə uzadılıb.

## Rusiyada tonlarla Azərbaycan pomidoru satışdan yığışdırıldı



**Rusiyada 16,193 ton Azərbaycan pomidoru satışından yığışdırılıb.**

Virtualaz.org Rusiya KİV-inə istinadən bildirir ki, bu barədə Baytarlıq və Fitosanitar Nəzarəti Federal Xidmətinin Kurqansk vilayəti üzrə idarəsindən məlumat verilib.

Məlumatda bildirilir ki, Azərbaycan Respublikasından gətirilən tərəvəzlərdə zərərverici - Cənubi Amerika güvəsi aşkar edilib.

Federal Xidmət region ərazisində zərərvericilərə yoluxmuş məhsulun satışını qadağan edib. Sahibkarlara təlimat verilib ki, pomidorları dezinfeksiya etsinlər.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Lapşinin məhkəmə istintaqı başa çatıb

**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycanda həbsdə olan blogger Aleksandr Lapşinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



APA-nın məlumatına görə, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən iclasda şahid qismində ekspert Almaz Bayramova ifadə verib. O, A. Lapşinin yazıları ilə bağlı tərtib etdiyi rəyi təsdiqləyib. A. Lapşinin vəkili Eduard Çerninin suallarını cavablandıran şahid bildirib ki, A. Lapşin yazılarında Azərbaycanın ərazi bütövlüyünə qarşı çağırışlar edib: "Məsələn, yazısında göstərib ki, "Ermənistan hardadırsa, Qarabağ da ordadır". Qarabağın adını "Artsax" kimi qeyd edib".

**A.Lapşin şahidə suallar verib:** "Mən yazımda göstərmişəm ki, Qarabağda Azərbaycana məxsus yüksəkliklərə Ermənistan nəzarət edir. Bəs siz nə üçün bu yazıma da rəy verməmisiniz?"

Ekspert belə bir yazıya rast gəlmədiyini deyib.

A.Lapşinin vəkili vəsatətlə çıxış edərək, məhkəmədə dindirilən şahidlərin yalnız internet üzərindən hadisəyə istinad etməsinin məqbul sayılmadığını və şahidlərin ifadələrinin sübutlar siyahısından çıxarılmasını istəyib.

Hakimlər Kollegiyası bu vəsatətə müşavirə otağında qərar elan edilərkən baxılacağını deyib və vəsatəti bu səbəbdən təmin etməyib.

Prosesdə məhkəmə istintaqının başa çatdığı elan olunub.

Prokuror çıxış üçün məhkəmədən vaxt istəyib.

Proses iyulun 14-də davam etdiriləcək.

Qeyd edək ki, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan A. Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi əsasında təqsirləndirilən şəxs qismində cəlb edilərək beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya edilib.

A.Lapşin Cinayət Məcəlləsinin 281.2 (dövlətə qarşı açıq çağırışlar) və 318.2 (sərhədi qanunsuz keçmək) maddələri üzrə ittiham olunur.



## Rayonlarda şimşək çaxacaq, yağış yağacaq

**İyulun 13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, şimal-şərq küləyi əsəcək.

Havanın temperaturunun yarımadada gecə 21-24° isti, gündüz 29-34° isti, Bakıda gecə 22-24° isti, gündüz 31-33° isti olacağı gözlənilir.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 21-22°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 22-23°, Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən, dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 20-25° isti, gündüz 32-37° isti, dağlarda gecə 12-17° isti, gündüz 20-25° isti olacaq.

## Vergilər Nazirliyində beş sahibkar barəsində həbs-qətimkan tədbiri seçildi




**2017-ci ilin I yarısında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 139 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 7 milyon 806,5 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.**

Nazirlikdən APA-ya verilən məlumata görə, 38 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilib.

Departamentin İstintaq idarəsində 254 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 5 nəfər təqsirləndirilən şəxs barəsində həbs-qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 65 iş üzrə 75 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 13 nəfər şəxs tutularaq departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 129 şəxsin məcburi qaydada gətirilməsi, 172 şəxsin tapılaraq istintaqa gəlmələri, 190 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 82 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlmələri təmin olunub.

## Azərbaycanda 3 nəfər zəhərlənmədən ölüb

**Bu ilin 6 ayında 188 zəhərlənmə hadisəsi qeydə alınıb. Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən virtualaz.org saytına verilən məlumatda deyilir ki, zəhərlənmə nəticəsində 3 nəfər dünyasını dəyişib.**

İlin birinci yarısında 285 nəfər zəhərlənib. 21 botulizm hadisəsi baş verib. İyun ayında 24 zəhərlənmə qeydə alınıb, nəticədə 31 nəfər zərər çəkib.

Qeyd edək ki, zəhərlənmələrin ən ağır forması insan ölümünə səbəb olan botulizmdır. Oksigen olmayan şəraitdə botulotoksin əmələ gəlir və insanda botulizm adlı xəstəlik baş verir. Zəhərlənmələrin əksəriyyəti evdə hazırlanan qidalardan baş verib.



## Pirallahıda şpris istehsal edən zavod tikiləcək

**Pirallahı Sənaye Parkının yeni rezidenti - "Diamed Co" MMC tərəfindən burada qabaqcıl Avropa ölkələri, eləcə də Yaponiya və Koreya texnologiyaları əsasında ildə 55-58 milyon ədəd müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı nəzərdə tutulur.**

İqtisadiyyat Nazirliyi bildirir ki, zavodda şpris istehsalı zamanı yerli və xarici xammaldan istifadə edilməsi planlaşdırılır.

Zavod tam gücü ilə işə düşdükdən sonra Azərbaycanda əczaçılıq sənayesinin inkişafında əhəmiyyətli rol oynamaqla, daxili tələbat yerli istehsal hesabına keyfiyyətli birdəfəlik şprislə təmin edəcək, bu məhsullara idxaldan asılılığı azaldacaq və ixrac potensialını artıracaq.

Müasir avadanlıqlar və texnologiyalarla təchiz ediləcək zavodda 50 yeni iş yeri açılacaq.

## Erməni əsgəri Azərbaycan əsgərinə məktub yazdı

**Epress nəşri erməni ordusunun müddətli hərbi qulluqçusunun Gürcüstanda tanış olduğu dostuna - Azərbaycan əsgərinə ünvanlanmış məktubunu dərc edib.**

Virtualaz.org-un Ermənistan bürosu bildirir ki, məktubda deyilir: "Məni orduya çağırdılar və iki il mən də nifrət oyadan yerdə olacağam. Biz ölkələrimizin münaqişəsi haqqında çox danışırdıq və səndə bütün bunlara mənim baxışlarım haqda ümumi fikir var. Beləliklə, sənə yazıram ki, xatırlayasan. Bir çox millətçilərin, nasistlərin, psevdopatriotların və başqalarının içərisində həmçinin mən də xidmət edirəm. Və sən erməni milləti (dolaşıq yazılıb-red.) və erməni ordusu haqqında nə eşitsən də, bil ki, mən də oradayam. Böyük nifrətlə və seçim haqqı əlindən alınmış vəziyyətdə".

Hərbçinin qeyd etdiyi kimi, ona təskinlik verən yeganə məqam odur ki, iki ildən sonra azad olacaq və onda üzərində "boynuna dolanmış heç bir borc" qalmayacaq.

"Uğurlar sənə, qardaş və bil - bizim kimiləri az deyil!" - deyə erməni əsgəri azərbaycanlıya yazdığı müraciətini tamamlayıb.

## Britaniyanın neft servis şirkəti Azərbaycanı tərk edir

**Böyük Britaniyanın "Petrowell" neft servis şirkətinin filialı "Petrowell Caspian LTD" Azərbaycandakı nümayəndəliyinin bağlanması barədə elan edib.**

"Trend"in məlumatına görə, şirkətin kreditorları öz tələblərini növbəti iki ay ərzində Bakı, M.Muxtarov küçəsi 203A, 37 ünvanına irəli sürə bilərlər.

Qeyd edək ki, "Petrowell" şirkəti müxtəlif neft-qaz avadanlığının layihələndirilməsi, hazırlanması, istehsalı və sınaqdan keçirilməsi sahəsində ixtisaslaşır.

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Ölkənin danışdığı hadisə - oğlu generalı necə rüsvay etdi

## Prezident məmurlara yenidən xəbərdarlıq etdi; **işdən qovulan general:** "Mən özümdən başqa heç kimdə günah görmürəm"

**Avtobus sürücüsünə hücum edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini (artıq sabiq müavin - red.) Novruzəli Orucovun oğlu Rüstəm Orucov həbs edilib, Novruzəli Orucov isə prezidentin sərəncamı ilə vəzifəsin-**




Baş Prokurorluq generalın oğlunun həbs edilməsi ilə bağlı açıqlamasında bildirib ki, 2017-ci il iyulun 3-də Bakı şəhər sakini Rüstəm Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu 8 dayanacaq təqib edərək sərnişinlərin narahatçılığına və insanlarda vahiməyə səbəb olub, vətəndaşların gözü qarşısında bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib. Baş Prokurorluğun məlumatında həmçinin qeyd edilir ki, Rüstəm Orucov piyadanın ölümünə səbəb olan yol nəqliyyat hadisəsi törədib hadisə yerindən qaçdığına görə hələ 2014-cü ildə 4 il müddətinə azadlıqdan məhrum olub, 2016-cı ildə isə şərti olaraq vaxtından əvvəl azad edilib. Yuxarıda qeyd olunmuş xuliqanlıq hadisəsi də məhz onun şərti azadlıqda olduğu dövrdə baş verib. Faktla bağlı 2017-ci il 4 iyul tarixdə Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb. Rüstəm Orucov həmin maddə ilə ittiham olunaraq barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

İyulun 11-də isə prezident İlham Əliyev general-mayor Novruzəli Orucovun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.




Ölkə prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iyulun 12-də keçirilən iclasında bir daha məmurlara xəbərdarlıq edib.

Prezident deyib ki, dövlət məmurları və onların ailə üzvləri davranış normalarına ciddi əməl etməlidirlər.

Dövlət başçısı xalqa xidmət, təvazökarlıq, təkəbbürlü davranmamaq prinsiplərinin dövlət məmurlarının əsas həyat və fəaliyyət normasına çevrilməsinin zəruriliyini vurğulayıb. Prezident bu məsələdə heç kimə güzəşt olunmadığını və bundan hamının nəticə çıxarmalı olduğunu bildirib.

Yada salaq ki, bundan əvvəl "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin keçmiş sədr müavini Mübariz Mədətov oğlunun "qurbanına" çevrilib. Belə ki, M.Mədətovun oğlu Xalid Mədət xalq artisti, məşhur tarzən Ağasəlim Abdullayevin həyat yoldaşı və nəvəsinin ölümünə səbəb olan nəqliyyat qəzası törədib. Bahalı "Mercedes-Benz G-55" avtomobilini həddən artıq sürətlə idarə etdiyi üçün sözügedən şəxslərin həyatına son qoymuşdu. Nəticədə X.Mədətovun özü həbs edildi, atası isə vəzifəsindən azad olundu.

Sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov da bir neçə il öncə vəzifəsini oğlunun İsmayıllıda sakinlərlə kobud davranışı və rayonda gərginliyə səbəb olma üzündən vəzifəsini itirməli olmuşdu. Nazirin İsmayıllının o zamankı icra bağçısı olan qardaşı da bu olaydan sonra vəzifədən kənarlaşdırılmışdı.

Zığ şossesində avtoxuliqanlıq etdiyi haqda məlumat yayılan polis əməkdaşı Tural Həsənovun atası, Dövlət Gömrük Komitəsinin Yevlax Gömrük İdarəsinin rəisi Əlimməmməd Həsənov da övladının ictimai yerdə qaydaları kobudcasına pozduğuna, qanunlara hörmət etmədiyinə görə tutduğu vəzifədən azad edilib. T. Həsənovun özü də polis orqanlarından da xaric olunub.

Hələlik isə ən son Novruzəli Orucovun vəzifəsinə övladı baiskar oldu.

Bu hadisənin sonuncu olması üçün nə olmalıdır?

**Deputat Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ölkə prezidenti bundan öncə də övladları qanun-qaydanı nəzərə almayan bir neçə yüksək vəzifəli məmuru işdən azad edib. Bu addım da bir ciddi xəbərdarlıqdır:** "Məmur övladları sadə insanlardan daha çox məsuliyyətli olmalıdırlar, harınlıq etməməlidirlər. Bilməlidirlər ki, harınlıq etmələri sonda həm özlərini, həm atalarını zərbə altında qoyacaq. Çoxlu vəsaitin olması o demək deyil ki, qanunları tapdalamalısan, özündən kasıb insanları əzməlisən. Heç kimin hüququnu pozmağa heç kimin ixtiyarı yoxdur. Məmur övladları başqalarına müsbət nümunə olmalıdır. Mən general Novruzəli Orucovun müsahibəsini oxuyanda ona yazığım gəldi ki, övladı onu gətirdi hansı duruma saldı. Dövlət vəzifəsi daşıyan valideynlər bu məsələdə daha məsuliyyətli olmalıdırlar. Vəzifəli şəxslər bilməlidirlər ki, övladlarına aşırı dərəcədə sərbəstlik verməmələri, aşırı dərəcədə vəsait ayırmaları gec-tez onların özlərinin başağrısına çevriləcək. Əziyyətsiz əldə edilən böyük vəsaitlər onlarda harınlıq yaradır. Valideynləri onların baş ağrısına çevriləcək bu cür övladlarına nəzarəti gücləndirməlidirlər. Övlad da başa düşməlidir ki, atası vəzifədədirsə, özünü daha məsuliyyətli, tərbiyəli aparmalıdır".

**Deputat Zahid Oruc isə prezidentin qərarını dürüst məmur obrazının formalaşdırılması üçün prezidentin uzun illər həyata keçirdiyi xəttin növbəti həlqəsi adlandırıb:** "Ötən on illər ərzində cənab prezident komanda üzvlərinə qarşı təvazökarlıq, xalq qarşısında hesabatlılıq, hər bir hərəkətlərinin ölçülü-biçili səviyyədə aparılması kimi keyfiyyətləri tələb edib. Bəziləri isə nəticə çıxarmayıblar. Düşünürəm ki, belə qanunsuzluqlara, səhvlərə yol verən hər hansı şəxsin özü, yaxud ailə üzvünün davranışına göstərilən reaksiya, həm cəmiyyətin rəyini, həm də komanda üzvlərinin hər birinin yaxın çevrəsinə nümunəvi təsir göstərən, onları hüququn çərçivəsinə alan tədbirlərdir. Biz başa düşməliyik ki, vəzifə məsuliyyət deməkdir. Biz vəzifəni prestij, yaxud özünü başqalarından fərqləndirmək, onun üzərində dominantlıq təşkil etmək, imkanlarının qabarıq nümayişinə çevirməməliyik. Dövlət başçısı bir daha sübut etdi ki, o, hər kəsə bu kriteriyadan yanaşır. Prezidentin son qərarı hər birimizin ürəyindən xəbər verir və hamımız üçün bir siqnaldır".

**Novruzəli Orucov isə oğlunun törətdiyi cinayətə görə özünü günahkar sayır. Bu barədə o, dünən yenicag.az-a açıqlamasında belə deyib. N.Orucov bildirib ki, prezident onu daha əvvəl işdən çıxartmalı idi:** "Hadisədir baş verib, mübahisə yaranıb və sonu da belə olub. Bu məsələdə vəzifəli şəxs kimi mənim də səhvim çox böyük olub, uşağı başlı-başına buraxmışam. Başlı-başına deyəndə ki... Mən özüm atasız böyümüşəm, istəməmişəm ki, uşaqlarım da nəyinsə ehtiyacını çəksinlər. Atam Böyük Vətən müharibəsinin iştirakçısı olub, 1943-cü ildə yaralanıb gəlmişdi, onu altı yaşımda itirmişəm. Altı uşaq olmuşuq, çox ağır ailə həyatı sürmüşəm. Ancaq böyüdük, oxuduq, hamımız ali təhsil aldıq.

Deyim ki, oğlum birinci hadisəni törədəndə cənab prezident, Ali Baş Komandanım mənə çox hörmət elədi, məni o zaman işdən çıxartmalı idi. Açığı, onda özüm də işdən getməyə hazırlaşırdım. Ancaq xidmətlərim nəzərə alındı və işimə davam etməyim məsləhət oldu. Bu dəfə hadisə ilə bağlı cənab prezidentə məruzə edilib və o da qərarını verib. Mən özümdən başqa heç kimdə günah görmürəm. İki oğlum, bir qızım var. Bu, mənim sonbeşiyimdir, bir az ərköyün böyütdük. İdmançı uşaqdır, 1200 metrdən paraşütdən tullanmaq üzrə dünya rekordçusudur.

Bir ata kimi, bir general kimi bütün valideynlərə səslənirəm, yeri gələndə övladlarını sıxsınlar, xüsusilə oğlan uşaqlarına lap bir sillə vursunlar ki, onlar pis hərəkətlər etməsinlər".

❑ Etibar SEYİDAĞA

# "Qarabağ"la oyunda baş verənlərlə bağlı DİN-dən açıqlama

**Bəzi KİV-lərdə iyulun 11-də Bakıda keçirilən "Qarabağ" - "Samtredia" matçı öncəsi bir qrup azarkeşin ermənilərin qətlə yetirdikləri 2 yaşlı Zəhra haqqında hazırladıqları pankartı polis əməkdaşlarının stadiona buraxmadıqları və buna görə də həmin azarkeş qrupun üzvlərinin matçı tərk etməsi barədə xəbər yayılıb.**

İddiaların doğru olub-olmadığını öyrənmək üçün DİN-in mətbuat xidməti ilə əlaqə saxladıq.

Mətbuat xidmətinin şöbə rəisi **İlham Babayev** musavat.com-a bildirib ki, belə bir fakt qeydə alınıb: "Əvvəla, onu deyim ki, öz xalqına və dövlətinə sədaqətlə xidmət edən Azərbaycan polisi 2 yaşlı Zəhra balamızın faciəsi ilə əlaqədar olan ümumxalq kədəri, düşmənə nifrəti ürəkdən bölüşür. Lakin dünən bu faciədən öz çirkin siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstərən ünsürlərə rast gəldik. Belə ki, futbol matçı öncəsi stadionda və ətrafında ictimai asayişə və ictimai təhlükəsizliyə nəzarəti həyata keçirən polis əməkdaşları qeyd edilən pankartla yanaşı, digər siyasi məzmunlu şüar və plakatları da daşıyan bəzi dırnaqarası azarkeşlərin stadiona daxil olmalarının qarşısını alıblar. Bu zaman məlum olub ki, belə şüarların əksəriyyəti Azərbaycanı istəməyən bəzi xarici kəşfiyyat orqanlarının həbsdə olan nökərlərinin azadlığa buraxılmasını tələb edən siyasi məzmun daşıyır. Deməli, bu ünsürlər 2 yaşlı günahsız Zəhra balamızın faciəsindən sui-istifadə edərək öz çirkin məqsədlərini həyata keçirməyə cəhd edirlərmiş".

**İ.Babayevin sözlərinə görə, bundan əlavə, ölkəmizin də üzv olduğu Avropa Konvensiyası, eləcə də "Bədən tərbiyəsi və idman haqqında" Qanun kütləvi oyunlar, futbol matçları zamanı idmana aid olmayan pankartların, şüarların stadiona keçirilməsini qadağan edir:** "Belə hal qeydə alınarsa, ev sahibi olan kluba, idman təşkilatına beynəlxalq sanksiyalar tətbiq olunur və yarışlardan kənarlaşdırılmaya qədər cəzalandırıla bilər".

**Mətbuat xidmətinin şöbə rəisi deyib:** "Ona görə də bir qrup dırnaqarası azarkeşin polis əməkdaşlarının bu hərəkətini qınaması ədalətsizlikdir. Əksinə, asayiş keşikçilərimiz düşmən tərəfindən qətlə yetirilən məsum körpənin faciəsindən yararlanaraq idmanla heç bir əlaqəsi olmayan öz siyasi məqsədlərinə çatmaq istəyənlərin və bununla da dövlətimiz, idmanımız haqqında beynəlxalq arenada mənfi fikir formalaşdırmağa uğursuz cəhd edənlərin qarşısını alıblar. Azarkeş "fan-klub" adından sui-istifadə edən beləleri birdəfəlik bilməlidirlər ki, bundan sonra da siyasi məqsədlər üçün heç kimə bu cür hərəkətləri təkrarlamağa imkan verilməyəcək".

❑ Musavat.com



# General oğlunun döydüyü sürücü...

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini, Həqiqi hərbi xidmətə çağırış baş idarəsinin rəisi Novruzəli Orucov tutduğu vəzifədən azad olunub.**

Yenicag.az xəbər verir ki, general-mayorun işindən azad olunmasına səbəb olan oğlu Rüstəm Orucovun xuliqanlıq əməlinə görə həbs olunmasıdır.

O, "Xaliq Faiqoğlu" MMC-yə məxsus 85 saylı marşrutun sürücüsünü döyməkdə təqsirli bilinir. Hadisə zamanı zərərçəkən sürücü Səmədov Sənan Mehman oğlunun fotosunu təqdim edirik.

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

**Maliyyə Bazarlarına Nəzarət Palatası rəhbərliyinin əməkhaqları ilə bağlı sensasion məlumat dərc edilib. İki gündür mediada və sosial şəbəkələrdə ciddi müzakirə mövzusuna çevrilən bu məlumatda iddia edilir ki, Palatanın Direktorlar Şurasının sədri Rüfət Aslanlı ayda 65 min manat, müavinlərinin hər biri 38000, icraçı direktor 18000, departament direktorları 10000, sıravi işçilər isə 800-1500 manat rəsmi məvacib alırlar.**

# Rüfət Aslanlının "aslan" maaşı gündəmdə

## Natiq Cəfərli: "Təkzibin normal şəkildə verilməməsi şübhələr yaradır"

Təkcə Rüfət Aslanlı və 2 müavininin əməkhaqlarının ödənilməsinə ildə 2 milyon manat vəsait sərf edildiyi qeyd edilir.

Qeyd edək ki, Rüfət Aslanlının iddia edilən maaşı prezident İlham Əliyevin maaşından 4 dəfə, ölkədəki orta aylıq əməkhaqqından 130, orta aylıq pensiyadan 325 dəfə çoxdur.

**Modern.az bu iddialarla bağlı Maliyyə Bazarlarına Nəzarət Palatasından cavab almağa çalışıb. Palata sorğuya cavab olaraq yayılmış məlumatları təkzib edib:** "Bu cür məlumatlar həqiqətə uyğun olmadığından şərhə ehtiyac görmürük. Bunun həqiqət olmasına inanmaq özü sadəlövhlükdür".

İki gün boyunca mediada və ictimai müzakirələrdə geniş rezonans doğuran bu xəbər təkzib olunsa da, yenə də onun mənbəyi maraq mövzusu olaraq qalır. Bu rəqəm havadanmı götürülmüşdü? Bunu yayan sayt kimə və hansı mənbəyə istinad edirdi? Yenə yazdıqları xəbərin arxasında dayanırlarmı?

**Xəbəri yayan moderator.az saytının baş redaktoru Zülfüqar Hüseynzadə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, onlara gələn bir informasiya əsasında belə bir xəbər yayıblar. Amma müsahibimiz təkzib verildiyi üçün mövzunun da onlar üçün qapandığını dedi:** "Məsələni ictimailəşdirdik. Kaş ki, doğru olmasın. Bizim əsas missiyamız prezidentin çağırışlarına dəstək verməkdir. Bugünlərdə hətta Özbəkistan prezidenti demişdi ki, korrupsiyadan yazın. Biz bu cür məlumatı ictimailəşdirməklə həmin qurumun nüfuzuna xələl gətirmirik".

**"Könül istərdi ki, biz yanılaq, belə şeylər olmasın" deyən müsahibimizə görə, oxucular da onlara çoxsaylı müraciətlər edir. Baş redaktorun sözlərinə görə, indi hər kəs banklara borcludur. Bu məsələ ilə bağlı müvafiq qurumlara tapşırıq verilib ki, məsələ həllini tapsın, şəffaflıq olsun:** "Banklar insanların mal-mülkünü alırlar, onları borclarına görə çox pis duruma salırlar. Amma bizim kimisə hədəfə götürmək fikrimiz yoxdur. Sadəcə, bu informasiyanı dəqiqləşdirmək imkanımız olmayıb. Dediyim kimi, təkzib yayılandan sonra isə mövzu bizim üçün qapandı".



Rüfət Aslanlı

**İqtisadçı ekspert Natiq Cəfərli isə hesab edir ki, prinsipial, texniki və qanunvericilik baxımından belə məvacib durumunun olması mümkündür. Müsahibimiz xatırlatdı ki, Rusiyanın dövlət orqanlarında məvaciblər milyonlarla ölçülür:** "Sadəcə, təkzibin normal şəkildə verilməməsi, ictimaiyyətə informasiyanın detallı çatdırılmaması şübhələr yaradır. Həmin qurumun rəhbərliyi bu məlumatdan sonra sakinləri qane edəcək səviyyədə açıqlama verməlidir. Dövlətin təsis etdiyi bir qurumdan söhbət gedir. Cəmiyyət orda çalışan insanların məvaciblərini bilməlidir. Bu açıqlama xatirinə açıqlama vermək şübhələri daha da artırır".

**N.Cəfərli bir daha vurğuladı ki, səslənən rəqəmlərin gerçəyi əks etdirməsi mümkündür. Amma hansı qurumun, hansı gəlirliliyin müqabilində bunun yazılması əsas sualdır:** "Publik hüquqi şəxs olsa da, banklardan müəyyən üzvlük haqqı, faiz qazanır. Bu Palata keçən ili gəlirlə yox, zərərlə başa vurub. Yaradılışının ilk ilində zərərlə qapadıb ili. Əslində isə mən belə düşünürəm ki, dövlət idarələrində, nazirliklərdə çalışan insanlar yüksək maaş almalıdılar ki, korrupsiyanın qarşısını alsınlar. Şəffaf və açıq olmalı insanlar barədə informasiyalar da açıq olmalıdır. Nazir və məmurların həyat tərzinə baxanda məlum olur ki bu maaşla belə dəbdəbəli həyat tərzi keçirmək olmaz. Hansısa bir məmur bir imzası, qanunsuz bir əməli ilə milyonlar qazanırsa və yüksək maaşla onu bundan çəkindirmək mümkündürsə, bu, edilməlidir. Palatanın borcudur ki, ictimaiyyəti açıq şəkildə bu barədə məlumatlandırsın. Palata gəlirlər işləyirsə, top menecerlərin də yüksək məvacib alması tam mümkündür".

❑ **Sevinc TELMANQIZI**

# Ali Məhkəmə "üsyankar müstəntiq"i həbsdə saxladı

## Eldar Sabiroğlu: "Oğlumun həbs qərarını qüvvədə saxlayan hakimi vaxtilə bolluca tərifləmişdim..."

**İyulun 11-də Ali Məhkəmə Zərdab Rayon Prokurorluğunun müstəntiqi vəzifəsindən istefa verdikdən sonra həbs olunan Rüfət Səfərovun kasasiya şikayətini təmin etməyib. Prosesə hakim Gülzar Rzayeva sədrlik edib. R.Səfərov məhkəmə heyətinə etiraz etməyib. Vəkillər Bəhruz Bayramov, Yalçın İmanov və Fariz Namazlı keçmiş müstəntiqin günahının olmadığını, ittihamların istintaqda və məhkəmədə sübut olunmadığını, istintaqın və məhkəmələrin qanun pozuntuları ilə keçirildiyini bildirib. Vəkillər məhkəmədən cinayət işinə xitam verilməsi və Rüfət Səfərova bəraət verilməsi barədə qərar qəbul etməsini xahiş edib.**

**Vəkil Yalçın İmanov** deyib ki, məhkəmə vəkilə və Rüfət Səfərova son çıxışa hazırlaşmaq üçün vaxt verməyib. "Hüququn əsas prinsipi belədir: "Bir şahid şahid deyil". İstənilən adam istənilən şəxsə şər ata bilər və istədiyini deyə bilər. Rüfət Səfərova qarşı deyilən rüşvəti sübut edən hər hansı fakt yoxdur və təsdiq edilməyib".

**Vəkilin və R. Səfərovun son söz deməsi üçün birinci instansiya məhkəməsi cəmi 15 dəqiqə vaxt verib.** "Şəxsin özünü müdafiəsi üçün hazırlaşmağa cəmi 15 dəqiqə vaxt verilirsə, bu məhkəmənin sifarişi notarial qaydada təsdiqi kimi başa düşülməlidir" deyə, Y. İmanov qeyd edib.

**R.Səfərovun atası Eldar Sabiroğlu isə məhkəmə barədə sosial şəbəkədəki statusunda qeyd edib ki, bu dəfə oğlunu dəmir barmaqlıqlar arasına yox, şüşəli qəfəsin içərisinə salmışdılar. "Sanki qatı cinayətkar kimi qaçışından ehtiyat edirdilər" deyən**



**E.Sabiroğluna görə, müttəhimin anası Tahirə xanımla bu mənzərəni seyr etmək onlara son dərəcə ağır gəlib:** "Övladım bir günahın sahibi deyil, amma həbsxanadadır. Güvəncimiz yenə Uca Rəbbimizədir. Yalnız onun ədalətinə inanır və tapınırıq. Gün gələcək ki, qaranlıqların üzərinə bir işıq düşəcək, həqiqəti, doğruları dediyinə görə 9 il müddətinə azadlıqdan məhrum edilən Rüfətin və digər günahsız həbs edilənlərin əzablı taleyi aydınlığa çıxacaq. Arzuları çoxdur Rüfətin. Allah yerdə qoymaz yəqin".

**Oğlunun şüşəli qəfəsin içində çox məğrur göründüyünü deyən E.Sabiroğlu özünün, anasının və məhkəmədə iştirak edən dostlarının onun cəsarətli, məntiqli çıxışından qürur duyduğunu vurğulayıb:** "Bu məmləkətdə müstəntiq vəzifəsinin nə demək olduğunu hər kəs gözəl bilir. Rüfət karyeranın və komfortun, gün-güzəranın üzərindən xətti çəkib ədalətli bir ölkədə yaşamaq üçün istefa verib haqqın tərəfində durdu. Əgər rüşvəti belə sevən idisə nədən vəzifəsindən ayrılırdı? Qalıb işləyər, bir tərəfdən də o çapıbtalayardı. Ancaq istefasından sonra üzünə öyrədilmiş idarə rəislərini qoyaraq onu "içəriyə" atdılar."

**E.Sabiroğlu oğlunun həbs qərarını qüvvədə saxlayan hakim barədə də maraqlı faktlar yazıb:** "Ali Məhkəmənin hakimi Gülzar Rzayeva ədalətsiz hökmü qüvvədə saxladı. Həmin an qeyri-ixtiyari gözlərim Gülzar xanıma dikildi. Onun hakim kimi Milli Məclisdə təsdiq edildiyi anları xatırladım. O zaman rəhmətlik Murtuz Ələsgərovdan söz alaraq Gülzar xanım Rzayevanı bolluca tərif etmişdim. Bilmirəm yadında qalıb, ya yox. Xatırlasa belə, indi onun üçün yəqin ki heç bir əhəmiyyəti yoxdur.Çünki ona və onun kimilərə rəyasət lazımdır. Rəyasət! Amma vaxtilə etdiyim həmin çıxışa görə peşman deyiləm. Və etdiyim tərifləri də həmin hakim xanıma halal edirəm. Nəhayət, hakim qərarını bitirdi. Rüfətin anası Tahirə xanım isə salonda yox idi. Sən demə, ana övladına su alıb gətirmək üçün yaxınlıqdakı mağazaları gəzirmiş. O, yubandı. Gülzar xanımın oxuduğu son qərarı eşidə bilmədi. Mən isə diqqətlə izləyirdim. Hakimin çöhrəsindəki təkəbbürlülük və özündənrazılıq hisslərindən duyğulandım və hakim ananın evə qayıtdıqdan sonra övladlarının və nəvələrinin üzünə necə baxacağını düşündüm. Bir də ki, onlar belə şeylərə öyrəşiblər. Belələrindən insaf və ədalət gözləməyin yeri və mənası varmı?! Beləliklə, 9 illik həbsə atılan Rüfətin 9-cu məhkəmə salonundakı işi də beləcə yekunlaşdı. Görək, bundan sonra Rüfəti daha hansı işgəncələr, karserin daha hansı əzab-əziyyətləri gözləyir?! "

2016-cı il yanvarın 15-də R.Səfərov rüşvət almaq ittihamı ilə həbs olunub. Lakin yanvarın 22-də o, ev dustaqlığına buraxılıb. R.Səfərov ittihamı rədd edib və cinayət işinin sifariş olduğunu bildirib. O, ev dustaqlığı dövründə də əvvəlki fikirlərindən geri çəkilməyib, tənqidi bəyanatlarını davam etdirib.

Keçmiş müstəntiq Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 2016-cı ilin sentyabrında 9 il azadlıqdan məhrum olunub. Elə məhkəmə zalında da həbs edilib.

2016-cı il dekabrın 22-də Şirvan Apelyasiya Məhkəməsi onun şikayətini təmin etməyib.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Mətbuat orqanları çətin durumda: ixtisarlar media sektoruna da sıçradı

**Hökumətdə ciddi struktur və kadr islahatlarının aparılacağı barədə uzun müddətdir mətbuatda məlumatlar gedirdi. Hətta son olaraq, bu barədə “Yeni Müsavat” qəzetində yazı dərc olunmuşdu. Yazıda qeyd olunurdu ki, İslamiada və Formula-1 yarışlarından sonra hökumətdə neçə vaxtdır gözlənilən struktur islahatlarına başlanılacaq.**



## Rauf Arifoğlu: “Yarım ildən çoxdur ki, ekstremal vəziyyətdə işləyirik”



## Vüsalə Mahirqızı: “Hədəfimiz daha az, lakin peşəkar kollektivlə işləyib yüksək nəticəyə nail olmaqdır”



## Aydın Quliyev: “Bəzi xərclərimizi azaltmaqla durğunluqdan çıxmağa çalışacağıq”

Artıq YAP-ın icra katibinin müavini Siyavuş Novruzov da bunu APA-ya müsahibəsində təsdiq edib. S.Novruzov həm bəzi dövlət qurumlarının ləğv ediləcəyi və birləşdiriləcəyi anonsunu verib, həm də nazir müavinləri səviyyəsində kadr islahatlarının aparılacağını istisna etməyib.

Göründüyü kimi, dövlət iqtisadi vəziyyətin çətinliyini anlayaraq, kəmərsıxma əməliyyatına başlayıb. Əminliklə demək olar ki, özəl sektorda vəziyyət heç də dövlət sektorundan yaxşı deyil. Bir-birinin ardınca müəssisələrin bağlanması, işçilərin ixtisar edilməsi, şəhərdə icarəyə verilən müəssisələrin sayının artması, iri holdinqlərin belə müxtəlif xərclərini ixtisar etməsi vəziyyəti göz önünə sərir.

Biznes sektorunda ən çox çətinlik yaşayan qurumlardan biri də media qurumlarıdır. Maliyyə təminatı əsasən reklamdan olan müstəqil mətbuat orqanları artıq o imkandan da məhrumdur. Çünki reklam verən şirkətlərin də vəziyyəti ağırlaşdıqca, ilk ixtisara düşən xərclər reklam xərcləri olur. Digər tərəfdən, nağdlaşdırma ilə bağlı qoyulan məhdudiyyətlər mövcud maliyyə mənbələrinə çıxışı da qapadıb. Nəticədə media qurumları da vəziyyətdən çıxmaq üçün bir neçə pis variantdan birini seçmək məcburiyyətində qalırlar.

Bəs görəsən, hazırda hansı media qurumları bu çətinliyi real olaraq yaşayır və onlar vəziyyətdən çıxış yolu kimi nələr etməyə başlayıblar?

**“Yeni Müsavat” Media Qrupunun rəhbəri Rauf Arifoğlu sualımıza cavab olaraq bildirdi ki, son günlər məhz nağdlaşdırma ilə bağlı yaşanan maddi çətinliklər səbəbindən qəzetin aylıq 4 nömrəsi ixtisar olunub:** “Azərbaycanın biznes sektorunda vəziyyət olduqca gərgindir. Media sektorunda da bu gərginlik özünü göstərməkdədir. Artıq yarım ildən yuxarıdır ki, biz ekstremal vəziyyətdə işləyirik. Hesabdan nağdlaşdırmanın məhdudlaşdırılması ilə bu vəziyyət daha kritik həddə çatıb. Üstəlik, məhz bu qərardan sonra bizim bir sıra reklam verənlərimiz, təxminən 4-ə yaxın hüquqi şəxs bizi tərk edib. Yerdə qalan 3 çox ciddi firmaya məxsus reklam verənimiz isə bir neçə aydır ki, pulları ödəyə bilmir. Belə bir vəziyyət bizim üçün kritik situasiya yaradıb. Ancaq biz çətin anlarda dostlarımızı, əməkdaşlarımızı kənara atmaq taktikası ilə vəziyyətdən çıxmağa üstünlük vermədik. Bu dəfə də qəzetin dövriliyini azaltmaq və dövrilikdən kəsmək qərarını verdik. Biznes qanunlarına görə, kəsilən pulların əvəzində 3 və ya 4 əməkdaşımızı ixtisar etməli idik. Biz bu yolu yox, qəzetin dövriliyini ayda 4 dəfə aşağı salmaqla kağızın, qəzet kağızı üçün olan dəmir lövhələrin və çap pulunun qənaəti hesabına qarşıdakı iki ayda vəziyyətdən çıxmağı yoxlayacağıq. Ümid edirik ki, bu vəziyyətdən çıxa biləcəyik”.

**Media kapitanı bildirdi ki, əgər mövcud durumdan çıxmaq mümkün olmasa, qarşıda Azərbaycan mətbuatını, özəlliklə yazılı mətbuatı heç də yaxşı nəticələr gözləmir:** “Biz bu barədə dövlət yetkililəri ilə də danışırıq. Onlarla da yazışmalar aparırıq. Mətbuat günü yaxınlaşır. Vəziyyət bu qədər çətin olsa, mən həmin gün ərəfəsində ölkə rəhbərliyinə, prezident İlham Əliyevə müraciət edəcəyəm. Bildiyiniz kimi, prezident İlham Əliyev yazılı mətbuatın qorunması üçün əlindən gələni edir. O, bir fond yaradıb, həmin fond ildə 120 min manat vəsaitlə 33 qəzetə kömək edir. Ancaq bu, kifayət deyil. Çünki qəzet kağızının qiyməti həddindən artıq qalxıb. Kağıza əlavə dəyər vergisi də qoyulub ki, bu da ayda ”Yeni Müsavat"ın xərclərini 400-500 dollar artırır. Belə olan halda, biz vəziyyətdən çıxış yolu üçün, ölkədə yazılı mətbuatın tamamilə sıradan çıxmaması üçün prezidentə müraciət etmək məcburiyyətində qalacağıq".

**“APA Holdinq”in prezidenti Vüsalə Mahirqızı isə “Yeni Müsavat”a açıqlamasında qeyd etdi ki, rəhbərlik etdiyi qurumun idarəetmə siyasəti optimal, daha az, lakin peşəkar kollektivlə işləmək, daha yüksək nəticəyə nail olmaqdır:** “Bizim şirkətin strukturlarında əlavə ştat vahidi saxlanılmır. Ona görə də ixtisar etməkdənsə, əlavə xərcləri azaltmaq, şirkət olaraq daha çox marketinq, piar işi qurmaq, daha çox reklam cəlb etməklə qazanc əldə etmək və xərcləri optimallaşdırmaq barədə qərar qəbul etmişik. Artıq iki ilə yaxındır ki, bu cür də davam edirik”.

**“Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev də mətbuatın xüsusilə yay aylarında maliyyə çətinliyi yaşamasını gizlətmədi:** “KİVDF-nin mətbuata və mediaya dəstəyinin başladığı 2009-cu ildən bu yana iqtisadi çətinliklərimiz xeyli dərəcədə aradan qaldırılsa da, tam şəkildə həllini tapmadı. Sözsüz ki, əvvəlki dövrlərlə müqayisədə xeyli dərəcədə az olsa da, var. Xüsusilə də yay aylarında bu çətinliklərin yeni təzahürləri meydana çıxır. Çünki yayda həm cəmiyyətdə yaşanan durğunluq mətbuata təsir edir, həm də qəzetlərə, informasiya qurumlarına ictimai maraq zəifləyir. Bunun nəticəsi olaraq qəzetlərin maddi durumunda fərq özünü göstərir. Maddi çətinliklərimiz az da olsa var, lakin mən bunlara müvəqqəti hal kimi baxıram. Çünki hər il yay aylarında vəziyyət belə olur. Ümid edirəm ki, yaxın aylarda, sentyabr-oktyabr aylarında bu çətinlikləri xeyli dərəcədə aradan qaldıra biləcəyik. Ancaq mən heç bir halda bu çətinliklərdən çıxmağın ağırlığını kollektivdə ixtisarlar aparmaq və ya qonorarı, əmək haqlarını aşağı salmağın hesabına həll etməmişəm. Bu il də həmin yolla getməyəcəyik. Çalışacağıq ki, işçilərin sayını da qoruyaq və əmək haqlarını da əvvəlki səviyyədə saxlayaq. Başqa bəzi xərclərimizi azaltmaqla bu yay dövrünün durğunluğundan çıxmağa çalışacağıq”.

❑ Nərgiz LİFTİYEVA

# Rusiyanın fiaskosu və ya Hamburq niyə Yalta olmadı?



**Hüseynbala SƏLİMOV**

**Sanki bu görüş büsbütün dünyanı dəyişəcək və Rusiyanın geosiyasi ambisiyalarını tamam sənədləşdirəcək, onlara siyasi mandat verəcəkdi. Amma bunların heç biri olmadı.**

İndi rusiyalı təhlilçilər arasında məyusluq var, çünki ikinci Yalta konfransı alınmadı. Hərçənd, Hamburq görüşü ərəfəsində onların çoxu Rusiya ilə ABŞ arasında ikinci Yalta konfransına bənzər anlaşmanın baş tutacağına ümid edirdi.

Yada salım ki, Yalta konfransı 1945-ci ildə olmuşdu və müharibədən sonrakı dünyanın ABŞ, SSRİ, İngiltərə arasında bölüşdürülməsilə başa çatmışdı. İndilik isə demək olar ki, nəhayət, ABŞ və Rusiya prezidentləri görüşə bildilər. Daha realistlər irəlicədən düşünürdülər ki, ən yaxşı halda yalnız Suriya məsələsində hansısa irəliləyiş ola bilər. Başqa məsələlər isə yalnız “zond” xarakteri daşıyacaq və tərəflər ayrı-ayrı məqamlarla bağlı bir-birinin mövqeyini öyrənməyə cəhd edəcək.

Belə pessimist proqnozlar boş yerdən qaynaqlanmırdı. Donald Tramp ABŞ cəmiyyətinin və müvafiq strukturlarının ciddi nəzarəti altındadır. Onun kiçik güzəşti belə öz ətrafındakı şübhə atmosferini bir az da tündləşdirə bilərdi.

Amma təbii bir sual yaranır. Sonra nə olacaq? Vaxtilə politoloq Z.Bjezinski dünyada beş geosiyasi mərkəz-qütb müəyyənləşdirmişdi. Onlardan dördü dünya xəritəsində oturuşub. Bunlar ABŞ, Avropa, Rusiya və Çindir. Ən maraqlısı odur ki, təkcə ABŞ-la Rusiya arasında deyil, elə ABŞ-la Çin və yaxud ABŞ-la Avropa arasında da müəyyən “sürtünmə” duyulur və bu, özünü Hamburq ərəfəsində də büruzə verdi.

Görüş ərəfəsində ABŞ-la Avropa arasında müəyyən qədər söz “atışması” oldu, Çinlə Rusiya rəhbərləri isə özlərinin 22-ci görüşlərini keçirdilər. Maraqlı tərəfi budur ki, Avropanı da, Çini də müəyyən mənada ABŞ siyasətinin “körpə”ləri adlandırmaq mümkündür.

Düzdür, vahid Avropa ideyasının çox böyük tarixi var - ən azı, gedib Napoleon dövrünə çıxır. Amma bu ideyanın gerçək xarakter alması, onun institusional mahiyyət tapması üçün ABŞ çox böyük töhfə verib. Çini isə ABŞ üçün vaxtilə sabiq dövlət katibi H.Kissincer kəşf etmişdi. Amma indi bu iki ünvan - Avropa və Çin müstəqil geosiyasi vahidlər kimi çıxış edirlər.

Bütün bunlar o deməkdir ki, ən azı bir müddət çoxqütblü dünya modeli üstünlük təşkil edəcək. Bu isə özündə müəyyən qədər qeyri-müəyyənlik və hətta bir az xaos da ehtiva edir. Amma nə etmək olar? Böyük hesabla birinci “soyuq müharibə”nin müəyyənliyi artıq keçmişdə qalıb. Bunun da səbəbləri var.

Əsas budur ki, məsələn, hətta Rusiyaya qarşı belə, “vahid cəbhə” yaratmaq mümkün deyil, çünki böyük geosiyasi ambisiyaları olsa da, daha Rusiya əvvəlki dövrlərdə olduğu kimi, qlobal siyasi və ya iqtisadi çağırışları daşımır özündə. Bəs onda nəyə ümid etmək qalır?

Yalnız bir sıra ədədlər müəyyən təskinlik verir. Məsələn, ABŞ-ın təkcə hərbi büdcəsi Rusiyanın total büdcəsindən iki dəfə və NATO-nun illik büdcəsi Rusiyanın hərbi büdcəsindən 15 dəfə böyükdür. Deməli, növbəti silahlanma yarışı olarsa, kimin irəli, kimin geri gedəcəyi elə bir tapmaca deyil.

İndi Rusiya iqtisadiyyatı planlı dövlət iqtisadiyyatı deyil, di gəl, o, yenə də rəqabət qabiliyyəti olmayan iqtisadiyyatdır və hətta ən patriotik rus iqtisadçıları belə, Rusiyanın sıçrayış edərək texnoloji cəhətdən inkişaf etmiş ölkələr sırasına qalxacağına inanmırlar.

Elə ona görə də söz yenə əlahəzrət iqtisadiyyatındır, əsl dünya liderini yenə də o, müəyyən edəcək - gec və ya tez...

Dünyadakı geosiyasi proseslərə baxanda da geoiqtisadi çalarlar heç də az nəzərə çarpmır. Dünyada nüfuz üstündə, enerji və tranzit imkanları uğrunda savaş gedir. Heç kimin də ağlında güzəşt etmək fikri yoxdur.

Trampın hakimiyyətə gəlişi ərəfəsində elə hey bir sual verirdim: görən, ABŞ siyasəti nə qədər personifikasiya olunub, o, bir siyasi liderin siyasi simpatiya və antipatiyalarından nə qədər asılıdır?

İndi görürəm ki, ABŞ-da da siyasət daha çox institusional xarakter daşıyır və “Amerika arzusu” kimi elə “Amerika siyasət maşını” da real məzmuna malik məsələdir. Ona görə bir daha deyirəm ki, Rusiyanı böyük məyusluq gözləyir. Prinsipcə, dünyanın yenidən bölüşdürülməsi baş verə bilər, amma bundan əvvəl daha bir “soyuq müharibə” olmalıdır...

## “Bu, ABŞ-ın enerji layihələrinə dəstəyidir…”

**“ABŞ-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyub”.**

Bunu prezident İlham Əliyev iyulun 12-də Nazirlər Kabinetinin iclasında çıxışı zamanı deyib.

Bakıda keçirilmiş 24-cü Beynəlxalq Neft və Qaz Sərgisinə ABŞ prezidenti Donald Trampın ünvanlandığı məktubun əhəmiyyətindən danışan dövlət başçısı ABŞ dövlət katibi ilə bir neçə gün öncə İstanbulda keçirdiyi görüşü də yüksək qiymətləndirib: “Bu il 24-cü Xəzər neft-qaz sərgi və konfransı keçirilib. Bu sərgi və konfrans dünya miqyasında enerji sektorunda seçilmiş tədbirlərdən biridir. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, bu tədbirə Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Tramp məktub göndərib. Mənə ünvanlanan məktub əlbəttə ki, Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətini artırır, eyni zamanda Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycanın icra etdiyi uğurlu enerji layihələrinə göstərilən növbəti dəstəkdir. Əlbəttə ki, belə xoş münasibət Amerika-Azərbaycan əlaqələrinin uğurlu inkişafı üçün yeni zəmin yaradır.

Bir neçə gün bundan əvvəl Amerikanın dövlət katibi ilə İstanbulda görüşüm bir daha bizim strateji əlaqələrimizi təsdiqlədi və bu gün Amerika-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyur".




## DSX sədri məktub göndərdi, Rusiyadan təkzib gəldi

**Rusiya Federal Təhlükəsizlik Xidmətinin Ermənistandakı Sərhəd Qoşunları İdarəsi İran İslam Respublikası ərazisindən Azərbaycan Respublikası dövlət sərhədinin yarılması və şərti qaçaqmalçıların Dağlıq Qarabağ ərazisinə keçmək cəhdinin qarşısının alınması ssenarisi üzrə birgə təlimlərin keçirilməsi ilə bağlı iki gün əvvəl yaydığı xəbərə təkzib verib və onun mətnini dəyişib.**

Virtualaz.org bildirir ki, bu barədə erməni KİV-i məlumat yayıb.

Xatırladaq ki, əvvəlki məlumatda Rusiya Sərhəd Xidməti ilə Ermənistan sərhədçilərinin birgə hərbi təlimlərə başladıqları bildirilirdi. Vurğulanırdı ki, hərbi təlimdə Ermənistan-İran sərhədinin qorunması, həmçinin şərti qaçaqmalçıların “Dağlıq Qarabağ Respublikası”na keçməsinin qarşısının alınması ssenarisi sınaqdan keçirilib.

“İki şərti sərhəd pozucusu İrandan Ermənistana keçərək, Dağlıq Qarabağda gizləniblər. Döyüş tapşırığına uyğun olaraq, sərhədpozucularının axtarışı aparılıb və təlim uğurla başa çatdırılıb”, - deyə Rusiyanın Ermənistandakı sərhəd qoşunlarının mətbuat xidmətinin məlumatında deyilirdi.

Azərbaycan Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev tərəfindən bu məsələyə aydınlıq gətirilməsi məqsədilə iyulun 11-də Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin direktoru ordu generalı Vladimir Kulişova rəsmi məktub göndərilmişdi.

Yuxarıda haqqında bəhs etdiyimiz dəqiqləşdirmədə Rusiya Sərhəd Qoşunları Ermənistan sərhədçiləri ilə birlikdə İrandan Qarabağa keçmək istəyən sərhəd pozucularına qarşı təlimin keçirilməsi ilə bağlı məlumatı təkzib edib.

Məlumatda göstərilib ki, Rusiya və Ermənistan İranla sərhəddə təlimlər keçirib.

Təlimlərdə İran-Ermənistan sərhədini keçən şərti sərhəd pozucusunun Rusiyanın Mehridəki sərhəd dəstəsinin *(Ermənistan-İran sərhəd hissəsi-red.)* köməyi ilə ələ keçirilmə ssenariləri işlənib.

# YAP funksioneri Rusiyanın “seçki planlarını” alt-üst etdi

**Siyavuş Novruzov:** “Bu cür “proqnozları" rusiyapərəstlər, bu ölkənin kəşfiyyatına xidmət edənlər, Rusiyada biznesi olanlar dövriyyəyə buraxır"

**YAP icra katibinin müavini Siyavuş Novruzov APA-ya geniş müsahibəsində növbəti prezident seçkiləri, hakim partiyanın seçki hazırlıqları barədə də danışıb.**



**S.Novruzov** bildirib ki, növbəti prezident seçkiləri ərəfəsində xarici dövlətlərdən təzyiqlərin olacağı ilə bağlı proqnozları Azərbaycandakı bəzi rusiyapərəst şəxslər yayır. Onlar bununla Rusiyanın bu məsələdə mövqeyini şişirtmək istəyirlər: “Azərbaycan xalqı prezidentini özü seçir. Kənardan müdaxilələr qaldı 90-cı illərin əvvəlində. Azərbaycan xalqı öz rəhbərini seçəndə heç kimlə razılaşdırmır, bu faktdır. Bu cür ”proqnozları" isə Azərbaycanda olan, keçmişdən qalan rusiyapərəstlər, bu ölkənin kəşfiyyatına xidmət edən insanlar, eyni zamanda bu gün Rusiyada biznesi olan bəziləri dövriyyəyə buraxır. Vaxtilə Azərbaycanda vəzifədə olub indi gedib Rusiyaya sığınan bəziləri belə şeyi yazdırıb özlərini şişirtmək istəyir, ürək bulandırırlar. Ola bilsin ki, onun Moskvada-Kremldə kiminləsə “salam-əleykümü” var. Amma Rusiyanın mövqeyi Kreml rəhbərinin mövqeyidir, onun da Azərbaycanla bağlı mövqeyi yüksək münasibətlərə əsaslanır".

Deputat bununla belə deyib ki, seçki ilində ənənəvi olaraq, Azərbaycanın təbii sərvətlərindən maksimum güzəştlə yararlanmaq istəyən dövlətlər, güzəştli şəkildə öz işlərini görmək istəyən qlobal şirkətlər, Azərbaycanın güclənməsini istəməyənlər bəzi cəhdlər edəcəklər. “Bunlardan bəziləri Avropa Parlamentinin, Avropa Şurası Parlament Assamnleyasının, ATƏT-in ələ aldıqları üzvləri vasitəsilə, başqa bəzi yollarla təzyiq göstərməyə cəhd edəcəklər. Lakin Azərbaycanda güclü dövlət, güclü lider, xalqla iqtidar arasında güclü birlik var. Ona görə də bunlar cəhd olaraq qalacaq” deyə, o bildirib.

**S.Novruzov prezident seçkilərinə YAP-da artıq müəyyən hazırlıq işləri getdiyini də açıqlayıb:** “İlk növbədə partiyadaxili strukturların hazırlıq məsələsinə baxırıq. Rayon-şəhər təşkilatlarında hesabat-seçki yığıncaqları keçirilir. Partiyanın son keçirilən İdarə Heyəti iclasında da bu barədə hesabat verildi və qərar qəbul edildi. Yəni bizdə hər şey qərarladır. Rəhbər strukturun qərarı ilədir. 61 rayonda artıq konfranslar yekunlaşıb, 23 rayonda da keçirəcəyik. 11 rayonda təşkilat sədrləri dəyişib. Tərkibdə dəyişikliklər gedir. Çünki say artdıqca bu labüddür. Bununla biz bütün bu strukturu ilin sonuna qədər gələnilki seçkiyə hazırlayırıq. Tam hazır olduqdan sonra partiyanın rəhbər orqanı prezidentliyə namizədliyin irəli sürülməsi barədə qərar qəbul edəcək. Seçkinin gələn ilin payızında keçiriləcəyini nəzərə alsaq, yəqin ki, gələn ilin bu vaxtına qədər qurultay barədə qərar veriləcək”.

**S.Novruzov prezident seçkilərində YAP-ın öz namizədinə rəqib görüb-görmədiyi barədə suala belə cavab verib:** “Elə bir rəqib yoxdur, görmürük. Bizim partiyamızın sədri cənab prezidentin apardığı siyasət, gördüyü işlər reytingini ildən-ilə artırır. Cənab prezident seçki ərəfəsində verdiyi sözdən dəfələrlə artıq işlər görür, xalq da bunu qiymətləndirir. Artıq Azərbaycan miqyasında yox, dünya miqyasında sorğu keçirsək, görərik ki, bizim sədrimizin-cənab prezidentin alternativi yoxdur. Bu həqiqətdir. Cənab prezident İlham Əliyev həm xalqın maraqlarının dəstəklənməsi, həm sabitliyin qorunması, iqtisadiyyatın inkişafı, quruculuq işləri - hansı ki, bunun sayəsində ölkədə artıq rayon-şəhər fərqi aradan qalxıb - və s. bu kimi işləri çox uğurla və sürətlə həyata keçirib. İslahatlar dayanmadan davam edir, məmurların daim xalqın qulluğunda olmasına nəzarət edir. Hər bir rayona səfər edir, insanlarla daim ünsiyyətdədir. Bu səbəbdən biz namizədimizə heç bir rəqib görmürük”.

Siyavuş Novruzovun müsahibəsində bir çox maraqlı məqamlar diqqəti cəlb edir. Birinci məqam ondan ibarətdir ki, S.Novruzov 2018-ci ildə keçirilməsi gözlənilən prezident seçkiləri ilə bağlı son günlər hakimiyyət düşərgəsindən narahatlığı bölüşmür. **Yada salaq ki, neçə gün öncə Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, YAP-çı deputat Yevda Abramov müsahibəsində demişdi ki, gələn il Azərbaycanda keçiriləcək prezident seçkiləri ərəfəsində ehtiyatlı olmaq lazımdır:** “Seçki elə kampaniyadır ki, nəticəsi bütün zümrələri, insanları qane etmir. Ona görə də seçkinin nəticələrindən qalib tərəf razı, məğlub tərəf isə narazı qalır. Bu, bütün dünyada belədir. Azərbaycanda da seçkinin nəticələrindən narazı qalanlar olacaq. Biz Azərbaycan müstəqillik qazandıqdan sonra müəyyən ajiotajlara rast gəlmişik. Ona görə də seçki ərəfəsində də, seçkidən sonra da müəyyən qüvvələr aranı qatmaq istəyəcək”.

**Onun ardınca YAP-çı deputat, hakim partiyanın Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə həmkarının fikri ilə razı olduğunu deyib. A.Mirzəzadə bildirib ki, seçki ərəfəsində Azərbaycanda bəzi qüvvələr var ki, aranı qatmaq istəyəcəklər:** “Azərbaycanda hər seçki ərəfəsində xaricdəki anti-Azərbaycan mərkəzləri ölkəmizdə provokasiya törətməyə və gərginlik yaratmağa çalışırlar. Düzdür, bunun üçün Azərbaycanda sosial baza yoxdur. Ancaq pulla ələ alınan, özünü müxalifət adlandıran müəyyən qüvvələr böyük həvəslə buna gedirlər. Eyni zamanda sosial şəbəkələr vasitəsilə səbədsiz adamları yoldan çıxartmağa, seçki prosesini idarəolunmaz bir istiqamətə yönəltməyə çalışırlar. Ancaq hər seçkidən-seçkiyə onların cəhdlərinin əbəs yerə olduğu, cəmiyyətin onları dəstəkləmədiyi qənaətinə gəlirlər. Bu seçki ərəfəsində də aranı qatmaq istəyənlər olacaq. Amma yenə də Azərbaycan cəmiyyəti buna layiqincə cavab verə biləcək”.

**İkinci maraqlı məqam isə S.Novruzovun hakim partiyanın seçki hazırlıqlarına başladığı və YAP-ın namizədinin hazırkı prezident olacağı ilə bağlı dedikləri hesab olunur. ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, hakim partiyanın rəhbərliyinə daxil olan S.Novruzov bu açıqlaması ilə müəyyən dairələrə mesaj göndərir ki, YAP İlham Əliyevə alternativ görmür və ondan başqa kimsənin namizədliyini irəli sürmək istəmir:** “Bu mesaj təsiri bağışlayan açıqlama hakimiyyətə rəqib olan müxalifət düşərgəsindən çox hakimiyyətin özünün daxilindəki qüvvələridir".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

**Türkiyənin Bakıdakı səfirliyində ötən il qardaş ölkədə baş verən 15 iyul dövlət çevrilişi cəhdinin ildönümü ilə bağlı mətbuat konfransı keçirilib. Tədbirdə çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral ilk növbədə Ermənistan ordusunun hücumu nəticəsində Füzuli rayonunda dünyasını dəyişənlərin ailələrinə başsağlığı verib, ermənilərin xain hücumunu lənətləyib.**



# Türkiyə səfirliyində 15 iyul hadisələrinin ildönümü anıldı

## Səfir Erkan Özoral: "Bu, Türkiyə demokratiyası üçün sınaq idi və ölkə ondan uğurla çıxdı, Azərbaycan bizə ilk dəstək verən ölkələrdən oldu..."





**Daha sonra səfir 15 iyulda Türkiyədə baş verən hərbi çevrilişdən bəhs edərək, bildirdi ki, ötən il gerçəkləşən xain çevriliş bu günə qədər Türkiyəyə qarşı baş verən ən böyük hadisələrdən, ən böyük xəyanətlərdən biriidir:** "Həmin gecə 240 vətəndaşımız şəhid oldu. 2000-ni yaralandı. O gecə darbeçilərin göstərdiyi vəhşiliyin dünyada tayı-bənzəri yox idi. Onların etdiyi xəyanətin də dünyada bənzəri olmayıb. Türkiyə bu xain dəstə ilə uzun müddəti idi ki, mübarizədə idi. Darbeçilər özlərinə qarşı olan mübarizəni önləmək üçün Türkiyənin bir çox dövlət qurumlarının binalarını həmin gecə bombalamaqdan çəkinmədilər".

**Diplomat həmin xainlərin insanlıqdan və vicdandan kənar davranışlarından danışaraq, onları Fətullah Gülənin əmrlərini düşüncəsizcəsinə icra edən robot adlandırdı:** "Videogörüntülərdən də görünür ki, onlar heç bir şəkildə insanlıq və vicdan barədə düşnməyiblər, sadəcə, Pensilvaniyadakı rəhbərlərindən aldıqları əmrləri yerinə yetirən bir robot olublar".

**Səfirin sözlərinə görə, 15 iyul Türkiyə demokratiyası üçün bir sınaq oldu və ölkəsi bu sınaqdan uğurla çıxdı:** "Türk xalqı dövlət başçısının arxasında tək ürək, tək bədən oldu. Həyatları bahasına demokratiyanı qorudular, müdafiə etdilər. Bundan sonra da həmin müdafiə davam etdi, çox fərqli siyasi görüşdən olan vətəndaşlar bir araya gəldilər və dövlətlərini qorumaq üçün əllərindən gələn fədakarlığı etdilər, tankların qarşısına yataraq dövlətlərini qorumağa çalışdılar. Türk milləti bu sınağı uğurla keçdi. Darbe çevrilişində günahkar bilinən 130 min nəfər göz altına alındı, 45 min nəfər həbs olundu. 15 iyuldan sonra Türkiyədə xain "FETÖ"çuları təmizləmə işi davam etdirildi. Türk milləti də bu məsələdə dövlətinə dəstək oldu. Təkrar vurğulayıram ki,15 iyul Türkiyə cümhuriyyəti üçün də önəmli dönüş nöqtəsi oldu. Bu hadisəni həyata keçirən xainlər özünü Məsih elan edən bir xainin arxasından getməkdədirlər. Özünü peyğəmbər hesab edən, Quranı-Kərimi yarımçıq sayan və onu tamamlayacağını iddia edən bir dindən dönmüşün arxasında gedənlərin təmizlənməsi bizim üçün ən başlıca vəzifədir. Onu da vurğulayım ki, çevrilişdən sonra ötən dövr Türkiyəni zəiflətmədi, dövlətimiz əvvəlkindən də güclü hala gəldi. Bu bir ildə Türkiyə iqtisadiyyatı daha da böyüdü. Bütün sahələrdə xalqa güvən verəcək bir inkişaf müşahidə olundu".

**Səfir daha sonra vurğuladı ki, son 1 ildə Türkiyənin terrorla mücadiləsi daha böyük həcmdə davam etdirilib:** "Dövlət çevrilişdən 45 gün sonra Türkiyə ordusu azad Suriya ordusu ilə birlikdə sərhədimizin o tayında Suriyada üçün təhlükə yaradan qüvvələrə qarşı hərəkat başlatdı, bu hərəkat nəticəsində sərhədlərimizin təhlükəsizliyi təmin olundu. Bu günə Türkiyədə meydana gələn terror hadisələrinin sayında çox ciddi azalma var. Artıq Türkiyə Suriyanın və özünün təhlükəsizliyi üçün çox ciddi tədbirlər görüb. İndiyə qədər terrorçuların məhv edilməsində də çox böyük uğurlar əldə edilib. Ələ keçirilən terroristlərin sayı artıb. Dövlətin içinə yerləşmiş örgüt nümayəndələrinin təmizlənməsi də çox böyük uğurdur".

**Erkan Özoral FETÖ ilə mübarizənin təkcə Türkiyədə deyil, ölkə xaricində də aparıldığını qeyd etdi və Azərbaycanın Türkiyəyə ən böyük dəstək verən ölkələrdən biri olduğunu vurğuladı:** "Azərbaycan bizə ilk dəstək verən ölkə oldu. Bu bir ildə də hər zaman dəstəyini artırdı. Azərbaycan xalqı da Türkiyəyə hər zaman dəstək olub, bundan sonra da olacağına şübhəmiz yoxdur. Ona görə də Azərbaycan prezidenti İlham Əliyevə və Azərbaycan xalqına təşəkkürlərimizi bildiririk. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür. Biz terrorla mübarizədə Azərbaycanı hər zaman yanımızda görməkdən böyük bir güc alırıq. Təəssüf ki, heç də bütün ölkələr bizə Azərbaycan qədər dəstək göstərmədilər. Bəzi ölkələr FETÖ mənsublarına qucaq açdılar. Ancaq bütün dünya bilməlidir ki, terror bir ilandır və bir gün onları da çalacaq. Türkiyə bir neçə terror təşkilatı ilə eyni vaxtda mübarizə aparır. Biz terrordan ən çox əziyyət çəkən ölkəyik. Bizim yaşadıqlarımızı heç bir dövlətin yaşamasını istəmirik. Ona görə də bütün dövlətlərdən bizə terrorla mücadilədə dəstək olmalarını gözləyirik. FETÖ-nün, bu terror təşkilatının başındakı cinayətkar şəxsin hədəfi, sadəcə, Türkiyə deyil, bütün dünyada idarəetməni ələ keçirməkdir. Odur ki, terrorçularla mübarizədə hər kəs bizə dəstəyini göstərməlidir".

**Səfir çıxışının ardından media mənsublarının suallarını cavablandırdı. O, jurnalistlərin sualına cavab olaraq bildirdi ki, FETÖ təhlükəsinin bitdiyini söyləmək mümkün deyil:** "Bu elə bir qurumdur ki, tamamilə ortaya çıxarılıb kökü kəsilənə qədər bu təhlükə və təhdid ortadan qalxmayacaq. FETÖ təhlükəsi ilə sona qədər mücadilə etmək lazımdır. FETÖ təhdidi təbii ki, 15 iyuldan öncəki gücündə deyil. Bu terrorçu təşkilatla mübarizədə çox böyük bir yol qət edildi, böyük uğurlar əldə edildi. Fəqət bu təşkilatla sonuna qədər mübarizə aparılmasına ehtiyac var. Fətullah Gülənin Türkiyəyə ekstradisiyası ilə bağlı Amerika ilə danışıqlar davam edir. Həm siyasi səviyyədə, həm də ədliyyə qurumları səviyyəsində məsələ ilə bağlı danışıqlar aparılır. Ancaq biz bu mövzuda dostlarımızdan və müttəfiqlərimizdən yetərincə dəstək görmürük. Müttəfiqlərimizin lazımi dəstəyi göstərməsini gözləyirik".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar Məğrur MƏRDİNDIR**

---

# İkinci Novruzəli vaqiəsi



**Samir SARI**

**Xəbərin ilk cümləsi adama heç nə demir. Hə, nə olsun, "Bakıda xuliqanlıq edən sürücü saxlanılıb". Bakıda o qədər avtoxuliqan var ki... Hər gün də 3-4-ünü saxlayırlar. Sonra da ya cərimələyib buraxırlar, ya elə-belə buraxırlar, ya da üzr istəyib buraxırlar.**

Yeni Bakıda avtoxuliqanların olması, hər gün xuliqanlıq etmələri, saxlanılmaları sıradan hadisədir.

Ancaq məlum olur ki, bu dəfə xuliqanlıq edən sürücü general oğludur. Onda vəziyyət dəyişir. Ona görə yox ki, general oğlu xuliqanlıq etməz, edə bilməz, əsasən ona görə ki, general oğlu belə şey eləsə, saxlanılmaz, saxlanılsa da, tez buraxılar.

Sözügedən general oğlu isə saxlanılıb və buraxılmayıb. Həm də ona görə ki, Rüstəm adlı bu gənc təkcə avtoxuliqanlıq etməyib, həm də avtosuz xuliqanlıq edib, qəza şəraiti yaratdığına görə ona irad bildirən sürücünü basıb döyüb.

Sonradan məlum olub ki, Rüstəm avtomobillə adam da öldürüb, məhkum da olunub, üstəlik, sürücülük vəsiqəsi də olmayıb.

Sürücülük vəsiqəsi olmadan avtomobil sürmək, həm də avtoxuliqanlıq etmək üçün, əlbəttə, ən azı general oğlu olmaq lazımdır. Prinsipcə, polkovnik oğlu da bu qələti edə bilər, amma üstü açılsa, atası general olmaz.

Budur, Rüstəm o hərəkəti ilə, türkün sözü, atasının karyerasını da becərdi. O boyda generalı işindən-gücündən aldılar.

İndi tanıyanlar, bilənlər orda-burda deyəcəklər, yox, Novruzəli Orucov yaxşı kişiydi, neyləsin, oğlu onu güdaza verdi.

Amma yox, elə deyil, qardaşlar və bacılar, Novruzəli Orucov yaxşı ata olsaydı, oğlunu elə harın böyütməzdi. Budur, özü də deyir ki, uşağı başlı-başına buraxmışam.

N.Orucov yaxşı, prinsipial, gözü-könlü tox məmur olsaydı, oğluna bahalı maşınlar alıb verə bilməzdi.

Bunun əvəzində o oğlunu elə böyüdüb ki, Rüstəm dünənə qədər elə bilirdi ki, Ucardakı Şilyan təpələrini bunun atası yaradıb.

Əmin olun ki, onun o, maşınla adam öldürən, maşında adamdöyən oğlu gündə yeddi dəfə ona-buna "heç bilirsiz, mən kiməm", "bilirsən, sənə neyniyərəm" deyənlərdən olub.

Hiss olunur ki, gənc adam çox hirsli-hikkəliymiş. Bir şey ki, ona irad bildirən avtobus sürücüsünü düz 8 dayanacaq təqib edib. Əslində artıq 3-cü dayanacaqdan sonra onun hirsi soyumalıydı və dönüb getməliydi işinin dalıncaq. Amma o deyib, yox e, avtobus sürücüsü kimdir ki, mənə, general oğluna "asta sür" deyir.

Bəli, general oğluna "asta sür" demək ağır təhqirdir, bu təhqirin qisası ancaq qanla, duellə alına bilər. İndinin dueli də belədir: təkbətək çıxmırlar, 5-6 adam tökülüşüb birini çırpır, sonra qaçıb gedirlər.

10 il əvvəl bir təvazökar nazir oğlu bir hikkəli deputat oğluna "Nərimanov" metro stansiyanın həndəvərində "asta sür" demişdi, deputat oğlu hiddətlənərək, maşınından düşüb nazir oğlunun çənəsini sındırmış, bir-iki saatdan sonra nə qələt elədiyini anlamışdı, amma gec olmuşdu. Onun özünü də aparıb təcridxanada atası sudan gəlincəyə qədər döymüşdülər.

Yəni bir sürücünün maşını yekədirsə, atası vəzifəlidirsə, özünün cibində pul çoxdursa, gərək ona "asta sür", "ehtiyatlı ol", "bu necə maşın sürməkdir" kimi təhqiramiz sözlər deməyəsən, deyəndə də sözün əvvəlində "qurban olum", axırında "qadan alım", "başına dönüm" kimi sözlər olmalıdır ki, növcavan hirslənməsin. Yoxsa maşını döndərib adamın dalınca düşər, çatıb küçənin ortasında biabır edər.

Bu işlər belədir.

İntəhası, bəzən elə olur ki, belə işləri yat-yut eləmək olmur və haqq-hesab ictimailəşir, səs-küyü çıxır, yuxarılarda əks-səda verir və hirsli oğulun sakit papasını çəkirlər ortalığa. O da məcbur olur, deyir ki, özüm də, balalarım da rəhbərə qurban olsun.

Əslində belə bir adamın ən yüksək rütbəsi gizir ola bilərdi, amma işə bax ki, gəlib general olub.

Bir tərəfə baxanda harın oğulların öz hərəkətləri ilə vaxtaşırı öz atalarını ifşa eləməsi yaxşıdır. Camaat kimin qabında nə olduğunu bilir. Yoxsa kim bilərdi ki, general rütbəsi daşıyan Novruzəli poçt qutusunun önündə oturub ağasının məktubuna qarovul çəkəsi adamdır.



# Generallar və xalq artistləri

Zamin HACI
zaminhaci@gmail.com

**Son çağlar regionun liderinə çevrilməkdə olan mediamızda belə başlıqlara tez-tez rast gəlmək mümkündür: "Generalın oğlu adam döydü" (vəziyyətdən asılı olaraq feil dəyişilə, "öldürdü", "maşınla vurdu", "bıçaqladı", "qucaqladı", "basmarladı" və sairə şəklində ola bilər) və "Xalq artistinin oğlunu döydülər" (burada da sonluq eynilə "öldürdülər", "ayaqladılar", "gözünü çıxartdılar", "maşınla vurdular" formasında dəyişilə bilir). Təbii ki, diqqətli media ekspertlərindən biri kimi bu hala biz laqeyd qala bilmərik, mütləq analiz etməliyik.**

Məncə, bunun əsas səbəblərindən biri, bəlkə də birincisi onunla bağlıdır ki, hazırda Azərbaycan cəmiyyəti tam ortadan, diametral şəkildə (qoy desinlər nə savadlı oğlandır) iki yerə bölünmüşdür. Yarısı generallar və onların uşaqlarıdırsa, yarısı da xalq artistləri və onların uşaqlarıdır. Örnək üçün, indi bu yazını oxuyan hörmətli oxucu əgər özünü generallara aid bilmirsə, deməli, o, mütləq xalq artistləri sinfinə aiddir. Yox, özünü artist saymırsa, demək, generaldır. Başqa yolu yox artıq - o mahnıda deyilən kimi. Ya generalsan, ya da artist. Mən özüm hələlik artistlər kateqoriyasına aidəm, inşallah, rəhbərlik söz verib, tezliklə generallar sinfinə keçməliyəm. Özümü lap yaxşı aparsam hovuza su və tok da verəcəklər.

Bax, bu səbəbdən kimsə maşına qaz verib adam vurursa vurulanın xalq artisti, ya da onun uşağı çıxması ehtimalı yüz faizə bərabərdir. Və qaz verən də general, ya da general oğlu olmalıdır. Doğrudur, ehtimal nəzəriyyəsinə görə, general oğlu xalq artistinin oğlunu yox, general oğlunu da maşınla vura bilər. O cümlədən xalq artistinin oğlunu xalq artistinin oğlu döyər. Ancaq adından göründüyü kimi, bu, ehtimal nəzəriyyəsidir. Bizim ölkədə isə hər şey dəqiq yazılıb, ölçülüb-biçilib, dövlət proqramına salınıb. Hətta bu dəqiqə biz 3549-cu ildə Soğanverdilər-Dəliməmmədli-Beyləqan-Ağcabədi avtomobil yolunun 14 kilometrlik hissəsinə neçə dənə müasir işıq dirəyi basdırılacaq, Ağsunun mərkəzi parkına neçə metr yaşıl örtük salınacaq, feysbukda nə qədər trol işə götürüləcək, neçə kilo yaltaq istehsal olunacaq və sairə - bunların hamısını dəqiq bilirik, Nazirlər Kabinetində dövlət planlaması şəklində müvafiq sənədlərdə yazılıbdır. O Amerikada, Fransada, Britaniya-zad kimi geridə qalmış ölkələrdə olur, heç 5 il sonra prezidentləri kim olacaq, onu da bilmirlər! Britaniyanın hətta prezidenti belə yoxdur! Nahaq yerə "dumanlı" demirlər ki...

Bəzən generalın oğlunun hərəkətinə görə generalı işdən çıxarırlar, məncə, bu, kadr islahatlarımıza uyğun deyil. Hələ el atası Stalinin vaxtından belə söz qalıbdır ki, oğul ataya, ata oğula cavabdeh olmamalıdır. Hərçənd, qoca qurd başqa bir yerdə "Xalq düşmənlərinin nəslini kəsməliyik" deyibmiş. Elə dövlət siyasəti də bu ikinci göstərişə daha çox uyğun gəlirdi, çünki 1930-1950-ci illərdə SSRİ-də xalq düşmənlərinin ailə üzvlərini saxlamaq üçün xüsusi türmə olubdur. Qazaxıstanın dəhşətli çöllərində yerləşən bu türməyə ALJİR adı qoyulmuşdu, Əlcəzairə qətiyyən dəxli yox idi, "Akmolinskiy Laqer Jen İzmennikov Rodini" (Vətən xainlərinin arvadları üçün Akmolinsk düşərgəsi) sözlərindən düzəldilmişdi. 30 min nəfərə yaxın "xalq düşməninin" ailə üzvləri o lagerdə əzab çəkmiş, çoxları işgəncələrdən ölmüşdü.

İndi biz bəlkə sistemli yanaşaq, generallar və xalq artistləri üçün ayrı-ayrı cəza düşərgələri quraq? *(Deyəsən, generallar üçün beləsi artıq var)*. O cümlədən, bəzən görürsən oğula görə general işdən qovulur, sonra deyir üzr istəyirəm, qələt eləmişəm, bağışlayın və sairə. Ancaq demir ki, bahalı maşınları, dəbdəbəli həyatı oğlu üçün hansı pullarla təmin edirmiş. Görürsən, oğlunun bir maşınla şəkli çıxdı, həmin maşının puluna yalan olmasın, Qarabağın 20 faizini geri almaq mümkündür.

İndi söz əlaqədar generallar və uşaqlarınındır - müəllifi döyün. "Xalq artisti yazı yazarkən döyüldü" başlığına ehtiyac var.



# Vaşinqtondan Kremlə Bakı üzərindən mesaj - ABŞ Rusiyanın yolunu "kəsir"

## Ağ Evin Rusiyaya qarşı ağırlaşan sanksiyaları "Türk axını"nı tormozlaya bilər - ilginc gözlənti; Vaşinqton Moskvanı ən zəif olduğu mübarizə müstəvisinə çəkir; Bakı da gözdə-qulaqda olmalıdır...

**Rusiya və ABŞ arasında geosiyasi rəqabət özünü təkcə Yaxın Şərq proseslərində büruzə vermir. Son vaxtlar iki fövqəldövlət arasında gərginlik digər bölgələrdə və sferalarda, o cümlədən energetika sahəsində özünü getdikcə daha qabarıq göstərməkdədir. Dərinləşən rəqabət isə böyük mineral ehtiyatlara və əlverişli coğrafi mövqeyə malik Azərbaycana da yansımaqdadır.**

Sirr deyil ki, Vaşinqtonun strateji hədəflərindən biri Avropa qaz bazarında Rusiyanın qaz inhisarına son qoymaq və ya bu inhisarçılığı minimuma endirməkdir. Çünki Kreml qaz monopoliyasından illərdir Avropaya, Qərbə qarşı siyasi şantaj aləti kimi istifadə edir. Hətta Krımın Rusiya tərəfindən işğalında da bu amil dolayısıyla rol oynamış, bəzi Avropa Birliyi ölkələrinin yumşaq mövqeyinə səbəb olmuşdu. İndi də bu təsir özünü müəyyən mənada saxlayır.

Bu üzdən ABŞ özünün Rusiya təbii qazına ehtiyacı olmasa belə, həmin qaza alternativ mənbələrin işə düşməsi və Avropaya nəqlinə böyük önəm verməkdədir. Onlardan biri də "Şahdəniz 2" Azərbaycan qazını Avropa bazarına çatdıracaq Cənub Qaz Dəhlizinin inşasıdır - hansı meqa-layihə ki, Birləşmiş Ştatlar ona həm siyasi, həm maliyyə, həm də mənəvi sponsorluq edir və böyük diqqət göstərir.

***

Təzəcə başa çatan 22-ci İstanbul Dünya Neft Sərgisində ABŞ-ın dövlət katibi Reks Tillerson səviyyəsində iştirakı bunu bir daha təsdiqlədi. Cənab Tillersonun Azərbaycan prezidenti İlham Əliyevlə görüşündə toxunulan həssas mövzulardan aydın oldu ki, Ağ Ev Bakıya Kremlin qaz savaşında sonadək dəstək verməkdə israrlıdır və onu Rusiya təzyiqləri qarşısında tək buraxmayacaq.

Bunu Vaşinqtonun Bakı üzərindən Kremlə ismarışı da saymaq olar. Özü də söhbət təkcə neft-qaz məsələsində dəstəkdən getmir. Yeri gəlmişkən, toplantıdakı çıxışı zamanı Azərbaycan prezidenti İlham Əliyev SDQ ilə bağlı tikinti işlərinin maneələrə rəğmən, uğurla davam etdiyini, inşa işlərinin sona çatmaq üzrə olduğunu qeyd elədi. Bu kəmər üzrə artıq gələn il qardaş Türkiyəyə 6 milyard, o biri ildən etibarən Avropaya isə 10 milyard kub metr Azərbaycan qazının nəqli nəzərdə tutulur.

Qeyd edilən bu kimi bütün məqamlar, həmçinin Tillerson-Əliyev təması Rusiyadan yan keçən neft-qaz kəmərlərinə əngəllər yaratmağa çalışan Kremlə əslində növbəti bir çatdırış idi. Siyasi təhlilçilərin bu yöndə şərh və təhlilləri davam edir.

**"Azərbaycan prezidenti İlham Əliyevin ABŞ dövlət katibi Reks Tillerson ilə görüşü Rusiyaya mesajdır". Bu sözləri axar.az-a görüşün yekunlarını şərh edən politoloq Fərhad Mehdiyev deyib. Onun sözlərinə görə, son diplomatik bəyanatlardan sonra Azərbaycanın ABŞ ilə əlaqələrinin gücləndirilməsi böyük məna kəsb edir.**

"Bununla Rusiyaya mesaj göndərilir ki, Azərbaycan xarici siyasətində təklənməyəcək. Düşünürəm ki, Azərbaycan yenə balanslı siyasət yeridəcək. 7 iyul 2017-ci ildə ABŞ səfirliyində ənənəvi olaraq qəbul günü keçirilib. Bu tədbirdə prezidentin köməkçisi Əli Həsənov iştirak edib. Bu, Azərbaycan tərəfinin ABŞ-la münasibətlərini inkişaf etdirdiyinin göstəricisidir. Hazırda Rusiya tərəfindən Bakıya qarşı müəyyən mənada təzyiq var, çünki Kreml Azərbaycanın Rusiya ilə daha çox yaxınlaşmasını, Avrasiya İttifaqına üzvlüyünü istəyir. Azərbaycan tərəfi isə ABŞ-la münasibətləri inkişaf etdirməklə göstərir ki, Bakı balanslı siyasətini davam etdirməkdə qərarlıdır", - deyə o bildirib.

***

Bakı balanslı siyasəti davam etdirir, ancaq o da faktdır ki, bu siyasət ən çox Moskvanın ürəyincə deyil. Az öncə Rusiyanın "Qazprom" şirkəti rəsmisi Medvedyevin Cənub Qaz Dəhlizi ilə bağlı söylədiyi pessimist fikirlər, faktiki, Bakıya ünvanlı şantaj xarakterli açıqlama da Rusiyanın Azərbaycana münasibətdə gerçək münasibətinə işarə idi.

Hər necə olmasa, Moskva Cənub Qaz Dəhlizinin Rusiyanın tezliklə reallaşdırmağa çalışdığı "Türk axını"na rəqib hesab edir. CQD-nin axırıncı seqmenti kimi TAP-ın İtaliya ərazisindən keçən hissəsinin tikintisinə Rusiyaya bağlı siyasi qüvvələrin neçə vaxtdır əngəl yaratmağa çalışması da təsadüfi deyil. Bunu da Vaşinqtonda bilir və izləyirlər. Təkcə izləmirlər, eyni zamanda kontur-tədbirlər hazırlayırlar. Bu da növbəti fakt.

Bəllidir ki, ötən həftə Rusiyanın "Qazprom" şirkəti "Türk axını" layihəsinin Türkiyədən keçəcək hissəsinin maliyyələşməsi ilə bağlı "Botaş" şirkəti ilə müqavilə imzalayıb. Lakin məlumata görə, "Qazprom" "Türk axını" və "Şimal axını 2" layihələrinin inşasının ABŞ-ın sanksiyaları səbəbindən baş tutmayacağından narahat olmağa başlayıb. Belə ki, ABŞ prezidenti bir müddət əvvəl Rusiya ilə əlaqəli nəhəng layihələrin inşasını həyata keçirən şirkətlərə sanksiya və embarqolar tətbiq edilməsi ilə bağlı sərəncam imzalayıb.

Doğrudur, hələlik bu məsələ ilə bağlı rəsmi açıqlama verilməyib. Ancaq ABŞ-ın Rusiyaya qarşı sanksiyaların çoxşaxəli olduğu da diqqət çəkməyə bilməz. Başqa sözlə, bu sanksiyalar həm də Rusiyanın aparıcı olduğu iri iqtisadi layihələri iflic eləməyə yönəlib. Rusiyanın özünün isə belə layihələri başa çatdırmağa yetərli maliyyəsi yoxdur. Sanksiyaların tətbiqindən sonra heç yoxdur.

Bir ölkənin maliyyə gücü və ya gücsüzlüyü isə elə onun siyasi gücü və ya siyasi gücsüzlüyü anlamına gəlir. Beləcə, Vaşinqton Moskvanı ən zəif olduğu mübarizə müstəvisinə çəkir. Demək, Bakı da gözdə-qulaqda olmalıdır.

❑ **Analitik xidmət**

# Türkiyə prezidenti SOCAR rəhbərliyi ilə görüşəcək

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan 15 iyul hadisələrinin ildönümündə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) rəhbərliyinin də təmsil olunacağı 350 nəhəng şirkətin rəhbəri ilə görüşəcək.**

"R.T.Ərdoğan 15 iyulun ildönümündə dünyanın və Türkiyənin qabaqcıl şirkət rəhbərləri ilə görüşəcək. Türkiyə prezidenti ümumilikdə 4 trln. dolları idarə edən qlobal şirkətlərin rəhbərlərinə 15 iyul dövlət çevrilişinə cəhddən sonra baş verənləri danışaraq "Türkiyə güvənilən ünvandır, gəlin, sərmayələrinizi yatırın" mesajını verəcək", - deyə yerli KİV-də yayılan məlumatda qeyd olunub.

"Beynəlxalq İş dünyası toplantı"sında SOCAR, "Bank of China", "Bauhaus", "Benetton", "Chine Energy", "Coca Cola", "Facebook", "General Electric", "Google", "Hewlett Packard", IBM, "Koç", "Mercedes", "Motorola", "Microsoft", "Nike", "Pepsi", "Cisco", "Siemens", "Toyota", "Vodafone" və digər şirkətlərin rəhbərlərinin yer alacağı gözlənilir (report).

SOCAR

# Ermənistan isterikada: "Nə qələt ediblər ki..."

**İyulun 4-də Ermənistanın işğalçı qüvvələrinin Alxanlı kəndində azyaşlı körpəni qətlə yetirməsi ilə Qarabağda müharibə riski daha da artıb. Ermənistanın işğalçı və vəhşi mahiyyətini bir daha ortaya qoyan bu hadisə rəsmi Bakının diplomatik cəbhədə ermənilərə ağır zərbələr vurması ilə nəticələndi. Dünya ölkələri, əcnəbi diplomatlar rəsmi İrəvanın "çocuq qatili" olmasına bir daha şahidlik etdi. Bu hadisə Azərbaycanın torpaqlarını müharibə yolu ilə azad etmək üçün hər cür əsası olduğunu sübut etdi. ATƏT-in Minsk Qrupu həmsədrlərinin əvvəl verdikləri ənənəvi bəyanatı sonradan dəyişməsi əslində Azərbaycan cəmiyyətində "müharibədən başqa yol yoxdur", çağırışlarını qismən də olsa önləməyə hesablanmışdı. Həmsədr ölkələr Qarabağda məhz Ermənistanın pozucu əməlləri nəticəsində yaranmış gərginliyi azaltmaq üçün demək olar ki, daha gecələr də rahat yatmırlar.**




# II Qarabağ savaşı qapıda-mümkün ssenarilər...

## Ermənistanın ən qorxduğu Rusiyanın onları Qarabağda müharibə ilə cəzalandıra biləcəyidir-bu ssenari olarsa, Azərbaycan cəmi bir həftəyə qoşunlarını Laçın koridoruna çıxara, Ağdam-Xocalını işğaldan azad edərək Xankəndinə yaxınlaşa bilər; **rusiyalı ekspert:** "Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir"

Çünki Ermənistanın başını sığallayan həmsədr ölkələr müharibənin alovlanacağı təqdirdə onların da üzərinə ciddi məsuliyyət düşəcəyinin fərqindədirlər.

Bu səbəbdən də son günlər onların səsləri daha möhkəm çıxmağa başlayıb. Xarici işlər nazirlərini Brüsseldə bir masa arxasında oturtmağa nail olan həmsədrlər Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təklif ediblər. Həmsədrlərin yaydığı bəyanatda bildirilir ki, Məmmədyarov və Nalbəndyan öz prezidentlərinə həmsədrlərin bu ilin sonunadək yüksək səviyyəli görüşün keçirilməsi ilə bağlı təklifini çatdırmağa razılıq verib. "Həmsədrlər prezidentlərin görüşünün təşkilinə köməklərini təklif ediblər" deyə, bəyanatda bildirilir.

**Amma təkcə Azərbaycanda və işğalçı ölkədə deyil, münaqişə ilə yaxından maraqlanan tanınmış ekspertlər də Qarabağda hər gün artan müharibə ehtimalından danışırlar.**

**"Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir. Hazırda hər iki tərəf aktiv şəkildə savaşa hazırlaşır. Əgər hər iki tərəf hazırlaşırsa, o zaman yekunda toqquşma mütləq olacaq". Axar.az xəbər verir ki, bunu "1in.am" saytına açıqlamasında rusiyalı hərbi ekspert Pavel Felgenhauer söyləyib:** "Konfliktə təsir edən daxili və xarici faktorlar var. Hər iki tərəf intensiv şəkildə öz gücünü artırır. Genişmiqyaslı toqquşmaların qarşısını almaqdan ötrü nəsə etmək lazımdır. Genişmiqyaslı müharibəni başlamaq üçün təsadüfi olmayan, məqsədyönlü fəaliyyətlər tələb olunur. Tərəflərdən hansısa biri qərar verməlidir ki, başqa variant yoxdur və uğur qazanılması üçün heç olmasa lokal zərbə endirilməlidir", deyə, Felgenhauer vurğulayıb.

**Ekspertin fikrincə, Qarabağda atəşkəslə bağlı edilən çağırışlar kifayət deyil:** "Biz Qarabağ münaqişəsinin kompromis yolu ilə həllinə müəyyən siyasi səbəblərin izn vermədiyini görürük. Situasiya kompromislər və ciddi de-eskalasiya olmadan dəyişməyəcək. Genişmiqyaslı müharibəyə doğru aparan geridönülməz proses baş verir. Tərəflər hələlik ciddi hərbi fəaliyyətləri başlamağa hazır deyil. Bu, çox yaxşıdır, amma bu, savaşın qarşısını almaq üçün yetərli deyil".

Müharibənin başlayacağı barədə xəbərdarlıqlar Ermənistanın özündə də ciddi narahatlıq doğurmaqdadır. Rəsmi İrəvan Alxanlıdakı qətli də üzərindən təmizləyə bilməyəcəyinin fərqindədir və bu səbəbdən də "tülkü kimi gizlənmək" siyasətinə üstünlük verirlər. Amma erməni ekspertləri artıq mümkün müharibə variantında onları gözləyən təhlükələr barədə açıq danışmaqdan çəkinmirlər.

Bu aqoniya əhval-ruhiyyəsi Rusiyanın Azərbaycana növbəti partiya silah göndərməsi fonunda daha da artıb. İrəvanda bunu hətta "Rusiyanın Azərbaycanı Ermənistana qarşı müharibəyə təşviq eləməsi" kimi izah edirlər. Məsələn, erməni siyasi şərhçisi Sərkis Arsruni Azərbaycanın növbəti dəfə müharibəyə hazırlaşdığı haqda xəbərdarlıq edərək, həmçinin işarə vurur ki, bunu Moskvanın razılığı ilə olmasa da, susqun razılığı əsasında edir. "Cəbhədəki son eskalasiyalar fonunda da növbəti partiya Rusiya silah-sursatı Azərbaycana göndərməsi onu göstərir ki, Moskva yeni müharibədə maraqlıdır - böyük ehtimalla da o ümidlə ki, regionda bu yolla öz təsirini gücləndirəcək", - deyə ekspert bildirib.

Erməni analitik əlavə edib ki, müharibə başlayarsa, Rusiyanın da cavabdehliyi böyük olacaq.

Rusiyanın mümkün müharibə variantında hansı mövqe tutacağı son günlər yenidən ciddi müzakirə mövzusuna çevrilməkdədir. Ötən il Qarabağdakı 5 günlük lokal müharibə zamanı bir daha təsdiqləndi ki, nə Fransa, nə ABŞ-ın müharibəni dayandırmaq imkanı yoxdur, bu, yalnız Moskvanın vasitəçiliyi ilə mümkündür. İndi yeni müharibə riskinin artdığı bir vaxtda da həm Bakıda, həm İrəvanda "Moskva indi hansı mövqe tuta bilər" müzakirələri aktuallaşıb. Azərbaycan ekspertləri bu müzakirələrdə birmənalı rəy bildirmir, çünki Rusiyanın Qafqaz siyasətində dəyişən dəngələri hesablamaq o qədər də asan deyil. Ermənistanda isə açıq şəkildə Rusiyaya təzyiq elementləri hiss olunmaqdadır. Ermənistandan artıq təhdidlər də var ki, Rusiya Azərbaycanın öz torpaqlarını işğaldan azad etməyə imkan verəcəyi təqdirdə İrəvan Avrasiya İqtisadi Birliyi və KTMT-də üzvlüyünü dondurmalıdır. Bu "məni qoru" yalvarışı əvəzinə, Kremlə açıq təhdid, daha dəqiqi, şantaj siyasətidir ki, Ermənistan rəhbərliyi bunun üçün hələ ekspertləri önə verib. Amma aydındır ki, Ermənistanda sağlam düşünən adamlar müharibə başlayacağı və Rusiyanın loyallığını qoruyacağı təqdirdə İrəvanın belə təhlükədə olduğunu anlayırlar. Di gəl ki, "qorxuruq, bizi Azərbaycandan qoruyun", demək əvəzinə, şantaj siyasəti işə salınır ki, bu da ermənilərin xislətindən xəbər verir. İrəvan Rusiyanın bütün göstərişlərinə əməl etmək məcburiyyətindədir, amma Kremlə inanmadıqlarını da məqamı düşən kimi büruzə verirlər.

Son aylar İrəvan rəhbərliyinin Avropa Birliyində, Brüsseldə NATO koridorlarında sülənmələrinin əsas səbəblərindən biri də özlərinə mümkün Qarabağ savaşında yeni "qoruyucu ilahələr" tapmaq niyyətindən xəbər verir. Kreml hələ ki, İrəvanın "yeni dayı" axtarmaq prosesini diqqətli izləyir.

**Bugünlərdə Kremlə yaxın rosbalt. ru saytı Ermənistanı ağıllı olmağa çağırış edərək xəbərdarlıq da etmişdi. Sitat:** "Ərazisini Rusiya hərbi bazası hesabına qarantiya altına alan Ermənistan niyə NATO ilə bu cür oyunlara həvəslənib? Rusiyanın və İranın bu məsələyə mövqeyi necə olacaq? Əlbəttə ki, çox pis. Rusiya Ermənistanın iki stulda oturmasına heç vaxt imkan verməyəcək. İrəvanın "çoxqütblü xarici siyasət" bəhanəsi isə Ermənistanın özü üçün pis qurtaracaq". Burada "ərazisi" sözü ustalıqla "maskirovka" edilsə də, şübhə yoxdur ki, söhbət Qarabağdakı işğal edilmiş ərazilərdən də gedir.

Ermənistanın isə ən qorxduğu ssenari Rusiyanın onları Qarabağda müharibə ilə cəzalandıra biləcəyidir. Bu ssenari olarsa, Azərbaycan cəmi bir həftəyə qoşunlarını Laçın koridoruna çıxara, Ağdam-Xocalını işğaldan azad edərək Xankəndinə yaxınlaşa bilər. "Bir həftəlik canı" olan Ermənistanın müharibədən çox qorxduğu, ən əsası Rusiyanın mövqeyindən narahatlıqları aşkar ortadır.

Rusiyanın Ermənistanı qurban verə biləcəyinə inananlar azdır ki, bu da qeyd edilməlidir. Amma unutmaq olmaz ki, "su boğaza çıxanda meymun da balasını ayağı altına qoyur". Ermənistanın işğalçı siyasəti Rusiya rəhbərliyinə də dünyada xeyli başağrısı gətirir. Kremlin buna rəğmən hələ Ermənistanın arxasını qoruması, ermənilərin isə dara düşən kimi Rusiyaya dil uzatmaları indiki situasiyada Azərbaycanın çox xeyrinədir. Eləcə də Ermənistanın narahatlığı psixoloji baxımdan Azərbaycana xeyli üstünlüklər verir.

Bəlkə Ermənistanın elədiyi böyük bir qələti biz bilmirik ki, İrəvanda bu qədər narahatdırlar?

❑ **"YM"**



# Prezident: "Balaca Zəhranın və nənəsinin qanı yerdə qalmadı"

## "Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq"

**"Balaca Zəhranın və onun nənəsinin öldürülməsi hərbi cinayətdir və erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi".**

Azərbaycan prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iyulun 12-də keçirilən iclasında belə deyib.

**Dövlət başçısı daha sonra vurğulayıb:** "Bu cinayət cavabsız qalmadı. Azərbaycan ictimaiyyəti də bunu bilir. Baxmayaraq ki, Ermənistan öz itkilərini həmişə gizlətmək istəyir. Amma bütün itkiləri gizlədə bilmir. Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, onun nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq.

Nəyə hesablanmışdır bu cinayət? İlk növbədə, bu, Ermənistan siyasi rəhbərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir. Bu, birincisi.

İkincisi, iyulun 11-də xarici işlər nazirlərinin görüşü nəzərdə tutulmuşdu. Artıq bu tarix bəlli idi, sadəcə olaraq, son günlərdə bu tarix açıqlandı. Bu təxribatı törətməklə onlar hesab edirdilər ki, Azərbaycan danışıqlardan imtina edəcək. Biz imtina edə bilərdik, əgər onlara layiqli cavab verməsəydik. Cavablarını verdik, işğalçıları məhv etdik, onları cəzalandırdıq, sonra da danışıqlara getdik.

Bax, budur Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan əsas məsələlər. Ona görə mən deyirəm ki, bu il Azərbaycanın mövqeləri daha da möhkəmləndi. Alxanlı kəndində törədilmiş hərbi cinayətin dünyada böyük əks-sədası var. Yəni Ermənistan gördü ki, Azərbaycan böyük beynəlxalq dəstəyə malikdir. Bizim bütün qurumlarımız çox fəal, operativ işlədilər, bu məlumatı dünya ictimaiyyətinə çatdırdılar. Həm dövlət qurumları, səfirliklər, diaspor təşkilatları, ictimai təşkilatlar, bizim xaricdəki dostlarımız öz səslərini ucaltdılar və Ermənistana, onun faşist xislətli siyasi rəhbərliyinə dünyada nifrət daha da artdı.

O ki qaldı danışıqların perspektivlərinə, bir daha demək istəyirəm ki, danışıqlar bərpa edilir, bu, müsbət haldır. İndi əsas vəzifə tezliklə məsələni həll etməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Əminəm ki, belə də olacaq. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq".

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

# Sınıqçıların sındırdığı həyatlar...

**Bugünlərdə qolu sındığı üçün Ağdaş Mərkəzi Rayon Xəstəxanasında əməliyyat edilən 9 yaşlı Seymur Mehralıyevin ölümü yenidən bir neçə məsələni aktuallaşdırdı. Qeyd edək ki, Qəbələ rayonu Qaradeyin kənd sakini olan S. Mehralıyev bu yaxınlarda evlərinin pilləkənlərindən yıxılaraq qolunu sındırıb. Atasının dediyinə görə, qolundan zədə alan uşağı əvvəlcə sınıqçıya aparıblar. Bir müddət keçdikdən sonra isə məlum olub ki, sınıqçının səhvi ucbatından uşağın qolu əyri bitib. Rentgen müayinəsi də sümüklərin əyriliyini təsdiqlədiyindən S. Mehralıyev əməliyyata alınıb. Əməliyyatdan öncə uşağa verilən narkozun təsirindən o, əməliyyat stolundaca dünyasını dəyişib.**

## Vaqif Qarayev: "İlin-günün bu vaxtında uşağın sınıqçıya aparılması cahillikdən başqa heç nə deyil"



Bəzi ekspertlər bu hadisənin həkim səhlənkarlığı ucbatından baş verdiyini bildirirlər. Qeyd edirlər ki, anafilaktik şokun olmaması üçün uşağa həmin narkoz verilməzdən əvvəl yoxlama inyeksiyası ("prob") edilə bilərdi. Bəziləri isə uşağın ölümündə travmatoloq cərrahın deyil, bundan əvvəl ona türkəçarə yardım göstərən sınıqçının günahkar olduğunu iddia edir.

Bu hadisə onu göstərdi ki, tibb sahəsi, müasir avadanlıq nə qədər inkişaf etsə də insanlar hələ də xalq təbabətinin populyar simaları olan sınıqçılara, çöpçülərə və digər "ara həkimləri"nə müraciət edirlər.

Xalq təbabətində sınıqçılıq xüsusilə məşhurdur. Ümumiyyətlə, cərrahlıq meydana gələnə qədər insanlar yalnız sınıqçılara müraciət ediblər. Hətta yaxşı sınıqçı üçün bir rayondan digərinə gedərdilər. Sınıqçı hərəkətin, sümüyün tamlığının pozulması, şişkinlik və ya hərəkət zamanı sümükdən hər hansı səsin gəlməsini düzəldir. Öncə zədə müəyyən olunur, sonra yumşaldıcı vasitələrdən istifadə edilir. Çünki sınıq zamanı sümüklər yerini dəyişə bilir və bu da əzələlərin yığılmasına səbəb olur. Daha sonra sümükləri yerinə oturtduqdan sonra yumurtadan, xəmirdən və başqa bərkidici məhsullardan istifadə edərək həmin nahiyədə hərəkətsizlik yaradılır ki, hərəkətsizlik nəticəsində sınıq yeri rahat sağala bilsin. Ekspertlər qeyd edir ki, məhz bunları yaxşı bildikləri üçün sümükləri düzgün müalicə edə bilir və beləliklə də insanların etibarını qazana bilirlər. Lakin son hadisədən də göründüyü kimi, bir çox hallarda sınıqçının səhvi ciddi fəsadlara yol aça bilir və hətta faciə ilə nəticələnir.

Maraqlıdır, niyə müasir dövrdə sınıqçılara, digər "ara həkimləri"nə hələ də ehtiyac var? İnsanların həkimlərdən çox, türkəçarə metodlara üz tutmasının səbəbi nədir?

Ekspertlərin fikrincə, bunun əsas səbəbi sosial vəziyyətlə bağlıdır. Maddi imkansızlıqdan insanlar daha sərfəli yol kimi türkəçarəyə müraciət edirlər.

**Sosioloq Əhməd Qəşəmoğlu qeyd etdi ki, bu tip məsələlərə müxtəlif faktlardan yanaşmaq lazımdır:**

"Burada ən başlıca problem səhiyyə sistemində olan problemlərdir. Digər tərəfdən də çox təəssüf ki, tibbi kadrlarımızın səviyyəsi arzuolunan deyil. Eyni zamanda ölkəmizdə tibbi maarifləndirilməyə ehtiyac var. İnsanlara nə qədər desək ki, həkimə tez-tez gedin, mümkün olmur, çünki bu, insanların maddi imkanları xaricindədir. Ona görə də bu məsələdə bir neçə faktlar var və onları ayrı-ayrı həll etməliyik".

**Həkim Vaqif Qarayev mövzuya bu cür şərh bildirdi:** "Sınıqçılıq adətən təbabətin inkişaf etmədiyi vaxtlarda əyalətlərdə, kəndlərdə populyar idi. Xüsusi əl qabiliyyətinə malik olan insanlar var idi, hansı ki, onlar əlləri ilə toxunanda bilirdilər ki, harada sınıq var. Və yumurtadan gipsə bənzər "yaxı" düzəldilirdi. Bununla sağalanlar da olurdu, bunu danmaq olmaz. Lakin indiki vaxtda, yəni müasir avadanlıqların olduğu bir zamanda sınıqçıya müraciət edilməsi, üstəlik, nəticədə fəsadların yaranması və həkimə müraciət edilməsi ki, xəstə əlil olub, bunun özü əlillikdir. Sümüklər sına bilər, amma sınmış uclar yerini dəyişməyə bilməz. Onu ancaq həkim dartıb, çəkib sınmış sümükləri uc-uca qoya bilər. Mütləqdir ki, sümüklər düz olaraq bitişsin, əyrilik, deformasiya olmasın. Ola bilsin ki, sınıqçıların xüsusi vərdişi olsun, sınmış sümüyü bərkidə bilsin, lakin qoyduğu "gipsin" ucbatından monitorda görmək olmur ki, sümük düzgün yerinə oturub, ya yox. Nə qədər xüsusi vərdiş olsa da, rentgenin göstərdiyini heç bir əl, barmaq onu hiss edə, duya bilməz. Yəni ilin-günün bu vaxtında uşağın sınıqçıya aparılması cahillikdən başqa heç nə deyil. Uşağın əlil olmaması üçün xəstəni həkimə aparmaq lazımdır".

**Həkim qeyd etdi ki, fəsadlı halların baş verməməsi üçün müvafiq qurumlar ciddi tədbirlər görməlidir:** "Eşitdiyimə görə, bir kənddə məşhur bir sınıqçı var. Onun çox bahalı villası var və bütün sutka ərzində qapısında maşınlar növbəyə düzülür. Düşünürəm ki, ilk növbədə dövlət bu işə qarışmalıdır. Təhsili, tibbi müdaxilə ilə işləməyə izni olmayan şəxslərin bu cür çalışması cinayətdir. Yəni bunları ləğv etməlidir".

❑ **Xalidə GƏRAY**

# Samux musiqi məktəbində "ölü kadrlar" necə maaş alır?

## Direktor: "Məktəbdə yoxlanış aparılıb və heç bir neqativ hal aşkarlanmayıb"


„Мусават" гәзетинин тәсисчиси вә баш редактору Рауф Арифоғлу ҹәнабларына
Кәнд шәһәр Тәбриз күч. бина 94ᶜ мәнзил № 30-да јашајан Һүсејнов Елман Фәһја оғлу тәрәфиндән
Мүрачиәт
Һөрмәтли Рауф Арифоғлу, мүрачиәтими сизә мәлуматла башламаг истәјирәм. Белә ки, Самух р-н Сәркар кәнд мусиги мәктәбинин мүдири Мәммәдбәјова Сәадәт Фәрһад гызы мәним оғлумун гајнанасыдыр. Әлилликлә ... билирәм ки, о 2007-ҹи илдә Мүәллим...


Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi

cənab Kamran Əliyevə

Samux rayonu Kolayır kəndində yaşayan
Məmmədova Günay Duman qızı tərəfindən
TEL: 055-550-79-76

ƏRİZƏ

**Samuxun Sərkar kənd musiqi məktəbində baş verən korrupsiya qalmaqalı haqqında qəzetimizin bundan əvvəlki saylarında məlumat dərc etmişdik. Redaksiyamıza daxil olan şikayət məktublarında bildirilirdi ki, adıçəkilən məktəbin direktoru Səadət Fərhad qızı Məmmədbəyova vəzifəsindən sui-istifadə edərək adları məktəbdə gedən, amma faktiki olaraq işləməyən şəxslərin adına əmək haqqı yazaraq mənimsəyir, uşaqların sayını artırmaqla sinif yaradır, nəticədə külli miqdarda pul mənimsəyir. Çantasında Salman Nağıyevin, Alim İbrahimovun, Aytən Alməmmədovun, Rövşən Əsgərovun, Babək Hüseynovun, Nigar Salmanovanın maaş kartlarını gəzdirir. Onların maaşları bankomatlardan şəxsən özü çıxarır. Hətta uzun müddət Rusiyada yaşayan Lalə Şahismayıl qızı Xeyirxəbərovanın maaş kartına keçən 427 manat pulu mənimsəyir.**

Faktla bağlı redaksiyamıza Lalə Xeyirxəbərovanın adına olan hesabdan çıxarış da təqdim olunub. Həmin çıxarışda L.Xeyirxəbərovanın adına 2016-cı il dekabrın 5-dən bu ilin mart ayının 30-dək adına çıxarış edilən maaşların miqdarı yazılıb.

Müraciətdə həmçinin bildirilir ki, əgər Nağıyev Salman, Əsədova Pərvanə və Əliyev Şaiqin uzun illərdir əmək haqqı kartlarının bankomatdan çıxarılması yoxlanılarsa, Azərbaycan Beynəlxalq Bankına sorğu verilərsə, pulun kimin tərəfindən bankomatdan çıxarıldığı açıq-aşkar görünər. Çünki kartı bankomata daxil edib pulu məxaric edərkən həmin bankomat tərəfindən kartı daxil edən şəxsin avtomatik şəkli çəkilir. Bu zaman pulun məktəbin direktoru Səadət müəllimə tərəfindən götürüldüyü aşkar olunacaq.

Məktəbdə ştat üzrə 295 şagird təhsil alındığı bildirilsə də, həqiqətdə bu belə deyildir. Musiqi məktəbində faktiki 173 nəfər şagird təhsil alır. Buna sübut olaraq Həzrətov Orxan Vidadi oğlunu göstərmək olar ki, həmin şagird hazırda Sumqayıt Musiqi Kollecinin truba aləti sinfində təhsil alır.

S.Məmmədbəyovanın keçmiş qudası Elman Hüseynovun redaksiyamıza ünvanladığı məktubda bildirilirdi ki, keçmiş gəlini Şəms Hüseynova savadsızdır, notları belə tanımır, pianoda ifa belə edə bilmir, amma yüksək maaşla pianodan dərs deyir.

Xatırlatma verərək bildirək ki, S.Məmmədbəyovanın əməlləri ilə bağlı baş Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə müraciət ünvanlayıb.


HESABDAN ÇIXARIŞ
30/04/2017 11:24:54
Hesabın Nömrəsi:
Hesabın Adı:
IBAN:
Credit Dövriyyə:
Debit Dövriyyə:
Ümumi Komissiya:

**Məsələ ilə bağlı məktəbin direktoru S. Məmmədbəyova "Yeni Müsavat"a açıqlama verib. Direktor qeyd edib ki, korrupsiya qalmaqalı ilə bağlı may ayında məktəbdə yoxlanış aparılıb və heç bir neqativ hal aşkarlanmayıb:** "Aşkarlandı ki, deyilənlərin hamısı şər-böhtandır. Ötən il mən haqqımda səslənən ittihamlara, şər-böhtanlara, şəxsiyyət və ləyaqətimi alçaltdığı üçün Günay Məmmədovanı məhkəməyə verdim. Məhkəmədə təsdiq olundu ki, onun dedikləri yalandır".

**Direktor məktəbin "ölü kadr"ı L.Xeyirxəbərova ilə bağlı ittihamlara da cavab verib:** "O, sağlamlığında yaranmış problemlərə görə ötən il dekabrın sonunda məzuniyyət günündə icazə alaraq bir həftəlik Rusiyaya müalicəyə getdi. Bununla belə, Günay Məmmədova onun haqqında da ittihamlar irəli sürüb. Lalə gənc kadrdır, yaxşı müəllimdir. Sadəcə, yeni ailə həyatı qurmuşdu və səhhətində yaranmış problemlərə görə bir müddət ölkədən getmişdi. Müvafiq orqanlar onun haqqında da araşdırma apardı və deyilənlərin yalan olduğunu sübut etdilər".

**Direktor qızı Şəms Hüseynova haqqında ittihamlara isə bu cür cavab verdi:** "Mənim keçmiş qudamın dedikləri də yalandır. Qızım erkən vaxtında ailə həyatı qurdu. Lakin ailədə tez-tez döyüldürdü, buna görə hətta polisə də müraciət etmişdik. Savadına gəldikdə isə bildirim ki, qızım Şəms 5 yaşından musiqi ilə məşğul olur. O, Gəncədə 5 saylı musiqi məktəbini bitirib. Oxuduğu müddətdə daima konsertlərdə, tədbirlərdə iştirak edib. Daha sonra isə Gəncə Musiqi Kollecində fortepiano üzrə təhsil alıb. Qızımın savadsız olması haqqında səslənən ittihamların hamısı əsassızdır".

Uzun müddət məktəbdə müəllim işləyən Günay Məmmədovanın əməkdaşımıza verdiyi açıqlamaya görə, məktəbdə heç də korrupsiya halları səngiməmək bilmir: "Ötən il məktəbin direktoru haqqında səsləndirdiyim ittihamlara görə məni məhkəməyə verdi və təzminat davası açdı. Təzminat məsələsi məni qorxutduğu üçün ərizəmi geri götürdüm, məhkəmə barışıq qərarı çıxartdı. Lakin baş verən neqativ halların heç biri araşdırılmadı. Bu gün də qeyd edirəm ki, müraciətimdəki bütün faktlar doğrudur, gerçəkdir. Hazırda da Səadət Məmmədbəyova müəllimlərdən pul tələb etməkdə davam edir. Müəllimlərin hüquqlarını pozması artıq dözülməz həddə çatıb. Hər ay bütün müəllimlərin əmək haqlarından qanunsuz pul tutulmaları aparır".

**G.Məmmədova Rusiyada yaşamış həmkarı ilə bağlı qalmaqala da aydınlıq gətirib:** "Lalə Rusiyada yaşayırdı, lakin adına 3 "stavka" maaş kəsilirdi. Halbuki qanunla bu doğru deyil. Baş verən qalmaqala görə o, təcili olaraq bu ilin əvvəlində Azərbaycana gəldi".

Adının çəkilməsini istəməyən digər müəllimin sözlərinə görə də məktəbdə korrupsiya, hər ay müəllimlərdən pul alınması artıq ənənəvi hala çevrilib.

**Mövzunu davam etdirəcəyik.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Müharibə riski sülh şansına qarşı: nəticəsiz görüşlər nəyi dəyişəcək?

**Rəsmi Bakı:** "Ermənistan anlamalıdır ki, status-kvoya güvəndikcə müstəqilliyini tam itirmək riski ilə üzləşəcək"; **rusiyalı rəsmi:** "Moskva problemin həllində hərəkətə keçməlidir..."



**Xəbər verildiyi kimi, iyulun 12-də Brüsseldə Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbəndyan arasında görüş keçirilib. Görüş ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən təşkil olunub və onların iştirakı ilə keçirilib. Ermənistan XİN-in məlumatına görə, görüşdə danışıqlar prosesinin hərəkətə gətirilməsi naminə müvafiq şəraitin yaradılması müzakirə edilib.**

Məlumata görə, həmsədrlər həmçinin prezidentlərin görüşünün təşkili üçün XİN rəhbərlərindən təkliflərini təqdim etməyi xahiş ediblər. Vasitəçi diplomatların iştirakı ilə XİN başçılarının növbəti görüşünün bu ilin sentyabrda Nyu-Yorkda keçiriləcək BMT Baş Məclisinin iclası zamanı keçirilməsi razılaşdırılıb. Bu barədə həmsədrlərin Məmmədyarov-Nalbəndyan görüşü ilə bağlı yaydıqları bəyanatda deyilir. Bəyanatda habelə deyilir ki, nazirlər öz prezidentlərinə həmsədrlərin bu ilin sonunadək yüksək səviyyəli görüşün keçirilməsi ilə bağlı təklifini çatdırmağa razılıq veriblər. Həmsədrlər prezidentlərin görüşünün təşkilinə köməklərini təklif ediblər. Bəyanatda həmçinin qeyd edilir ki, görüş zamanı təmas xəttindəki son vəziyyət də müzakirə edilib.

**"Həmsədrlər tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin görüşü barəsində təklif hər iki ölkənin xarici işlər nazirləri tərəfindən dövlət başçılarına məruzə ediləcək. Prezidentlərin görüşündən sonra 2017-ci ilin payızında həmsədrlərin regiona təkrar səfəri planlaşdırılıb. Görüş əsnasında xarici işlər naziri Elmar Məmmədyarov bir daha bildirib ki, münaqişə ilə əlaqədar gərginliyin azaldılması və regionda təhlükəsizliyin təmin olunması üçün həmsədrlərin təqdim etdikləri mövcud planlara uyğun olaraq Ermənistan qoşunları Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır. Görüşdə hər hansı mexanizmlərin yaradılması müzakirə mövzusu olmayıb". Bu fikri isə Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev bildirib.**

***

Maraqlıdır ki, Brüssel görüşündən öncə Ermənistan XİN başçısı rusiyalı həmkarı Sergey Lavrovla bir araya gəlib.

Xatırladaq ki, iki ölkə XİN rəhbərlərinin bundan öncəki təması aprelin 29-da Moskvada baş tutmuşdu. Həm Moskva, həm də Brüssel görüşləri neçə vaxtdır dondurulmuş vəziyyətdə olan danışıqlara hansısa stimul vermək və bununla da artmaqda olan müharibə riskini azaltmaq niyyəti güdürdü. Hər halda, vasitəçilərin son bəyanat və açıqlamalarından ən əvvəl belə qənaət hasil olur.

Ancaq sülh prosesində irəliləyiş bu gün Azərbaycandan çox işğalçı Ermənistandan asılı vəziyyətdədir. Alxanlı vəhşiliyi isə göstərdi ki, İrəvan dinc nizamlama prosesinə nəinki konstruktiv yanaşmır, üstəlik, özünün davam edən təxribatları ilə kövrək danışıqlara olan ümidləri də topa tutur. Brüssel görüşü məhz danışıqlar prosesində üzücü durğunluğun davam eləməsi və konflikt zonasında artan eskalasiya faktları fonunda ikiqat önəm kəsb edirdi. Yeni münaqişə ətrafında situasiyanın daha çox hansı məcrada inkişaf tapacağına aydınlıq gətirmək baxımından önəm daşıyırdı.

Hələ ki vasitəçilərin iştirakı ilə nazirlərin budəfəki görüşünün hansı pozitiv nəticələrinin olacağını söyləmək çətindir. Həm də ona görə ki, görüş ərəfəsində də İrəvan rəsmilərinin Dağlıq Qarabağla bağlı barışmaz, danışıqlar prosesinin məntiqi ilə bir araya sığmayan davakar ritorikası davam edib. O sırada hətta Alxanlı vəhşiliyinə dolayısı ilə haqq qazandırılıb.

Erməni tərəfinin radikal, maksimalist mövqeyi özünü habelə eyni gündə - iyulun 11-də Avstriyada başlayan ATƏT XİN başçılarının qeyri-formal görüşündə Ermənistan nümayəndə heyətinin çıxışında da göstərib. Təbii ki, bu mövqe cavabsız qalmayıb. Nümayəndə heyətimizin adekvat reaksiyası ilə üzləşib.

**"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏT regionunda təhlükəsizliyə və sülhə qarşı ən ciddi təhdid olaraq qalmaqda davam edir. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin ATƏT-ə verdiyi mandata baxmayaraq, biz müşahidə edirik ki, təşkilat daxilində əsas meyl münaqişə ilə əlaqədar gərginliyi aradan qaldırmaqdır. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin edilmədən gərginliyin aradan qaldırılması problemi həll etməyəcək".**




**Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, bu fikirlər Azərbaycan nümayəndə heyətinin çıxışında yer alıb. Bildirilib ki, ATƏT daxilində münaqişədə status-kvonun qeyri-davamlı olması barədə yekdil mövqe təsbit edilməlidir:** "Ermənistanın cəbhə xətti boyu münaqişənin gərginləşməsinə yönəlmiş bütün növ təxribatları nəzərə alınaraq status-kvo dəyişilməlidir. Yaşayış məntəqələrinin heç bir fərq qoyulmadan atəşə tutulması nəticəsində iki azərbaycanlı mülki vətəndaşın öldürülməsi Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn kobud surətdə pozmasıdır və bir daha mülki əhalini hədəfə almaqla Azərbaycanı reaksiya verməyə təhrik etmək siyasətinin sübutudur, eyni zamanda Ermənistana sülh səylərini pozmaq üçün bəhanə verir.

Diqqətə çatdırılıb ki, münaqişə həll olunduqdan sonra Ermənistanın hazırkı rejiminin labüd legitimlik böhranı ilə üzləşəcəyi bu rejimi belə təxribatlara əl atmağa sövq edir. Ermənistanın siyasi rəhbərliyi anlayır ki, münaqişənin sülh yolu ilə beynəlxalq hüquqa uyğun həll edilməsi Azərbaycanın işğal olunmuş ərazilər üzərində suverenliyinin və ərazi bütövlüyünün bərpası ilə nəticələnəcək. Məhz buna görə də Ermənistan rəhbərliyi rejimin ömrünü uzatmaq məqsədilə mövcud status-kvonu möhkəmləndirmək üçün hər yola əl atır. Ermənistan dərk etməlidir ki, mövcud status-kvoya güvəndikcə müstəqilliyini tamamilə itirmək və regiondakı siyasi oyunlarda alətə çevrilmək riski ilə üzləşir. Yalnız münaqişəni sülh yolu ilə həll etməklə, Azərbaycan və regionun digər ölkələri ilə yaxşı qonşuluq münasibətləri yaratmaqla Ermənistan öz xalqı üçün müstəqil və xoş gələcək yarada və regionun inkişafından bəhrələnə bilər".

**Çıxışda daha sonra deyilir:** "Təəssüf ki, Ermənistanın xarici işlər naziri Mauerbaxda dialoq imkanını yenə əldən verdi. O, Azərbaycana qarşı əsassız ittihamlarla dolu bəyanatla çıxış etdi. Belə bəyanat daxili siyasi istehlak üçün nəzərdə tutulub. Bu, ATƏT-də gözlənilən çıxış deyil. Bu zalda olan hər kəs anlayır ki, Ermənistan-Azərbaycan münaqişəsində təcavüzkar və təcavüzə məruz qalmış tərəf kimdir. Bizi maraqlandıran sual odur ki, Ermənistanın naziri öz bəyanatı ilə nəyə nail olmaq istəyirdi. Əgər nazir hesab edirsə ki, bu yolla ATƏT daxilində etimad və etibarın bərpasına hansısa töhfə verə bilər, tamamilə aydındır ki, o, iflasa uğradı. Brüsseldə Azərbaycanın xarici işlər naziri və ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə planlaşdırılmış görüşü nəzərə aldıqda, Ermənistanın naziri həddən artıq təxribatçı çıxış səsləndirdi. Biz Ermənistanın nümayəndəliyini həm burada - ATƏT-də, həm də Brüsseldə keçiriləcək danışıqlarda konstruktiv mövqe nümayiş etdirməyə səsləyirik".

***

Göründüyü kimi, Nalbəndyan hətta Brüssel görüşünə saatlar qalmış da ölkəsinin ənənəvi təxribatçı mövqeyini ortaya qoyub. Bir daha İrəvanın ədalətli sülhdə maraqlı olmadığını nümayiş etdirib. Belə olan surətdə görəsən, Azərbaycandan daha hansı "konstruktiv təklif" gözlənilə bilər ki? Fakt odur ki, işğalçı tərəfin təxribatları üzündən bu gün sülh deyil, müharibə şansları artıb.

O üzdən siyasi və hərbi ekspertlər Brüssel görüşünün nəticələrindən dolayı da bir elə nikbin deyillər. Hərçənd **Rusiya siyasi elmlər doktoru, dövlət müşaviri Tatyana Poloskova** hesab edir ki, hələ sülh şansları itirilməyib. Musavat.com-un məlumatına görə, haqqin.az saytına eksklüziv açıqlamasında rusiyalı rəsmi bildirib ki, Rusiya da daxil, böyük dövlətlərin siyasi iradəsi olmadan, Dağlıq Qarabağ problemini çözmək mümkün olmayacaq.

"Aydındır ki, Azərbaycanla Ermənistan arasında gərginlik, onların arasındakı hərbi konflikt manipulyasiya üçün əlverişli alətdir - özü də heç də həmişə bizim ölkələrin xalqlarının marağında olmayan bir alət", - deyə o qeyd edib. Siyasətşünasın fikrincə, bir qrup Rusiya siyasətçisi problemə təkcə Azərbaycan və Ermənistan daxilindəki proseslərə təsir vasitəsi kimi deyil, həm də şəxsi PR faktoru kimi baxır.

"Bu da ola bilər. Mən o fikirlə razıyam ki, münaqişə tərəflərinin siyasi iradəsi olmadan konfliktin həlli mümkün deyil. Lakin prosesdə ən mühüm tərəf həm də Rusiya rəhbərliyidir. Odur ki, anlamaq istəyirəm: Rusiyanın buna siyasi iradəsi varmı və nə dərəcədə tez bir zamanda bu iradə real addımlara çevriləcək?", - deyə dövlət müşaviri sonda sual edib.

***

Əslində bu sualın özü ritorikdir. Çünki rəsmi Moskvanın Dağlıq Qarabağ məsələsinin dinc və ədalətli həllində real irəliləyişə nail olmasına ona özündən başqa heç bir qüvvə əngəl yaratmır, yarada bilməz. O səbəbə ki, problemin həlli üçün ən güclü rıçaq məhz onun əlindədir. Hələ ki onun əlindədir. O üzdən Moskva siyasi iradə göstərmək məsələsində bir qədər tələssə, yaxşıdır. Əks halda, yeni status-kvonun, işğal rejiminin davam edəcəyi təqdirdə əsas rıçaqın da daima onun əlində qalacağına zəmanət yoxdur. Bunu yəqin ki, Kreml dəhlizlərində də bilirlər.

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**
**Musavat.com xəbər verir ki, hakim Həbin Həsənovun sədrliyi ilə keçirilən prosesdə Akif Çovdarov ifadə verib.**



# Həbsdəki generaldan Tağı Əhmədovla bağlı sensasion açıqlamalar

## **Akif Çovdarov:** "Həmin şəxs dedi ki, "bu bombadı, partlaya bilər, qoy özündə qalsın"

General ilk olaraq YAP-ın Yasamal rayon təşkilatının sədri, Bakı Metropoliteninin sabiq rəhbəri Tağı Əhmədovun 3 milyonunun ələ keçirilməsi epizodu üzrə danışıb.

**Akif Çovdarov deyib ki, Tağı Əhmədov işdən çıxarılandan sonra quruma yeni rəis təyin olunan Zaur Həsənov ona zəng edib:** "Mənə dedi ki, stansiyaların çıxışlarından sökülən obyektlərin icarədarları metroya girişi bağlayıb, aksiya keçirirlər. Mən də dedim bu barədə polisə məlumat vermək lazımdı. Zaur Həsənov dedi, polisə demişik, onlar bacarmır".

**A.Çovdarov deyib ki, bundan sonra rəhbərliyinə məlumat verib:** "Mən hadisə barədə nazirliyin rəhbərliyinə müraciət etdim, onlar da ölkə rəhbərliyinə məruzə etdilər. Göstəriş verildi ki, araşdırılsın. Biz də araşdırdıq və bəlli oldu ki, metro stansiyalarının çıxışlarında 1200 obyekt var. Bunlar da 2007-ci ilə qədər Bakı Şəhər İcra Hakimiyyətinin, sonra isə Bakı Metropoliteninin balansında olub. Həmin obyektlərin aylıq icarə haqqı 200 dollardan 3 min dollara kimi idi. Bunlar da 3 aylıq icarə pulunu öncədən alırdılar. Tağı Əhmədov işdən çıxandan sonra da yeni rəhbərlik köşkləri ləğv etmişdi. Aksiya edənlər verdikləri icarə haqlarını tələb edirdilər".

**Çıxışında general deyib ki, sökülən obyektlər Tağı Əhmədovun hakim işləyən oğlu Rauf Əhmədovun yaxın dostları arasında bölüşdürülürmüş:** "Tağı Əhmədov ötən iclasda dedi ki, ildə 120 min manat icarə pulu verib. Ona sual verilməlidir ki, 1200 köşkün icarəsi 120 min edirsə, belə çıxır ki, biri 8 manat 50 qəpik olub? Həmin vaxt icarədarlardan alınan 3 aylıq ödəniş 5 milyon dollardan artıq idi. Biz bunu da rəhbərliyə məruzə etdik. Dövlət rəhbərliyi bizi çağırıb detallı araşdırma aparıb metropolitenin fəaliyyətinin yoxlanılmasını tapşırdı. Metropoliten hər il dövlətdən subsidiya alsa da, bu qədər gəlir əldə edirmiş".

**Generalın sözlərinə görə, detallı araşdırma aparılan zaman bəlli olub ki, metro stansiyalarında aparatlar elə qurulub ki, hər 4 jetondan biri qeydiyyatdan keçməyib və onun pulu Tağı Əhmədovun cibinə gedirmiş:** "Bütün bunları bizə Tağının qardaşı oğlu Şövqi Əhmədov dedi. Buna görə də Tağı Əhmədov öz qardaşı oğlundan imtina edib".

**Tağı Əhmədovun barəsində sensasion sayılacaq açıqlamaları davam edən A.Çovdarov çıxışına bunları əlavə edib:** "Bundan başqa, biz agentura xəttimiz vasitəsilə müəyyən etdik ki, təzə vaqon adı ilə Moskvadan işlənmiş vaqon alıb "kraskalayıb"lar. Bununla da 11 milyondan çox dövlət vəsaiti mənimsənilib. Hər 4 jetondan birini əldə etməklə aya 300 min manat pul qazanırdılar. İşıq puluna görə "Azərenerji"yə 4 milyon manat borcları var idi. Onu da mənimsəmişdi".

**Çovdarov daha sonra Tağı Əhmədovun əmlakları barədə danışıb:** "Bunlar üzə çıxandan sonra biz Tağı Əhmədovun əmlaklarını da müəyyən etməyə başladıq. İndi yadımda qalanları deyəcəm. "Sahil" metrosunun üstündəki binada 4 mənzil, "Yeni Həyat" yaşayış kompleksində 4 mənzil, Neft Akademiyasının əsas korpusu ilə üzbəüz 7-8 dükan, Bakıda 6-7 bağ evi, Yasamal Rayon Məhkəməsinin yeni binasının arxasındakı "Kolizey" və "Şəhrizad" restoranları, Dubayda elit yaşayış kompleksində yerləşən hotelin bütövlükdə 3 mərtəbəsi, Dubayda bir böyük ticarət mərkəzi. Bundan başqa, Tağı Əhmədov Xarici İşlər Nazirliyində işləyən oğlu Ruslan Əhmədov vasitəsilə 17 milyon dollar pulu ofşor hesablarla ölkədən çıxarıb. Dubaydakı hoteli və ticarət mərkəzini də bu pulla alıb. Moskvada metro çıxışında 5 milyona 120 kvadratmetrlik dükan alıb, arendaya verib".

**Akif Çovdarov Tağı Əhmədovun bank hesablarındakı pulları haqda da danışıb. O bildirib ki, Tağı Əhmədovun təkcə "Texnikabank"da 13 milyon dolları olub.** "Digər pulları isə "Bank of Baku" və "Unibank"dakı hesablarında idi. "Texnikabank" müflis olanda öz hesabından 9 milyon çıxarıb ofşora yatırmışdı. Qalan 4 milyonu da Ruslan Əhmədov müxtəlif qohumlarının adına 30-50 min miqdarında köçürmüşdü. Qohumları hesablardan pulu çıxarıb əlbəəl Ruslana vermişdilər, bunun kamera görüntüləri də var idi. Ümumilikdə Tağı Əhmədov və yaxınlarının hesablarında 21 milyon pul müəyyən edildi. Biz məlumatları toplayıb rəhbərliyə təqdim etdik, bizə cavab verdilər ki, hələ gözləyin, məlumatları özünüzdə saxlayın, prokurorluq istəyəndə verərsiniz. Sonra mən prokurorluqdan



yüksək vəzifəli şəxslə əlaqə saxladım və telefonda hansı məlumatlar olduğunu ona dedim. Həmin şəxs dedi ki, "bu bombadı, partlaya bilər, qoy özündə qalsın. Sən onu bizə göndərsən biz gərək qeydiyyata salaq, onda da ortaya çıxacaq"" deyə, A. Çovdarov çıxışına əlavə edib.

**Məhkəmədə çıxış edən prokuror isə qeyd edib ki, Tağı Əhmədov haqda prokurorluqda heç bir araşdırma aparılmayıb. A.Çovdarov prokurora belə cavab verib:**

"Sən məndən bunu soruşma, soruş ki, mən prokurorluqda yüksək vəzifəli şəxs olan kimlə danışmışam".

Amma prokuror bu sualı dinləməklə kifayətlənib.

**Prosesin davamında Çovdarov Tağı Əhmədov barəsində danışmağa davam edib:** "Tağı Əhmədovun mənə pul verməsi yalandır. Bir dəfə nazirliyimizə 10-12 minlik yüngül maşınlar lazım idi, rəhbərlik məsləhət gördü ki, əməkdaşlıq etdiyimiz qurumlardan istəyək, onlar da hədiyyə etsinlər. Mən Rəsula dedim ki, get Tağıya denən, lazımdısa nazir müavininin adından rəsmi məktub da yazaq. Onda Tağı demişdi ki, "3-5 min verə bilərəm, üstünü özünüz düzəldərsiz". Mən bilirdim ki, Tağının arxasında kim var, ona görə bu məsələnin üstünə getmədik. Tağı Əhmədovun mənimsəmələri isə dövlət rəhbərliyinin məlumatı olduğu məsələ idi, 3 yox, 15 milyon da versə idi, mən onu bağlaya bilməzdim. Tağı Əhmədovun arxasında kimin olduğunu da onun daha əvvəlki işində bildik. O metro üçün işlənmiş mikrosxemləri avtobusda xüsusi hazırlanmış gizli saxlanc yerində ölkəyə gətirirdi. Biz həmin avtobusa nəzarətə götürdük. Sürücü bizim onu izlədiyimizi bildi, onu saxlamaq istəyəndə işçimizin birini avtobusla vurdu, xəsarət aldı. Sumqayıt postunda sürücünü saxladıq, məsələni rəhbərliyə məruzə edəndə bizə dedilər ki, Tağı Əhmədovla işiniz olmasın".

**Çovdarov bildirib ki, Tağı Əhmədovun ondan şikayət etmək fikri olmayıb:** "Şikayət edəndən sonra da peşman olmuşdu. 2016-cı ildə ərizəsini geri götürmək istəyirdi, necə yerdə də demişdi ki, bu yaşımda mənə lazım idi bu? Onu şantaj etdilər, oğlu Ruslan Çovdarov içkili vəziyyətdə qəza törətmişdi, adam ölmüşdü. Ruslan da ANS-in kamerasına düşmüşdü. Tağı da bu məsələyə görə məcbur olub mənim əleyhimə yalan ifadə verdi".

Məhkəmə prosesi iyulun 18-də davam etdiriləcək.

**Qeyd edək ki, Akif Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.**

❑ **İlkin MURADOV**

# Eldar Mahmudovun həbsinin üzə çıxaracağı sirlər

## Sabiq nazirin işçilərindən əsas fərqi odur ki, onun malik olduğu kompromatlar hər an agentləri tərəfindən üzə çıxarıla bilər



**Bakı Hərbi Məhkəməsində sahibkarlara hədə-qorxu gəlməkdə, külli miqdarda əmlakını ələ keçirməkdə təqsirləndirilən MTN polkovniki Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. Hakim Siyavuş Hacıyevin çıxardığı hökmlə Vüsal Ələkbərov 12 il müddətinə azadlıqdan məhrum edilib və polkovnik rütbəsindən məhrum edilib. V.Ələkbərova məxsus olan və həyat yoldaşı Şəhla Ələkbərovanın adına rəsmiləşdirilən Badamdar qəsəbəsindəki 18 sot torpaq sahəsi və üzərində yerləşən fərdi yaşayış evi, Şərifzadə küçəsindəki mənzili, ümumi dəyəri 1 milyon 277 min manat olan əmlakları müsadirə edilib. Məhkəmə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Baş İstintaq İdarəsinin keçmiş rəisi Mövlam Şıxəliyev barəsində cinayət işinin başlanması üçün prokurorluğa təqdimat göndərib. Hökmdə göstərilib ki, təqdimat zərərçəkmişlərin şikayəti əsasında hazırlanıb.**

M.Şıxəliyev gununsesi.info-ya deyib ki, barəsində xüsusi qərardad çıxarılmasından məlumatsızdır: "Bakı Hərbi Məhkəməsinin barəmdə cinayət işinin başlanması üçün qərardad çıxarması ilə bağlı xəbəri mətbuatdan oxudum. Bu barədə məlumatsızam. Əgər sizin üçün maraqlıdırsa, özünüz məhkəməyə müraciət edib məlumat ala bilərsiniz".

E.Mahmudovdan isə vəzifədən çıxarılandan sonra xəbər yoxdur. Onun ölkədə olması, xaricə getməsi haqda bilgilər yayılsa da, sabiq nazirin konkret harada olması bilinmir. Əgər xüsusi qərardad üzrə cinayət işi başlansa və E.Mahmudov həbs edilsə, hansı məqamlar üzə çıxa bilər?

Onun uzun illər rəhbərlik etdiyi sahədə cəmiyyətin ən müxtəlif təbəqələrindən olan üzvlərinə qarşı kompromatlar toplanıb. Media, biznes, iqtidarlı-müxalifətli bütün sahələrdə özünün agentləri olub. E.Mahmudov həbs olunarsa, həmin şəxslərin də deşifrə olunması prosesi baş verə bilər. Hərçənd ki, E.Mahmudovun həbs ediləcəyinə əksər ekspertlər böyük şübhə ilə yanaşırlar. Sabiq nazirin 10 illik fəaliyyəti dövründə topladığı kompomatlardan özünə qala qura bildiyi, özünü kompromatlarla qoruduğu haqda bilgilər də var.

E.Mahmudovla onun baş istintaqçısı M.Şıxəliyevin barəsində çıxarılan xüsusi qərardad qeyd etdiyimiz kimi, MTN müstəntiqi Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmənin yekun qərarında yer alıb.

V.Ələkbərovun özü belə məhkəməsində kompromatlardan istifadə etməyə çalışıb. Sabiq müstəntiq "mən 2005-ci ilin martında Bakıda öldürülən "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun cinayət işini araşdırmışam" sözlərini deməklə özünün sıradan biri olmadığını, geniş bilgilərə sahibliyini diqqətə çatdırmaq istəyib. Məhkəmədə onun dediklərinə əhəmiyyət verilməməsi görüntüsü yaradılsa da, eks-müstəntiqin mesajı ünvanına çatmamış deyil. Bununla belə, bu açıqlama V.Ələkbərov üçün "ikibaşlı dəyənəyə" də çevrilə bilər. Mümkündür ki, V.Ələkbərov vaxtilə iş yoldaşı olmuş ləğv edilən MTN-in Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyevin taleyini yaşaya bilər. Yada salaq ki, İ.Əliyev E.Mahmudov işdən çıxarılandan dərhal sonra həbsə alınan MTN-çilərdən idi. Belə məlumatlar vardı ki, o, həbs qərarından verdiyi şikayətlə əlaqəli aparıldığı məhkəmədə bildiklərini açıqlayacağı ilə bağlı bəyanat vermişdi. Bu bəyanatdan bir neçə gün sonra onu saxlandığı Bakı İstintaq Təcridxanasının kamerasında asılmış vəziyyətdə aşkar etdilər. Hazırda məhkəməsi keçirilən MTN generalı Akif Çovdarov İlqar Əliyevin öldürüldüyünü və sonradan asıldığını açıqladı.

E.Mahmudovun həbsi gerçəkləşərsə, onun da belə bir tale yaşaya biləcəyi istisna deyil. Lakin sabiq nazirin işçilərindən əsas fərqi odur ki, onun malik olduğu kompromatlar hər an agentləri tərəfindən üzə çıxarıla bilər. Görünür, bu məqam sabiq naziri həbsdən sığortalayır.

❑ **E.HÜSEYNOV**

**ABŞ-da prezident seçkilərinə "Rusiya müdaxiləsi" ilə bağlı qalmaqalların yeni dalğası yüksəlmək üzrədir. ABŞ KİV-ində hesab edirlər ki, prezidentin oğlu - kiçik Trampın Azərbaycan əsilli rusiyalı milyarder Araz Ağalarovun oğlu ilə münasibətləri Kremlin seçkilərə təsirini göstərir.**

# Araz Ağalarov oğlunun adı qarışan kompromatdan danışdı

## "Trampın oğlu ilə Emin ünsiyyət saxlayırdılar, ancaq necə, nədən danışırdılar, bilmirəm"

Rusiyanın müxalifyönlü mətbuatında isə yazılır ki, ABŞ seçkilərinə "Rusiya müdaxiləsi" işini araşdıran xüsusi prokuror Robert Müller ABŞ prezidentinin oğlu ilə rusiyalı vəkilin elektron yazışmasını araşdırmaq niyyətindədir, bütün bunlar haqqında CNN kanalı öz mənbələrinə istinadən məlumat verir. Daha öncə isə "New York Times" məlumat vermişdi ki, Kremllə əlaqəsinin olduğu iddia edilən Rusiyadan olan vəkil Natalya Veselniçkaya 2016-cı ildə prezidentin oğlu ilə görüşüb və ona prezidentliyə namizəd Hillari Klintona qarşı əlində kompromat olduğunu bildirib. Prezidentin oğlu mətbuat nümayəndəsinə bildirib ki, Veselniçkaya ilə görüş zamanı bəlli olub ki, onda heç bir əhəmiyyətli informasiya yoxdur və söhbətin məcrası uşaqların övladlığa götürülməsi zamanı yaşanan problemlərlə dəyişib və əslində görüşün əsas səbəbi də məhz bu olub. Veselniçkaya, sadəcə, "kompromat məsələsindən" görüşə nail olmaq üçün istifadə edib.

Bununla yanaşı, gənc Tramp twitter səhifəsində musiqi tənqidçisi Rob Qoldstoun ilə yazışmasını paylaşıb, Qoldstoun onun Emin Ağalarov ilə görüşünü təşkil etməli idi. Donald və Emin hələ 2013-cü ildən tanışdırlar. ABŞ KİV-i bu münasibəti də Kremllə əlaqələrin sübutu kimi qiymətləndirir. Çünki Eminin atası Aras Ağalarov ilə Rusiya prezidenti Vladimir Putin dostdur.

Kiçik Trampın Qoldstounla yazışmasında Emin Ağalarovla görüşün təşkili barədə müzakirə gedir. Həmin yazışmada kiçik Tramp Qoldstouna belə yazır: **"Əgər bu, sən deyən məsələdirsə(Klinton haqda informasiya), o zaman bu, mənim xoşuma gəlir".**

Öz növbəsində Qoldstoun bəyan edib ki, vəkil ona daha öncə Hillari Klintonun seçki kampaniyası ilə bağlı ilginc məlumatlar çatdıracağını anons edib. "Rusiyanın baş prokuroru Trampın seçki qərargahına Rusiya ilə Hillari Klinton arasındakı münasibətlərlə bağlı rəsmi sənəd və məlumatlar çatdıracağını deyib. Bu isə sizin atanızın xeyrinə ola bilər" - bu isə Qoldstonun 3 iyun 2016-cı ildə kiçik Trampa yazdığı məktubda öz əksini tapıb.

Kiçik Tramp öncə bu sual ətrafında telefonda müzakirə aparmağı təklif edib. Amma bu, alınmayanda üzbəüz görüşə razılıq verib. Bununla belə, o bir daha iddia edib ki, "sözügedən qadın" (söhbət Veselnitskayadan gedir) rusiyalı məmur olmayıb, sadəcə, övladlığa götürmə və "Maqnitski Aktı" ilə bağlı məlumat əldə etməyə çalışıb. Kiçik Tramp eyni zamanda deyib ki, atası onun rusiyalı vəkillə görüşündən xəbərdar olmayıb.

Trampın oğlu deyib ki, rus vəkil ona kampaniya üçün əhəmiyyətli olacaq informasiyaya malik olduğunu söyləyib. O deyib ki, guya Rusiyaya bağlı şəxslər Demokratik Partiyanın Milli Komitəsini və Hillari Klintonu dəstəkləyirlər. Oğul Trampın dediyinə görə, söhbət əsnasında tezliklə aydın olub ki, vəkilin informasiyası yayğındır və heç bir sübuta söykənmir.




Cənab Varner deyib ki, rusiyalı vəkillə söhbət Tramp administrasiyasının "yaddaşsızlıq" vərdişinin daha bir epizodudur. Başqa sözlərlə Tramp administrasiyası və kampaniyasının rəsmiləri ruslarla görüşlərini nədənsə bir qayda olaraq "unutmuş" olurlar. Senator deyib ki, indiyədək Tramp kampaniyasının ruslarla əlaqələrinə dair çox sayda iddialar olub, lakin prezident və onun yaxın çevrəsi bütün bu iddiaları rədd ediblər.

BBC xəbər verir ki, "The İndependent" hüquq ekspertinə istinadən yazır ki, ola bilsin, oğul Tramp öz bəyanatı ilə cinayət törətdiyini təsdiq edib. MSNBC şəbəkəsindən təhlükəsizlik təhlilçisi və Ədliyyə Nazirliyinin keçmiş sözçüsü Metyu Miller deyib ki, prezidentin oğlu xarici vətəndaşdan dəyəri olan nəsə almaq istədiyini və buna çalışdığını etiraf etməklə qanunu pozduğunu da etiraf edir. Ekspert deyib ki, ABŞ qanunlarına görə, bu "qiymətli nəsənin" pul olması vacib deyil, bu bir informasiya da ola bilər.

"Krokus" qrupunun sahibi, milyarder Araz Ağalarov ABŞ prezidenti Donald Trampın oğlu tərəfindən dərc edilmiş və Hillari Klinton əleyhinə kompromatla əlaqədar onun oğlu Emin Ağalarovun adıçəkilən məktubu "uydurma" adlandırıb.

**Virtualaz.org bildirir ki, BFM-ə müsahibəsində A.Ağalarov deyib:** "Mən düşünürəm, bu hansısa bir uydurmadır. Amma onu kim uydurur, bilmirəm. Hillari Klintonun bura nə dəxli var? Mən bilmirəm..."

"Trampın oğlu ilə tanışsınızmı" sualına Araz Ağalarov "yox" cavabı verib.

"Onunla Emin tanışdır, mən tanış deyiləm. Amma biz beynəlxalq gözəllik yarışması keçirdik və orada müəyyən əlaqələr oldu. Onlar təxminən eyni yaşdadır, haradan bilim ki, hansı formada ünsiyyət saxlayırdılar. Bəli, ünsiyyət saxlayırdılar, ancaq necə, nədən danışırdılar, bilmirəm", - deyə A.Ağalarov bildirib və əlavə edib ki, Trampın oğlu bir müddət Eminlə menecer kimi işləyib və yəqin, yaxud ehtimal ki, Amerikada nəsə müəyyən işlər görüb.

"Ümumiyyətlə, o işləyirdi. Onlar ünsiyyət saxlayırdılar", - deyə milyarder bir daha vurğulayıb.

❑ **Sevinc TELMANQIZI**

# ABŞ həm "qaçan"ın, həm də "qovan"ın yanındadır

## Vaşinqton və Doha arasında son anlaşma ərəb ölkələrini məmnun etmir

**Qətər ətrafında gərginliyin davam etdiyi bir vaxtda Türkiyə ordusu bu ölkədəki hərbi bazasına növbəti dəfə hərbçi göndərib. Ötən gün "Birinci ordu"ya məxsus 45 xüsusi təyinatlı hərbçi Qətər gəlib və bununla da Qətərdəki Türkiyə hərbçilərinin sayı 150 nəfərdən çox olub. İyulun 16-19-da isə Qətərə daha 25 nəfərdən ibarət artilleriya heyəti gedəcək. Bundan sonra isə iki ölkənin birgə hərbi təlimləri başlayacaq.**

Xatırladaq ki, 2014-cü ilin sonunda imzalanmış Qətər-Türkiyə anlaşması bu ilin iyun ayında Türkiyə parlamenti tərəfindən təsdiqlənib və bundan sonra Türkiyə hərbçilərinin Qətərə göndərilməsi başlayıb. Bütün bunlar Qətər ətrafında böhranın başladığı günlərlə eyni vaxta təsadüf edib. İyunun əvvəlində 4 ərəb ölkəsi - Səudiyyə Ərəbistanı, Misir, Bəhreyn və BƏƏ Qətəri terrorizmi maliyyələşdirməkdə ittiham edərək Doha ilə diplomatik əlaqələri dayandırıb. Bundan sonra Qətərə yerinə yetirməsi üçün 13 təklif göndərilib, ancaq rəsmi Doha tələbləri qəbul etməyib.

İki gün əvvəl isə ABŞ dövlət katibi Reks Tillerson Dohaya səfər edib. Səfər çərçivəsində ABŞ və Qətər hökumətləri arasında "terrorla mübarizə və terrorun maliyyələşdirilməsinin qarşısının alınması" haqqında anlaşma imzalanıb. Anlaşma nəticəsində iki ölkə Qətərin terrorla mübarizəsinə dəstək verilməsi və terrora maliyyə dəstəyi verilməsi ilə bağlı problemləri aradan qaldırmaq üçün birgə hərəkət edəcəklər.

Qeyd edək ki, 4 ərəb ölkəsinin Qətərə qarşı əsas ittihamları məhz terroru maliyyələşdirməklə bağlıdır. Adları yuxarıda qeyd olunan ərəb ölkələri isə ABŞ və Qətər arasında imzalanmış anlaşmanın "yetərli olmadığı" ilə bağlı birgə açıqlama yayıb. Bu səbəbdən də Qətərə qarşı embarqo davam edəcək. Ancaq eyni zamanda ərəb dövlətləri ABŞ-ın Qətər böhranını aradan qaldırmaqla bağlı addımlarını təqdir ediblər. Qətər hökuməti isə anlaşmanın Qətər böhranı ilə bağlı olmadığını bildirib.

Yeri gəlmişkən, bu gün Qətərə embarqo tətbiq edən 4 ərəb ölkəsi - Səudiyyə Ərəbistanı, BƏƏ, Misir və Bəhreyn xarici işlər nazirləri Səudiyyə Ərəbistanının Ciddə şəhərində bir araya gələcək. Məsələ ondadır ki, Qətər böhranı əslində ABŞ-ın, daha dəqiqi, prezident Donald Trampın xeyir-duası ilə başlayıb. Mayın 21-də Səudiyyə Ərəbistanına səfər edən ABŞ prezidenti müsəlman ölkələri ilə toplantıdan bir neçə gün sonra 4 ərəb ölkəsi Qətərə qarşı məlum bəyanatla çıxış ediblər. Daha sonra ABŞ prezidenti özü də Qətəri ittiham edən açıqlama verdi.

Bununla da məlum oldu ki, ABŞ prezidenti əslində bu prosesin içərisindədir. Lakin eyni zamanda prezidentdən fərqli olaraq Dövlət Departamenti daha yumşaq bəyanat verdi. ABŞ Müdafiə Nazirliyi (Pentaqon) isə ümumiyyətlə, Qətəri müdafiə etdi. Məlum olduğu kimi, hazırda ABŞ-ın körfəz regionunda ən böyük hərbi hava bazalarından biri Qətərdə yerləşir. 13 min hərbçinin olduğu baza İraq və Suriyada İŞİD-ə qarşı mübarizənin əsas mərkəzi hesab olunur. Pentaqon bəyan etdi ki, bazanın bağlanması İŞİD-ə qarşı əməliyyatlara mənfi təsir edə bilər.

Bu prosesdə Qətər rəhbərliyi Vaşinqtonda ciddi diplomatik fəaliyyət yürütdü, ABŞ-dan 12 milyardlıq silah alınması haqda müqavilə imzaladı. Bununla da Doha müəyyən qədər Vaşinqtonu neytrallaşdırmağa nail oldu. İndi isə Amerika Qətərlə anlaşma imzalamaqla yaranmış gərginliyi yumşaltmağa çalışır. Görünür, Tillersonun Doha səfəri zamanı bu mövzu müzakirə olunub və Vaşinqton Qətərdən müəyyən vədlər alıb. Bu anlaşma Dohanı Vaşinqton təhlükəsindən sığortalayır.

Məsələ ondadır ki, ABŞ hökuməti bu böhranın daha da dərinləşməsində maraqlı deyil. Aydın məsələdir ki, Qətər "ərəb baharı" prosesində bir sıra ölkələrdə, o cümlədən Liviya, Misir, Suriya kimi ölkələrdə silahlı üsyançı qrupları maliyyələşdirib və indi də maliyyələşdirməkdə davam edir. Eyni zamanda körfəzdə bir sıra ərəb ölkələrinin hakim ailələrinin gizli şəkildə İŞİD-i maliyyələşdirdiyi də məlumdur. Ancaq Qətər hökumətinin silahlı qrupları dəstəkləməsi tamamilə açıq olub. Son illərdə Qətərin digər ərəb ölkələri ilə ideoloji-siyasi fikir ayrılığı dərinləşib və apardığı müstəqil siyasət körfəz ölkələrini qıcıqlandırıb. Bu səbəbdən, ona qarşı kəskin mövqe ortaya qoydular. Vaşinqtonla sözügedən anlaşma Qətəri xarici müdaxilə təhdidindən sığortalayır və yaranmış böhranın aradan qaldırılması prosesini sürətləndirəcək. Bu anlaşma Dohanı müəyyən qədər Vaşinqtonun təsiri altına alır. Anlaşma çərçivəsində Doha Vaşinqtonla məlumat mübadiləsi aparacaq və fəaliyyətlərini ABŞ-la koordinasiya edəcək. Bu vəziyyət Vaşinqtonu məmnun etsə də, körfəz ölkələrini razı salmır, çünki faktiki olaraq Qətər heç bir tələbi yerinə yetirmədi.

Eyni zamanda Türkiyə ilk gündən olduğu kimi, Dohanı dəstəkləməkdə davam edir. Artıq Ankara Dohaya hava koridoru da açıb. Üstəlik, ora əsgər göndərməklə Qətərin təhlükəsizliyini faktiki olaraq təminat altına alıb. Bu hadisə bir tərəfdən Türkiyəyə Qətər kimi bir müttəfiq qazandırmaqla yanaşı, ən azından 4 düşmən ölkə qazandırıb. Bu isə Yaxın Şərqə acılmı siyasi hədəf elan edən Ankara üçün ciddi riskdir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

**Bakı Apelyasiya Məhkəməsində hakim Xuraman Məhərrəmovanın sədrliyi ilə Yasamal rayonunda böyük mənzil fırıldaqlarının açılmasında açar rolunu oynaya biləcək şikayət araşdırılır.**



# Vətəndaşları dəlixanaya salıb mənzillərini ələ keçiriblər - şok məhkəmə işi

## İşdən qovulan başçının adı vətəndaşların mülklərinin ələ keçirilməsinə qarışıb

Məsələnin mahiyyəti budur ki, Ədliyyə Nazirliyinin sabiq işçisi Arzu Səfərov 2009-cu ildə 83 min dollar ödəməklə Yasamal rayonu, Yeni Yasamal-1 küçəsi, ev 13 ünvanlı binanın 10 saylı mənzilini alıb. Mənzili satan isə Həsən Novruzov olub. A.Səfərov mənzildə 5 il yaşayıb və günlərin birində Yasamal Rayon Məhkəməsindən ünvanına qətnamə gəlib. Həmin qətnamədən belə aydın olub ki, A.Səfərova satılan mənzil Şirzad Qəhrəmanov soyadlı vətəndaşa məxsusdur. Həmin mənzildə vaxtilə bir qaçqın ailəsi məskunlaşıb. Qaçqın ailəsini isə mənzildən Yasamal rayon 22 saylı Mənzil İstismar Sahəsinin rəisi Saqib Məmmədov çıxarıb və mənzili sahibinə - Şirzad Qəhrəmanova qaytarmaq əvəzinə öz kürəkəni Həsən Novruzovun adına məhkəmə yolu ilə sənədləşdirib. 2009-cu ildə isə mənzili kürəkəni Həsən Novruzovun adından Arzu Səfərova 83 min dollara satıb. Ş.Qəhrəmanov qaçqının mənzildən çıxarıldığını və mənzilin digər bir şəxsin adına keçirildiyini öyrəndikdən sonra məhkəməyə müraciət edərək əmlakının ona qaytarılması iddiası ilə çıxış edib. Məhkəmə iddianı təmin edib və A.Səfərovun ailəsi ilə birgə mənzildən çıxarılmağını, bununla bərabər vicdanlı alıcı kimi ona mənzili alarkən ödədiyi 83 min dolların qaytarılmasını qət edib. Bundan başqa, mənzil Həsən Novruzovun adına sənədləşdirilərkən yol verilən sənədlərin saxtalaşdırılması faktlarının araşdırılması üçün xüsusi qərardad çıxarılıb. Bu məhkəmə çəkişməsi bir müddət əvvəl işdən qovulan Yasamalın icra başçısı İbrahim Mehdiyevin rayon ərazisində baş verən mənzil fırıldaqlarına, vətəndaşların mənzillərinin ələ keçirilməsi faktlarına göz yummasını da ortaya çıxarıb.

**A.Səfərov "Yeni Müsavat"a deyib ki, məhkəmələrin gedişi zamanı öyrənib ki, Saqib Məmmədov-İbrahim Mehdiyev tandeminin əməllərindən zərərçəkən təkcə o deyil. Belə ki, Yasamal ərazisində belə faktlar çox imiş!**

**Onun sözlərinə görə, iş üzrə məhkəmə çəkişmələri 3 ildən artıqdır ki, davam edir. Məhkəmələrə tərəf kimi Həsən Novruzov dəfələrlə rəsmi çağırışla dəvət olunub. H.Novruzov məhkəmə proseslərinə qatılmayıb. Bir müddət əvvəl isə H.Novruzov Ali Məhkəməyə şikayət edərək mənzilin dəyərini mübahisələndirib və işin Bakı Apelyasiya Məhkəməsinə qaytarılmasına nail olub. H.Novruzov deyir ki, mənzili 83 min dollara deyil, guya 32 min 120 manata satıb:** "2014-cü ildə məhkəmədən qətnamə alandan sonra mən vəkilimlə birgə H.Novruzovun qayınatası Saqib Məmmədov və mənzilin alqı-satqısında iştirak edən maklerlə söhbətə getmişdim. Anlayırdım ki, Saqib Məmmədov məhkəmələrə yaxın gəlməyəcək, özünün dediyinə görə heç Həsəni də göndərməyəcək. Ondan sonra qərara gəldim ki, vəkilimin iştirakı ilə onu danışdırım. Ehtiyat edirdim ki, evin alqı-satqısı zamanı aldığı pulun məbləğini dansın. Həmin söhbət zamanı o hər şeyi necə etdiyini danışdı və heç bir məhkəmə prosesinə gəlmədi. Heç bir sənəd təqdim etmədi. 2014-cü il avqustun 1-də baş tutan söhbəti də diktofona yazmışdım. Söhbətin stenoqramını da çıxarmışam. Saqib Məmmədov deyir ki, mənzilin alqı-satqısında iştirak edən maklerlər ona 75 min 500 pul veriblər".

**A.Səfərovun sözlərinə görə, S.Məmmədovun kürəkəni H.Novruzovun şikayəti əsasında Bakı Apelyasiya Məhkəməsində iyulun 6-da məhkəməyə hazırlıq iclası keçirilib. Həmin iclasa əvvəllər tanımadıqları 2 qadın da qatılıb:** "Proses yekunlaşdı, qadınlar mənə, vəkilimə yaxınlaşdılar. Aydın oldu ki, həmin qadınlar da Saqib Məmmədov, İbrahim Mehdiyevin yol verdikləri saxtakarlıqlara görə 5 ildən artıqdır ki, məhkəmələrdədir. Həmin qadınlar - Afət Cabbarova və Zümrüd Mehdiyevadır. Qadınlar vaxtilə Yasamal rayonu, Xaqan Dadaşov küçəsində qonşu olublar. Z.Mehdiyeva X.Dadaşov küçəsi ev 8 ünvanında, Afət Cabbarova isə X.Dadaşov küçəsi ev 8 a ünvanında yaşayıblar".

**Redakisyamıza təşrif buyuran qadınlar bildiriblər ki, S.Məmmədovun qanunsuzluqlarından şikayət etmədikləri yer qalmayıb.**

"Mən gəlin gətirəndən sonra "JEK"ə getdim, gəlini qeydiyyata saldırmaq istəyirdim. Mənə bir arayış verdilər, baxdım ki, qonşunun evində yaşayan Etibar Məmmədovu bizim ünvana - X.Dadaşov küçəsi 8 a ünvanına qeydiyyata salıblar. Buna sərt reaksiya verdim, Saqib Məmmədov verdikləri arayışı əlimdən zorla almaq istədi. Arayışın balaca bir hissəsi cırılsa da, əlimdən ala bilmədi. Məhkəməyə verdim, icra başçısı İbrahim Mehdiyevin qəbuluna getdim. Ona sual etdim ki, 2 eyni nömrəli ünvan ola bilər. Gülüb məni ələ saldı. Başçının qəbuluna ona görə getmişdim ki, mən məhkəməyə müraciət edəndə cavabdeh kimi Yasamal Rayon İcra Hakimiyyəti iddiamın təmin olunmamasını istəmişdi. İbrahim Mehdiyev etiraz yazmışdı ki, iddiam təmin olunmasın. Mən iddiamla tələb edirdim ki, Etibar Məmmədov bizim ünvandan qeydiyyatdan çıxarılsın. İbrahim Mehdiyevə Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin verdiyi ünvan arayışımı göstərib ondan məhkəməyə yazdığı etirazı əsaslandırmasını tələb etdim. Gördü ki, saxtakarlıqlarının üstü açılır, dedi ki, mən sənə kömək etməyəcəyəm. Həmin arayışı alana qədər İbrahim Mehdiyevin məhkəməyə göndərdiyi hüquqşünas üzümüzə direşirdi ki, guya biz X.Dadaşov küçəsi 8 ünvanında yaşayırıq. Arayışda isə əsl həqiqət yazılmışdı, biz X.Dadaşov 8 a ünvanında yaşayırıq" - deyə Afət Cabbarova bildirib.

**Z.Mehdiyeva bildirib ki, Saqib Məmmədovla İbrahim Mehdiyev ünvanları səhv göstərməklə faktiki olaraq onun 354 kvadrat metrlik evinin dələduzluqla ələ keçirilməsinə "qanuni don" geydirməyə nail olmaq istəyiblər:** "Bu gün mənim Yasamal rayonu, X.Dadaşov 8 ünvanında yerləşən 2 mərtəbəli evimdə Etibar Məmmədov yaşayır. O, 22 saylı "JEK"in rəisi Saqib Məmmədovun əli ilə mənim evimi özəlləşdirib. E.Məmmədov, faktiki olaraq, mənim evimdə yaşasa da, rəsmi sənədlərə qonşunun ünvanını özəlləşdirib. 5 ildir ki, Azərbaycan məhkəmələri Saqib Məmmədovla İbrahim Mehdiyevin qurduqları cinayətin sonuna çıxa bilmirlər".

**Z.Mehdiyeva bildirib ki, E.Məmmədov evinə kirəkeş kimi gəlib və sonradan sənədlərin saxtalaşdırılması yolu ilə mülkünü əlindən alıblar:** "1993-də Etibarın bacısı Tirmədən 4 min dollar borc almışdım. 2 il müddətində həmin 4 min dolların 30 faizini hər ay ödəmişəm. Hər ay 1200 dollar ödədim. Sonra inflyasiya oldu, ödəyə bilmədim. Ona görə də təklif etdim ki, evimdə yaşamaq üçün kirəkeş tapsınlar. Kirəkeşdən aldıqları pulu da götürsünlər, pullarını tam alandan sonra evimi boşaltsınlar. Özüm də 2 uşaq və anamla gedib xalamın evinin zirzəmisində yaşamışam. Tirmə də öz qardaşı Etibarı evimə kirəkeş göndərdi. Düşünürdüm ki, pullarını götürəndən sonra evimdən çıxacaqlar. Amma çıxmadılar. Üstəlik, qonşunun mənzilinə də qeydiyyata düşüblər. Bizim şikayətlərimiz əsasında Saqib Məmmədovun əməllərinin araşdırılması üçün məhkəmə xüsusi qərardad çıxararaq Yasamal Rayon Prokurorluğuna göndərib. Lakin prokurorluq deyir ki, Saqib Məmmədov kristal adamdır, onun barəsində cinayət işi başlaya bilmərik. Ona görə də baş prokurordan xahiş edirik ki, Saqib Məmmədovun əməllərinin araşdırılmasını digər prokurorluq orqanına tapşırsın. Mənim Yasamalda olan yeganə mülkümü saxtakarlıqla əlimdən alıblar. Məhkəmələrdə bu saxtakarlıqlar sübut olunur, Yasamal Prokurorluğu isə həmin saxtakarlıqları araşdırmaqdan yayınır".







**Şok ittiham:** "Mənzili ələ keçirilənlərdən biri də tatar millətindən olan yaşlı qadındır. Həmin qadının sonradan psixi xəstələr üçün nəzərdə tutulan xəstəxanaya yerləşdirilməsi haqda da məlumat olub"

Qadınlar bildiriblər ki, 22 saylı Mənzil İstismar Sahəsinin sabiq müdiri Saqib Məmmədovun Yasamal rayonu ərazisində tənha, kimsəsiz ahıl yaşda vətəndaşların, qaçqınların məskunlaşdığı mənzilləri ələ keçirməsi haqda məlumatlar eşidiblər. Mənzili ələ keçirilənlərdən biri də tatar millətindən olan yaşlı qadındır. Həmin qadının sonradan psixi xəstələr üçün nəzərdə tutulan xəstəxanaya yerləşdirilməsi haqda da məlumat olub.

**Arzu Səfərovun, Z.Mehdiyeva və A.Cabbarovanın redaksiyamıza təqdim etdikləri sənədlərdən və xətşünaslıq ekspertizası rəylərindən, xüsusi qərardadlardan, stenoqramdan belə aydın olur ki, ortada vətəndaşlara qarşı törədilən cinayətlər haqda çoxsaylı sübutlar var. Vətəndaşların Konstitusiyamızın təməl prinsiplərindən olan mülkiyyət hüquqlarına qəsd açıq-aydın görünür. Bəs niyə bu qədər üzdə olan faktlara hüquqi müstəvidə qiymət verilməyib?**

**❑ E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

# “Zirə” “Qara şeytanlar”ın caynağında - haydı, “Qəbələ”...

## Bu gün daha iki klubumuz Avroliqada güclü rəqiblərlə qarşılaşır

**Bu gün UEFA Avropa Liqasının II mərhələsində Azərbaycanın “Zirə” klubu səfərdə Rumıniyanın “Astra” komandası ilə qarşılaşacaq. 7 min azarkeş tutan “Marin Anastasoviçi” stadionunda keçiriləcək matç Bakı vaxtilə saat 21:30-da başlayacaq.**






**“Astra” üçün Avroliqaya göydəndüşmə vəsiqə**

“Astra” Avroliqaya “təmiz” vəsiqə qazanmayıb. Çünki klub daxili çempionatı 6-cı yerdə başa vurub. Amma 5-ci pillənin sahibi “CFR Cluj” Avrokuboklarda çıxış üçün lisenziya olmadığı üçün “Astra” Avroliqa şansını sınamaq imkanı qazanıb.

“Astra” Rumıniyanın Corcu şəhərini təmsil edir. Klub 1934-cü ildə yaradılıb. Amma 1998-ci ilədək heç bir uğur qazana bilməyib. 1998-ci ildə isə komanda A divizionuna vəsiqə qazana bilib. Klub 2003-cü ildə şəhərin digər komandası “Petrolul”la birləşərək, “Ployeşti” adı altında çıxış etməyə başlayıb. Bir ara 3-cü liqaya kimi geriləyən komanda 2009-cu ildə yenidən yüksək liqaya qayıdıb. Elə həmin ildən “Astra” adını özünə qaytaran klub, 2012-ci ildə Ployeştidən köçərək, Curcuda məskən salıb.

Klub əsas uğurlarını məhz şəhər dəyişikliyindən sonra qazanmağa başlayıb. Belə ki, komanda yeni şəhərə köçdükdən sonra Rumıniya çempionu (2015/16), ölkə çempionatının gümüş mükafatçısı (2013/14), ölkə kubokunun qalibi (2013/14), finalçısı (2016/17) və iki dəfə ölkə superkubokun (2014, 2016) qalibi olub.

“Astra” qara-ağ formada çıxış edir və azarkeşlər klubu “qara şeytanlar” adlandırırlar. 2012-ci ildə “Astra” ilk dəfə Rıminiya kubokunu almağa yaxın olub. Amma yarımfinalda “ÇFR Cluj” a uduzub. 14 komandanın iştirak etdiyi Rıminiya çempionatı iki mərhələdə keçirilir. Birinci mərhələdə 14 klub ev və qonaq meydanda görüş keçirir. 26 tur başa çatdıqdan sonra klublar iki qrupa bölünür. Birinci dövrədə ilk altılığa düşə bilən komanda öz aralarında ilk 6-lığı müəyyənləşdirmək üçün hər klubla yenə iki oyun keçirir. Digər qrupdakı komandalar da öz aralarında 7-ci və sonuncu yerin sahibini müəyyənləşdirirlər. 13-cü və 14-cü yeri tutan klublar ikinci diviziona düşür.

“Astra” UEFA-nın rəsmi saytının məlumatına görə, ən yaxşı klub komandaları sırasında 97-ci yerdə qərarlaşıb.

1996-cı ildən klubun sahibi “İnter Agro Group”un rəhbəri olan Yoan Nikulaedir. 2005-ci ildə “Astra”nın milyarder prezidenti Nikulae Sosial Demokrat Partiyasının seçki kampaniyasına qanunsuz pul ayırmaqda ittiham edilərək 2 il yarım müddətinə həbs edilib.







**“Astra”nın baş məşqçisi həm qorxur, həm də...**

İş orasındadır ki, hazırda klubda heyət problemi var. Yay transferi dövründən sonra klubda vəziyyət xeyli qarışıq görünür. “Astra”nın Avropa Liqasındakı əsas silahı Budesku və Alibek komandanı tərk ediblər.



Rumıniya klubunun baş məşqçisi Edvard Yordanesku ölkəsinin mətbuatına açıqlama verərək heyətdəki dəyişikliklərdən narahat olduğunu gizlətməyib.

“Komandada müxtəlif dəyişikliklər oldu. Keyfiyyətli futbolçular transfer etsək də, onlar birlikdə oynamayıblar. ”Zirə” ilə ilk görüşün keçirilməsinə isə az vaxt qalıb. Bu amil məni narahat edir. Bəzi mövqelərə futbolçu tapa bilsək, uğur qazana bilərik. Oyunçularımızın çoxu cavandırlar, II və III liqalarda çıxış ediblər. Bizi çətin sınaqlar gözləyir. Rəhbərlik yeni transferlərlə bağlı bəzi vədlər verib. Ümid edirəm ki, tez formalaşacağıq. Tələblərim çox yüksəkdir. Rumıniyanın ən yaxşı komandaları sırasında olmaq istəyirik”.

**Yoxlama oyununda adı heç nə deməyən “Snaqov”a 8:0 hesabı ilə qalib gəldikləri oyundan sonra baş məşqçi daha ürəkli danışıb:** “Bizim ”Zirə” ilə oyuna hazırlaşmağa az vaxtımız oldu. Şadam ki, vacib oyundan əvvəl yoxlama matçı keçirdik. Komandada çox müsbət məqamlar gördüm”.




**Müdafiə xətti güclü görünür: braziliyalı və xorvat...**

Qeyd edək ki, “Astra” yay transferində əsas oyunçularından biri yaponiyalı SetoTakayukini itirib. Klub Eriko da Silva və Filip Mrzljakı isə Rumıniya klublarından transfer edib.




Eriko (Erico Constantino Da Silva) braziliyalıdır. 27 yaşlı müdafiəçinin transfer qiyməti 200 min avrodur. Klubun daha bir braziliyalı üzvü Marquinhosdur (Marcus Vinicius Vidal Cunha).

25 yaşlı yarımmüdafiəçi də rəqib üçün təhlükəlidir.

24 yaşlı Mrzljak isə xorvatdır. Komandanın hücum ümidi isə fransız futbolçu Antoni Le Tallakdır. 34 yaşlı hücumçu Yunanıstanın “Atromitos” klubundan transfer olub. Klubda daha bir əcnəbi futbolçu Pyotr Polçakdır. O, “Krakoviya”(Polşa) klubunda oynayıb.

Klubun əsas qapıçısı isə Plamen İvanov Pelevdir. 25 yaşlı bolqarıstanlının transfer qiyməti 500 min avrodur.

“İnter”ə problem yarada biləcək hücumçulardan biri də rumıniyalı, adı da heç də dilə yatmayan Chipirliudir (Remus Bogdan Chipirliu). 24 yaşlı hücumçu bugünkü qarşılaşmada “Zirə”nin müdafiəçilərinə ciddi problemlər yaşada bilər.

“Astra” - “Zirə” oyununu belaruslu referi Sergey Sinkeviçə tapşırılıb. Yan xətt hakimləri - Vitali Malyutin və Yevgeni Romanov olacaq.

**Haydı, “Qəbələ”...**

UEFA Avropa Liqasının ikinci təsnifat mərhələsinin ilk oyununu keçirəcək “Qəbələ” də bu gün “Yagelloniya” (Polşa) klubunu qəbul edəcək.

“Bakcell Arena”da keçiriləcək matç saat 21:00-da başlayacaq.

**“Yagelloniya”nın güclü heyəti var**

“Yagelloniya” Polşanın Belostok şəhərini təmsil edir. 1920-ci ildə yaradılmış klub ev oyunlarını 22 min azarkeş tutan “Şəhər stadionu”nunda keçirir. Komandanın əsas ümidi hücumçu 26 yaşlı Fyodr Çernıxdır. “Qəbələ” ilə oyunda adı iştirakçılar sırasında olan Çernıx rus kökənli olsa da, Litva millisində oynayır. Daha bir hücumçu Kilian Şeridan irlandiyalıdır. 28 yaşlı hücumçu İrlandiya millisində də oynayıb. “Qəbələ” ilə oyunda meydanda görə biləcəyimiz daha bir oyunçu Karol Sviderskidir. Cəmi 20 yaşı olan polşalı hücumçuya da ümidlər çoxdur. Lukas Sekulski də klubun gənc futbolçularından sayılır. Onun da 26 yaşı var.

**Rəqib klubun məşqçisi nəyə arxayındır?**

“Qəbələ” böyük büdcəyə və yaxşı oyunçulara sahib klubdur. Onlar yay fasiləsində 9 oyunçu transfer ediblər. Ancaq bu o demək deyil ki, onlar komandanı gücləndiriblər. Çünki yeni futbolçuların yeni kollektivə uyğunlaşmaq üçün zamana ehtiyacları var”.

**“Yagelloniya”nın baş məşqçisi İreniuş Mamrot belə deyib. O bildirib ki, “Qəbələ”nin yeni transferlərinin hamısı start heyətində meydana çıxsa, Polşa klubu üçün daha yaxşı olar:** “Çünki çox az müddət bir yerdə olublar və kollektivin formalaşması vaxt tələb edir. Bu da bizə əlavə şans yaradır”.

**İ.Mamrot “Qəbələ”ni yaxşı təhlil etdiklərini söyləyib:** “Onlarda çempionat çoxdan bitib. Amma rəqibin Kiyev ”Dinamo”su və “Ludoqorets”lə yoxlama oyunlarının videoyazısına baxmışam. Əlbəttə ki, güclü komandadır. Ancaq biz onların zəif cəhətlərindən istifadə etməyə çalışacağıq”.

İnanırıq ki, bu gün hər iki klubumuz meydandan azarkeşləri sevindirəcək nəticə ilə ayrılacaq.

**❑ Nazim SABİROĞLU**



YENİ MÜSAVAT

Son səhifə

N 146 (6760) 13 iyul 2017



## İngiltərədə müsəlmanlarla bağlı “ilk”

**Böyük Britaniyada ilk dəfə müsəlmanlar arasında eynicinsli nikah bağlanıb. Bu barədə 11 iyulda “The Daily Telegraph” qəzeti yazıb. Mərasim Uolsoll şəhərindəki nikah idarəsində baş tutub. 24 yaşlı Cahed Çauduri və 19 yaşlı Şon Roqan nikah mərasiminə ənənəvi Banqladeş kostyumlarında gəliblər. “Biz bütün dünyaya göstərəcəyik ki, müsəlmanlar da eynicinsli nikah bağlaya bilərlər” - bunu Çauduri deyib.**

Daha öncə yaxınları tərəfindən Çauduri qeyri-ənənəvi cinsi oriyentasiyasına görə təqib və təzyiqə məruz qalıb. Onu 15 yaşından bəri ziyarət etdiyi məsciddən də qovublar. O, dəyişməyə cəhd edib, dərman qəbul edib və hətta bir qızla görüşməyə başlayıb. Amma bunların heç biri ona yardım etməyib. Kişi məhz buna görə intihara cəhd edib, amma gələcək “həyat yoldaşı” ilə tanışlıq onu bu bəladan xilas edib.

İyun ayında isə məlum oldu ki, Kolumbiyada ilk dəfə üç kişi arasında nikah qeydə alınıb.

# Ana südü körpənin həyatını xilas etmir, əksinə...

**Körpələrin minimum 6 aya qədər ana südü ilə qidalanması həkimlərin hər zaman səsləndirdiyi tövsiyələrdəndir. Britaniya və İrlandiya həkimləri kifayət qədər ana südü içməyən körpələrin xəstəlikləri ilə bağlı araşdırma aparıblar. Amma araşdırma zamanı məlum olub ki, ana südü uşaqda ciddi surətdə dehidrasiyaya (susuzluğa) səbəb olur. Hazırda xəstəxanalarda bununla bağlı statistik məlumatlar toplanır. Kəskin hipernatremik susuzluq nadir, lakin ölümcül bir hal kimi xarakterizə olunur. Güman edilir ki, südvermə populyarlaşdıqca, belə halların sayı arta bilər. Lokal tədqiqatlara əsasən, bəzi xəstəxanalara həftədə bir dəfə körpələr dehidrasiyanın mülayim və ya kəskin forması ilə qəbul edilir.**



Lakin bu problemlə ciddi məşğul olmaq üçün tibb icmasına daha çox məlumat lazımdır. Hazırda Britaniya Tibb Departamenti qadınlara ilk 6 ay ərzində körpələri yalnız ana südü ilə qidalandırmağı məsləhət görsə də, problemi hərtərəfli araşdırır.

# Qənaətcil qadın ictimai ayaqyolunda çimir

**Bu qadının unikal həyatı var. Daha doğrusu, onun özü həyatını belə məcraya salıb. Onu tanıyan-bilənlərin dediklərinə görə, bu qadın dünyanın ən qənaətcil qadınıdır. Həyat şərtlərinin ən bahalı olduğu şəhərlərdən birində - Nyu-Yorkda yaşamasına rəğmən, o, gündəlik xərclərini minimuma endirib. Daha doğrusu, bu qadın, ümumiyyətlə, pul xərcləməməyə çalışır. Zibil yeşiklərində tam xarab olmamış, zayı çıxmamış ərzaq, qida, meyvə və tərəvəz axtarır. O, üç ayda bir dəfə mayka, yarım ildə bir dəfə köynək və ya şalvar alır.**

İxtisasca mühasib olan Key Haşimoto bu minvalla ayda 4 min dollara qənaət edir və o pulları yığır. Nyu-Yorkun Harlem səmtində yaşayan Keyin dediyinə görə, sabaha ümidi olmadığından həyatını planlaşdırmağa çalışır. Həftədə 3 dəfə Vest-Sayda gedərək işsizlər və evsizlər üçün pulsuz paylanan yeməklərlə qidalanan Haşimotonun aylıq büdcəsi belədir: 1. Ərzaq - 15 dollar 2. Paltar - 0 dollar 3. Sabun və diş məcunu - ayda 0,17 dollar 4. Mənzil haqqı - 237 dollar.

Haşimoto bu minvalla ayda 4 min dollara qənaət edir. O, 250 min dollar yığaraq ev almaq istəyir.





## 11 yaşlı qızı sürəti artırdığı üçün saxladılar

**Amerikanın Texas ştatındakı Pasadena şəhərində yerli polis departamentinin əməkdaşları 11 yaşlı qızı avtomobilin sürətini artırdığı üçün saxlayıblar. Bu barədə 12 iyulda “Associated Press” xəbər verib. Adı açıqlanmayan qız deyib ki, anası ona sükan arxasında oturmağa icazə verib - baxmayaraq ki, birinci dəfə o, maşını yanında böyüklər olmadan, 10 yaşlı qardaşı salonda oturarkən idarə edib.**

O, Hyustonda yerləşən evinə doğru gedib. Avtomobil həvəskarı sürət həddi maksimum saatda 56 kilometr olan ərazidə sürəti 79-a qədər artırıb. Məhz bu məqam da yol polislərinin diqqətini cəlb edib. Qızın anası Mariya Dexesus Lopesə iki uşağın həyatını təhlükə altında qoyduğu üçün ittiham irəli sürülüb. Qadını 3 min dollarlıq girov müqabilində evə buraxıblar. Sözügedən iş üzrə məhkəmə baxışı 17 iyula təyin edilib. Bu ilin iyul ayında məlum oldu ki, Çinin Quançjou şəhərində 12 yaşlı oğlan avtobus oğurlayıb. Səfər 40 dəqiqə davam edib. Həmin müddət ərzində yeniyetmə 10 kilometrə qədər məsafə qət edib.




**QOÇ** - Adi günlərdən birini yaşayacaqsınız. Hansısa qeyri-adi yenilik və ya uğursuzluq gözləməyin. Amma belə bir təqvimdə hər şeydən əvvəl istirahətinizi təmin etməlisiniz, uzaq yol getməyin.

**BUĞA** - Hansısa uğursuzluq haqqında düşünməyin. Çünki iştirakçısı olduğunuz bütün situasiyalar xeyrinizə işləyəcək, səmərəli görüşlər, maliyyə uğurları da yolunuzu gözləyir.

**ƏKİZLƏR** - Hər şeydən əvvəl ünsiyyət qurduğunuz şəxslərin etibarını yoxlayın. Çünki ətrafınızda sizi aldadanlar artıb. Ciddi məbləğdə gəliriniz gözlənilməsə də, gün boyu büdcəniz boş qalmayacaq.

**XƏRÇƏNG** - Sakit bir gün yaşayacaqsınız. Ara-sıra fikir və düşüncələrinizdə təlatümlər baş qaldırsa da, bunu kənardan heç kim bilməyəcək. Səhv və günahlarınızı etiraf etməyi bacarın. Burada qəbahət yoxdur.

**ŞİR** - Saat 13-ə qədər əsəblərinizi cilovlaya bilsəniz, heç bir narahatçılığınız olmayacaq. Ulduzlar təcrübəli insanların məsləhətlərindən yararlanmağı tövsiyə edir. Bu gün imkan daxilində uzaq səfərləri təxirə salın.

**QIZ** - Əsas diqqətinizi maliyyə problemlərinin həllinə yönəldin. Çünki indi - himayədarınız olan Saturnun təsir gücünün artdığı bir vaxtda bunu bacarmasanız, qarşıda sizi uzunmüddətli kasıbçılıq gözləyə bilər.

**TƏRƏZİ** - Səhhətinizi qoruya bilsəniz, gün boyu heç bir çətinliklə rastlaşmayacaqsınız. Ailə-sevgi münasibətlərindəki soyuqluğu aradan qaldırın. Təzə əyin-baş almaq üçün çox uğurlu vaxtdır.

**ƏQRƏB** - Gün ərzində bütün diqqətinizi pulla bağlı məsələlərə yönəldin. Əgər reallığa uyğun addım atsanız, səmərəli nəticəni görəcəksiniz. Uzaqda yaşayan qohumlarınızla əlaqələri dərinləşdirin.

**OXATAN** - Bəxtinizə təzadlı bir gün düşüb. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, ayıq-sayıqlığınızı artırmalı, prosesləri dərindən analiz etməli və məqamındaca addım atmalısınız.

**OĞLAQ** - Ümumən gərgin gün olsa da, özünüzü cilovlamalısınız. Hansısa məsələdə tərəddüdünüz varsa, mütləq etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Hirsli başda ağlın olmamasını da unutmayın.

**SUTÖKƏN** - Yalnız saat 12-14 aralığı gərginlik görünür. Həmin vaxt maksimum ehtiyatlı olun. Qalan zamanda isə çox şey ürəyinizcə olacaq. Hətta perspektivli təkliflər alacağınız da qaçılmazdır.

**BALIQLAR** - İlk öncə bildirək ki, hazırda ciddi bir seçim qarşısındasınız. Tərəddüdləriniz çoxdur. Buna baxmayaraq, özünüzü ələ almalı, cəsarət göstərib seçiminizi etməlisiniz. Çətinlik çəksəniz, məsləhətləşmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Eqoistsənsə, xoşbəxtsən...

**Amerikalı alimlər müəyyənləşdiriblər ki, insanlar günahkarlıq hissi keçirmədikləri halda, eqoist olmalarında heç bir problem yoxdur. Çünki bu eqoizm ona xoşbəxtlik gətirir. “Psychological Science” jurnalında yayımlanan araşdırmaya görə, hər nə qədər nəzakət və fədakarlıq insanı böyütsə də, insan ən çox öz mənfəətinin arxasınca gedəndə xoşbəxt olur. Pensilvaniya Universitetinin alimləri bunu bir təcrübə ilə ortaya çıxarıblar. Belə ki, hərəsinə 3 dollar verdikləri 216 tələbəni üç qrupa ayırıblar. İlk qrupa pullarını UNICEF-ə bağışlamaları, ikinci qrupa pulu özlərinə saxlamaları, üçüncü qrupa isə istəyirlərsə, pulu özlərinə saxlamaları, istəməzlərsə bağışlamaları azadlığı tanınıb. Araşdırmanın sonunda məlum olub ki, pulu özünə saxlayan tələbələr digər qrupdakılarla müqayisədə daha çox xoşbəxtdir. Alimlər bildirib ki, bu tələbələr sırf bir qərar vermək məcburiyyətində qalmadıqları üçün xoşbəxtlik hissi keçiriblər.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**
**Musavat.com xəbər verir ki, hakim Həbin Həsənovun sədrliyi ilə keçirilən prosesdə Akif Çovdarov ifadə verib.**



# Həbsdəki generaldan Tağı Əhmədovla bağlı sensasion açıqlamalar

## **Akif Çovdarov:** "Həmin şəxs dedi ki, "bu bombadı, partlaya bilər, qoy özündə qalsın"

General ilk olaraq YAP-ın Yasamal rayon təşkilatının sədri, Bakı Metropoliteninin sabiq rəhbəri Tağı Əhmədovun 3 milyonunun ələ keçirilməsi epizodu üzrə danışıb.

**Akif Çovdarov deyib ki, Tağı Əhmədov işdən çıxarılandan sonra quruma yeni rəis təyin olunan Zaur Həsənov ona zəng edib:** "Mənə dedi ki, stansiyaların çıxışlarından sökülən obyektlərin icarədarları metroya girişi bağlayıb, aksiya keçirirlər. Mən də dedim bu barədə polisə məlumat vermək lazımdı. Zaur Həsənov dedi, polisə demişik, onlar bacarmır".

**A.Çovdarov deyib ki, bundan sonra rəhbərliyinə məlumat verib:** "Mən hadisə barədə nazirliyin rəhbərliyinə müraciət etdim, onlar da ölkə rəhbərliyinə məruzə etdilər. Göstəriş verildi ki, araşdırılsın. Biz də araşdırdıq və bəlli oldu ki, metro stansiyalarının çıxışlarında 1200 obyekt var. Bunlar da 2007-ci ilə qədər Bakı Şəhər İcra Hakimiyyətinin, sonra isə Bakı Metropoliteninin balansında olub. Həmin obyektlərin aylıq icarə haqqı 200 dollardan 3 min dollara kimi idi. Bunlar da 3 aylıq icarə pulunu öncədən alırdılar. Tağı Əhmədov işdən çıxandan sonra da yeni rəhbərlik köşkləri ləğv etmişdi. Aksiya edənlər verdikləri icarə haqlarını tələb edirdilər".

**Çıxışında general deyib ki, sökülən obyektlər Tağı Əhmədovun hakim işləyən oğlu Rauf Əhmədovun yaxın dostları arasında bölüşdürülürmüş:** "Tağı Əhmədov ötən iclasda dedi ki, ildə 120 min manat icarə pulu verib. Ona sual verilməlidir ki, 1200 köşkün icarəsi 120 min edirsə, belə çıxır ki, biri 8 manat 50 qəpik olub? Həmin vaxt icarədarlardan alınan 3 aylıq ödəniş 5 milyon dollardan artıq idi. Biz bunu da rəhbərliyə məruzə etdik. Dövlət rəhbərliyi bizi çağırıb detallı araşdırma aparıb metropolitenin fəaliyyətinin yoxlanılmasını tapşırdı. Metropoliten hər il dövlətdən subsidiya alsa da, bu qədər gəlir əldə edirmiş".

**Generalın sözlərinə görə, detallı araşdırma aparılan zaman bəlli olub ki, metro stansiyalarında aparatlar elə qurulub ki, hər 4 jetondan biri qeydiyyatdan keçməyib və onun pulu Tağı Əhmədovun cibinə gedirmiş:** "Bütün bunları bizə Tağının qardaşı oğlu Şövqi Əhmədov dedi. Buna görə də Tağı Əhmədov öz qardaşı oğlundan imtina edib".

**Tağı Əhmədovun barəsində sensasion sayılacaq açıqlamaları davam edən A.Çovdarov çıxışına bunları əlavə edib:** "Bundan başqa, biz agentura xəttimiz vasitəsilə müəyyən etdik ki, təzə vaqon adı ilə Moskvadan işlənmiş vaqon alıb "kraskalayıb"lar. Bununla da 11 milyondan çox dövlət vəsaiti mənimsənilib. Hər 4 jetondan birini əldə etməklə aya 300 min manat pul qazanırdılar. İşıq puluna görə "Azərenerji"yə 4 milyon manat borcları var idi. Onu da mənimsəmişdi".

**Çovdarov daha sonra Tağı Əhmədovun əmlakları barədə danışıb:** "Bunlar üzə çıxandan sonra biz Tağı Əhmədovun əmlaklarını da müəyyən etməyə başladıq. İndi yadımda qalanları deyəcəm. "Sahil" metrosunun üstündəki binada 4 mənzil, "Yeni Həyat" yaşayış kompleksində 4 mənzil, Neft Akademiyasının əsas korpusu ilə üzbəüz 7-8 dükan, Bakıda 6-7 bağ evi, Yasamal Rayon Məhkəməsinin yeni binasının arxasındakı "Kolizey" və "Şəhrizad" restoranları, Dubayda elit yaşayış kompleksində yerləşən hotelin bütövlükdə 3 mərtəbəsi, Dubayda bir böyük ticarət mərkəzi. Bundan başqa, Tağı Əhmədov Xarici İşlər Nazirliyində işləyən oğlu Ruslan Əhmədov vasitəsilə 17 milyon dollar pulu ofşor hesablarla ölkədən çıxarıb. Dubaydakı hoteli və ticarət mərkəzini də bu pulla alıb. Moskvada metro çıxışında 5 milyona 120 kvadratmetrlik dükan alıb, arendaya verib".

**Akif Çovdarov Tağı Əhmədovun bank hesablarındakı pulları haqda da danışıb. O bildirib ki, Tağı Əhmədovun təkcə "Texnikabank"da 13 milyon dolları olub.** "Digər pulları isə "Bank of Baku" və "Unibank"dakı hesablarında idi. "Texnikabank" müflis olanda öz hesabından 9 milyon çıxarıb ofşora yatırmışdı. Qalan 4 milyonu da Ruslan Əhmədov müxtəlif qohumlarının adına 30-50 min miqdarında köçürmüşdü. Qohumları hesablardan pulu çıxarıb əlbəəl Ruslana vermişdilər, bunun kamera görüntüləri də var idi. Ümumilikdə Tağı Əhmədov və yaxınlarının hesablarında 21 milyon pul müəyyən edildi. Biz məlumatları toplayıb rəhbərliyə təqdim etdik, bizə cavab verdilər ki, hələ gözləyin, məlumatları özünüzdə saxlayın, prokurorluq istəyəndə verərsiniz. Sonra mən prokurorluqdan yüksək vəzifəli şəxslə əlaqə saxladım və telefonda hansı məlumatlar olduğunu ona dedim. Həmin şəxs dedi ki, "bu bombadı, partlaya bilər, qoy özündə qalsın. Sən onu bizə göndərsən biz gərək qeydiyyata salaq, onda da ortaya çıxacaq"" deyə, A. Çovdarov çıxışına əlavə edib.



**Məhkəmədə çıxış edən prokuror isə qeyd edib ki, Tağı Əhmədov haqda prokurorluqda heç bir araşdırma aparılmayıb. A.Çovdarov prokurora belə cavab verib:**

"Sən məndən bunu soruşma, soruş ki, mən prokurorluqda yüksək vəzifəli şəxs olan kimlə danışmışam".

Amma prokuror bu sualı dinləməklə kifayətlənib.

**Prosesin davamında Çovdarov Tağı Əhmədov barəsində danışmağa davam edib:** "Tağı Əhmədovun mənə pul verməsi yalandır. Bir dəfə nazirliyimizə 10-12 minlik yüngül maşınlar lazım idi, rəhbərlik məsləhət gördü ki, əməkdaşlıq etdiyimiz qurumlardan istəyək, onlar da hədiyyə etsinlər. Mən Rəsula dedim ki, get Tağıya denən, lazımdısa nazir müavininin adından rəsmi məktub da yazaq. Onda Tağı demişdi ki, "3-5 min verə bilərəm, üstünü özünüz düzəldərsiz". Mən bilirdim ki, Tağının arxasında kim var, ona görə bu məsələnin üstünə getmədik. Tağı Əhmədovun mənimsəmələri isə dövlət rəhbərliyinin məlumatı olduğu məsələ idi, 3 yox, 15 milyon da versə idi, mən onu bağlaya bilməzdim. Tağı Əhmədovun arxasında kimin olduğunu da onun daha əvvəlki işində bildik. O metro üçün işlənmiş mikrosxemləri avtobusda xüsusi hazırlanmış gizli saxlanc yerində ölkəyə gətirirdi. Biz həmin avtobusu nəzarətə götürdük. Sürücü bizim onu izlədiyimizi bildi, onu saxlamaq istəyəndə işçimizin birini avtobusla vurdu, xəsarət aldı. Sumqayıt postunda sürücünü saxladıq, məsələni rəhbərliyə məruzə edəndə bizə dedilər ki, Tağı Əhmədovla işiniz olmasın".

**Çovdarov bildirib ki, Tağı Əhmədovun ondan şikayət etmək fikri olmayıb:** "Şikayət edəndən sonra da peşman olmuşdu. 2016-cı ildə ərizəsini geri götürmək istəyirdi, neçə yerdə də demişdi ki, bu yaşımda mənə lazım idi bu? Onu şantaj etdilər, oğlu Ruslan Çovdarov içkili vəziyyətdə qəza törətmişdi, adam ölmüşdü. Ruslan da ANS-in kamerasına düşmüşdü. Tağı da bu məsələyə görə məcbur olub mənim əleyhimə yalan ifadə verdi".

Məhkəmə prosesi iyulun 18-də davam etdiriləcək.

**Qeyd edək ki, Akif Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.**

❑ **İlkin MURADOV**

# Eldar Mahmudovun həbsinin üzə çıxaracağı sirlər

## Sabiq nazirin işçilərindən əsas fərqi odur ki, onun malik olduğu kompromatlar hər an agentləri tərəfindən üzə çıxarıla bilər



**Bakı Hərbi Məhkəməsində sahibkarlara hədə-qorxu gəlməkdə, külli miqdarda əmlakını ələ keçirməkdə təqsirləndirilən MTN polkovniki Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. Hakim Siyavuş Hacıyevin çıxardığı hökmlə Vüsal Ələkbərov 12 il müddətinə azadlıqdan məhrum edilib və polkovnik rütbəsindən məhrum edilib. V.Ələkbərova məxsus olan və həyat yoldaşı Şəhla Ələkbərovanın adına rəsmiləşdirilən Badamdar qəsəbəsindəki 18 sot torpaq sahəsi və üzərində yerləşən fərdi yaşayış evi, Şərifzadə küçəsindəki mənzili, ümumi dəyəri 1 milyon 277 min manat olan əmlakları müsadirə edilib. Məhkəmə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Baş İstintaq İdarəsinin keçmiş rəisi Mövlam Şıxəliyev barəsində cinayət işinin başlanması üçün prokurorluğa təqdimat göndərib. Hökmdə göstərilib ki, təqdimat zərərçəkmişlərin şikayəti əsasında hazırlanıb.**

M.Şıxəliyev gununsesi.info-ya deyib ki, barəsində xüsusi qərardad çıxarılmasından məlumatsızdır: "Bakı Hərbi Məhkəməsinin barəmdə cinayət işinin başlanması üçün qərardad çıxarması ilə bağlı xəbəri mətbuatdan oxudum. Bu barədə məlumatsızam. Əgər sizin üçün maraqlıdırsa, özünüz məhkəməyə müraciət edib məlumat ala bilərsiniz".

E.Mahmudovdan isə vəzifədən çıxarılandan sonra xəbər yoxdur. Onun ölkədə olması, xaricə getməsi haqda bilgilər yayılsa da, sabiq nazirin konkret harada olması bilinmir. Əgər xüsusi qərardad üzrə cinayət işi başlansa və E.Mahmudov həbs edilsə, hansı məqamlar üzə çıxa bilər?

Onun uzun illər rəhbərlik etdiyi sahədə cəmiyyətin ən müxtəlif təbəqələrindən olan üzvlərinə qarşı kompromatlar toplanıb. Media, biznes, iqtidarlı-müxalifətli bütün sahələrdə özünün agentləri olub. E.Mahmudov həbs olunarsa, həmin şəxslərin də deşifrə olunması prosesi baş verə bilər. Hərçənd ki, E.Mahmudovun həbs ediləcəyinə əksər ekspertlər böyük şübhə ilə yanaşırlar. Sabiq nazirin 10 illik fəaliyyəti dövründə topladığı kompomatlardan özünə qala qura bildiyi, özünü kompromatlarla qoruduğu haqda bilgilər də var.

E.Mahmudovla onun baş istintaqçısı M.Şıxəliyevin barəsində çıxarılan xüsusi qərardad qeyd etdiyimiz kimi, MTN müstəntiqi Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmənin yekun qərarında yer alıb.

V.Ələkbərovun özü belə məhkəməsində kompromatlardan istifadə etməyə çalışıb. Sabiq müstəntiq "mən 2005-ci ilin martında Bakıda öldürülən "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun cinayət işini araşdırmışam" sözlərini deməklə özünün sıradan biri olmadığını, geniş bilgilərə sahibliyini diqqətə çatdırmaq istəyib. Məhkəmədə onun dediklərinə əhəmiyyət verilməməsi görüntüsü yaradılsa da, eks-müstəntiqin mesajı ünvanına çatmamış deyil. Bununla belə, bu açıqlama V.Ələkbərov üçün "ikibaşlı dəyənəyə" də çevrilə bilər. Mümkündür ki, V.Ələkbərov vaxtilə iş yoldaşı olmuş ləğv edilən MTN-in Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyevin taleyini yaşaya bilər. Yada salaq ki, İ.Əliyev E.Mahmudov işdən çıxarılandan dərhal sonra həbsə alınan MTN-çilərdən idi. Belə məlumatlar vardı ki, o, həbs qərarından verdiyi şikayətlə əlaqəli aparıldığı məhkəmədə bildiklərini açıqlayacağı ilə bağlı bəyanat vermişdi. Bu bəyanatdan bir neçə gün sonra onu saxlandığı Bakı İstintaq Təcridxanasının kamerasında asılmış vəziyyətdə aşkar etdilər. Hazırda məhkəməsi keçirilən MTN generalı Akif Çovdarov İlqar Əliyevin öldürüldüyünü və sonradan asıldığını açıqladı.

E.Mahmudovun həbsi gerçəkləşərsə, onun da belə bir tale yaşaya biləcəyi istisna deyil. Lakin sabiq nazirin işçilərindən əsas fərqi odur ki, onun malik olduğu kompromatlar hər an agentləri tərəfindən üzə çıxarıla bilər. Görünür, bu məqam sabiq naziri həbsdən sığortalayır.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 146 (6760) 13 iyul 2017

**ABŞ-da prezident seçkilərinə "Rusiya müdaxiləsi" ilə bağlı qalmaqalların yeni dalğası yüksəlmək üzrədir. ABŞ KİV-ində hesab edirlər ki, prezidentin oğlu - kiçik Trampın Azərbaycan əsilli rusiyalı milyarder Araz Ağalarovun oğlu ilə münasibətləri Kremlin seçkilərə təsirini göstərir.**

# Araz Ağalarov oğlunun adı qarışan kompromatdan danışdı

## "Trampın oğlu ilə Emin ünsiyyət saxlayırdılar, ancaq necə, nədən danışırdılar, bilmirəm"

Rusiyanın müxalifyönlü mətbuatında isə yazılır ki, ABŞ seçkilərinə "Rusiya müdaxiləsi" işini araşdıran xüsusi prokuror Robert Müller ABŞ prezidentinin oğlu ilə rusiyalı vəkilin elektron yazışmasını araşdırmaq niyyətindədir, bütün bunlar haqqında CNN kanalı öz mənbələrinə istinadən məlumat verir. Daha öncə isə "New York Times" məlumat vermişdi ki, Kremllə əlaqəsinin olduğu iddia edilən Rusiyadan olan vəkil Natalya Veselniçkaya 2016-cı ildə prezidentin oğlu ilə görüşüb və ona prezidentliyə namizəd Hillari Klintona qarşı əlində kompromat olduğunu bildirib. Prezidentin oğlu mətbuat nümayəndəsinə bildirib ki, Veselniçkaya ilə görüş zamanı bəlli olub ki, onda heç bir əhəmiyyətli informasiya yoxdur və söhbətin məcrası uşaqların övladlığa götürülməsi zamanı yaşanan problemlərlə dəyişib və əslində görüşün əsas səbəbi də məhz bu olub. Veselniçkaya, sadəcə, "kompromat məsələsindən" görüşə nail olmaq üçün istifadə edib.

Bununla yanaşı, gənc Tramp twitter səhifəsində musiqi tənqidçisi Rob Qoldstoun ilə yazışmasını paylaşıb, Qoldstoun onun Emin Ağalarov ilə görüşünü təşkil etməli idi. Donald və Emin hələ 2013-cü ildən tanışdırlar. ABŞ KİV-i bu münasibəti də Kremllə əlaqələrin sübutu kimi qiymətləndirir. Çünki Eminin atası Aras Ağalarov ilə Rusiya prezidenti Vladimir Putin dostdur.

Kiçik Trampın Qoldstounla yazışmasında Emin Ağalarovla görüşün təşkili barədə müzakirə gedir. Həmin yazışmada kiçik Tramp Qoldstouna belə yazır: **"Əgər bu, sən deyən məsələdirsə(Klinton haqda informasiya), o zaman bu, mənim xoşuma gəlir".**

Öz növbəsində Qoldstoun bəyan edib ki, vəkil ona daha öncə Hillari Klintonun seçki kampaniyası ilə bağlı ilginc məlumatlar çatdıracağını anons edib. "Rusiyanın baş prokuroru Trampın seçki qərargahına Rusiya ilə Hillari Klinton arasındakı münasibətlərlə bağlı rəsmi sənəd və məlumatlar çatdıracağını deyib. Bu isə sizin atanızın xeyrinə ola bilər" - bu isə Qoldstonun 3 iyun 2016-cı ildə kiçik Trampa yazdığı məktubda öz əksini tapıb.

Kiçik Tramp öncə bu sual ətrafında telefonda müzakirə aparmağı təklif edib. Amma bu, alınmayanda üzbəüz görüşə razılıq verib. Bununla belə, o bir daha iddia edib ki, "sözügedən qadın" (söhbət Veselnitskayadan gedir) rusiyalı məmur olmayıb, sadəcə, övladlığa götürmə və "Maqnitski Aktı" ilə bağlı məlumat əldə etməyə çalışıb. Kiçik Tramp eyni zamanda deyib ki, atası onun rusiyalı vəkillə görüşündən xəbərdar olmayıb.

Trampın oğlu deyib ki, rus vəkil ona kampaniya üçün əhəmiyyətli olacaq informasiyaya malik olduğunu söyləyib. O deyib ki, guya Rusiyaya bağlı şəxslər Demokratik Partiyanın Milli Komitəsini və Hillari Klintonu dəstəkləyirlər. Oğul Trampın dediyinə görə, söhbət əsnasında tezliklə aydın olub ki, vəkilin informasiyası yayğındır və heç bir sübuta söykənmir.




Cənab Varner deyib ki, rusiyalı vəkillə söhbət Tramp administrasiyasının "yaddaşsızlıq" vərdişinin daha bir epizodudur. Başqa sözlərlə Tramp administrasiyası və kampaniyasının rəsmiləri ruslarla görüşlərini nədənsə bir qayda olaraq "unutmuş" olurlar. Senator deyib ki, indiyədək Tramp kampaniyasının ruslarla əlaqələrinə dair çox sayda iddialar olub, lakin prezident və onun yaxın çevrəsi bütün bu iddiaları rədd ediblər.

BBC xəbər verir ki, "The İndependent" hüquq ekspertinə istinadən yazır ki, ola bilsin, oğul Tramp öz bəyanatı ilə cinayət törətdiyini təsdiq edib. MSNBC şəbəkəsindən təhlükəsizlik təhlilçisi və Ədliyyə Nazirliyinin keçmiş sözçüsü Metyu Miller deyib ki, prezidentin oğlu xarici vətəndaşdan dəyəri olan nəsə almaq istədiyini və buna çalışdığını etiraf etməklə qanunu pozduğunu da etiraf edir. Ekspert deyib ki, ABŞ qanunlarına görə, bu "qiymətli nəsənin" pul olması vacib deyil, bu bir informasiya da ola bilər.

"Krokus" qrupunun sahibi, milyarder Araz Ağalarov ABŞ prezidenti Donald Trampın oğlu tərəfindən dərc edilmiş və Hillari Klinton əleyhinə kompromatla əlaqədər onun oğlu Emin Ağalarovun adıçəkilən məktubu "uydurma" adlandırıb.

**Virtualaz.org bildirir ki, BFM-ə müsahibəsində A.Ağalarov deyib:** "Mən düşünürəm, bu hansısa bir uydurmadır. Amma onu kim uydurur, bilmirəm. Hillari Klintonun bura nə dəxli var? Mən bilmirəm..."

"Trampın oğlu ilə tanışsınızmı" sualına Araz Ağalarov "yox" cavabı verib.

"Onunla Emin tanışdır, mən tanış deyiləm. Amma biz beynəlxalq gözəllik yarışması keçirdik və orada müəyyən əlaqələr oldu. Onlar təxminən eyni yaşdadır, haradan bilim ki, hansı formada ünsiyyət saxlayırdılar. Bəli, ünsiyyət saxlayırdılar, ancaq necə, nədən danışırdılar, bilmirəm", - deyə A.Ağalarov bildirib və əlavə edib ki, Trampın oğlu bir müddət Eminlə menecer kimi işləyib və yəqin, yaxud ehtimal ki, Amerikada nəsə müəyyən işlər görüb.

"Ümumiyyətlə, o işləyirdi. Onlar ünsiyyət saxlayırdılar", - deyə milyarder bir daha vurğulayıb.

❑ **Sevinc TELMANQIZI**

# ABŞ həm "qaçan"ın, həm də "qovan"ın yanındadır

## Vaşinqton və Doha arasında son anlaşma ərəb ölkələrini məmnun etmir

**Qətər ətrafında gərginliyin davam etdiyi bir vaxtda Türkiyə ordusu bu ölkədəki hərbi bazasına növbəti dəfə hərbçi göndərib. Ötən gün "Birinci ordu"ya məxsus 45 xüsusi təyinatlı hərbçi Qətər gəlib və bununla da Qətərdəki Türkiyə hərbçilərinin sayı 150 nəfərdən çox olub. İyulun 16-19-da isə Qətərə daha 25 nəfərdən ibarət artilleriya heyəti gedəcək. Bundan sonra isə iki ölkənin birgə hərbi təlimləri başlayacaq.**

Xatırladaq ki, 2014-cü ilin sonunda imzalanmış Qətər-Türkiyə anlaşması bu ilin iyun ayında Türkiyə parlamenti tərəfindən təsdiqlənib və bundan sonra Türkiyə hərbçilərinin Qətərə göndərilməsi başlayıb. Bütün bunlar Qətər ətrafında böhranın başladığı günlərlə eyni vaxta təsadüf edib. İyunun əvvəlində 4 ərəb ölkəsi - Səudiyyə Ərəbistanı, Misir, Bəhreyn və BƏƏ Qətəri terrorizmi maliyyələşdirməkdə ittiham edərək Doha ilə diplomatik əlaqələri dayandırıb. Bundan sonra Qətərə yerinə yetirməsi üçün 13 təklif göndərilib, ancaq rəsmi Doha tələbləri qəbul etməyib.

İki gün əvvəl isə ABŞ dövlət katibi Reks Tillerson Dohaya səfər edib. Səfər çərçivəsində ABŞ və Qətər hökumətləri arasında "terrorla mübarizə və terrorun maliyyələşdirilməsinin qarşısının alınması" haqqında anlaşma imzalanıb. Anlaşma nəticəsində iki ölkə Qətərin terrorla mübarizəsinə dəstək verilməsi və terrora maliyyə dəstəyi verilməsi ilə bağlı problemləri aradan qaldırmaq üçün birgə hərəkət edəcəklər.

Qeyd edək ki, 4 ərəb ölkəsinin Qətərə qarşı əsas ittihamları məhz terroru maliyyələşdirməklə bağlıdır. Adları yuxarıda qeyd olunan ərəb ölkələri isə ABŞ və Qətər arasında imzalanmış anlaşmanın "yetərli olmadığı" ilə bağlı birgə açıqlama yayıb. Bu səbəbdən də Qətərə qarşı embarqo davam edəcək. Ancaq eyni zamanda ərəb dövlətləri ABŞ-ın Qətər böhranını aradan qaldırmaqla bağlı addımlarını təqdir ediblər. Qətər hökuməti isə anlaşmanın Qətər böhranı ilə bağlı olmadığını bildirib.

Yeri gəlmişkən, bu gün Qətərə embarqo tətbiq edən 4 ərəb ölkəsi - Səudiyyə Ərəbistanı, BƏƏ, Misir və Bəhreyn xarici işlər nazirləri Səudiyyə Ərəbistanının Ciddə şəhərində bir araya gələcək. Məsələ ondadır ki, Qətər böhranı əslində ABŞ-ın, daha dəqiqi, prezident Donald Trampın xeyir-duası ilə başlayıb. Mayın 21-də Səudiyyə Ərəbistanına səfər edən ABŞ prezidenti müsəlman ölkələri ilə toplantıdan bir neçə gün sonra 4 ərəb ölkəsi Qətərə qarşı məlum bəyanatla çıxış ediblər. Daha sonra ABŞ prezidenti özü də Qətəri ittiham edən açıqlama verdi.

Bununla da məlum oldu ki, ABŞ prezidenti əslində bu prosesin içərisindədir. Lakin eyni zamanda prezidentdən fərqli olaraq Dövlət Departamenti daha yumşaq bəyanat verdi. ABŞ Müdafiə Nazirliyi (Pentaqon) isə ümumiyyətlə, Qətəri müdafiə etdi. Məlum olduğu kimi, hazırda ABŞ-ın körfəz regionunda ən böyük hərbi hava bazalarından biri Qətərdə yerləşir. 13 min hərbçinin olduğu baza İraq və Suriyada İŞİD-ə qarşı mübarizənin əsas mərkəzi hesab olunur. Pentaqon bəyan etdi ki, bazanın bağlanması İŞİD-ə qarşı əməliyyatlara mənfi təsir edə bilər.

Bu prosesdə Qətər rəhbərliyi Vaşinqtonda ciddi diplomatik fəaliyyət yürütdü, ABŞ-dan 12 milyardlıq silah alınması haqda müqavilə imzaladı. Bununla da Doha müəyyən qədər Vaşinqtonu neytrallaşdırmağa nail oldu. İndi isə Amerika Qətərlə anlaşma imzalamaqla yaranmış gərginliyi yumşaltmağa çalışır. Görünür, Tillersonun Doha səfəri zamanı bu mövzu müzakirə olunub və Vaşinqton Qətərdən müəyyən vədlər alıb. Bu anlaşma Dohanı Vaşinqton təhlükəsindən sığortalayır.

Məsələ ondadır ki, ABŞ hökuməti bu böhranın daha da dərinləşməsində maraqlı deyil. Aydın məsələdir ki, Qətər "ərəb baharı" prosesində bir sıra ölkələrdə, o cümlədən Liviya, Misir, Suriya kimi ölkələrdə silahlı üsyançı qrupları maliyyələşdirib və indi də maliyyələşdirməkdə davam edir. Eyni zamanda körfəzdə bir sıra ərəb ölkələrinin hakim ailələrinin gizli şəkildə İŞİD-i maliyyələşdirdiyi də məlumdur. Ancaq Qətər hökumətinin silahlı qrupları dəstəkləməsi tamamilə açıq olub. Son illərdə Qətərin digər ərəb ölkələri ilə ideoloji-siyasi fikir ayrılığı dərinləşib və apardığı müstəqil siyasət körfəz ölkələrini qıcıqlandırıb. Bu səbəbdən, ona qarşı kəskin mövqe ortaya qoydular. Vaşinqtonla sözügedən anlaşma Qətəri xarici müdaxilə təhdidindən sığortalayır və yaranmış böhranın aradan qaldırılması prosesini sürətləndirəcək. Bu anlaşma Dohanı müəyyən qədər Vaşinqtonun təsiri altına alır. Anlaşma çərçivəsində Doha Vaşinqtonla məlumat mübadiləsi aparacaq və fəaliyyətlərini ABŞ-la koordinasiya edəcək. Bu vəziyyət Vaşinqtonu məmnun etsə də, körfəz ölkələrini razı salmır, çünki faktiki olaraq Qətər heç bir tələbi yerinə yetirmədi.

Eyni zamanda Türkiyə ilk gündən olduğu kimi, Dohanı dəstəkləməkdə davam edir. Artıq Ankara Dohaya hava koridoru da açıb. Üstəlik, ora əsgər göndərməklə Qətərin təhlükəsizliyini faktiki olaraq təminat altına alıb. Bu hadisə bir tərəfdən Türkiyəyə Qətər kimi bir müttəfiq qazandırmaqla yanaşı, ən azından 4 düşmən ölkə qazandırıb. Bu isə Yaxın Şərqə acılmı siyasi hədəf elan edən Ankara üçün ciddi riskdir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Vətəndaşları dəlixanaya salıb mənzillərini ələ keçiriblər - şok məhkəmə işi

## İşdən qovulan başçının adı vətəndaşların mülklərinin ələ keçirilməsinə qarışıb

**Bakı Apelyasiya Məhkəməsində hakim Xuraman Məhərrəmovanın sədrliyi ilə Yasamal rayonunda böyük mənzil fırıldaqlarının açılmasında açar rolunu oynaya biləcək şikayət araşdırılır.**



Məsələnin mahiyyəti budur ki, Ədliyyə Nazirliyinin sabiq işçisi Arzu Səfərov 2009-cu ildə 83 min dollar ödəməklə Yasamal rayonu, Yeni Yasamal-1 küçəsi, ev 13 ünvanlı binanın 10 saylı mənzilini alıb. Mənzili satan isə Həsən Novruzov olub. A.Səfərov mənzildə 5 il yaşayıb və günlərin birində Yasamal Rayon Məhkəməsindən ünvanına qətnamə gəlib. Həmin qətnamədən belə aydın olub ki, A.Səfərova satılan mənzil Şirzad Qəhrəmanov soyadlı vətəndaşa məxsusdur. Həmin mənzildə vaxtilə bir qaçqın ailəsi məskunlaşıb. Qaçqın ailəsini isə mənzildən Yasamal rayon 22 saylı Mənzil İstismar Sahəsinin rəisi Saqib Məmmədov çıxarıb və mənzili sahibinə - Şirzad Qəhrəmanova qaytarmaq əvəzinə öz kürəkəni Həsən Novruzovun adına məhkəmə yolu ilə sənədləşdirib. 2009-cu ildə isə mənzili kürəkəni Həsən Novruzovun adından Arzu Səfərova 83 min dollara satıb. Ş.Qəhrəmanov qaçqının mənzildən çıxarıldığını və mənzilin digər bir şəxsin adına keçirildiyini öyrəndikdən sonra məhkəməyə müraciət edərək əmlakının ona qaytarılması iddiası ilə çıxış edib. Məhkəmə iddianı təmin edib və A.Səfərovun ailəsi ilə birgə mənzildən çıxarılmağını, bununla bərabər vicdanlı alıcı kimi ona mənzili alarkən ödədiyi 83 min dolların qaytarılmasını qət edib. Bundan başqa, mənzil Həsən Novruzovun adına sənədləşdirilərkən yol verilən sənədlərin saxtalaşdırılması faktlarının araşdırılması üçün xüsusi qərardad çıxarılıb. Bu məhkəmə çəkişməsi bir müddət əvvəl işdən qovulan Yasamalın icra başçısı İbrahim Mehdiyevin rayon ərazisində baş verən mənzil fırıldaqlarına, vətəndaşların mənzillərinin ələ keçirilməsi faktlarına göz yumması da ortaya çıxarıb.

**A.Səfərov "Yeni Müsavat"a deyib ki, məhkəmələrin gedişi zamanı öyrənib ki, Saqib Məmmədov-İbrahim Mehdiyev tandeminin əməllərindən zərərçəkən təkcə o deyil. Belə ki, Yasamal ərazisində belə faktlar çox imiş!**

**Onun sözlərinə görə, iş üzrə məhkəmə çəkişmələri 3 ildən artıqdır ki, davam edir. Məhkəmələrə tərəf kimi Həsən Novruzov dəfələrlə rəsmi çağırışla dəvət olunub. H.Novruzov məhkəmə proseslərinə qatılmayıb. Bir müddət əvvəl isə H.Novruzov Ali Məhkəməyə şikayət edərək mənzilin dəyərini mübahisələndirib və işin Bakı Apelyasiya Məhkəməsinə qaytarılmasına nail olub. H.Novruzov deyir ki, mənzili 83 min dollara deyil, guya 32 min 120 manata satıb:** "2014-cü ildə məhkəmədən qətnamə alandan sonra mən vəkilimlə birgə H.Novruzovun qayınatası Saqib Məmmədov və mənzilin alqı-satqısında iştirak edən maklerlə söhbətə getmişdim. Anlayırdım ki, Saqib Məmmədov məhkəmələrə yaxın gəlməyəcək, özünün dediyinə görə heç Həsəni də göndərməyəcək. Ondan sonra qərara gəldim ki, vəkilimin iştirakı ilə onu danışdırım. Ehtiyat edirdim ki, evin alqı-satqısı zamanı aldığı pulun məbləğini dansın. Həmin söhbət zamanı o hər şeyi necə etdiyini danışdı və heç bir məhkəmə prosesinə gəlmədi. Heç bir sənəd təqdim etmədi. 2014-cü il avqustun 1-də baş tutan söhbəti də diktofona yazmışdım. Söhbətin stenoqramını da çıxarmışam. Saqib Məmmədov deyir ki, mənzilin alqı-satqısında iştirak edən maklerlər ona 75 min 500 pul veriblər".

**A.Səfərovun sözlərinə görə, S.Məmmədovun kürəkəni H.Novruzovun şikayəti əsasında Bakı Apelyasiya Məhkəməsində iyulun 6-da məhkəməyə hazırlıq iclası keçirilib. Həmin iclasa əvvəllər tanımadıqları 2 qadın da qatılıb:** "Proses yekunlaşdı, qadınlar mənə, vəkilimə yaxınlaşdılar. Aydın oldu ki, həmin qadınlar da Saqib Məmmədov, İbrahim Mehdiyevin yol verdikləri saxtakarlıqlara görə 5 ildən artıqdır ki, məhkəmələrdədir. Həmin qadınlar - Afət Cabbarova və Zümrüd Mehdiyevadır. Qadınlar vaxtilə Yasamal rayonu, Xaqan Dadaşov küçəsində qonşu olublar. Z.Mehdiyeva X.Dadaşov küçəsi ev 8 ünvanında, Afət Cabbarova isə X.Dadaşov küçəsi ev 8 a ünvanında yaşayıblar".







**Şok ittiham:** "Mənzili ələ keçirilənlərdən biri də tatar millətindən olan yaşlı qadındır. Həmin qadının sonradan psixi xəstələr üçün nəzərdə tutulan xəstəxanaya yerləşdirilməsi haqda da məlumat olub"

**Redakisyamıza təşrif buyuran qadınlar bildiriblər ki, S.Məmmədovun qanunsuzluqlarından şikayət etmədikləri yer qalmayıb.**

"Mən gəlin gətirəndən sonra "JEK"ə getdim, gəlini qeydiyyata saldırmaq istəyirdim. Mənə bir arayış verdilər, baxdım ki, qonşunun evində yaşayan Etibar Məmmədovu bizim ünvana - X.Dadaşov küçəsi 8 a ünvanına qeydiyyata salıblar. Buna sərt reaksiya verdim, Saqib Məmmədov verdikləri arayışı əlimdən zorla almaq istədi. Arayışın balaca bir hissəsi cırılsa da, əlimdən ala bilmədi. Məhkəməyə verdim, icra başçısı İbrahim Mehdiyevin qəbuluna getdim. Ona sual etdim ki, 2 eyni nömrəli ünvan ola bilər. Gülüb məni ələ saldı. Başçının qəbuluna ona görə getmişdim ki, mən məhkəməyə müraciət edəndə cavabdeh kimi Yasamal Rayon İcra Hakimiyyəti iddiamın təmin olunmamasını istəmişdi. İbrahim Mehdiyev etiraz yazmışdı ki, iddiam təmin olunmasın. Mən iddiamla tələb edirdim ki, Etibar Məmmədov bizim ünvandan qeydiyyatdan çıxarılsın. İbrahim Mehdiyevə Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin verdiyi ünvan arayışımı göstərib ondan məhkəməyə yazdığı etirazı əsaslandırmasını tələb etdim. Gördü ki, saxtakarlıqlarının üstü açılır, dedi ki, mən sənə kömək etməyəcəyəm. Həmin arayışı alana qədər İbrahim Mehdiyevin məhkəməyə göndərdiyi hüquqşünas üzümüzə direşirdi ki, guya biz X.Dadaşov küçəsi 8 ünvanında yaşayırıq. Arayışda isə əsl həqiqət yazılmışdı, biz X.Dadaşov 8 a ünvanında yaşayırıq" - deyə Afət Cabbarova bildirib.

**Z.Mehdiyeva bildirib ki, Saqib Məmmədovla İbrahim Mehdiyev ünvanları səhv göstərməklə faktiki olaraq onun 354 kvadrat metrlik evinin dələduzluqla ələ keçirilməsinə "qanuni don" geydirməyə nail olmaq istəyiblər:** "Bu gün mənim Yasamal rayonu, X.Dadaşov 8 ünvanında yerləşən 2 mərtəbəli evimdə Etibar Məmmədov yaşayır. O, 22 saylı "JEK"in rəisi Saqib Məmmədovun əli ilə mənim evimi özəlləşdirib. E.Məmmədov, faktiki olaraq, mənim evimdə yaşasa da, rəsmi sənədlərə qonşunun ünvanını özəlləşdirib. 5 ildir ki, Azərbaycan məhkəmələri Saqib Məmmədovla İbrahim Mehdiyevin qurduqları cinayətin sonuna çıxa bilmirlər".

**Z.Mehdiyeva bildirib ki, E.Məmmədov evinə kirəkeş kimi gəlib və sonradan sənədlərin saxtalaşdırılması yolu ilə mülkünü əlindən alıblar:** "1993-də Etibarın bacısı Tirmədən 4 min dollar borc almışdım. 2 il müddətində həmin 4 min dolların 30 faizini hər ay ödəmişəm. Hər ay 1200 dollar ödədim. Sonra inflyasiya oldu, ödəyə bilmədim. Ona görə də təklif etdim ki, evimdə yaşamaq üçün kirəkeş tapsınlar. Kirəkeşdən aldıqları pulu da götürsünlər, pullarını tam alandan sonra evimi boşaltsınlar. Özüm də 2 uşaq və anamla gedib xalamın evinin zirzəmisində yaşamışam. Tirmə də öz qardaşı Etibarı evimə kirəkeş göndərdi. Düşünürdüm ki, pullarını götürəndən sonra evimdən çıxacaqlar. Amma çıxmadılar. Üstəlik, qonşunun mənzilinə də qeydiyyata düşüblər. Bizim şikayətlərimiz əsasında Saqib Məmmədovun əməllərinin araşdırılması üçün məhkəmə xüsusi qərardad çıxararaq Yasamal Rayon Prokurorluğuna göndərib. Lakin prokurorluq deyir ki, Saqib Məmmədov kristal adamdır, onun barəsində cinayət işi başlaya bilmərik. Ona görə də baş prokurordan xahiş edirik ki, Saqib Məmmədovun əməllərinin araşdırılmasını digər prokurorluq orqanına tapşırsın. Mənim Yasamalda olan yeganə mülkümü saxtakarlıqla əlimdən alıblar. Məhkəmələrdə bu saxtakarlıqlar sübut olunur, Yasamal Prokurorluğu isə həmin saxtakarlıqları araşdırmaqdan yayınır".

Qadınlar bildiriblər ki, 22 saylı Mənzil İstismar Sahəsinin sabiq müdiri Saqib Məmmədovun Yasamal rayonu ərazisində tənha, kimsəsiz ahıl yaşda vətəndaşların, qaçqınların məskunlaşdığı mənzilləri ələ keçirməsi haqda məlumatlar eşidiblər. Mənzili ələ keçirilənlərdən biri də tatar millətindən olan yaşlı qadındır. Həmin qadının sonradan psixi xəstələr üçün nəzərdə tutulan xəstəxanaya yerləşdirilməsi haqda da məlumat olub.

**Arzu Səfərovun, Z.Mehdiyeva və A.Cabbarovanın redaksiyamıza təqdim etdikləri sənədlərdən və xətşünaslıq ekspertizası rəylərindən, xüsusi qərardadlardan, stenoqramdan belə aydın olur ki, ortada vətəndaşlara qarşı törədilən cinayətlər haqda çoxsaylı sübutlar var. Vətəndaşların Konstitusiyamızın təməl prinsiplərindən olan mülkiyyət hüquqlarına qəsd açıq-aydın görünür. Bəs niyə bu qədər üzdə olan faktlara hüquqi müstəvidə qiymət verilməyib?**

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

# "Zirə" "Qara şeytanlar"ın caynağında - haydı, "Qəbələ"...

## Bu gün daha iki klubumuz Avroliqada güclü rəqiblərlə qarşılaşır

**Bu gün UEFA Avropa Liqasının II mərhələsində Azərbaycanın "Zirə" klubu səfərdə Rumıniyanın "Astra" komandası ilə qarşılaşacaq. 7 min azarkeş tutan "Marin Anastasoviçi" stadionunda keçiriləcək matç Bakı vaxtilə saat 21:30-da başlayacaq.**






### "Astra" üçün Avroliqaya göydəndüşmə vəsiqə

"Astra" Avroliqaya "təmiz" vəsiqə qazanmayıb. Çünki klub daxili çempionatı 6-cı yerdə başa vurub. Amma 5-ci pillənin sahibi "CFR Cluj" Avrokuboklarda çıxış üçün lisenziya olmadığı üçün "Astra" Avroliqa şansını sınamaq imkanı qazanıb.

"Astra" Rumıniyanın Corcu şəhərini təmsil edir. Klub 1934-cü ildə yaradılıb. Amma 1998-ci ilədək heç bir uğur qazana bilməyib. 1998-ci ildə isə komanda A divizionuna vəsiqə qazana bilib. Klub 2003-cü ildə şəhərin digər komandası "Petrolul"la birləşərək, "Ployeşti" adı altında çıxış etməyə başlayıb. Bir ara 3-cü liqaya kimi geriləyən komanda 2009-cu ildə yenidən yüksək liqaya qayıdıb. Elə həmin ildən "Astra" adını özünə qaytaran klub, 2012-ci ildə Ployeştidən köçərək, Curcuda məskən salıb.

Klub əsas uğurlarını məhz şəhər dəyişikliyindən sonra qazanmağa başlayıb. Belə ki, komanda yeni şəhərə köçdükdən sonra Rumıniya çempionu (2015/16), ölkə çempionatının gümüş mükafatçısı (2013/14), ölkə kubokunun qalibi (2013/14), finalçısı (2016/17) və iki dəfə ölkə superkubokun (2014, 2016) qalibi olub.

"Astra" qara-ağ formada çıxış edir və azarkeşlər klubu "qara şeytanlar" adlandırırlar. 2012-ci ildə "Astra" ilk dəfə Rımıniya kubokunu almağa yaxın olub. Amma yarımfinalda "ÇFR Cluj" a uduzub. 14 komandanın iştirak etdiyi Rımıniya çempionatı iki mərhələdə keçirilir. Birinci mərhələdə 14 klub ev və qonaq meydanda görüş keçirir. 26 tur başa çatdıqdan sonra klublar iki qrupa bölünür. Birinci dövrədə ilk altılığa düşə bilən komanda öz aralarında ilk 6-lığı müəyyənləşdirmək üçün hər klubla yenə iki oyun keçirir. Digər qrupdakı komandalar da öz aralarında 7-ci və sonuncu yerin sahibini müəyyənləşdirirlər. 13-cü və 14-cü yeri tutan klublar ikinci diviziona düşür.

"Astra" UEFA-nın rəsmi saytının məlumatına görə, ən yaxşı klub komandaları sırasında 97-ci yerdə qərarlaşıb.

1996-cı ildən klubun sahibi "İnter Agro Group"un rəhbəri olan Yoan Nikulaedir. 2005-ci ildə "Astra"nın milyarder prezidenti Nikulae Sosial Demokrat Partiyasının seçki kampaniyasına qanunsuz pul ayırmaqda ittiham edilərək 2 il yarım müddətinə həbs edilib.





### "Astra"nın baş məşqçisi həm qorxur, həm də...

İş orasındadır ki, hazırda klubda heyət problemi var. Yay transferi dövründən sonra klubda vəziyyət xeyli qarışıq görünür. "Astra"nın Avropa Liqasındakı əsas silahı Budesku və Alibek komandanı tərk ediblər.






Rumıniya klubunun baş məşqçisi Edvard Yordanesku ölkəsinin mətbuatına açıqlama verərək heyətdəki dəyişikliklərdən narahat olduğunu gizlətməyib.

"Komandada müxtəlif dəyişikliklər oldu. Keyfiyyətli futbolçular transfer etsək də, onlar birlikdə oynamayıblar. "Zirə" ilə ilk görüşün keçirilməsinə isə az vaxt qalıb. Bu amil məni narahat edir. Bəzi mövqelərə futbolçu tapa bilsək, uğur qazana bilərik. Oyunçularımızın çoxu cavandırlar, II və III liqalarda çıxış ediblər. Bizi çətin sınaqlar gözləyir. Rəhbərlik yeni transferlərlə bağlı bəzi vədlər verib. Ümid edirəm ki, tez formalaşacağıq. Tələblərim çox yüksəkdir. Rumıniyanın ən yaxşı komandaları sırasında olmaq istəyirik".

**Yoxlama oyununda adı heç nə deməyən "Snaqov"a 8:0 hesabı ilə qalib gəldikləri oyundan sonra baş məşqçi daha ürəkli danışıb:** "Bizim "Zirə" ilə oyuna hazırlaşmağa az vaxtımız oldu. Şadam ki, vacib oyundan əvvəl yoxlama matçı keçirdik. Komandada çox müsbət məqamlar gördüm".




### Müdafiə xətti güclü görünür: braziliyalı və xorvat...

Qeyd edək ki, "Astra" yay transferində əsas oyunçularından biri yaponiyalı SetoTakayukini itirib. Klub Eriko da Silva və Filip Mrzljakı isə Rumıniya klublarından transfer edib.

Eriko (Erico Constantino Da Silva) braziliyalıdır. 27 yaşlı müdafiəçinin transfer qiyməti 200 min avrodur. Klubun daha bir braziliyalı üzvü Marquinhosdur (Marcus Vinicius Vidal Cunha).

25 yaşlı yarımmüdafiəçi də rəqib üçün təhlükəlidir.

24 yaşlı Mrzljak isə xorvatdır. Komandanın hücum ümidi isə fransız futbolçu Antoni Le Tallakdır. 34 yaşlı hücumçu Yunanıstanın "Atromitos" klubundan transfer olub. Klubda daha bir əcnəbi futbolçu Pyotr Polçakdır. O, "Krakoviya"(Polşa) klubunda oynayıb.

Klubun əsas qapıçısı isə Plamen İvanov Pelevdir. 25 yaşlı bolqarıstanlının transfer qiyməti 500 min avrodur.

"İnter"ə problem yarada biləcək hücumçulardan biri də rumıniyalı, adı da heç də dilə yatmayan Chipirliudir (Remus Bogdan Chipirliu). 24 yaşlı hücumçu bugünkü qarşılaşmada "Zirə"nin müdafiəçilərinə ciddi problemlər yaşada bilər.

"Astra" - "Zirə" oyununu belaruslu referi Sergey Sinkeviçə tapşırılıb. Yan xətt hakimləri - Vitali Malyutin və Yevgeni Romanov olacaq.

### Haydı, "Qəbələ"...

UEFA Avropa Liqasının ikinci təsnifat mərhələsinin ilk oyununu keçirəcək "Qəbələ" də bu gün "Yagelloniya" (Polşa) klubunu qəbul edəcək.

"Bakcell Arena"da keçiriləcək matç saat 21:00-da başlayacaq.

### "Yagelloniya"nın güclü heyəti var

"Yagelloniya" Polşanın Belostok şəhərini təmsil edir. 1920-ci ildə yaradılmış klub ev oyunlarını 22 min azarkeş tutan "Şəhər stadionu"nunda keçirir. Komandanın əsas ümidi hücumçu 26 yaşlı Fyodr Çernıxdır. "Qəbələ" ilə oyunda adı iştirakçılar sırasında olan Çernıx rus kökənli olsa da, Litva millisində oynayır. Daha bir hücumçu Killian Şeridan irlandiyalıdır. 28 yaşlı hücumçu İrlandiya millisində də oynayıb. "Qəbələ" ilə oyunda meydanda görə biləcəyimiz daha bir oyunçu Karol Sviderskidir. Cəmi 20 yaşı olan polşalı hücumçuya da ümidlər çoxdur. Lukas Sekulski də klubun gənc futbolçularından sayılır. Onun da 26 yaşı var.

### Rəqib klubun məşqçisi nəyə arxayındır?

"Qəbələ" böyük büdcəyə və yaxşı oyunçulara sahib klubdur. Onlar yay fasiləsində 9 oyunçu transfer ediblər. Ancaq bu o demək deyil ki, onlar komandanı gücləndiriblər. Çünki yeni futbolçuların yeni kollektivə uyğunlaşmaq üçün zamana ehtiyacları var".

**"Yagelloniya"nın baş məşqçisi İreniuş Mamrot belə deyib. O bildirib ki, "Qəbələ"nin yeni transferlərinin hamısı start heyətində meydana çıxsa, Polşa klubu üçün daha yaxşı olar:** "Çünki çox az müddət bir yerdə olublar və kollektivin formalaşması vaxt tələb edir. Bu da bizə əlavə şans yaradır".

**İ.Mamrot "Qəbələ"ni yaxşı təhlil etdiklərini söyləyib:** "Onlarda çempionat çoxdan bitib. Amma rəqibin Kiyev "Dinamo"su və "Ludoqorets"lə yoxlama oyunlarının videoyazısına baxmışam. Əlbəttə ki, güclü komandadır. Ancaq biz onların zəif cəhətlərindən istifadə etməyə çalışacağıq".

İnanırıq ki, bu gün hər iki klubumuz meydandan azarkeşləri sevindirəcək nəticə ilə ayrılacaq.

**❑ Nazim SABİROĞLU**





YENİ MÜSAVAT

Son səhifə

N 146 (6760) 13 iyul 2017

# Ana südü körpənin həyatını xilas etmir, əksinə...

**Körpələrin minimum 6 aya qədər ana südü ilə qidalanması həkimlərin hər zaman səsləndirdiyi tövsiyələrdəndir. Britaniya və İrlandiya həkimləri kifayət qədər ana südü içməyən körpələrin xəstəlikləri ilə bağlı araşdırma aparıblar. Amma araşdırma zamanı məlum olub ki, ana südü uşaqda ciddi surətdə dehidrasiyaya (susuzluğa) səbəb olur. Hazırda xəstəxanalarda bununla bağlı statistik məlumatlar toplanır. Kəskin hipernatremik susuzluq nadir, lakin ölümcül bir hal kimi xarakterizə olunur. Güman edilir ki, südvermə populyarlaşdıqca, belə halların sayı arta bilər. Lokal tədqiqatlara əsasən, bəzi xəstəxanalara həftədə bir dəfə körpələr dehidrasiyanın mülayim və ya kəskin forması ilə qəbul edilir.**



Lakin bu problemlə ciddi məşğul olmaq üçün tibb icmasına daha çox məlumat lazımdır. Hazırda Britaniya Tibb Departamenti qadınlara ilk 6 ay ərzində körpələri yalnız ana südü ilə qidalandırmağı məsləhət görsə də, problemi hərtərəfli araşdırır.



## İngiltərədə müsəlmanlarla bağlı "ilk"

**Böyük Britaniyada ilk dəfə müsəlmanlar arasında eynicinsli nikah bağlanıb. Bu barədə 11 iyulda "The Daily Telegraph" qəzeti yazıb. Mərasim Uolsoll şəhərindəki nikah idarəsində baş tutub. 24 yaşlı Cahed Çauduri və 19 yaşlı Şon Roqan nikah mərasiminə ənənəvi Banqladeş kostyumlarında gəliblər. "Biz bütün dünyaya göstərəcəyik ki, müsəlmanlar da eynicinsli nikah bağlaya bilərlər" - bunu Çauduri deyib.**

Daha öncə yaxınları tərəfindən Çauduri qeyri-ənənəvi cinsi oriyentasiyasına görə təqib və təzyiqə məruz qalıb. Onu 15 yaşından bəri ziyarət etdiyi məsciddən də qovublar. O, dəyişməyə cəhd edib, dərman qəbul edib və hətta bir qızla görüşməyə başlayıb. Amma bunların heç biri ona yardım etməyib. Kişi məhz buna görə intihara cəhd edib, amma gələcək "həyat yoldaşı" ilə tanışlıq onu bu bəladan xilas edib.

İyun ayında isə məlum oldu ki, Kolumbiyada ilk dəfə üç kişi arasında nikah qeydə alınıb.

# Qənaətcil qadın ictimai ayaqyolunda çimir

**Bu qadının unikal həyatı var. Daha doğrusu, onun özü həyatını belə məcraya salıb. Onu tanıyan-bilənlərin dediklərinə görə, bu qadın dünyanın ən qənaətcil qadınıdır. Həyat şərtlərinin ən bahalı olduğu şəhərlərdən birində - Nyu-Yorkda yaşamasına rəğmən, o, gündəlik xərclərini minimuma endirib. Daha doğrusu, bu qadın, ümumiyyətlə, pul xərcləməməyə çalışır. Zibil yeşiklərində tam xarab olmamış, zayı çıxmamış ərzaq, qida, meyvə və tərəvəz axtarır. O, üç ayda bir dəfə mayka, yarım ildə bir dəfə köynək və ya şalvar alır.**

İxtisasca mühasib olan Key Haşimoto bu minvalla ayda 4 min dollara qənaət edir və o pulları yığır. Nyu-Yorkun Harlem səmtində yaşayan Keyin dediyinə görə, sabaha ümidi olmadığından həyatını planlaşdırmağa çalışır. Həftədə 3 dəfə Vest-Sayda gedərək işsizlər və evsizlər üçün pulsuz paylanan yeməklərlə qidalanan Haşimotonun aylıq büdcəsi belədir: 1. Ərzaq - 15 dollar 2. Paltar - 0 dollar 3. Sabun və diş məcunu - ayda 0,17 dollar 4. Mənzil haqqı - 237 dollar.

Haşimoto bu minvalla ayda 4 min dollara qənaət edir. O, 250 min dollar yığaraq ev almaq istəyir.





## 11 yaşlı qızı sürəti artırdığı üçün saxladılar

**Amerikanın Texas ştatındakı Pasadena şəhərində yerli polis departamentinin əməkdaşları 11 yaşlı qızı avtomobilin sürətini artırdığı üçün saxlayıblar. Bu barədə 12 iyulda "Associated Press" xəbər verib. Adı açıqlanmayan qız deyib ki, anası ona sükan arxasında oturmağa icazə verib - baxmayaraq ki, birinci dəfə o, maşını yanında böyüklər olmadan, 10 yaşlı qardaşı salonda oturarkən idarə edib.**

O, Hyustonda yerləşən evinə doğru gedib. Avtomobil həvəskarı sürət həddi maksimum saatda 56 kilometr olan ərazidə sürəti 79-a qədər artırıb. Məhz bu məqam da yol polislərinin diqqətini cəlb edib. Qızın anası Mariya Dexesus Lopesə iki uşağın həyatını təhlükə altında qoyduğu üçün ittiham irəli sürülüb. Qadını 3 min dollarlıq girov müqabilində evə buraxıblar. Sözügedən iş üzrə məhkəmə baxışı 17 iyula təyin edilib. Bu ilin iyul ayında məlum oldu ki, Çinin Quançjou şəhərində 12 yaşlı oğlan avtobus oğurlayıb. Səfər 40 dəqiqə davam edib. Həmin müddət ərzində yeniyetmə 10 kilometrə qədər məsafə qət edib.




**QOÇ** - Adi günlərdən birini yaşayacaqsınız. Hansısa qeyri-adi yenilik və ya uğursuzluq gözləməyin. Amma belə bir təqvimdə hər şeydən əvvəl istirahətinizi təmin etməlisiniz, uzaq yol getməyin.

**BUĞA** - Hansısa uğursuzluq haqqında düşünməyin. Çünki iştirakçısı olduğunuz bütün situasiyalar xeyrinizə işləyəcək, səmərəli görüşlər, maliyyə uğurları da yolunuzu gözləyir.

**ƏKİZLƏR** - Hər şeydən əvvəl ünsiyyət qurduğunuz şəxslərin etibarını yoxlayın. Çünki ətrafınızda sizi aldadanlar artıb. Ciddi məbləğdə gəliriniz gözlənilməsə də, gün boyu büdcəniz boş qalmayacaq.

**XƏRÇƏNG** - Sakit bir gün yaşayacaqsınız. Ara-sıra fikir və düşüncələrinizdə təlatümlər baş qaldırsa da, bunu kənardan heç kim bilməyəcək. Səhv və günahlarınızı etiraf etməyi bacarın. Burada qəbahət yoxdur.

**ŞİR** - Saat 13-ə qədər əsəblərinizi cilovlaya bilsəniz, heç bir narahatçılığınız olmayacaq. Ulduzlar təcrübəli insanların məsləhətlərindən yararlanmağı tövsiyə edir. Bu gün imkan daxilində uzaq səfərləri təxirə salın.

**QIZ** - Əsas diqqətinizi maliyyə problemlərinin həllinə yönəldin. Çünki indi - himayədarınız olan Saturnun təsir gücünün artdığı bir vaxtda bunu bacarmasanız, qarşıda sizi uzunmüddətli kasıbçılıq gözləyə bilər.

**TƏRƏZİ** - Səhhətinizi qoruya bilsəniz, gün boyu heç bir çətinliklə rastlaşmayacaqsınız. Ailə-sevgi münasibətlərindəki soyuqluğu aradan qaldırın. Təzə əyin-baş almaq üçün çox uğurlu vaxtdır.

**ƏQRƏB** - Gün ərzində bütün diqqətinizi pulla bağlı məsələlərə yönəldin. Əgər reallığa uyğun addım atsanız, səmərəli nəticəni görəcəksiniz. Uzaqda yaşayan qohumlarınızla əlaqələri dərinləşdirin.

**OXATAN** - Bəxtinizə təzadlı bir gün düşüb. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, ayıq-sayıqlığınızı artırmalı, prosesləri dərindən analiz etməli və məqamındaca addım atmalısınız.

**OĞLAQ** - Ümumən gərgin gün olsa da, özünüzü cilovlamalısınız. Hansısa məsələdə tərəddüdünüz varsa, mütləq etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Hirsli başda ağlın olmamasını da unutmayın.

**SUTÖKƏN** - Yalnız saat 12-14 aralığı gərginlik görünür. Həmin vaxt maksimum ehtiyatlı olun. Qalan zamanda isə çox şey ürəyinizcə olacaq. Hətta perspektivli təkliflər alacağınız da qaçılmazdır.

**BALIQLAR** - İlk öncə bildirək ki, hazırda ciddi bir seçim qarşısındasınız. Tərəddüdləriniz çoxdur. Buna baxmayaraq, özünüzü ələ almalı, cəsarət göstərib seçiminizi etməlisiniz. Çətinlik çəksəniz, məsləhətləşmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Eqoistsənsə, xoşbəxtsən...

**Amerikalı alimlər müəyyənləşdiriblər ki, insanlar günahkarlıq hissi keçirmədikləri halda, eqoist olmalarında heç bir problem yoxdur. Çünki bu eqoizm ona xoşbəxtlik gətirir. "Psychological Science" jurnalında yayımlanan araşdırmaya görə, hər nə qədər nəzakət və fədakarlıq insanı böyütsə də, insan ən çox öz mənfəətinin arxasınca gedəndə xoşbəxt olur. Pensilvaniya Universitetinin alimləri bunu bir təcrübə ilə ortaya çıxarıblar. Belə ki, hərəsinə 3 dollar verdikləri 216 tələbəni üç qrupa ayırıblar. İlk qrupa pullarını UNICEF-ə bağışlamaları, ikinci qrupa pulu özlərinə saxlamaları, üçüncü qrupa isə istəyirlərsə, pulu özlərinə saxlamaları, istəməzlərsə bağışlamaları azadlığı tanınıb. Araşdırmanın sonunda məlum olub ki, pulu özünə saxlayan tələbələr digər qrupdakılarla müqayisədə daha çox xoşbəxtdir. Alimlər bildirib ki, bu tələbələr sırf bir qərar vermək məcburiyyətində qalmadıqları üçün xoşbəxtlik hissi keçiriblər.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100